AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
GƏNC ALİM VƏ MÜTƏXƏSSİSLƏR ŞURASI

# GƏNC TƏDQİQATÇI
## Elmi-praktiki jurnal

X

2024
№ 2

Bakı – 2024

**Təsisçi:**

Azərbaycan Milli Elmlər Akademiyası
Gənc Alim və Mütəxəssislər Şurası

**Məsləhət Şurasının sədri:**
AMEA-nın prezidenti, akademik **İsa Həbibbəyli**

**Məsləhət Şurasının üzvləri:**
Akademik **Arif Həşimov –** AMEA-nın birinci vitse prezidenti v.i.e
Akademik **Dilqəm Tağıyev** – AMEA-nın vitse-prezidenti
Akademik **İradə Hüseynova** – AMEA-nın vitse-prezidenti
Akademik **Rasim Əliquliyev** – AMEA-nın vitse-prezidenti
Akademik **İbrahim Quliyev** – AMEA-nın vitse-prezidenti
Akademik **Nərgiz Paşayeva** – AMEA-nın vitse-prezidenti
Akademik **Tofiq Nağıyev** – AMEA-nın vitse-prezidenti
Akademik **Gövhər Baxşəliyeva** – AMEA-nın vitse-prezidenti v.i.e.
Akademik **Cəmil Əliyev –** AMEA Rəyasət Heyətinin üzvü
Akademik **İsmayıl Hacıyev** – AMEA-nın Naxçıvan bölməsinin sədri
Akademik **Fuad Əliyev** – AMEA-nın Gəncə bölməsinin sədri

**Baş redaktor:**
AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri,
Kimya üzrə fəlsəfə doktoru, **Elmir Babayev**

**Redaksiya Şurası:**
Fizika elmləri doktoru **Sakin Cabarov**, texnika elmləri üzrə fəlsəfə doktoru **Hüseyn Hüseynov**, fizika elmləri doktoru **Famin Salmanov**, yer elmləri üzrə fəlsəfə doktoru **Orxan Abbasov**, biologiya üzrə fəlsəfə doktoru **Aydan Zeynalova**, mexanika üzrə fəlsəfə doktoru **Pərviz Müseyibli**, fəlsəfə üzrə fəlsəfə doktoru **Vüsal Zülfüqarov**, kimya üzrə fəlsəfə doktoru **Nərmin Dadaşova**, filologiya üzrə fəlsəfə doktoru **Mehman Həsən**, biologiya üzrə fəlsəfə doktoru **Ulduzə Qurbanova**, filologiya üzrə fəlsəfə doktoru **Səbuhi Qəhrəmanov,** tarix üzrə fəlsəfə doktoru **Taleh Əliyev**, filologiya üzrə fəlsəfə doktoru **Şəfa Əliyeva,** tarix üzrə fəlsəfə doktoru **Elnur Kəlbizadə, Günel Əzimova** *(Məsul katib)*

*AMEA Gənc Alim və Mütəxəssislər Şurasının "Gənc Tədqiqatçı" adlı Elmi-praktiki jurnalı AMEA Rəyasət Heyətinin 12.03.2015 tarixli 8/4 saylı Qərarı ilə nəşr edilir. "Gənc tədqiqatçı" jurnalı Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 31.03.2017-ci il tarixli (Prot. №06-R) iclasının Qərarı ilə pedaqogika elmləri istisna olmaqla, qalan bütün elmlər üzrə Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması üçün tövsiyə edilən dövri elmi nəşrlər siyahısına daxil edilmişdir.*

**Jurnalın redaksiyası:**

Hüseyn Cavid 115, Yasamal, Bakı, Azərbaycan, AZ1143
AMEA-nın əsas binası, III mərtəbə, otaq 324

gencteqdiqatchi@gmail.com

AMEA Gənc Alim və Mütəxəssislər Şurası

gencalimler.az

## MÜNDƏRİCAT

### FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ

**C.M. Tunca.** Fotoqrammetrik şəkilçəkmə sistemləri və aerofotoaparatların daxili orientasiyası, aletin kollibrasiyası və obyektivin distorsiyası ........ 5

### YER ELMLƏRİ

**R.M. Quliyev, M.R. Quliyev.** Azərbaycanda pay torpaqlarının konsolidasiyasına dair yerquruluşu layihələrinin tərtibinin əsasları ........ 12
**A.N. Süleymanova-Rəhmanlı.** Məsafədən zondlama və GİS vasitəsilə qızıl mədənlərinin ətraf mühitə təsirinin kompleks qiymətləndirilməsi və monitorinqi (Kəlbəcər rayonu timsalında) ........ 19
**K.A. Abbasova.** Müasir coğrafi tədqiqat metodları və onların əhəmiyyəti ........ 25

### BİOLOGİYA VƏ TİBB ELMLƏRİ

**M.R. Salmanova, S.Q. Həsənova, R.İ. Həsənova.** Yeni introduksiya olunmuş noxud (*Cicer arietinum L.*) genotiplərinin məhsuldarlıq, biokimyəvi göstəricilərinin tədqiqi ........ 33

### HUMANİTAR ELMLƏR

**Z.M. Qəniyeva.** XIX əsr Azərbaycan qadınlarının təhsil və maarifin inkişafında rolu ........ 41
**K.A. Məmmədova.** Subyektiv modallıq: Nidaların subyektiv modallığın yaranmasında rolu ........ 47
**K.K. Mustafayeva.** Azərbaycan karikatura sənətinin inkişafında Azərbaycan karikaturaçı rəssamlar birliyinin rolu ........ 54
**A.Ə. Bayramova.** Nizami muzeyində eksponatların yeri və əhəmiyyəti ........ 64

### İCTİMAİ ELMLƏR

**V.R. Zülfüqarov.** Biliklərin sintezi: Mürəkkəblik paradiqması kontekstində ........ 72
**C.P. Məmmədov.** Film sənayesi iqtisadiyyatın subsektoru kimi və Azərbaycanda inkişaf səviyyəsi ........ 80
**T.B. Əsədova.** Süni şüur: formalaşmasının fəlsəfi-elmi özəllikləri ........ 87
**H.F. Davudov.** Bizneslərdə rəqabətqabiliyyətlilik və ona təsir edən amillərin tədqiqi ........ 95
**İ.S. Əlibəyli.** Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafında klasterlərin rolu ........ 103
**A.S. Mütəllimzadə: S**osial mediada “Mən Obrazı” və özünüqiymətləndirmənin təhlili (“Virtual Mən” obrazı) ........ 110

# FİZİKA-RİYAZİYYAT VƏ TEXNİKA ELMLƏRİ

**UOT: 629.7.04**
https://doi.org/10.59849/2409-4838.2024.2.5

# FOTOQRAMMETRİK ŞƏKİLÇƏKMƏ SİSTEMLƏRİ VƏ AEROFOTOAPARATLARIN DAXİLİ ORİENTASİYASI, ALETİN KOLLİBRASİYASI VƏ OBYEKTİVİN DİSTORSİYASI

**Cəvahir Musa qızı Tunca**
Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan
*cevahir.oa@gmail.com

*Aero fotoqrammetriya etibarlı, həndəsi cəhətdən dəqiq, yüksək rezolyusiyaya malik coğrafi məlumatların istehsalı üçün əsas texnikadır. Passiv və aktiv rəqəmsal görüntüləmə fotoqrammetrik məlumatların çəkilişində film təsvirlərini sürətlə əvəz etməkdədir. Rəqəmsal fotoqrammetrik havadan görüntüləmə sistemlərinin kalibrləmə prosesləri inkişaf mərhələsindədir. Kalibrləmənin inkişafında əsas problemlər rəqəmsal sistemlərdə geniş dəyişiklik, radiometrik kalibrləmə ehtiyacı və dəqiq sistemin kalibrlənməsinin zəruriliyidir. Test sahəsinin kalibrlənməsi sistemin kalibrlənməsini təyin etmək üçün potensial yanaşmadır. Bu tədqiqatın fərziyyəsi ondan ibarətdir ki, sınaq sahəsində sistemin kalibrlənməsi rəqəmsal fotoqrammetrik aeroçəkiliş sistemləri üçün zəruridir və kalibrləmə həndəsi, məkan ayırdetmə və radiometriyanı əhatə etməlidir. Eyni zamanda məqalədə aerofotoaparatlar haqqında və onların iç quruluşu haqqında geniş məlumat verilib. AFA-nın daxili cəhətlənməsinin təsviri verilib. Burada həm də obyektivin quruluşu, diafraqmanın yerləşməsi də göstərilir. Distorsiyanın yaranma səbəbləri və bu səbəblərin bilinməsi sayəsində distorsiyanın minimuma endirilməsi və AFA-nın kalibrlənməsi üçün gərək olan şərtlər göstərilmişdir. Bu məqalədə eyni zamanda assimmetrik, simmetrik və radial distorsiya prossesi da qeyd edilmişdir.*

***Açar sözlər:*** *Aerofotoaparatların obyektivi, diafraqmanın yerləşməsi, distorsiyanın aradan qaldırılması.*

## GİRİŞ

Ölçmə şəkilləri Aerofotoaparatlar vasitəsi ilə əldə edilir. Fotonlar ölçmə kamerasının təsvir müstəvisində kimyəvi sensor tərəfindən tutulursa, analoq ölçmə şəkli alınır. Ölçmə AFA-nın təsvir müstəvisindəki fotonlar elektrik sensoru tərəfindən saxlanılırsa, rəqəmsal ölçmə şəklindən bəhs edilir. Tədqiqat şəkli indiyədək dəqiq mərkəzi proyeksiya kimi müəyyən edilmişdir, burada proyeksiya mərkəzi təsvirin əsas nöqtəsindən c - məsafəsindədir. Bu riyaziyyat sayəsində həndəsi modelin parametrləri, yəni c sabiti və təsvirin əsas H nöqtəsinin $\xi_0$, $\eta_0$ təsvir koordinatları daxili oriyentasiya elementləri kimi müəyyən edilir [1]. Bu vəziyyət ideal sayılır və fiziki reallaşmaya tam uyğun gəlmir. Yüksək dəqiqlik tələb edən işlərdə AFA mexanikasının, optikanın və digər xəta mənbələrinin təsirləri nəzərə alınmalıdır.

Eyni zamanda xromatik aberasiya və ya rəng saçaqlığı fotoqrafiyada baş verən ümumi bir problemdir. Burada əsas problem rənglərin yanlış sıralanması, onların obyektin kənarlarında saçaq və ya parıltı kimi görünməsinə səbəb olur. Buna linzanın dizaynı, fokus uzunluğu və diafraqma da daxil olmaqla müxtəlif amillər səbəb ola bilər. Xromatik aberrasiya yüksək kontrastlı yerlərdə daha çox nəzərə çarpır və çəkiliş zamanı problem yarada bilər [8].




**Şəkil 1**. İdeal radial optik proyeksiya [2]

İdeal halda, obyektin $K_1$ tərəfindəki proyeksiya mərkəzi O, $K_2$ təsvir tərəfindəki müvafiq proyeksiya mərkəzi isə $K_2$ = O' olacaqdır. İdeal radial optik proyeksiya şəkil 1-də təsvir edilmişdir. Şəkil 1-ə əsasən AFA sabit c-də təsvir məsafəsi b-yə bərabər olacaqdır. b - təsvir məsafəsidir və g - həmişə obyekt məsafəsidir. Onlar təyyarələrdən ölçülür. AFA-da sıfır kimi ölçülən şəkil müstəvisindəki obyekt həvəskar şəkil çəkən maşınlarda E=(g+e+b) məsafəsini təyin etmək üçün istifadə olunur [2].

## MATERİAL VƏ METODLAR

Fotoqrammetrik optik sistemlər qalın və çox vaxt asimmetrik linzalardır. Proyeksiya xətalarını optik olaraq düzəltmək üçün linzalar müxtəlif növ şüşələrdən ibarət olur. Diafraqma ümumiyyətlə optik sistemin ortasında yerləşmir. Buna görə fiziki proyeksiya mərkəzinin harada olduğu sualı bilinməlidir.




**Şəkil 2.** Tipik təsvir ölçmə obyektivinin en kəsiyi [2]

Obyekt nöqtəsindən gələn və optik sistemdən keçən bütün işıqlar da diafraqma bölməsindən keçməlidir. Obyekt nöqtəsindən qəbul edildiyi kimi, diafraqmanın görünən təsviri bütün obyekt nöqtələrinin təsirli şüalarını təsvirdə məhdudlaşdırır. Diafraqmanın bu görünən görüntüsünə Giriş Nöqtəsi (GN) deyilir (Şəkil 2). Onun orta nöqtəsi obyekt tərəfindəki proyeksiya mərkəzi O dur. Çıxış Nöqtəsi (ÇN) eyni şəkildə linzanın digər tərəfində baş verir [3, 4].

Real fotoqrammetrik optika və əvvəllər qeyd olunan ideal optika bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir.

1. Fotoqrammetriyanın etalon oxu optik ox deyil, bunun əvəzinə giriş nöqtəsinin ortasından keçən və obyekt tərəfindən təsvir müstəvisinə perpendikulyar olan kalibrlənmiş əsas şüa $HS_A$ alınır. Onun fiziki uzadılması $H_A$ nöqtəsində şəkil müstəvisini kəsir ki, bu da avtomatik kollimasiyanın əsas nöqtəsi adlanır.

2. τ - bucaqları qovşaqlarda deyil, *EP* giriş nöqtəsinin ortasında müəyyən edilir. *EP* giriş nöqtəsi adətən $H_1$ əsas müstəvisində olmadığı üçün $\bar{\tau} \neq \tau$ bərabərsizliyi olur

3. AFA-nın strukturundan asılı olaraq, mexaniki şəkildə əldə edilən təsvir məsafəsi - b ən yaxşı təsvir aydınlığının əldə edildiyi optik təsvir məsafəsindən bir qədər kənara çıxır.

4. Şəkil müstəviləri optik oxa tam olaraq perpendikulyar deyil.

Ən əsası, yuxarıda qeyd olunan səbəblərə görə görüntü tərəfindəki $\tau'$ bucağı obyekt tərəfindəki $\tau$ bucağı ilə eyni deyil. Bu səbəbdən, kamera sabiti1 adlanan *c* dəyəri qədər $H_A$ avtokollimasiya əsas nöqtəsindən perpendikulyar məsafədə olan $O'_M$ adlı riyazi proyeksiya mərkəzi müəyyən edilir və τ bucağı mümkün qədər şəkil tərəfində yaxşı reallaşdırılır. Optik təhrif $\Delta\rho$ qalıq xətalardan baş verir.

Nəticə çox vaxt simmetrik olmur. Döngələr iç-içə deyil. Təhrif yamaqlarının asimmetriyası fərdi linzaların mərkəzləşdirmə səhvlərinin nəticəsidir. Avtokollimasiya əsas nöqtədən bir qədər fərqli olan başqa bir nöqtəni etalon kimi seçməklə böyük ölçüdə aradan qaldırıla bilər [4]. Ən yaxşı simmetriyanı verən bu meyar nöqtəsi Hs simmetriyasının əsas nöqtəsi adlanır. $H_A$ avtokollimasiya əsas nöqtəsi ilə Hs simmetriya əsas nöqtəsinin yan-yana qoyulması aşağıdakı praktik nəticələrə malikdir:

1. Təhrif yenidən hesablanmalı və simmetriyanın əsas nöqtəsi Hs ilə əlaqəli olaraq verilməlidir.
2. $H_S$ simmetriya əsas nöqtəsi təhrifin düzəldilməsi üçün etalon kimi istifadə olunur.
3. Riyazi proyeksiya mərkəzi c dəyəri ilə $H_A$ avtokollimasiya nöqtəsinin qarşısında yerləşməlidir; $\xi_0$ və $\eta_0$ mərkəzi proyeksiya tənliklərindəki qiymətlər və $H_A$ avtokollimasiyasının əsas nöqtəsinin koordinatlarıdır.
4. Mərkəzi proyeksiya tənliklərinin və $r_{lk}$ matris elementlərindəki fırlanmalar $HS_A$ oxu ilə əlaqədardır. (Obyekt tərəfində avtokollimasiyanın köməyi ilə həyata keçirilən hissə şəkil müstəvisinə perpendikulyardır - mərkəzi proyeksiyada istədiyiniz kimi.)




**Şəkil 3.** Tipik bir təsvir ölçmə linzasının kəsiyi [2]

AFA sabitinə gətiriləcək Ac korreksiyası orta əyrinin p-oxundan (balanslaşdırılmış radial təhrif) mümkün qədər az kənara çıxmasını təmin etməklə müəyyən edilir (Şəkil 3) [2, 3].

Kamera istehsalçıları bir optik simmetrik distorsiyaya sahib alətlər istehsal etməyə çalışırlar. Distorsiyanın iki əsas növü mövcuddur:

Radial təhrif: Simmetrikdir, ideal görüntü nöqtələri təhrif mərkəzindən radial istiqamətlər boyunca təhrif olunur. Bu, qüsursuz lens formasından qaynaqlanır.

Mərkəzdənqaçma təhrifi: Bu, adətən linzaların düzgün yığılmaması nəticəsində baş verir; ideal təsvir nöqtələri həm radial, həm də tangensial istiqamətdə təhrif olunur [10].

Daha yüksək dəqiqlik tələbləri üçün radial təhrif dörd yarım diaqonalda ayrıca müəyyən edilir, yəni radial asimmetrik distorsiya üçün məlumatlar əldə edilir. Radial distorsiyadan başqa, tangensial distorsiya da var. Bu cür təhrif linzaların mərkəzləşdirmə səhvlərindən qaynaqlanır. Bu həmişə asimmetrik distorsiyadır və radial təhrifdən kiçikdir. Müasir fotoqrammetrik məqsədlərdə radiasiya təhrifi ± 5 μm daxilində qalır. Film əsaslı hava görüntüləmə maşınlarında radial təhrif ±3

μm-dən azdır. Köhnə tip AFA-larla əldə edilən ölçmə şəkillərində 30 μm-ə qədər radiasiya distorsiya baş verə bilər. Ölçmə məqsədləri üçün istifadə ediləcək AFA-lardan ayrı AFA-lar üçün xüsusi olaraq istehsal edilən linzalarda bu dəyər 100 μm-ə çatır [5].

Böyük optik təhriflər, analitik və rəqəmsal fotoqrammetriya baxımından dəqiq məlum olduqda, əhəmiyyətli bir çatışmazlıq təşkil etmir. Təhlükəli olanlar təhrif dəyərlərində aşkar edilə bilməyən dəyişikliklərdir. Bu cür dəyişikliklər qeyri-sabit AFA-larda fərqli fokuslanma, vibrasiya və s. olaraq meydana çıxır.

Ölçmə məqsədləri üçün istifadə edilən AFA, təsvirin əsas nöqtəsinin təyin olunduğu koordinat sisteminə malik olmalıdır. Bu görüntü koordinat sistemi analoq və rəqəmsal AFA-lardan fərqlidir.

Bəzi fotoqrammetrik tədqiqatlarda layihənin icrası zamanı AFA kalibrlənməsinin həyata keçirilməsi gözlənilir. Bu halda, özünü kalibrləmə və ya iş yerində kalibrləmə qeyd olunur. Riyazi olaraq, özünü kalibrləmə test sahəsində kalibrləmə ilə oxşar şəkildə baş verir. Özünü kalibrləmə zamanı kalibrləmə və obyektin yenidən qurulması eyni vaxtda baş verir. Öz-özünə kalibrləmə zamanı yalnız XYZ koordinatları olan nəzarət nöqtələri deyil - test sahəsindəki kalibrləmədə olduğu kimi - həm də bir çox şəkillərdə müəyyən edilmiş yeni (naməlum) nöqtələr iştirak edir [6]. Yaxın məsafələrdə özünü kalibrləmə zamanı süni obyektlərdə ortoqonallıq və müstəvi şərait nəzərə alınır.

Obyektivin distorsiyasının düzəldilməsi laboratoriyada goniometr tərəfindən həyata keçirilir və ya sınaq sahəsində kalibrləmə ilə əldə edilən obyektivin təhrif dəyəri ölçülür; yəni lokallaşdırılmış nöqtələrə düzəliş kimi gətirilməlidir.

Şəkil koordinatları ξ və η hər bir təsvir nöqtəsi üçün hesablama prosesi P' aşağıdakı kimi (Şəkil 4 ) müəyyən edilir. Burada koordinat sistemi müvəqqəti olaraq $H_S$ simmetriyasının əsas nöqtəsində yerləşdiriləcək [2, 7].




**Şəkil 4.** Radial simmetrik təhrifin korreksiyası [1]

Burada radial uzunluğun hesablanması

$$\rho = \sqrt{\xi^2 + \eta^2}$$

düsturu ilə həll edilir [2].

## NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Şəkil 4-də Δρ radial simmetrik təhrif korreksiyasının ξ və η şəkil koordinatları üçün Δξ və Δη korreksiya qiymətlərinə ayrılması aşağıdakı şəkildə aparılır:

$$\Delta\xi = \frac{\xi}{\rho}\Delta\rho \qquad \Delta\eta = \frac{\eta}{\rho}\Delta\rho$$

Rəqəmsal şəkil ölçmə üçün linza təhrifini düzəldərkən, pikselin sonlu genişlənməsinə diqqət yetirilməlidir. $\Delta\xi$ və $\Delta\eta$ düzəliş böyüklükləri, bir qayda olaraq, orijinal pikselin tam qarşılığını vermir. Bu səbəbdən, orijinal təsvir matrisi yeni bir ortoqonal rasterə çevrilməlidir. Hər bir yenidən çəkiliş prosesində az və ya çox məlumat itirildiyi üçün təhrifin korreksiyası üçün bu tip təkrar çəkiliş yerinə, bütün təsvirlə əlaqəli korreksiyalar yığılır və nəhayət, təkrar çəkiliş həyata keçirilir [8, 9].

Sferik və xromatik aberasiya nəticəsində yaranan bulanıqlıq ayırdetmə qabiliyyətinə təsir edən amillərdən biridir. Optik aberasiya və digər çatışmazlıqlar diyaframı daha da daraltmaqla, yəni optik kənar şüalanmanı dayandırmaqla azaldıla bilər, lakin bu halda əyilmə səbəbindən bulanıqlıq da artır.

Optik ayırdetmə qabiliyyəti aşağı kontrastla müqayisədə yüksək obyekt kontrastında iki dəfə yüksək ola bilər. Digər tərəfdən, təsvirin ortasından kənarına doğru hərəkət etdikcə optik ayırdetmə qabiliyyəti pisləşir. Bunun səbəbi təsvirin kənarına doğru kontrastı azaldan işığın azalması və şəklin ortasından təsvirin kənarına qədər artan sferik və xromatik aberasiya nəticəsində yaranan bulanıqlıqdır.

Xromatik aberrasiya, təsvirlər daxilində sərhədlər boyunca arzuolunmaz rəng saçaqları yaradan rəngli optik cihazlarda aberasiya formasıdır. Rəqəmsal kameralar kiçildikcə, şəkil elementlərinin sayı artdıqca, bu çatışmazlıq daha kritik problemə çevrilir [10].

Bunan üçün artıq problemin həlli üçün fərqli həll yolları təklif olunub. Əvvəlcə xromatik aberasiyanı göstərməyən kənarlardakı rəng davranışı təhlil edilir və rəng fərqi siqnalları üçün diapazon məhdudiyyəti təklif edilir. Piksellər əvvəlki şərti pozduqda, onlar xromatik aberasiya nəticəsində yaranan rəng saçaqları kimi qəbul edilir. Xromatik aberrasiyaları aradan qaldırmaq üçün düzəldilmiş piksel dəyərləri yaradılır. Təklif olunan alqoritm təsvirdə həm eninə, həm də uzununa aberasiya düzəldilir və onun effektivliyi nümayiş etdirilir.

## YEKUN NƏTİCƏ

AFA-ların daxili quruluşunun dəqiq bilinməsi çəkiliş zamanı baş verəcək xətaları qabaqcadan bilməyə və xətalara əngəl olmağa imkan verir. Bu sayədə müasir standartlara uyğun gələn fotoçəkiliş məhsulu əldə etmək olur.

Bildiyimiz kimi hər bir ölçmə aləti tez-tez kalibrlənməlidir. Bu proses mütləq şəkildə mütəxəssis tərəfindən həyata keçirilir. Müasir cihazlarda kolibrləmə avtomatik olaraq öz-özünə həyata keçirilir. Bu cür AFA-ların öz-özünə kolibrlənməsi AFA-nın işini sürətləndirir.

Xromatik aberasiyanı azaltmaq üçün post-prosesdə linza korreksiyalarından istifadə edilə bilər, proqram təminatı üçün xromatik aberasiyanı minimuma endirmək üçün xüsusi olaraq hazırlanmış linzaları seçilməlidir.

## ƏDƏBİYYAT


1. Karl, Krauss. Fotoqrammetriya / Krauss, Karl. Nobel Akademik nəşr, – 2007, 1, – 462 s.
2. Orhan Altan, S. Fotoqrammetriya / S.Orhan Altan, G.Külür, H.Toz [et al.] – 2007.
3. Edward M. Mikhail /Modern Photogrammetry. /Wiley India/ 26.03.2001.
4. Paul R. Wolf / Elements of Photogrammetry/ The Ronald Press Company/ 01.01.1994.
5. Wilfried Linder / Digital Photogrammetry/ Springer / 06.20.2016
6. Karl, Kraus. Photogrammetry // Fundamentals and Standard Processes, – 1993.
7. Charles D. Ghilani // Elementery Surveying, – 2017.
8. Woo-Jin, Song. Removing chromatic aberration by digital image processing // Optical Engineering, – 2010.
9. Mainetti, G., Sala, R. The Importance of Camera Calibration and Distortion Correction to Obtain Measurements with Video Surveillance Sustems // Journal of Physics Conference Series, – 2015.
10. Oleksandr, Semeiuta. Analysis of Camera Calibration with Respect to Measurement Accuracy // Procedia CIRP, – 2016, 41, – p. 765-770.

# INTERNAL ORİENTATİON, INSTRUMENT CALİBRATİON AND LENS DİSTORTİON OF PHOTOGRAMMETRİC IMAGİNG SYSTEMS AND AERİAL CAMERAS

**J.M. Tunja**

Aero photogrammetry is a key technique for producing reliable, geometrically accurate, high-resolution geographic data. Passive and active digital imaging is rapidly replacing film imaging in capturing photogrammetric data. Calibration processes of digital photogrammetric aerial imaging systems are under development. The main challenges in the development of calibration are the wide variation in digital systems, the need for radiometric calibration, and the need for accurate system calibration. Test field calibration is a potential approach to determine system calibration. The hypothesis of this study is that field test system calibration is necessary for digital photogrammetric aerial surveying systems and should include calibration geometry, spatial resolution and radiometry. At the same time, the article provided extensive information about aerial cameras and their internal structure. A description of the internal aspect of AFA was given. It also shows the structure of the lens and the location of the diaphragm. The causes of distortion and the conditions necessary for the minimization of the distortion and the calibration of the AFA due to the knowledge of these causes are indicated. This article also mentions asymmetric, symmetric and radial distortion processes.

**Keywords:** *Lens of aerial cameras, placement of diaphragm, elimination of distortion.*

# ВНУТРЕННЯЯ ОРИЕНТАЦИЯ, КАЛИБРОВКА ИНСТРУМЕНТОВ И ИСКАЖЕНИЕ ОБЪЕКТИВА СИСТЕМ ФОТОГРАММЕТРИЧЕСКОЙ ВИЗУАЛИЗАЦИИ И АЭРОФОТОКАМЕР.

**Дж.М. Тунджа**

Аэрофотограмметрия - ключевой метод получения надежных, геометрически точных географических данных высокого разрешения. Пассивное и активное цифровое изображение быстро заменяет пленочное изображение при сборе фотограмметрических данных. Процессы калибровки цифровых фотограмметрических систем аэрофотосъемки находятся в стадии разработки. Основными проблемами при разработке калибровки являются большие различия в цифровых системах, необходимость радиометрической калибровки и необходимость точной калибровки системы. Калибровка в испытательных условиях — это потенциальный подход к определению калибровки системы. Гипотеза данного исследования заключается в том, что калибровка системы полевых испытаний необходима для цифровых фотограмметрических систем аэросъемки и должна включать калибровочную геометрию, пространственное разрешение и радиометрию. В то же время в статье предоставлена обширная информация об аэрофотокамерах и их внутреннем устройстве. Дано описание внутреннего аспекта АФА. Здесь также показано строение хрусталика и расположение диафрагмы. Указаны причины искажений и условия, необходимые для минимизации искажений и калибровки АФА за счет знания этих причин. В этой статье также упоминаются процессы асимметричного, симметричного и радиального искажения.

**Ключевые слова:** *Объектив аэрофотоаппаратов, размещение диафрагмы, устранение дисторсии.*

# YER ELMLƏRİ

**UOT: 913 (479.24)**
https://doi.org/10.59849/2409-4838.2024.2.12

# AZƏRBAYCANDA PAY TORPAQLARININ KONSOLİDASIYASINA DAİR YERQURULUŞU LAYİHƏLƏRİNİN TƏRTİBİNİN ƏSASLARI

**Ramiz Mirmahmud oğlu Quliyev, Mirmahmud Ramiz oğlu Quliyev***
Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
*mirmahmud.guliyev008@gmail.com

*Azərbaycan müstəqillik əldə etdikdən, Ümummilli lider Heydər Əliyev xalqın tələb və təkidi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə referendum yolu ilə yeni konstitusiya qəbul olundu [2]. Bu konstitusiya ilə torpaq üzərində dövlət inhisarçılığına son qoyuldu, o vaxtlar işğal altında olan ərazilərimiz istisna olmaqla, respublikamızda uğurlu torpaq islahatı aparıldı, torpaqlarımız dövlət, bələdiyyə və xüsusi mülkiyyətə verildi.*

*Məqalədə ölkəmizdə müstəqillik illərində formalaşmış çoxmülkiyyətli torpaq münasibətləri araşdırılır, torpaq islahatının aqrar istehsalatın inkişafına müsbət və mənfi təsirləri tədqiq olunur, xüsusi mülkiyyətə verilmiş pay torpaqlarının məkan şəraitləri öyrənilir, pay torpaqlarının konsolidasiyası məqsədləri üçün tərtib olunan yerquruluşu layihələrinin hazırlanmasının sosial-iqtisadi, ekoloji-landşaft, texniki-texnoloji, hüquqi-normativ əsasları verilir.*

***Açar sözlər:*** *Yerquruluşu layihəsi, torpaq islahatı, landşaft, torpaqların konsolidasiyası, formalaşdırma.*

## GİRİŞ

Müstəqilliyin ilk illərində ölkəmizdə torpaq islahatının həyata keçirilməsi üçün normativ hüquqi aktlar qəbul edildi, "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 10 yanvar tarixli 534 nömrəli Fərmanı əsasında torpaqların özəlləşdirilməsinə başlanıldı [1]. *Tarixin qısa zaman kəsiyində yeni müstəqil Azərbaycanda Heydər Əliyev Torpaq Siyasəti formalaşdırıldı və müvəffəqiyyətlə həyata keçirildi* [5].

Torpaq islahatının birinci mərhələsi 1997-1999-cu illəri əhatə edib. İslahat işinin məzmunu həmin dövr üçün ölkədə mövcud olmuş 2032 kolxoz və sovxozun ləğv edilərək, onların əkinəyararlı münbit torpaqlarının əhaliyə paylanılmasından, habelə Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq torpaq üzərində üç mülkiyyət növünün formalaşdırılmasından ibarət olub [5].

Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin çoxşaxəli, davamlı xarici və daxili siyasəti sayəsində ölkəmizdə siyasi sabitlik bərqərar edilmiş, respublikamız güclü iqtisadiyyatı, reallıqları ilə beynəlxalq arenada rəğbət sahibinə çevrilmişdir. Şanlı qələbə nəticəsində işğaldan azad edilmiş torpaqlarda da hazırda islahatla bağlı ciddi işlərə başlanılıb.

## ƏSAS HİSSƏ

Torpaq islahatı ölkə iqtisadiyyatının aqrar bölümünə həm müsbət, həm də mənfi təsirlər göstərib. İslahatın müsbət təsirləri özünü əsasən ölkənin sosial həyatında göstərirdi.

Torpaqların pay şəklində insanlara paylanması nəticəsində torpaq üzərində dövlət inhisarçılığına son qoyuldu, Azərbaycan insanı torpaq istifadəçisindən torpaq mülkiyyətçisinə çevrildi, "hamının olub, heç kimin olmayan torpaq" əsl sahibini tapdı. Torpaq islahatı cəmiyyətimizdə sosial münasibətlərə daha çox müsbət yeniliklər gətirdi. Belə ki, kəndli (fermer), ailə təsərrüfatlarında kollektivlər arasında özünəməxsus şəxsi münasibətlərin formalaşdırılmasına nail olundu. Pay torpaqlarında çalışan insanların əsasən ailə üzvlərindən ibarət olması, təsərrüfat işçilərinin düşüncə, həyat tərzlərindəki oxşarlıq (bir çox hallarda eynilik) kiçik həcmli pay torpaqlarında əmək fəaliyyətinin üstünlüyü kimi qiymətləndirilə bilər. Belə təsərrüfatlarda iş həcmi işçilər arasında çox asan və sərbəst

şəkildə paylanır. Bu tip təsərrüfatlarda əlverişli mənəvi-psixoloji mühit formalaşmış olur, hər bir işçinin şəxsi marağı əksər hallarda bütün kollektivin maraqları ilə üst-üstə düşür. Bu isə insanlar arasında böyük qarşılıqlı inam, etimad yaradır. Bu inam, etimad isə öz növbəsində sərbəst və maneəsiz şəkildə işçilər arasında qarşılıqlı dəstək və əvəzetmə formalaşdırır.

Belə təsərrüfatlarda əsasən müxtəlif nəsillərin nümayəndələri çalışırlar. İş zamanı yaşlı nəslin nümayəndələrinin də (baba və nənənin, ata və ananın) təsərrüfat işlərində iştirakı gənclərin fəaliyyətlərinə müsbət təsir göstərir. İnsanlar arasındakı bu münasibətlər bilik və bacarıqların yaşlı nəsildən gənc nəslə, daha peşəkarlardan aztəcrübəli işçilərə ötürülməsi üçün əlverişli şərait yaradır. Hətta işçilərin az sayına, işin çox olmasına baxmayaraq, insanlar arasındakı isti münasibətlər iş müddətində boşuna vaxt itkilərinin qarşısını alır, bütün işlər vaxtında və yüksək keyfiyyətlə icra olunur. Bu tip təsərrüfatlarda əvvəllər istehsalatdan kənar qalan işçi qüvvələrinin -yaşı imkan verən işsizlərin, əməkqabiliyyətli yaşlı nəslin, çalışmaq gücündə olan fiziki qüsurlu insanların yenidən istehsalata qayıdışına imkan yaranır. Belə kollektivlərdə əmək, torpağa məhəbbət, ümumi işə qayğı nəticəsində əməksevər, yüksək mənəvi keyfiyyətlərə məxsus gənc nəsil yetişir. Əməyin kiçik qruplar şəklində təşkili insanların mənfi mənada bərabərləşdirilməsini aradan qaldırır, işçilərin məsuliyyətini artırır, maddi və əmək ehtiyatlarından səmərəli istifadə üçün maraq və məsuliyyət yaradır. Yeni şəraitdə fərdi peşəkarlıq, sənətkarlıq üçün əlverişli mühit, şərait yaranır. Məhz bu səbəblərdən, respublikamızda son illərdə çiyələkçilik, ipəkçilik, arıçılıq, tərəvəzçilik kimi mexanikləşdirmənin az tətbiq olunduğu sahələr inkişaf etməkdədir. Ailə kollektivlərində iş və məsuliyyət bölgüsünün öz qaydası vardır. Bu qaydaya uyğun iş bölgüsü təsərrüfat üzrə əməyin düzgün təşkilinə, əmək məhsuldarlığının artımına, işçi qüvvəsindən səmərəli istifadəyə zəmin yaradır. Kəndçiyə torpaq üzərində xüsusi mülkiyyət hüququnun verilməsi tarlada lüzumsuz iş günlərinin sayının kəskin azalmasına, hər kvadrat metr sahədən götürülən məhsulun dəyərinin kəskin artımına, inzibati-idarəetmə xərclərinin ailə büdcəsində saxlanmasına, lüzumsuz xərclərin aradan qaldırılmasına səbəb olmuşdur. Büdcəyə belə yanaşma sovet təsərrüfatları üçün xarakterik olan “ştat cədvəlinin şişirdilməsi”, ”icra olunmayan işlərin xərclər cədvəlinə salınması” kimi “işlər”in aradan qaldırılması hesabına mümkün olmuşdur. Bugün ailə təsərrüfatları öz büdcələrini təkcə kənd təsərrüfatı məhsullarının artımı hesabına deyil, həm də “əlavə, köməkçi kənd təsərrüfatı fəaliyyəti” hesabına (toyuq, cücə, kiçikbuynuzlu, iribuynuzlu mal-qara saxlamaq hesabına) artırır. Bəzi insanlar qeyri-mövsümi aylarda yaranan boş vaxtları hesabına, hətta kiçik ticarətlə məşğul ola bilirlər, digər əlçatan xidmət sahələrində çalışırlar. Amma təssüflə qeyd olunmalıdır ki, islahat nəticəsində torpaqların həddindən artıq kiçik ölçülərə bölünməsi nəticəsində tarla yolları, bir sıra digər tikililər altına məhsuldar əkin sahələrinin ayrılması səbəbindən respublika üzrə yüz hektarlarla məhsuldar torpaqlar kənd təsərrüfatı dövriyyəsindən kənarda qaldı, kiçikölçülü sahələrdə müasir texnika və texnologiyanın tətbiqinin mümkünsüzlüyü səbəbindən torpaqbecərmə işlərinin keyfiyyəti azaldı, bu tip sahələrdə kənd təsərrüfatı texnikasının məhsuldarlığı aşağı düşdü, məkan şəraitinin əlverişsizliyi səbəbindən hektarlarla sahə becərmədən kənarda qaldı və s.

Elektron kadastr məlumat bazası əsasında torpaq islahatından sonra formalaşmış əkin sahələrinin məkan şəraitlərinin tədqiqi göstərir ki, torpaq islahatında torpaq sahələrinin formalaşdırılması zamanı ərazinin təşkilinə dair yerquruluşu layihələndirilməsi tələbləri əksər hallarda nəzərə alınmamışdır.

Tərəfimizdən Xaçmaz rayonunun Niyazabad təsərrüfatının timsalında islahatdan əvvəl mövcud olmuş və islahatdan sonra formalaşmış kənd təsərrüfatı müəssisəsinin ərazi üzrə təşkilinin müqayisəli təhlili məqsədi ilə hər iki hal üzrə ekoloji-texniki-iqtisadi qiymətləndirmə aparılmış və qiymətləndirmənin nəticələri təhlil edilmişdir (şəkil 1). Bu məqsədlə:

- torpaq islahatından sonra yeni yaradılmış tarla yolları altına verilmiş əkin sahələri hesabına itirilmiş məhsulun həcmi və itkinin bazar qiyməti hesablanmış və müəyyənləşdirilmişdir ki, keçmiş sovxoz ərazisində yeni yaradılmış tarla yolları altına verilmiş sahə 27,65 ha, itirilmiş məhsul itkisinin bazar qiyməti 47005 manat təşkil etmişdir;

- tarlaların kiçik ölçülü olması səbəbindən dönmə zolaqlarında və becərilməsi (şumlanması, aqrotexniki qulluğu və s.) çətin olan yerlərdə məhsuldarlığın aşağı düşməsi səbəblərindən zərərin həcmi hesablanmışdır. Dönmə zolaqlarının və becərilməsi çətin olan yerlərin sahəsinin 66,75 ha, illik zərərin həcminin 11347,5 man.olduğu müəyyənləşdirilib;
- hesablamalarımız göstərir ki, təsərrüfat üzrə məkan şəraitinin əlverişsizliyi ucbatından becərilməyən 13,3 ha-lıq ərazidə məhsul itkisinin illik dəyəri 22610 man.təşkil edir.

Yuxarıdakı hesablamalarla müəyyənləşdirilmişdir ki, yalnız məkan şəraitinin əlverişsizliyi səbəbindən (dönmə zolaqlarında və becərilməsi çətin olan yerlərdə məhsuldarlığın aşağı düşməsi, təsərrüfat üzrə məkan şəraitinin əlverişsizliyi ucbatından becərilməyən ərazidə məhsul itkisi səbəblərindən), hər il təsərrüfat üzrə orta hesabla pay torpaqlarının bir hektarında (11347, 5+22610):1686,8=20,13 man) 20 man 13 qəpik itki və ziyan olur.




**Şəkil 1.** Xaçmaz rayonunun keçmiş Niyazoba sovxozunun islahata dair torpaq bölgüsü planı
- islahatdan əvvəl mövcud olmuş və islahatdan sonra formalaşmış təsərrüfatlarda təsərrüfat yerlərinin (uqodiyaların) tərkib və nisbətinin dəyişməsi səbəbindən variantlar üzrə ərazilərin ekoloji durumları təhlil edilmişdir.

Hesablamalarla müəyyənləşdirilmişdir ki, islahatla əlaqədar təsərrüfat yerlərinin tərkib və nisbətinin dəyişməsi səbəblərindən əvvəlki halı 0,42 balla ekoloji dayanıqlı sabit ərazi kimi qiymətləndirilən Niyazabad sovxozunun ərazisinin islahatdan sonrakı vəziyyəti ekoloji sabit olmayan ərazi (0,28 bal) kimi qiymətləndirilmişdir. Pay yerlərinin həddindən artıq kiçik ölçüsü yerquruluşu layihələndirilməsi tədbirlərinin həyata keçirilməsi üçün problemlər yaradır. Bu baxımdan pay torpaqlarına münasibətdə yalnız torpaqayırma işləri aparılır ki, bu işlər də alternativsiz əsaslarla, torpağın və təbiətin üzləşə biləcəyi ekoloji fəsadlar nəzərə alınmadan həyata keçirilir. Hazırda ekoloji-landşaft tədbirlərinin layihələndirilməsi lokal və epizodik xarakter alıb. Belə şəraitdə aqrolandşaftların ekosistemində krizis şəraitinin yaranması ehtimalı böyükdür. Aqrolandşaftlar əkinçilik sisteminin aparılması üçün ərazi konstruksiyası kimi özünün dayanıqlığını itirmiş olur. Hazırda müasir dünya ictimaiyyəti tərəfindən ekoloji əsaslı təsərrüfat fəaliyyətinin təşkili məsələsinə qlobal dayanıqlı inkişafın tərkib hissəsi kimi baxılır. Ekoloji əsaslı kənd təsərrüfatı quruculuğu öz növbəsində müasir təbiətdənistifadə konsepsiyasının dəyişdirilməsini, antropogen yönümlü təbiətdən istifadə yanaşmasından təbiətdən istifadədə mühitqoruyucu yanaşmaya keçidi tələb edir. Bu keçid ekoloji əsaslı kənd təsərrüfatının formalaşdırılması fonunda istehsalatın yeni texnoloji siyasətə uyğunlaşdırıması ilə mümkündür. Qabaqcıl dünya ölkələrinin kənd təsərrüfatı sahəsində qazandıqları uğurları ölkəmizdə təkrarlamaq üçün aqrar sahənin elmtutumluğu kəskin artırılmalı, onun texniki və texnoloji təminatı köklü şəkildə yaxşılaşdırılmalıdır. Kiçik konturluluqla xarakterizə olunan sahibkar torpaqlarının səmərəliliyinin artırılması məqsədilə kiçikölçülü onların təmərküzləşməsini təmin edə bilən hüquqi, iqtisadi mexanizmlər hazırlanmalı, istehsalatın ərazicə təşkili sistemi təkmilləşdirilməli, torpaq kon-

solidasiyalarının yerquruluşu layihələri əsasında həyata keçirilməsi zamanın ən vacib çağırışlarından olmalıdır.

Məhkəmə orqanlarının qərarları istisna olmaqla, yalnız hüquqları dövlət reyestrində qeydiyyata alınmış daşınmaz əmlak obyektləri (o cümlədən torpaq sahələri) formalaşdırma obyektləri ola bilərlər. Torpaqların konsolidasiyasını nəzərdə tutan formalaşdırılma işlərinin hüquqi-normativ əsasları aşağıdakı ardıcıllığı nəzərdə tutur:

- torpaqların formalaşdırılmasına dair ərizənin (sifarişin) verilməsi;
- torpaqların formalaşdırılması mümkünlüyünün müəyyənləşdirilməsi ilə bağlı yerquruluşu tədqiqat işlərinin (kameral və çöl) aparılması;
- torpaqların formalaşdırılmasına dair yerquruluşu layihəsinin hazırlanması;
- formalaşdırılan obyekt üçün kadastr planının tərtibi, kadastr planından çıxarışın hazırlanması;
- daşınmaz əmlakın dövlət reyestrində yeni formalaşdırılan obyektin qeydiyyatı.

İşin ilkin mərhələsində sifarişçi ərizə ilə kadastr orqanına müraciət edir. Ərizədə (sifarişdə) ilkin daşınmaz əmlak obyektinin kadastr nömrəsi və hüquq sahibi haqqında məlumatlar göstərilir.

Ərizəyə aşağıdakılar əlavə edilir:

- konsolidasiyası nəzərdə tutulan torpaq sahələrinə dair dövlət reyestrindən çıxarış;
- konsolidasiyası nəzərdə tutulan torpaq sahələrinə dair daşınmaz əmlakın kadastrından çıxarış.

Torpaqların konsolidasiyasının mümkünlüyünün müəyyənləşdirilməsinə dair kameral və çöl tədqiqat işlərinin aparılması mərhələsində yerquruluşu işlərinin aparılması planlaşdırılan ərazilərdəki daşınmaz əmlak obyektləri barədə məlumatlar toplanır, bu obyektlərin hüquqi statusunu təsbit edən sənədlər təhlil edilir. Daşınmaz əmlak üzərində hüquqa dair sənədlərdəki məlumatların yer üzərindəki (naturadakı) və topoqrafik plandakı məlumatlarla müqayisəsi əsasında daşınmaz əmlak obyektinin eyniləşdirilməsi aparılır. Daşınmaz əmlakın eyniləşdirilməsi – kadastr uçotu obyekti haqqında daşınmaz əmlakın kadastrındakı mövcud məlumatların yer üzərindəki (naturadakı) faktiki göstəriciləri ilə müqayisə olunaraq uyğunsuzluğun aradan qaldırılmasıdır. Daşınmaz əmlak obyektinin eyniləşdirilməsinə dair işlər zamanı hər bir obyekt üzərində hüquq sahibi haqqında məlumatlar dəqiqləşdirilir, torpaq sahələrinin sərhədləri yoxlanılır, yerdə əldə edilmiş məlumatlar daşınmaz əmlaka hüququ təsbit edən sənədlərin məlumatları ilə müqayisə edilir. Daşınmaz əmlak obyektinin formalaşdırılması ilə bağlı layihənin hazırlanması prosesində formalaşan obyektin xüsusiyyətləri nəzərə alınır. Daşınmaz əmlak obyektinin formalaşdırılmasına dair layihələrin işlənməsi üçün kadastr orqanı və ya uyğunluğu qiymətləndirilən özəl hüquqi və fiziki şəxslər yerdə müayinə aktı tərtib etməklə obyektin eyniləşdirilməsinə dair işləri yerinə yetirir. Əgər daşınmaz əmlakın kadastr məlumatları ilə yerdə müəyyənləşən məlumatlar üst-üstə düşməzsə, formalaşdırma fəaliyyəti dayandırılır. Daşınmaz əmlak obyektinin formalaşdırılmasının mümkünlüyü dəqiqləşdirildiyi təqdirdə daşınmaz əmlak obyektlərinin formalaşdırılması ilə bağlı sifarişçinin ərizəsi əsasında işlər qanunvericiliklə müəyyən edilmiş tariflər əsasında kadastr orqanı və ya uyğunluğu qiymətləndirilən özəl hüquqi və fiziki şəxslər tərəfindən icra olunur.

## MATERİAL VƏ METODLAR

Elmi məqalənin hazırlanması zamanı İqtisadiyyat Nazirliyinin yanında Əmlak Məsələləri Dövlət Xidmətinin kadastr məlumatlarından, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Statistika Komitəsinin statistik və digər məlumatlarından, xarici ölkələrin və respublikamızın alimlərinin, mütəxəssislərinin tədqiqatlarının nəticələrindən istifadə edilmişdir.

Tədqiqat prosesində təhlillər və müqayisələr məqsədi üçün geoinformasiya, riyasi-statistik müqayisə, kartometrik təhlil metodları tətbiq edilmişdir.

**NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ**

1. Torpaqların pay şəklində insanlara paylanması nəticəsində torpaq üzərində dövlət inhisarçılığına son qoyuldu, Azərbaycan insanı torpaq istifadəçisindən torpaq mülkiyyətçisinə çevrildi, "hamının olub heç kimin olmayan torpaq" əsl sahibini tapdı. Ailə kollektivlərində iş və məsuliyyət bölgüsünün özünəməxsuzluğu təsərrüfat üzrə əməyin düzgün təşkilinə, əmək məhsuldarlığının artımına, işçi qüvvəsindən səmərəli istifadəyə zəmin yaradır .

2. Qeyd olunmalıdır ki, torpaq islahatı ilə əlaqədar yeni formalaşdırılan pay torpaqlarında istehsalatın təşkili məqsədləri ilə əkinin bir qisminin tarla yolları üçün ayrılması, bəzi hallarda özəlləşdirməyə cəlb edilmiş torpaq sahəsinin həcminin artırılması məqsədi ilə kəndətrafı meşə sahələrinin, meşə zolaqlarının ləğvi, kəndətrafı örüş sahələrinin fərdi yaşayış evlərinin tikintisi, bitkiçilik məhsullarının istehsalı üçün nəzərdə tutulması uqodiyaların sahə nisbətlərinə köklü dəyişikliklər gətirmişdir. İslahatdan sonra formalaşmış yeni aqroekosistemlərdə növbəli əkinlərin tətbiqi həyata keçirilmədiyindən aqronomik tədbirlərin nəticəsi olaraq monobitki aqrosenozlar yaradılmış, bitki birliklərinin növ müxtəlifliyi pozulmuşdur. Aqroekosistem qeyri-sabit olmaqla abiotik və biotik ekoloji stresə tab gətirə bilməyən bir hala düşmüşdür.

Hazırda müasir dünya ictimaiyyəti tərəfindən ekoloji əsaslı təsərrüfat fəaliyyətinin təşkili məsələsinə qlobal dayanıqlı inkişafın tərkib hissəsi kimi baxılır. Ekoloji əsaslı kənd təsərrüfatı quruculuğu öz növbəsində müasir təbiətdən istifadə konsepsiyasının dəyişdirilməsini, antropogen yönümlü təbiətdən istifadə yanaşmasından təbiətdən istifadədə mühitqoruyucu yanaşmaya keçidi tələb edir. Bu keçid ekoloji əsaslı kənd təsərrüfatının formalaşdırılması fonunda istehsalatın yeni texnoloji siyasətə uyğunlaşdırıması ilə mümkündür. Qabaqcıl dünya ölkələrinin kənd təsərrüfatı sahəsində qazandıqları uğurları ölkəmizdə təkrarlamaq üçün aqrar sahənin elmtutumluğu kəskin artırılmalı, onun texniki və texnoloji təminatı köklü şəkildə yaxşılaşdırılmalıdır.

3. Torpaqların konsolidasiyası texniki, iqtisadi, ekoloji cəhətdən əsaslandırılmış yerquruluşu layihələri əsasında həyata keçirilməlidir.

Torpaqların konsolidasiyasına dair yerquruluşu layihələrinin tərtibi zamanı aşağıdakı tələblərə riayət edilməlidir:

- formalaşdırma nəticəsində torpaqların təyinatına uyğun fasiləsiz və səmərəli fəaliyyət üçün şərait yaradılmalı, istehsalat prosesi cəmiyyət – təbiət münasibətlərinin tələblərini ödəməlidir;
- formalaşdırılmış ərazi müvafiq mühəndis infrastrukturunun (şose və piyada yollarının, qaz və işıq xətlərinin, su və çirkab su xətlərinin və s.) yaradılması üçün münasib olmalıdır;
- formalaşdırılan torpaq sahəsinin sərhədləri müxtəlif inzibati-ərazi vahidlərinin sərhədləri ilə kəsişdikdə, öz məqsədli və təsərrüfat təyinatına görə ayrı-ayrı hissələrə bölünə bilən olduqda hər bir inzibati ərazi vahidinin sərhədləri daxilində ayrı-ayrı kadastr uçotu obyektləri formalaşdırılmalı, torpaq sahəsi bölünməz olduqda yaranmış uyğunsuzluq yerquruluşu qaydasında aradan qaldırıldıqdan sonra formalaşdırma aparılmalıdır;
- təbiəti mühafizə, sağlamlaşdırma, istirahət (rekreasiya), tarix-mədəniyyət təyinatlı və digər xüsusi rejimli zonalarda daşınmaz əmlak obyektinin formalaşdırılması zamanı formalaşan obyektin parametrləri qanunvericiliklə ərazi üçün müəyyənləşmiş rejimin tələblərinə uyğunlaşdırılmalıdır;
- formalaşdırılan ərazi ekoloji cəhətdən davamlı landşaft quruculuğu üçün əlverişli olmalıdır;
- formalaşdırılan torpaq sahələrinin sərhədləri ərazinin təşkili tələblərinə riayət edilməklə müəyyənləşdirilməlidir;
- formalaşdırılan ərazinin ölçüsü, konfiqurasiyası və tərəflərinin nisbəti kənd təsərrüfatı bitkilərinin becərilməsində tətbiq edilən müasir texnika və texnologiya üçün əlverişli olmalıdır. Torpaqların təmərküzləşməsi texniki, iqtisadi, ekoloji cəhətdən əsaslandırılmış yerquruluşu layihələri əsasında həyata keçirilməlidir. Tarlalar elə layihələndirilməlidir ki, tarlanın eni, uzunluğu, tarlanın tərəflərinin nisbəti kənd təsərrüfatı texnikasından istifadə üçün əlverişli olmalı, ərazi şəraiti texnika-

dan məhsuldar istifadəni təmin etməlidir. Normal landşaft planlaşdırmasında tarlaların becərmə enləri 500-600 m intervalında, becərmə uzunluğu 1200-1500 metr intervalında, tərəflərinin nisbəti 1:2 olmalıdır. Belə ölçü göstəriciləri ona dəlalət edir ki, tarlaların sahə ölçüsü təqribən 60 -90 ha intervalında olmalıdır [3, s. 85; 4, s. 154]. Belə ölçülü tarlalarda texnikanın normal fəaliyyəti üçün əlverişli məkan şəraiti yaranmış olur.

- formalaşdırılan ərazi torpaq münbitliyinə zərər vuran eroziya, səhralaşma, subasma və sair kimi proseslərin təsirini minimuma endirən landşaft xüsusiyyətləri ilə səciyyələnməlidir;
- formalaşdırılan obyekt iqtisadi baxımdan davamlı və səmərəli təsərrüfatçılıq üçün optimal ölçüyə malik olmalıdır;
- formalaşdırma zamanı məkan yerləşməsindəki çatışmazlıqlar aradan qaldırılmalıdır.

**YEKUN NƏTİCƏ**

Kiçik konturluluqla xarakterizə olunan torpaqdanistifadələrin səmərəliliyinin artırılması məqsədilə kiçikölçülü pay torpaqlarının təmərküzləşməsini təmin edə bilən hüquqi, iqtisadi mexanizmlər hazırlanmalı, istehsalatın ərazicə təşkili sistemi təkmilləşdirilməli, landşaft planlaşdırması zamanın ən vacib çağırışlarından olmalıdır.

## ƏDƏBİYYAT

1. https://e-qanun.az/framework/32277.
2. https://e-qanun.az/framework/897.
3. Quliyev, M.R. Böyük Qafqazın şimal-şərq yamacı geokomplekslərində torpaqdan istifadə və ekoloji dayanıqlığın qiymətləndirilməsi (Qudyalçay-Samurçay arası ərazinin timsalında) // – Bakı: Coğrafiya və təbii resurslar, Azərbaycan coğrafiya cəmiyyətinin əsərləri, – 2022, 1 (16), – s. 82-87.
4. Quliyev, R.M. Daşınmaz əmlakın kadastrı (ali təhsil müəssisələrinin tələbələri üçün dərslik və dərs vəsaitləri). / R.M.Quliyev – Bakı: Qanun, – 2021. – 336 s.
5. Məmmədov, Q.Ş. Azərbaycanda torpaq islahatı: hüquqi və ekoloji-elmi məsələlər / Q.Ş.Məmmədov. – Bakı: Elm, – 2002. – 412 s.

## BASICS OF COMPILING LAND MANAGEMENT PROJECTS ON THE CONSOLIDATION OF SHARE LANDS IN AZERBAIJAN

**R.M. Guliyev, M.R. Guliyev**

After Azerbaijan gained independence, after national leader Heydar Aliyev returned to power for the second time at the request and insistence of the people, a new constitution was adopted in our country through a referendum [2]. With this constitution, state monopoly over land was ended, successful land reform was carried out in our republic, with the exception of our territories that were occupied at that time, and our lands were transferred to state, municipal and private ownership.

In the article, the multi-ownership land relations formed in the years of independence in our country are investigated, the positive and negative effects of land reform on the development of agricultural production are studied, the spatial conditions of the share lands given to private ownership are studied, the socio-economic, ecological-landscape, technical aspects of the preparation of land development projects designed for the purpose of consolidation of share lands are studied. - technological, legal-normative foundations are given.

**Keywords**: *land management project, land reform, landscape, land consolidation, formation*

# ОСНОВЫ СОСТАВЛЕНИЯ ЗЕМЛЕУСТРОИТЕЛЬНЫХ ПРОЕКТОВ О КОНСОЛИДАЦИИ ЗЕМЕЛЬНЫХ ДОЛЕЙ В АЗЕРБАЙДЖАНЕ

**Р.М. Гулиев, М.Р. Гулиев**

После обретения Азербайджаном независимости, после того как общенациональный лидер Гейдар Алиев во второй раз вернулся к власти по требованию и настоянию народа, в нашей стране путем референдума была принята новая конституция [2]. Благодаря этой конституции была прекращена государственная монополия на землю, в нашей республике, за исключением оккупированных в то время территорий, была проведена успешная земельная реформа, а наши земли были переданы в государственную, муниципальную и частную собственность.

В статье исследуются сложившиеся в годы независимости в нашей стране многособственные земельные отношения, изучаются положительное и отрицательное влияние земельной реформы на развитие сельскохозяйственного производства, пространственные условия долевых земель, переданных в частную собственность. изучены социально-экономические, эколого-ландшафтные, технические аспекты подготовки проектов освоения земель, предназначенных для консолидации паевых земель. - даны технологические, нормативно-правовые основы.

**Ключевые слова:** *проект землеустройства, земельная реформа, ландшафт,консолидация земель, формирование*

**UOT: 528.8**
https://doi.org/10.59849/2409-4838.2024.2.19

# MƏSAFƏDƏN ZONDLAMA VƏ GİS VASİTƏSİLƏ QIZIL MƏDƏNLƏRİNİN ƏTRAF MÜHİTƏ TƏSİRİNİN KOMPLEKS QİYMƏTLƏNDİRİLMƏSİ VƏ MONİTORİNQİ (KƏLBƏCƏR RAYONU TİMSALINDA)

**Aysel Nurşirəvan qızı Süleymanova-Rəhmanlı**
FHN Akademiyası, Bakı, Azərbaycan
*suli_ay@mail.ru

*İşğal dövrü və aktiv müharibə fazasının təkrarlanması ərazi ekosistemlərini ciddi şəkildə deqradasiyaya məruz qoymuşdur. Məqalə texnogen çirklənməyə məruz qalmış mədən ətrafı ərazilərin təbii şəraitinin problemlə bağlı təhlili məsələsinə həsr edilmişdir. Parametrlərin dəyişmə tendensiyası Coğrafi İnformasiya Sistemi (GİS) mühitinə inteqrasiya edilmiş, monitorinq nəticələri xəritələşdirilmişdir. Seçilmiş tədqiqat ərazisi daxilində peyk sensor məlumatlarından istifadə edərək torpaq-bitki örtüyünün müxtəlif parametrlərində baş vermiş dəyişikliklər məkan və zaman daxilində qiymətləndirilmişdir. Müəyyən edilmişdir ki, təbii bərpa prosesinin gedişatını təmin edən və ekoloji tarazlığı saxlayan ekosistemlərdə ciddi şəkildə deqradasiya baş vermişdir. Deqradasiyanın baş verdiyi mədən ətrafı ərazilər optimal bioiqlim şəraitinə malik ekosistemlərdir. Bu ekosistemlərdə deqradasiyanın baş verməsi və günü-gündən təsir miqyasının artması daha mənfi nəticələrə yol aça bilər.*

***Açar sözlər.*** *NDVI, LST, VHI, SMI, çirklənmə, deqradasiya məsafədən zondlama.*

## GİRİŞ

Müasir dövrdə təbiətdə kimyəvi elementlərin yerləşməsi, səpələnmə vəziyyətinin tədqiq olunması ilə bir çox təbiət elmləri məşğul olsa da, hələ də öyrənilməmiş çoxlu problemlər qalmaqdadır. Bu məsələlərin öyrənilməsi təbiət elmləri üçün olduqca müxtəlif torpaq və landşaft örtüklərində, canlı orqanizmlərdə və Dünya okeanında öyrənilir. Bu elementlərin təbiətdə paylanma qanunauyğunları və müxtəlif təbii sistemlərdə onların tapılma formaları, kristallokimya, fiziki kimya və molekulyar biokimya ilə yanaşı eyni zamanda müasir sintetik coğrafiya elmləri də məşğul olur.

Dağ-mədən sənaye tullantılarının ətraf mühitə təsir arealının müəyyənləşdirilməsi, təbiətin ayrı-ayrı komponentlərində ağır metalların konsentrasiyası, miqrasiyası, bioloji udma intensivliyi və torpağın digər parametrləri ilə qarşılıqlı əlaqəsini öyrənmək məqsədilə bir sıra elmi-tədqiqat işləri aparılmışdır [3, 5, 7].

Fərqli ekoloji şəraitdə ağır metalların (Cd, Cu, Ni, Hg, Pb, Zn, Mo, Cr, Co, Au) müxtəlif torpaq tiplərində profil üzrə miqrasiyasını və qrunt sularına çirkləndirici təsirinin tədqiq edilməsi prioritet istiqamətlərdən biridir [1, 2, 4].

Cənubi Qafqazda mühüm texnogen çirklənmə mənbəyi olan dağ-mədən sənaye tarixi Kiçik Qafqaz regionunda çox qədim tarixə malik olmuş, lakin ən intensiv çirklənmə zaman baxımından son 70-80 illik bir dövrü əhatə edir. Bu cəhətdən çirklənməyə məruz qalmış təbii komponentlərdə dərin tədqiqat işlərinin aparılması elmi-nəzəri baxımdan böyük maraq doğurur.

## MATERİAL VƏ METODLAR

Tədqiqat Kəlbəcər rayonu ərazisində qızıl mədənləri və qızıl təzahürləri arealını (92270,19 ha) əhatə edir. Ərazinin təsviri rəqəmsal hündürlük modeli (DEM) əsasında verilmişdir (Şəkil 1).




**Şəkil 1**. Tədqiqat ərazisinin xəritə-sxemi

Ərazi dəniz səviyyəsindən 1160-3440 m mütləq hündürlüklər arası yerləşir. Struktur-geomorfoloji cəhətdən Şərqi Göyçə silsiləsi və Umudlu çökəkliyindən ibarətdir. Tərtərçayın dar və dərin kanyonvari dərəsi ilə kəskin şəkildə parçalanmışdır. Ərazidə çay şəbəkəsinin sıx olması və relyef amplitudası çirklənmənin arealını genişləndirir. Əsasən Trias və Yura dövrünə aid vulkanogen, vulkanogen-çökmə mənşəli fasiyalar geniş yayılmışdır.

Orta illik temperatur 6,07°C, orta illik yağıntıların miqdarı 782,5 mm-dir. küləyin orta sürəti 3,11 m/san-dir. İqlim məlumatları 1995-2023-ci illərin orta statistik göstəricilərini əhatə edir. Ərazinin başlıca landşaftları dağ-çəmən və çimli dağ-çəmən torpaqları üzərində alp çəmənlikləri, qonur dağ-meşə torpaqları üzərində mülayim-rütubətli dağ-meşə landşaftlarıdır.

Ağır metalların müxtəlif yollarla və müxtəlif şəraitdə şirin su mənbələrinə və torpağa keçməsi onlarda çoxsaylı fiziki, kimyəvi və bioloji dəyişikliklər yaradır. Bu dəyişiklikləri iki kateqoriyaya bölmək olar:

1. Ağır metalların vəziyyət dəyişikliyinin ətraf mühitlə təsir əlaqəsi.
2. Ətraf mühitin dəyişikliyinin ağır metallarla təsir əlaqəsi.

Şirin su mənbələrinin və torpağın keyfiyyət göstəriciləri onun mövcud olduğu təbii şəraitin xüsusiyyətlərindən və ona axıdılan antropogen maddələrin miqdar və tərkib göstəricilərindən asılıdır. Eyni zamanda ağır metalların ətraf mühitə təsirinin bioloji reaksiyası da çox müxtəlifdir. Bu müxtəlifliyin başlıca göstəriciləri, xarakter və dərəcələri dib çöküntülərində, müxtəlif birləşmə formalarında, sularda ağır metalların miqdarından və formasından asılıdır.

Prosesin metodoloji gedişatı özündə fond və ədəbiyyat materialları, peyk şəkillərinin emalı, riyazi-statistik dəqiqləşdirmə işlərini əks etdirir.

## NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Qızıl mədənləri işğal dövründə texniki və ekoloji qaydalara riayət edilmədən ekstensiv üsulla çıxarılmış və ətraf ekosistemlər çirklənmişdir. Zod qızıl mədəni ətrafında dağ-mədən işləri nəticəsində ərazi torpaqları texnogen çirklənməyə məruz qalmışdır (Şəkil 2).

Bununla yanaşı, bir sıra qızıl təzahürlərində (Qazıxanlı, Ağzıbir, Zərqulu, Ağduzdağ, Qalaboynu) geoloji kəşfiyyat işləri yerinə yetirilmiş, lokal şəkildə çirklənmə mənbələri yaranmışdır.

Çirklənmə mənbələri ətrafında peyk təsvirlərindən istifadə edərək (1995-cı il - LANDSAT 4-5 TM C2 L1; 2023-ci il LANDSAT 8-9 OLI/TIRS C2 L1) torpaq-bitki örtüyünün müxtəlif parametrlərində (NDVİ, LST, VHİ, SMİ) baş verən neqativ dəyişikliklərin monitorinqi aparılmışdır. Təsvirin mərkəzi nöqtəsinin koordinatları: 40°20'04,24"N 45°37'57,76"E.



**Şəkil 2**. Zod qızıl mədəni ətrafı texnogen landşaft

Bitki örtüyündə baş verən dəyişikliklərin öyrənilməsi zamanı müxtəlif peyk sensor məlumatlarından istifadə edilmişdir. Alınmış multispektral zolaqlar müxtəlif vegetasiya indeksləri şəklində (NDVİ, SAVİ, ENVİ, NDGİ və s.) tədqiqata cəlb edilir. Başlıca olaraq, Normallaşdırılmış Bitki Vegetasiya İndeksindən (NDVİ) istifadə olunur [6, 9]. NDVİ dəyəri -1 və 1 intervalında dəyişir. 1995-ci ilə nisbətən 2023-cü ildə zəif vegetasiya dərəcəsinə malik bitki örtüyünün sahəsi 3,34 % (3081,82 ha) artmışdır (Şəkil 3).

Ərazidə bitki örtüyünün inkişafı ümumi fonda müsbət istiqamətdə getmişdir. Lakin mədənətrafı sahələrdə bitki örtüyü ciddi şəkildə deqradasiyaya uğramışdır. Çirklənmə mənbəyinə yaxın yerlərdə ətrafa yayılan və tədricən çökən kükürd qazı ağac və kol bitkilərinin optimallığının pozulmasına, nəticədə eroziya prosesinin sürətlənməsinə gətirib çıxarmışdır. Uzun illər davam edən bu proses torpağın morfometrik quruluşunu dəyişir və yarımtip, hətta tip səviyyəsində ona təsir edir. Çirklənmə mənbələrinə yaxın ərazilərdə ağır metalların akkumulyasiyası və konsentrasiyasının yüksək olması iki səbəbdən - ətrafa atılan tullantıların yuyulub aparılması və yaxud birbaşa çay suları ilə axıdılmasından, ikinci, atmosfer vasitəsilə çökdürülməsindən asılıdır. Bunun qarşısını almağın yeganə yolu ətraf mühitə atılan tullantıların minimuma endirilməsidir. Ərazinin relyef şəraitinin mürəkkəbliyi intensiv surətdə istismar edilən dağ-mədən sənaye tullantılarının saxlanılması imkanını məhdudlaşdırdığı üçün uzun illər bu tullantılar çay sularına axıdılaraq ətraf mühiti çirklənməyə məruz qoymuşdur.




Şərti işarələr
- Qızıl yataqları
- Qızıl təzahürləri
- Rayon mərkəzi
- Kənd
- Çay

M: 100000

| Rəng | Kateqoriya | Təsnifat | 1995-ci il | | 2023-cü il | |
|---|---|---|---|---|---|---|
| | | | Sahə, ha | Sahə, % | Sahə, ha | Sahə, % |
| | <0,15 | çox zəif | 982,91 | 1,07 | 4064,73 | 4,41 |
| | 0,15-0,25 | zəif | 3150,18 | 3,41 | 3680,34 | 3,98 |
| | 0,25-0,35 | mülayim | 9599,40 | 10,40 | 5582,58 | 6,05 |
| | >0,35 | yüksək | 78537,70 | 85,12 | 78942,54 | 85,56 |
| **Sahə, ha** | | | **92270,19** | **100** | **92270,19** | **100** |

**Şəkil 3.** NDVİ-yə əsasən bitki örtüyünün vegetasiya dərəcəsinin qiymətləndirilməsi

Torpaq səthinin temperaturu (LST) mədən ətrafı ərazilərdə digər ərazilərə nisbətən işğal dövründə artmışdır (3,42°C). Bu qızılın işğal dövründə texniki və ekoloji qaydalara riayət edilmədən ekstensiv üsulla çıxarılması və tullantıların düzgün idarə olunmaması ilə bağlıdır.

Bitki örtüyünün daha dəqiq qiymətləndirilməsi üçün Vegetasiya Sağlamlıq İndeksindən (VHİ) istifadə edilmişdir. Bu ərazidə yüksək optimallığa malik, ekoloji tarazlığın qorunmasında vacib olan bitki ekosistemlərinin vəziyyətinin tədqiqində müstəsna əhəmiyyətə malikdir [8]. VHİ-nə əsasən bitkilərin ətraf mühitin təsirindən stressə məruz qalma dərəcəsi öyrənilmişdir. Müəyyən edilmişdir ki, yüksək dərəcədə stresə malik bitki ekosistemlərinin sahəsi 1992-ci ilə nisbətən 2023-cü ildə 7,13 % (6579,83 ha) artmışdır. Bu artım dəyişkənliyin aşkarlanması analizinə əsasən xəritələşdirilmiş, transformasiya istiqamətləri müəyyən edilmişdir (Şəkil 4).




**Şəkil 4**. Bitki ekosistemlərinin stressə məruz qalma dərəcəsi
(dəyişikliyin istiqaməti kontekstində)

Torpağın nəmlik indeksi (SMİ) -1 və 1 diapazonunda dəyişir. Beş kateqoriya üzrə qiymətləndirilmə aparılmış, sahələr hesablanmşdır (Cədvəl 1).

**Cədvəl 1.**

Torpağın nəmlik indeksi üzrə sahəsinin dəyişmə tendensiyası

| SMİ | İllər | | Sahə, ha | Sahə, % |
|---|---|---|---|---|
| | 1995 | 2023 | | |
| çox quraq | 521,76 | 2946,70 | -2424,94 | -2,63 |
| quraq | 17885,34 | 44006,65 | -26121,31 | -28,31 |
| mülayim | 59848,88 | 41024,83 | -18824,05 | -20,40 |
| rütubətli | 11240,59 | 2899,22 | -8341,37 | -9,04 |
| çox rütubətli | 2773,62 | 1392,79 | -1380,83 | -1,49 |

Cədvəl 1-dən göründüyü kimi, bütün kateqoriyalar üzrə dəyişmə mənfi istiqamətdə getmişdir. Nəmliyin qiymətləndirilməsi səthi, kökyanı və ana süxur daxil olmaqla yerinə yetirilmişdir. Bu neqativ istiqamətdə transformasiya meşələrin qırılması, tullantıların düzgün nəql edilməməsi, mədən ətrafı ərazilərdə torpağın struktur pozulmaları və su-fiziki xassələrin pisləşməsi, torpaqların ağır metalların tullantıları vasitəsilə çirkləndirilməsi və s. proseslərlə sıx və üzvi surətdə bağlıdır.

Çirkləndiricilərin torpağa ekstremal səviyyədə təsirinin uzun illər davam etməsi torpağın akkumulyativ horizontunda üzvi maddələrin itirilməsinə və torpaqların deqradasiyasına gətirib çıxar-

mışdır. Ağır metalların torpaq ekosisteminə təsiri tək onun konsentrasiyasından yox, həm də torpaq mühitindən, rütubətlənmə şəraitindən və yerləşdiyi landşaftdan asılıdır. Bu neqativ təsirin miqyasını azaltmaq üçün bioloji rekultivasiya, tullantıların düzgün nəql edilməsi, faydalı qazıntılarım intensiv üsulla çıxarılması, antropogen fəaliyyətin minimuma endirilməsi və s. tədbirlər planının yerinə yetirilməsi məqsədəuyğundur.

Tədqiqat nəticələrinin dəqiqləşdirilməsi üçün ərazidə çöl tədqiqatlarının aparılmasına zəruri ehtiyac vardır.

## YEKUN NƏTİCƏ

Tədqiqat ərazisində 1995-ci ildə ərazinin 4 %-i (3690,81 ha) çox şiddətli, 14,3 %-i (13194,64 ha) şiddətli, 25,4 %-i (23436,63 ha) mülayim, 31,8 %-i (29341,92 ha) orta, 24,5 %-i (22606,19 ha) fon, 2022-ci ildə isə 6,1 %-i (5628,48 ha) çox şiddətli, 15,8 %-i (14578,69 ha) şiddətli, 25,5 %-i (23528,90 ha) mülayim, 32,6 %-i (30080,08 ha) orta, 20 %-i (18454,04 ha) fon səviyyədə deqradasiyaya məruz qalmışdır. Lokal şəkildə faydalı qazıntıların istismar edildiyi mədən ərazilərində ekosistemlərin xüsusi mühafizə olunması və müasir texnologiyalardan istifadə etməklə təsirin miqyasını azaltmaq mümkündür.

## ƏDƏBİYYAT

1. Водяницкий, Ю.Н. Формулы оценки суммарного загрязнения почв тяжелыми металлами и металлоидами // Почвоведение, – 2010. №10, – с. 1276-1280.
2. Дубовник, В.Д., Сердюков, С.Ю. Содержание тяжелых металлов в почве промышленного активной зоны г. Курска // Изд-во Юго-западного гос.ун-та, – 2014, 1 (52), – с. 34-40.
3. Глебова, И.В., Гридасов, Д.С., Тутова, О.А. Анализ экологического мониторинга территорий Курской области // Вестник Курской государственной сельскохозяйственной академии, – 2002, 1(1), – с. 74-78.
4. Евдокимова, Г.А., Мозгова, Н.П., Калабин, Г.Н. Содержание и токсичность тяжелых металлов в почвах зоны воздействия воздушных выбросов комбината "Североникель" // Почвоведение, – 2011. №2, – с. 261-268.
5. Неведров, Н.П., Проценко, Е.П., Глебова, И.В. Соотношение содержания валовых и подвижных форм тяжелых металлов в почвах Курска // Почвоведение, – 2018. №1, – с.111-117.
6. Chao, M.A., Guo, Z. Annual integral changes of time serial NDVI in mining subsidence area // Transactions of Nonferrous Metals Society of China, – 2011, 21, – p. 583-588.
7. Onyotin, J., Agyemang, I. Environmental and rural livelihoods implications of small-scale gold mining in Talensi-Nabdam Districts in Northern Ghana // Journal of Geography and Regional Planning, – 2014, 7, – p. 139-160.
8. Pei, F. Monitoring the vegetation activity in China using vegetation health indices / F.Pei, C.Wu, X.Liu [et.al.] // Agricultural and Forest Meteorology, – 2018, 248, – p. 215-227.
9. Wang, W. Monitoring and evaluating restoration vegetation status in mine region using remote sensing data: case study in Inner / W.Wang, R.Liu, P.Zhou [et.al.] // Journal of Remote Sensing, – 2021, 13, – p. 1307-1350.

## COMPLEX ASSESSMENT AND MONITORING OF THE ENVIRONMENTAL IMPACT OF GOLD MINES THROUGH REMOTE SENSING AND GIS (IN REPRESENTATION OF KALBAJAR DISTRICT)

**A.N. Suleymanova-Rahmanli**

Territorial ecosystem was subject to severe degradation in the period of occupation and due to repetition of active war phase. The article is devoted to the analysis of natural conditions of the areas around the mine which is exposed to man-made pollution. The tendency of changing parameters is integrated into the medium of Geographical Information System (GIS), and the monitoring results are mapped. The changes in different parameters of soil-vegetation cover were evaluated spatially and temporally using satellite sensor data within the selected study area. It has been determined that serious degradation has occurred in the ecosystems that ensure the progress of the natural recovery process and maintain the ecological balance. Areas around mines where degradation occurs are ecosystems with optimal bioclimatic conditions. The occurrence of degradation in these ecosystems and the increase in the scale of impact can lead to more negative consequences day by day.

**Keywords**: *NDVI, LST, VHI, SMI, pollution, degradation remote sensing.*

## КОМПЛЕКСНАЯ ОЦЕНКА И МОНИТОРИНГ ВОЗДЕЙСТВИЯ ЗОЛОТЫХ РУДНИКОВ НА ОКРУЖАЮЩУЮ СРЕДУ ПУТЕМ ДИСТАНЦИОННОГО ЗОНДИРОВАНИЯ И ГИС (В ПРЕДСТАВИТЕЛЬСТВЕ КЯЛБАДЖАРСКОГО РАЙОНА)

**А.Н. Сулейманова-Рахманлы**

Период оккупации и повторения активной фазы войны серьёзно деградировали экосистему. Данная статья посвящена анализу проблем природного состояния территории вокруг рудников подверженных техногенному загрязнению. Тенденция изменение параметров интегрировано в среду Географического Информационной Системы (ГИС), результаты мониторинга нанесены на карту. Изменение различных почвенно-растительных параметров оценивались в пространстве и времени с использованием данных спутниковых датчиков на выбранной территории исследования. Установлено, что произошла серьезное деградация экосистем, обеспечивающий ход естественного восстановительного процесса и поддерживающих экологическое равновесия. Деградирующие участки при рудниковой территории представляют собой экосистемы с оптимальными биоклиматическими условиями. Возникновение деградации этих экосистем и увеличение масштаба воздействия с каждым днем могут привести к более негативным последствиям.

**Ключевые слова:** *NDVI, LST, VHI, SMI, дистанционное зондирование загрязнения, деградации.*

**UOT: 913(479.24)**
https://doi.org/10.59849/2409-4838.2024.2.25

# MÜASİR COĞRAFİ TƏDQİQAT METODLARI VƏ ONLARIN ƏHƏMİYYƏTİ

**Könül Akif qızı Abbasova**[1,2]
[1]Bakı Dövlət Universitetinin Qazax filialı, Qazax, Azərbaycan
[2]Akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
*abbas.k@bk.ru

*Coğrafiya elmi digər elm sahələri kimi daim olaraq inkişaf etməkdədir. Bu elm sahəsinin öz tədqiqat obyektini öyrənən zaman müasir dövrün tələblərinə cavab verən metodlardan istifadə edilir. Müasir coğrafi tətqiqat metodları da qısa zamanda dəqiq məlumatlar əldə etməyə imkan verir. Bu metodlar təbii və sosial-iqtisadi proseslərin öytənilməsi, proqnozlaşdırılması və təhlil edilməsi məqsədilə tətbiq edilir.*

*Məqalədə coğrafi tədqiqat metodları, onların müasir dövrdə əhəmiyyəti, coğrafi tədqiqatlar zamanı onların istifadə mexanizmləri ayrı-ayrılıqda təhlil olunmuşdur. Həmçinin coğrafi tədqiqat metodlarının oxşar və fərqli xüsusiyyətləri qruplaşdırılaraq nəticələr çıxarılmışdır.*

*Tədqiqat işində müasir coğrafi tədqiqat metodları ayrı-ayrılıqda təhlil edilmiş, onların özünəməxsus xüsusiyyətləri, müasir dövrdə əhəmiyyəti qeyd edilmişdir. Tədqiqat işi coğrafi tədqiqatlar aparılan zaman, həmçinin ali və orta məktəb müəllimi, magistrant və bakalavr səviyyəsinin tələbələri, eləcə də şagirdlər üçün əhəmiyyətli mənbə ola bilər.*

***Açar sözlər:*** *tədqiqat, metod, modelləşmə, proqnozlaşdırma, coğrafiya, müasir.*

## GİRİŞ

Hər bir elmdə olduğu kimi coğrafiya elmi də hər hansı bir tədqiqat obyektini öyrənən zaman öz tədqiqat metodlarından istifadə edir. Bu tədqiqat metodları zamanla yenilənərək müasir dövrün tələblərinə cavab verəcək müxtəlif qruplarda birləşdirilmişdir. Tədqiq edilmiş obyektdən asılı olaraq müvafiq seçilmiş coğrafi tədqiqat metodu zamana, əmək və maliyyə ehtiyatlarına qənaət etməyə imkan verir. Buna görə coğrafi tədqiqat metodlarını nəinki dərindən mənimsəmək, həmçinin tədqiqat obyektinə uyğun təşkil etmək işi daha keyfiyyətli edən faktorlardan biridir. Müasir coğrafi tədqiqat metodları texnika və texnologiyanın tələblərinə cavab verəcək səviyyədə yenilənməsi tədqiqat işini aktual edən əsas amildir.

Tədqiqatların aparılmasının başlıca səbəbləri cəmiyyətin, düşüncənin və təbiətdə hərəkət qanunlarının aşkar olunması, faktların yığılması, analizi və ümumiləşdirilməsi, əldə olunan məlumatların sistemləşdirilməsi, hadisələrin və proseslərin səbəbinin izahı, hadisə və proseslərin proqnozlaşdırılması, əldə olunan biliklərin praktiki tədqiqinin istiqamətləndirilməsi və digər məqsədlərə xidmət edir. Tədqiqatlar elmi biliklərin əldə olunmasına xidmət edən yaradıcılıq fəaliyyətini əhatə etməklə insan, idarə və təşkilatlar, cihaz və avadanlıqlar, elmi–tədqiqat işləri və s. kimi təşkiledicilərdən ibarətdir. Tədqiqatla məşğul olan insanın əsas məqsədi obyektiv bilikləri əldə etməkdən və onları nəzəri cəhətdən sistemləşdirməkdən ibarətdir. Ümumiyyətlə, elm – insanların mənəvi fəaliyyəti olmaqla, təbiət, cəmiyyət haqqında biliklərin əldə edilməsi, həmçinin real fakt və onlar arasında mövcud olan qarşılıqlı əlaqə əsasında həqiqətlərin öyrənilməsi və yeni qanunauyğunluqların aşkara olunmasından ibarətdir.

Tarixi inkişafın müddətində tədqiqatlar cəmiyyətin istehsal gücünə çevrilərək, texniki proqresin əsas sütununu təşkil etmişdir. Müasir texniki tərəqqi dövründə insanlar öz həyatlarında elmi-tədqiqatların rolunu və dəyərini daha aydın anlamışlar. Çağdaş cəmiyyətdə biliklərin mövcud sahələrində tədqiqat işlərinin aparılmasına, ətraf mühit haqqında daha dərin məlumatların əldə edilməsinə, maddi rifahın yüksəldilməsinə xidmət edən texnologiyaların yaradılmasına daha çox fikir verilir.

**ƏSAS HİSSƏ**

Tarixi faktların üzə çıxması, yeni ərazilərin mənimsənilməsi, xəritələrin təkmilləşdirilməsi, ölkələrarası iqtisadi, siyasi, demoqrafik dəyişikliklər, insanların təbiətə müxtəlif növ təsiri və s. bu fənnin daimi olaraq yenilənməsini aktual edən məsələlərdən biridir. Tədqiqatların müxtəlif sahələrdə aparılması müasir tədqiqat metodlarını üzə çıxardı və onların müasir fikirlərin formalaşmasında əvəzsiz rolunu özündə cəmləşdirdi. Müasir coğrafi tədqiqata nəzər salmamışdan öncə ilk olaraq bu anlayışı termin olaraq nəzərdən keçirək:

Tədqiqat dedikdə elmi biliklərin artırılması, həmçinin onların tətbiq olunması üçün yeni sahələrin axtarılmasını özündə cəmləşdirən, ardıcıl həyata keçirilən elmi fəaliyyət adlanır. Hər hansı bir obyekti və onun özünəməxsus xüsusiyyətlərini müəyyən edib öyrənmək məqsədilə aparılmış elmi araşdırma hesab olunur.

Metod (yunan üsulu) dedikdə tədqiqat aparanın müəyyən məqsədə çatması üçün, vəzifəsini yerinə yetirmək, araşdırma aparmaq məqsədilə sistemli şəkildə atdığı addımlar, yaxud istifadə etdiyi üsulların cəmi olaraq başa düşülür. Başqa sözlə, metod məqsədə çatmaq yolu, hərəkət üsulu olmaqla təbiət və cəmiyyətdə baş verən hadisələri bilmək, öyrənmək üsuludur [2, s. 36].

Müasir coğrafi tədqiqat metodları aşağıdakılardan ibarətdir:

1. Riyazi-statistik metod
2. Coğrafi proqnozlaşdırma metodu
3. Coğrafi modelləşdirmə metodu
4. Aerokosmik metod
6. CİS (coğrafi informasiya sistemi)

1. Riyazi-statistik metod coğrafi obyekt və hadisələri kəmiyyət göstəriciləri əsasında riyazi göstəricilərin vasitəsilə tədqiq edir. Bunun nəticəsi olaraq obyektlərin və hadisələrin planlanması və layihələnməsi aparılır. Bu metod daxilində iki qrupa bölünür: riyazi metod və statistik metod [1, 6].

Riyazi metod - coğrafiyanın əksər bölmələri arasında riyazi hesab əməllərinə əsaslanır. Riyazi metodlardan istifadə etməklə nəinki coğrafi obyektləri ölçmək, həmçinin müşahidələr zamanı orta göstəriciləri tapmaq, riyazi nümunələri müəyyən etmək mümkündür. Məsələn: siklon və antitsiklon yaranması haqqında əsaslandırma, çaylarda yağış daşqınlarının səbəbləri və s. riyazi hesab əməllərinin köməyi ilə tədqiq etmək mümkündür. Bundan əlavə adambaşına düşən ÜDM, əhalinin sıxlığı, əhalinin təbii artımı və ya ölümünün hesablanması, miqrasiya balansı, məhsuldarlıq və s. bu metodun köməyi ilə təhlil edilir.

Statistik metod vasitəsilə hər hansı bir ölkədə, şəhərdə, regionda və s. baş verən sosial-iqtisadi proseslər haqqında statistik məlumatlarla əməliyyatlar aparılır. Başqa sözlə, ölkə, xalq, təbii obyektlər haqqında statistik məlumatlardan istifadə etməkdir.

Xüsusi olaraq indekslərin hesablanması və seçmə tədqiq, korrelyasiya və reqressiya təhlil, ekspert qiymətləndirmələri metodları geniş istifadə edilir. Ərazinin sahəsi, hündürlüyü və ya dərinliyi, təbii ehtiyatları, istehsalın mütləq və nisbi göstəricilərini, əhalinin sayı, demoqrafik göstəriciləri və s. nəzərdə keçirdiyimiz zaman statistik metoddan istifadə edirik.

2. Coğrafi proqnozlaşdırma metodu - Hər hansı bir ərazidə təbii və antropogen təsirlər nəticəsində baş verə biləcək dəyişiklikləri əvvəlcədən müəyyən etmək mümkündür. Məsələn, hər hansı bir ərazidə su anbarı tikilməmişdən öncə orada baş verə biləcək dəyişiklikləri əvvəldən müəyyən etmək mümkündür. Proqnozlar uzunmüddətli və hərtərəfli tədqiqatların son mərhələsidir.

Bu metod coğrafiya elminə dair geniş biliklər toplayıb, təbiət və ictimai elmlərin kəsişməsində problemlərin həlli üçün geniş və uzunmüddətli proqnozlar verməyə imkan verir. Elmi proqnozlar hər hansı bir obyekt və hadisənin gələcək vəziyyəti haqqında araşdırmaya əsaslanaraq müəyyən ehtimalların verildiyi mühakimələrdir.

Coğrafi proqnozlar iki əsas istiqamətdə aparıla bilər:

1. Ərazi-istehsal və sosial mühitin vəziyyəti haqqında;
2. Təbii mühitin və insan həyatının ona təsiri haqqında.

Proqnozların müddəti birbaşa tədqiqatların müddətindən asılıdır. Adətən müddətin uzun davam etməsi proqnozların da o qədər çox variantlarda işlənilməsinə şərait yaradır. Müddətə görə coğrafi proqnozlar aşağıdakı qruplara bölünür:

1. Bir aya qədər müddəti əhatə edən coğrafi proqnozlar - əməliyyatlar;
2. Bir aydan bir ilə qədər müddəti əhatə edən coğrafi proqnozlar - qısamüddətli;
3. Bir ildən beş ilə qədər müddəti əhatə edən coğrafi proqnozlar - orta müddətli;
4. Beş ildən on beş ilə qədər müddəti əhatə edən coğrafi proqnozlar - uzun müddətli;
5. On beş ildən çox müddəti əhatə edən coğrafi proqnozlar - ultra müddətli;

Coğrafi prqanozların əsas vəzifələrindən biri gələcəkdə təbii mühitin və cəmiyyətin vəziyyəti, gələcək inkişafına dair elmi əsaslı proqnozların hazırlanmasıdır. Coğrafi proqnozlaşdırmanın daha səmərəli və keyfiyyətli aparılması üçün ilk növbədə obyektə daha dəqiq tarixi yanaşma və buna uyğun olaraq inkişaf prosesində onu nəzərə almaq vacibdir. Coğrafi proqnozlaşdırmada riyazi modelləşmə, ekstrapolyasiya (mövcud olan nümunələrin gələcəyə davamı), coğrafi analoqlar (bəzi geosistemlərin inkişaf nümunəsini digərlərinə ötürmək) və s. üsulları tətbiq edilir.

3. Coğrafi modelləşdirmə metodu - Bu metod coğrafi tədqiqatların mühüm tədqiqat metodlarından biri olmaqla, obyektin əsas xüsusiyyətlərini (forma, rəng və s.) özündə əks etdirən modelinin hazırlanması və öyrənilməsinə əsaslanır. Modellər təsvir və qrafiki, söz və simvollarla tərtib edilə bilər.

Coğrafi modellərdən riyazi göstəricilərin əldə edilməsində, həmçinin proqnozlaşdırmada geniş istifadə olunur.

Ayrı-ayrı coğrafi obyektlərin modelləri (maketləri) yaradılaraq daha səmərəli tədqiqat işləri aparılır. Coğrafi model olaraq qlobusu nümunə göstərə bilərik. Bundan əlavə səhralar, dağ silsilələri, su hövzələri və s. haqqında da coğrafi modellər hazırlamaq mümkündür.

Coğrafi modelləşmənin meydana gəlməsi fərqli geosistemlərin qruluşu haqqında daha dolğun fikirlərin yaranmasına şərait yaratdı. Coğrafi modellə təcrübə və təcrübədə təkrar istifadə edilməsi mümkün olmayan prosesləri stimulyasiya etmək üçün geniş istifadə edilir.

4. Aerokosmik metod - Bu metoda aerokosmik şəkillərin köməyi ilə əldə edilmiş informasiyalar əsasında xəritələrin tərtib edilməsi və coğrafi proseslərin öyrənilməsini aid edə bilərik. Aerokosmik müşahidələr təyyarələr və ya kosmik gəmilərdən istifadə etməklə Yerin daha dəqiq xəritələrini tərtib etməyə imkan verir. Bu üsuldan istifadə xalq təsərrüfatının inkişafı, həmçinin təbiəti mühafizə sistemlərini daha dəqiq inkişaf etdirmək mümkündür.

Bildiyimiz kimi kosmik şəkillər müxtəlif elm sahələrində geniş istifadə olunur. Bu şəkillərdən istifadə etməklə ərazidə təbi ethiyatlar tədqiq edilir, antropogen fəaliyyətin ətraf mühitə təsiri öyrənilir, təbii fəlakətlərin monitorinqi aparılaraq onların nəticələri proqnozlaşdırılır, məkanın planlaşdırılması və idarə edilməsi, qeydiyyat və kadastr işləri həyata keçirilir. Bununla yanaşı kənd təsərrüfatı, meşə, sənaye, turizm, geologiya, şəhərsalma, meliorasiya və s. işlərində də kosmik və aero fotoşəkillərdən geniş istifadə edilir [5, 8].

Peyk təvirlərin özünəməxsus xüsusiyyəti:

- Verilənlər rəqəmsal formatda olduğuna görə lentin emalına ehtiyac yoxdur;
- Hava buludlu olduğunda həmin ərazilərdən təkrar keçmək bir neçə gün zaman ala bilər ki, bu da əlavə problem yaradır;
- Kosmik çəkilişlər həyata keçirilən zaman hər hansı bir rəsmi icazəyə ehtiyac yoxdur;
- Sifariş üçün ərazinin sahəsi minimum 64 $km^2$ olmalıdır;
- Ən yaxşı məkan dəqiqliyi 50 sm hesab edilir;
- Eyni anda həm görünən, həm də yaxın infraqırmızı diapozonda təsvirlər əldə edilir;
- Mozaikanın tərtibi daha az zaman tələb edir.
- İstənilən vaxt sifariş verib şəkilləri əldə etmək mümkündür. Buludlu və yağışlı ərazilərdə zaman biraz daha uzana bilər;
- Kameral şəraitdə rəqəmsal verilənlərin emalı az vaxt tələb edir və rahatdır;

- Ayrı-ayrı fraqmenylərə ehtiyac olmadan bir şəkil ilə böyük əraziləri təsvir etmək mümkündür.

- Sahənin ölçüsünün dəyişməsi ilə şəkilin qiyməti də dəyişir.

Aerofoto şəkillərin (lent üzərində) özünəməxsus xüsusiyyətləri:

- Verilənlər lentə yazılır və sonralar skanerdən keçirilərək korreksiya edilir;

- Buludlu havalarda təyyarə daha aşağıdan uça bilir və yaxud növbəti gün təkrar uçuş təşkil edilir;

- Kiçik ərazilər üçün aerofoto şəkil rentabelli hesab edilmir;

- Aerofoto çəkiliş etmək üçün planlama və razılaşma olduqca mürəkkəbdir və daha çox zaman ala bilər;

- Uçuşun hündürlüyündən asılı olaraq bir neçə sm dəqiqlik imkan olan şəkillər əldə etmək mümkündür.

- Lent kamerası infraqırmızı və rəngli təsvirləri ayrı-ayrılıqda alır;

- Mozaikanın tərtibi uzun zaman tələb edir;

- Təsvirlərin əldə edilməsi təyyarənin olması və uçuş üçün hava şəraitdən birbaşa asılıdır.

- Kameral şəraitdə aerofoto çəkilişlərin nətivələrinin emal edilməsi zəhmət və maliyyə vəsaiti tələb edir;

- Kiçik fraqmentlərin vahid şəklində birləşdirilməsi zəruridir;

- Sahənin ölçülərinin dəyişməsi ilə şəkilin qiyməti nisbətən az dəyişir [3, s. 183].

Müasir dövrdə arxivlərdən şəkil əldə etmək, yaxud orbitdəki peyklərdən istifadə etməklə tədqiqat aparmaq mümkündür. Bu peyklərə misal olaraq WORLDVIEW-1, QUICKBIRD, LANDSAT, ALOS, IKONOS, SPOT, CARTOSAT, ORBVIEW, TERRA və s. göstərmək olar.

5. CİS (coğrafi informasiya sistemi) - coğrafi məlumatlar və onlara aid obyektlərlə bağlı informasiyanın toplanması, saxlanması, təhlil edilməsi və qrafiki vizuallaşdırılması sistemidir.

CİS-in köməyi ilə coğrafi obyektlər haqqında dolğun məlumat toplamaq mümkündür. Bu termin ilk dəfə ingilis coğrafiyaşünası Rocer Tomlinson tərəfindən 1960-cı ildə elmə gətirilmişdir.

Bildiyimiz kimi xəritələrin təhlil və müqayisə edilməsi uzun zaman və zəhmət tələb edir. Lakin CİS vastəsilə biz istənilən ərazi haqqında geniş məlumat almaqla yanaşı müxtəlif xəritələrin müqayisəsini aparmaq mümkündür. CİS xəritələri elektron hala gətirməklə onların gələcəkdəki istifadəsini asanlaşdırır. CİS-də istifadə edilən kompyuter proqramlarına ArcİInfo, GEO/SQL, MGE, Framme və s. misal göstərmək olar [4, s. 13].

Müasir dövrdə CİS-in istifafə edildiyi sahələr:

- Regional və şəhər planlaşdırılması (kanalizasiya və su təchizatında şəbəkələrində tələbatın qiymətləndirilməsi, mühəndis şəbəkələrinin vəziyyətinin monitorinqi və qəza baş verəcək hallarının qarşısının alınması, mühəndis şəbəkələrinin layihələndirilməsi, şəhərsalma və layihələndirmə və s.);

- Fövqəladə hallar və yaxud təbii fəlakətlərin aradan qaldırılması zamanı (təbii mühitin mövcud vəziyyətinin monitorinqi və qiymətləndirilməsi, təbiətin mühafizəsi üzrə tədbirlərin planlaşdırılması, ekoloji fəlakətlərin modelləşdirilməsi, onların fəsadlarının təhlili və s.);

- Hüquq-mühafizə orqanlarında (Mühafizə və xilasetmə əməliyyatları tədbirlərinin planlaşdırılması, hərbi əməliyyatların taktiki və strateji planlaşdırılması, fövqəladə halların modelləşdirilməsi, çevik müdaxilə xidmətləri və başqa güc qurumlarının naviqasiyası və s.) [1, 7];

- İqtisadi inkişaf (CİS konkret sahənin iqtisadiyyatına təsir edən sosial, iqtisadi və topoqrafik xüsusiyyətlərin ətraflı təhlil edilməsini təmin edir);

- Yollar və avtomagistrallar, nəqliyyat vasitələrində (nəqliyyat infrastrukturu və onun inkişafının idarə edilməsi, marşrutların optimallaşdırılması, yük axınlarının analizi, hərəkət vasitələri parkının idarəsi və loqistika və s.);

- Neft-qaz sənayesində (neft və qaz boru kəmərlərinin işinin texnoloji rejimlərinin monitorinqi, geoloji kəşfiyyat, magistral boru kəmərlərinin layihələndirilməsi və s.);

- Həmçinin təhsil, səhiyyə, kənd təsərrüfatı, seçki xidmətləri, geodeziya və infrastrukturun maddi-texniki təminatı və s.

Coğrafi obyektlər haqqında dolğun informasiyaları təqdim etmək və həmçinin onların mövqeyini daha tez təyin etmənin ən səmərəli üsulü CİS hesab edilir. Hər hansı bir xəritədə coğrafi obyektin mövqeyini təyin etmənin ən asan yolu onun koordinatlarını bilməkdir. CİS vasiyəsi ilə daha sadə və asan üsuldan istifadə etməklə coğrafi obyektin axtarışını həyata keçirmək mümkündür. Bunun üçün coğrafi obyektin adını axtarış sisteminə daxil etmək lazımdır.

Müasir coğrafi tədqiqat metodlarına nəzər yetirsək bu tətqiqat metodları bir-biri ilə vəhdət təşkil edərək ərazinin kompleks mənimsənilməsində əsas rol oynayır. Müasir coğrafi tətqiqat metodlar işi daha dəqiqliklə, təhrifsiz yekunlaşdırmağa imkan verir. Ənənəvi tətqiqat metodlarına nəzər yetirsək tətqiqatın reallaşması üçün hər hansı bir icazə sənədinə, tətqiqat işini icra edəcək daha çox şəxsin iştirak etdiyi komandaya, uzunmüddətli zamana, yetərli maliyyə vəsaitinə ehtiyac duyulurfusa müasit tətqiqat metodlarında bu göstəricilər minimuma endirilmişdir.

Coğrafiyada hər hansı bir yeni faktları kəşf etmək üçün tətqiqatçı ona açıq olan mənbələrin məlumatlarından istifadə edir istifadə edir. Bu mənbələr aşağıdakılardır:

1. Coğrafiya xəritələri və atlasları, topoqrafik planları, ərazinin hava və kosmik fotoşəkilləri.
2. kitab və ensiklopediyalardan məlumatlar;
3. tədqiq edən şəxsi maraqlandıra biləcək sahələrə aid mətn təsvirləri;
4. ekspedisiya hesabatları

## MATERİAL VƏ METODLAR

Tarixi mənbələrə istinad edərək deyə bilərik ki, coğrafi tədqiqatlarda mütəmadi olaraq yeniliklər özünü göstərir. Bu yeniliklərin öyrənilməsi və tədqiqatlarda tətbiqi günümüzün aktual məsələlərindən biridir.

Tədqiqat obyekti coğrafi tədqiqat metodları və bu metodlarda istifadə edilən alətlərdir. Tədqiqatların aparılmasında əsasən nəzəri məlumatlarla yanaşı, müasir coğrafi tədqiqat metodlarının əsasını təşkil edən Coğrafi İnformasiya Sistemərindən də istifadə edilmişdir. Ərazinin koordinatlarının müəyyənləşdirilməsində, coğrafi xəritələrin tərtib edilməsində, relyefin müəyyənləşdirilməsində və s. istifadə edilən coğrafi informasiya sistemləri müasir dövrdə tədqiqatların əsasını təşkil edir.

Tədqiqatlar zamanı müasir coğrafi tədqiqatlarda istifadə olunan qurğular və avadanlıqlara dair məlumatlar toplanılmış, onların iş prinsipi öyrənilmiş, həmçinin elmi təhlilə cəlb olunaraq onların üstün və çatışmayan cəhətləri müzakirə olunmuşdur.

## NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Coğrafiya elminin əsasını coğrafi mühitdə baş verən qanunauyğunluqları, onların tərkibini, inkişaf dinamikasını və ərazi üzrə differensiyasiyasını öyrənmək təşkil edir. Qeyd edilən qanunauyğunluqların öyrənilməsi və təhlili coğrafi tədqiqat metodlarından istifadə etməklə mümkündür.

Texnoloji inkişafın müasir coğrafi tədqiqatlarda özünü göstərməsi tədqiqatları daha da asanlaşdıraraq daha dəqiq və qısa zaman ərzində nəticələr əldə etməyə imkan verir. Xüsusilə peyk məlumatlarına istinad etmək müasir coğrafi tədqiqatların başlıca istiqamətidir. Bunun üçün istifadə edilən alət və avadanlıqların öyrənilməsi və istifadəsi xüsusi əmək və bacarıq tələb edir. Bunun üçün mütəxəssislərin yetişdirilməsi və kadr potensialından səmərəli istifadə tədqiqların əsasını təşkil edir.

Coğrafi İnformasiya Sistemlərindən nəinki coğrafi tədqiqatlarda, həmçinin gündəlik istifadə etdiyimiz texnoloji cihazlarda da geniş istifadə edilir. Bunun üçün müasir dövrün tələblərinə uyğun Coğrafi İnformasiya Sistemləri daim öyrənilməli, yeniliklər isə mütəmadi izlənilməlidir.

## YEKUN NƏTİCƏ

Qeyd edilənləri nəzərə alaraq müasir tətqiqat metodlarının təhlil və araşdırılması coğrafi tədqiqatların aparılması zamanı daha keyfiyyətli məqsədəuyğun nəticələrin əldə edilməsinə, bilik və bacarıqların səmərəli tətbiqinə yol açır. Müasir coğrafi tədqiqatların aparılmasında elektron avadanlıqlar və proqram təminatından istifadə edilməsi məqsədəuyğun hesab edilir. Buna görə də nəinki tədqiqat metodlarını dəqiqliklə öyrənmək, həmçinin bu tədqiqat metodlarında istifadə edilmiş aparat və proqram təminatını da dərindən bilmək lazımdır. Bunun üçün bu sahədə kadr potensialını artırmaq, yeni avadanlıqların iş mexanizmini mənimsəmək, proqram təminatında yenilikləri daimi izləmək işin əsas fəaliyyət istiqamətidir.

## ƏDƏBİYYAT

1. Mehdiyev, A.Ş. Coğrafi informasiya sistemləri / A.Ş.Mehdiyev, A.İ.İsmayılov – Bakı: Müəllim nəşriyyatı, – 2011. – 233 s.
2. İsmayılov, A.İ. Azərbaycan torpaqlarının informasiya sistemi / A.İ.İsmayılov. – Bakı: Elm, – 2004. – 308 s.
3. İsmayılov, A.İ. Torpaq monitorinqinin informasiya bazası / A.İ.İsmayılov. – Bakı: Elm, – 1997. – 121 s.
4. Seyfullayeva, N.S. Coğrafiyanın tədrisi metodikası. Dərslik / N.S.Seyfullayeva. – Bakı: – 2011. – 161 s.
5. Seyfullayeva, N.S. Orta məktəblərdə coğrafiya təliminin metodikası (B.Bibikin redaktəsi ilə) «Coğrafiyanın tədrisi metodikası. Dərslik / N.S.Seyfullayeva. – Bakı: – 2011. – 223 s.
6. Берлянт, А.М. Геоинформационное картографирование / А.М.Берлянт. – М: – 1997. – 64 с.
7. Государственная регистрасия, учет и оценка земель / А.А.Варламов, Д.С.Валиев [и др] – Москва: ГУЗ, – 2004. – 64 с.
8. Кошкарев, А.В. Геоинформатика. Справочное пособие / А.В.Кошкарев, А.В.Кошкарев, В.С.Тикунов – М: – 1997. – 213 с.

## MODERN GEOGRAPHICAL RESEARCH METHODS AND THEIR IMPORTANCE

**K.A. Abbasova**

Geography, like other sciences, is constantly evolving. When studying the object of research of this field of science, methods that meet the requirements of modern times are used. Modern geographical research methods also allow to obtain accurate information in a short time. These methods are used to study, forecast and analyze natural and socio-economic processes.

In the article, geographical research methods, their importance in modern times, and the mechanisms of their use during geographical research were analyzed separately. Also, similar and different characteristics of geographical research methods were grouped and conclusions were drawn

In the research work, modern geographical research methods were analyzed separately, their unique features and importance in modern times were noted. The research paper can be an important resource for high school and high school teachers, graduate and undergraduate students, as well as students when conducting geographic research.

**Keywords:** *research, method, modeling, forecasting, geography, modern.*

# СОВРЕМЕННЫЕ ГЕОГРАФИЧЕСКИЕ МЕТОДЫ ИССЛЕДОВАНИЯ И ИХ ЗНАЧЕНИЕ

**К.А. Аббасова**

География, как и другие науки, постоянно развивается. При изучении объекта исследования данной области науки используются методы, отвечающие требованиям современности. Современные географические методы исследования также позволяют получать точную информацию в короткие сроки. Эти методы используются для изучения, прогнозирования и анализа природных и социально-экономических процессов.

В статье отдельно анализируются методы географических исследований, их значение в современное время и механизмы их использования в ходе географических исследований. Также были сгруппированы схожие и различные характеристики методов географических исследований и сделаны выводы

В исследовательской работе отдельно проанализированы современные географические методы исследования, отмечены их уникальные особенности и значение в новейшее время. Научно-исследовательская работа может стать важным ресурсом для преподавателей старших классов и старших классов, аспирантов и студентов, а также студентов при проведении географических исследований.

**Ключевые слова:** *исследование, метод, моделирование, прогнозирование. география, современный.*

# BİOLOGİYA ELMLƏRİ

**UOT: 635. 656: 632.9**
https://doi.org/10.59849/2409-4838.2024.2.33

# YENİ İNTRODUKSİYA OLUNMUŞ NOXUD *(CİCER ARİETİNUM L.)* GENOTİPLƏRİNİN MƏHSULDARLIQ, BİOKİMYƏVİ GÖSTƏRİCİLƏRİNİN TƏDQİQİ

**Məhbubə Rafiq qızı Salmanova*, Səidə Qasım qızı Həsənova, Rəfiqə İsmayıl qızı Həsənova**
Genetik Ehtiyatlar İnstitutu, Bakı, Azərbaycan
*salmanovamahbuba@gmail.com

*Tədqiqat işində ICARDA (International Center for Agricultural Research in the Dry Areas)-dan introduksiya olunaraq Genbankda saxlanılan 64 nümunə və standart olaraq yerli Cəmilə sortu götürülərək məhsuldarlıq göstəriciləri öyrənilmiş, əldə olunan nəticələr əsasında statistik analizlər aparılaraq müqayisəli qiymətləndirilmişdir. Noxud nümunələri yerli standart "Cəmilə" sortu ilə müqayisəli öyrənilmişdir. Müşahidələr nəticəsində müəyyən olunmuşdur ki, nümunələrdə bitkilərin hündürlüyü 65-98 sm, I və II dərəcəli məhsuldar budaqların sayı müvafiq olaraq 2-1; 4-2 ədəd təşkil etmişdir. Öyrənilən nümunələrdə bir bitkidə olan paxlanın sayı 20-88 ədəd, 100 toxumun kütləsi 24,2-42.4 q olmuşdur. AZE 48, AG2724, Qaraca 50, CİAR 25, SHKB 1-60, CİAR 59, SHKB 1-119 məhsuldarlıq göstəricilərinə görə standartdan üstün olmuşdur. Aralarından seçilən 15 nümunə üzərində biokimyəvi analizlər aparılmışdır. Nümunələrdə kəmiyyət və keyfiyyət analiz göstəricilərinə görə ən yüksək olan sortlar Cəmilə, Flip 11-40c, SHKB 1-119, Flip11-09c, Flip10-355c, Flip11-22c sortnümunələrdir.*

***Açar sözlər:*** *zülal, keyfiyyət, yağ, kəmiyyət.*

## GİRİŞ

Noxud *(Cicer arietinum.L)* dünyanın bir çox ölkələrinin yüksək dağlıq ərazilərində yetişdirilən ən mühüm ərzaq məhsuludur. Paxlalılardan olan noxud zülal, kalsium, dəmir, fosfor və digər minerallarin mənbəyi olduğundan, milyonlarla insanın pəhrizində mühüm qida rolunu oynayır. Çoxşaxəli əhəmiyyətinə görə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə ərzaq təhlükəsizliyi probleminin aradan qaldırılması üçün noxudun əkin sahələri genişləndirilir [2]. Bu məhsul üçün ayrılmış torpaq sahəsi son illərdə artıb və hazırda təxminən 13,5 milyon hektardır. Vahid sahə üzrə istehsal 1961-ci ildən bəri yavaş-yavaş, lakin davamlı olaraq illik təxminən 6 kq/ha artmışdır. Hindistan, Avstraliya və Meksika aparıcı ixracatçılardır [4]. Noxud Hindistanda becərilən və istehlak edilən və Benqal qramı kimi tanınan əsas paxlalı bitkilərdən biridir [12]. Digər paxlalılarla müqayisədə noxud yaxşı protein və karbohidrat mənbəyidir. Tərkibində kükürdlü amin turşularının, eyni zamanda valinin insanın qida tələbləri ilə müqayisə etdikdə məhdud olduğu aşkar edilmişdir [8]. Noxud *(Cicer arietinum L.)* toxumları müxtəlif ənənəvi qidaların hazırlanması, məsələn makaron və buğda ununa qatılmaqla keyfiyyətli çörək məhsulları hazırlanmasında istifadə olunur [6]. Dənli-paxlalı bitkilər, o cümlədən noxud ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında xüsusi əhəmiyyətə malikdir. Bu bitkilərin kompleks morfo-fizioloji əlamətlərə, dənin keyfiyyətinə və məhsuldarlığına görə seçilməsi və bu əsasda yeni sortların yaradılması qarşıda duran əsas vəzifələrdən biridir. Zülalla zəngin olan noxuddan heyvandarlıqda da qüvvətli yem əlavəsi kimi istifadə olunması bu bitkinin istehsalının artırılmasının əhəmiyyətli olduğunu göstərir [3, 7, 9]. Noxudun geniş yayılması tərkibində protein (orta hesabla 20-27%) yüksək olması ilə bağlıdır. Bundan başqa metionin və triptofan, həmçinin inhibitor zülalların həzm traktının fermentləri (tripsin, kemotripsin, lektinlər) olması, bununla yanaşı lizin tərkibi baxımından (xam proteində 6,5%) noxud əhəmiyyətli dərəcədə digər paxlalı bitkilərdən üstündür [14]. Hal-hazırda noxud sortları yalnız toxum və yem məqsədləri üçün becərilir [5, 11].

Noxud *(Cicer arietinum.L)* 738 Mbp genomlu öz-özünə tozlanan diploid (2n=2x=16) paxlalı bitkidir. Təxminən 11.000 il əvvəl *Cicer reticulatum* növündən əmələ gəlib. Hazırda 44 növü var, onlardan 35-i çoxillik, doqquzu isə birillikdir. Noxudun toxum morfologiyasına əsaslanan iki sinfi var - kabuli və desi. Təsərrüfatlarda ən çox kabuli tipli sortlardan istifadə olunur [1]. Paxlalı bitkilər əkinlərə sərf olunan mineral gübrələrin (azot gübrəsinin) məsrəfini azaltmaqla bərabər, növbəli əkinlərdə əvəz olunmaz sələf bitkisi rolunu oynayırlar. Dəmyə əkinçiliyində, xüsusən də quraq bölgələrdə paxlalı bitkilərin əhəmiyyəti yüksəkdir. Buna baxmayaraq ölkəmizdə paxlalı bitkilərin əkin sahələri çox geniş deyildir. Respublikanın bir çox xüsusi təsərrüfatlarında bəzi paxlalı bitkilər becərilir ki, bunların əkin sahələri az olmaqla yanaşı, onların əksəriyyətinin dəninin əmtəəlik keyfiyyəti yüksək deyildir.Noxud əhəmiyyətli paxlalı bitki olub, dənin qidalılığı baxımından bu qrupa daxil olan bitkilərdən üstündür [10].

**MATERİAL METODLAR**

Tədqiqat işində ICARDA-dan introduksiya olunmuş 64 nümunə və yerli standart Cəmilə sortundan istifadə olunmuşdur. AR ETN-nın Genetik Ehtiyatlar İnstitutunun Abşeron Təcrübə Bazasında 64 nümunə (Cədvəl 1) əkilmiş, tarla təcrübələri noyabr ayının II-III ongünlüyündə qoyulmuş, vegetasiya dövrü ərzində öyrənilən nümunələr üzərində mütəmadi olaraq fenoloji müşahidələr aparılmış, çiçəkləməyə, tam yetişməyə kimi olan günlərin sayı təyin olunmuş, bitkilərin boyu, birinci paxlaya qədər olan məsafə, məhsuldarlığı, 100 toxumun kütləsi, bir bitkidə olan paxlaların sayı, paxlanın eni-uzunu, bir bitkidə toxumların sayı, bir bitkidə olan toxumun kütləsi, bir kvadrat metr sahədəki məhsuldarlıq müəyyən edilmişdir. Nümunələr arasından məhsuldarlıq göstəricilərinə görə seçilən 15 nümunənin biokimyəvi analizləri KTN-nin ETƏİ-da “Dənin keyfiyyəti “ labaratoriyasında aparılmışdır. 15 nümunədə ümumi zülalın təyini Kelldal [13], yağın təyini isə Sokslet [15] üsulu ilə aparılmışdır. Alınan nəticələr standart Cəmilə sortu ilə müqayisəli təhlil olunmuşdur.

**NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ**

Təcrübə-tədqiqat işi 2022-2023-ci ildə GEİ-nin Abşeron təcrübə bazasında yerinə yetirilmişdir. Əkin payızda 19 noyabr – 2022-ci ildə aparılmış, səpin materialı olaraq İCARDA-dan introduksiya olunaraq Genbankda saxlanılan 64 noxud nümunəsi və standart olaraq yerli Cəmilə sortu götürülmüşdür. Nümunələrin əkin sxemi aşağıdakı kimidir: Ləklərin uzunluğu 5 m, eni 2,5 m, cərgəarası məsafə 30 sm, toxumarası məsafə 10 sm olmuşdur. Nümunələr beynəlxalq deskriptorlara uyğun öyrənilmiş, fenoloji müşahidələr aparılaraq inkişaf fazaları qeydə alınmış, xəstəliklərə qarşı davamlılıq qiymətləndirilmişdir. Noxud bitkisində toxumların cücərmə faizi 65-70% olmuşdur. Bitkilərə vegetasiya dövründə lazımi aqrotexniki qulluq göstərilmişdir. Morfoloji müşahidələr nəticəsində bitkinin piqmentasiyası, tüklülüyü, gövdənin forması, yarpağın tipi, cavan yarpaqların ölçüləri, çiçəyin rəngi və sayı təyin edilmişdir. Fenoloji müşahidələrdən çıxış günləri, toxumların cücərmə faizi, çiçəkləmə və yetişmə fazasına qədər olan günlərin sayı qeyd olunmuşdur. Yığımdan sonra hər nümunədən 5 bitki üzərində struktur analiz aparılmışdır: Bitkinin hündürlüyü, budaqların sayı, bir bitkidə olan paxlaların sayı, paxlanın ölçüləri, hər paxlada toxumun sayı, 100 dənin kütləsi, bir bitkidən məhsuldarlıq və bioloji məhsuldarlıq təyin edilmişdir.

Noxud nümunələri yerli standart “Cəmilə” sortu ilə müqayisəli öyrənilmişdir. Noxud *(Cicer arietinum.L)* nümunələrində 50 % çiçəkləmə fazası 158-167 gün, 50% paxla əmələgəlmə fazası isə 170-182 gün olmuşdur. Nümunələrdə bitkilərin hündürlüyü 65-98 sm, I və II dərəcəli məhsuldar budaqların sayı müvafiq olaraq 2-1; 4-2 ədəd təşkil etmişdir.

**Cədvəl 1.**

Tədqiq olunan nümunələr

| Nümunənin adı | Mənşəyi | Nümunənin adı | Mənşəyi |
|---|---|---|---|
| 1 AG.3182 | İcarda | 33 AZEci15 | Azərbaycan |
| 2 AG.3190 | İcarda | 34 AG 345 | İcarda |
| 3 AG.3187 | İcarda | 35 AZİ 4 | Azərbaycan |
| 4 AG.3192 | İcarda | 36 CİAR 24 | İcarda |
| 5 AG.3193 | İcarda | 37 AZE/CİAR47 | Azərbaycan |
| 6 AG.3194 | İcarda | 38 AZE-Ci 16 | Azərbaycan |
| 7 AG.3195 | İcarda | 39 AG345AZİ 612 | İcarda |
| 8 AG.3196 | İcarda | 40 AZE 48 | Azərbaycan |
| 9 AG.3198 | İcarda | 41 AG2724 | İcarda |
| 10 AG.3199 | İcarda | 42 AG347 | İcarda |
| 11 AG.3203 | İcarda | 43 Qaraca 50 | İcarda |
| 12 AG.3204 | İcarda | 44 AZİ11 | Azərbaycan |
| 13 AG.2701 | İcarda | 45 AG 351 | İcarda |
| 14 AG.2708 | İcarda | 46 CİAR 26 | İcarda |
| 15 AG.2709 | İcarda | 47 CİAR 25 | İcarda |
| 16 AG.2721 | İcarda | 48 SHKB 1-60 | İcarda |
| 17 AG.2722 | İcarda | 49 CİAR 59 | İcarda |
| 18 AG.2730 | İcarda | 50 SHKB1-119 | İcarda |
| 19 AG.2731 | İcarda | 51 CİAR 19-01 | İcarda |
| 20 AG.2734 | İcarda | 52 CİAR 39 | İcarda |
| 21 AG.2735 | İcarda | 53 Uqunənə | Azərbaycan |
| 22 AG.2754 | İcarda | 54 Cəmilə | Azərbaycan |
| 23 AG.2761 | İcarda | 55 Flip11-11c | İcarda |
| 24 AG.2763 | İcarda | 56 Flip10-337c | İcarda |
| 25 AG.2764 | İcarda | 57 Flip11-158c | İcarda |
| 26 AG.2767 | İcarda | 58 Flip11-40c | İcarda |
| 27 AG.2700 | İcarda | 59 Flip11-09c | İcarda |
| 28 AZEci3 | Azərbaycan | 60 Flip11-05c | İcarda |
| 29 AZEci4 | Azərbaycan | 61 Flip11-22c | İcarda |
| 30 AZEci5 | Azərbaycan | 62 Flip10-355c | İcarda |
| 31 AZEci9 | Azərbaycan | 63 Flip10-338c | İcarda |
| 32 AZEci13 | Azərbaycan | 64 Flip10-318c | İcarda |

Öyrənilən nümunələrdə bir bitkidə olan paxlanın sayı 20-88 ədəd, birinci paxlanın yerləşdiyi hündürlük 16-45 sm, paxlanın eni 1,2-2,3 sm, uzunluğu 1,7-3.2 sm, 100 toxumun kütləsi 24,2-42,4 q olmuşdur. Bir bitkinin məhsuldarlığı 5,5-75,5q, 1m$^2$-də məhsuldarlıq 80.1-530.5q arasında dəyişmişdir. AZE 48, AG2724, Qaraca 50, CİAR 25, SHKB 1-60, CİAR 59, SHKB1-119 məhsuldarlıq göstəricilərinə görə standartdan üstün olmuşdur. Nümunələrdən AG.2730 (82sm), AG.2763 (92sm), AG.2767 (82sm), AZE48 (85), AG2724(84), Qaraca 50 (83 sm), CİAR 25 (98), SHKB 1-60 (88sm), CİAR 59 (86sm), SHKB1-119(86 sm), Uqunənə (90 sm), Flip11-158c (82sm), Flip11-40c (83sm), Flip11-22c (86sm), boyunun və ilk paxlanın hündürlüyünə görə standartdan üstün olaraq seçilirlər. Bu formalar təsərrüfatlarda mexaniki yığım üçün yararlı olduğundan seleksiyaçıların diqqətini cəlb edir.

Nümunələr içərisindən ən məhsuldar olan 15 nümunə üzərində biokimyəvi analizlər aparılmış, standart Cəmilə sortu olmaqla müqayisəli təhlil olunmuşdur.

**Cədvəl 2.**

Məhsuldarlığa görə seçilmiş sortnümunələrin struktur və biokimyəvi analizi

| Əkin № 2022-2023 | Nümunələr | Çiçəkləmə, 50% (gün) | Paxla əmələ gəlmə | Bitkinin hündürlüyü | I-II dərəcəli gövdələrin sayı | I paxlanın hündürlüyü | Bitkidə paxlaların sayı | Paxlanın eni və uzunluğu | 100 toxumun kütləsi, q | Bir bitkidə məhsul, q | $1m^2$-də məhsuldarlıq | Yağ | Zülal |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | SHKB 1-119 | 168 | 180 | 86 | 2-2 | 32 | 63 | 1,3-2,4 | 33,6 | 27,6 | 288,2 | 15 | 21.6 |
| 2 | CİAR 19-01 | 167 | 175 | 75 | 3-1 | 28 | 61 | 2,3-1,2 | 32,5 | 20,5 | 301,8 | 14 | 20.4 |
| 3 | CİAR 39 | 164 | 173 | 72 | 2-1 | 24 | 55 | 1.3-2.4 | 31.5 | 23.5 | 232.1 | 14 | 20.5 |
| 4 | Uqunənə | 165 | 172 | 90 | 2-1 | 45 | 16 | 1.2-2.3 | 35.0 | 6.36 | 83.3 | 15 | 20.9 |
| 5 | Cəmilə | 164 | 170 | 81 | 2-1 | 20 | 45 | 1.5-3.0 | 41.1 | 26.8 | 278.6 | 15 | 22.4 |
| 6 | Flip11-11c | 162 | 171 | 68 | 2-2 | 29 | 56 | 1.4-2.8 | 32.6 | 18.7 | 280.5 | 14 | 20.5 |
| 7 | Flip10-337c | 160 | 170 | 65 | 3-2 | 33 | 78.2 | 1.2-2.8 | 42.4 | 23.2 | 245.4 | 14 | 20.5 |
| 8 | Flip11-158c | 161 | 178 | 82 | 2-1 | 34 | 27 | 1.3-2.4 | 32.5 | 25.3 | 95.4 | 16 | 20.3 |
| 9 | Flip11-40c | 162 | 180 | 83 | 3-1 | 36 | 30 | 1.7-3.2 | 40.5 | 26.4 | 182.6 | 14 | 22.3 |
| 10 | Flip11-09c | 165 | 172 | 78 | 3-2 | 30 | 17 | 1.6-2.9 | 35.8 | 5.44 | 84.4 | 15 | 21.5 |
| 11 | Flip11-05c | 163 | 178 | 67 | 2-1 | 30 | 72 | 1.4-3.2 | 24.2 | 21.7 | 262.3 | 15 | 21.2 |
| 12 | Flip11-22c | 165 | 172 | 86 | 2-3 | 28 | 40 | 1.2-2.9 | 40.4 | 27.8 | 271.3 | 14 | 20.5 |
| 13 | Flip10-355c | 161 | 171 | 76 | 3-2 | 26 | 38 | 1.2-3 | 30.2 | 20.4 | 274.6 | 15 | 21.4 |
| 14 | Flip10-338c | 163 | 175 | 44 | 2-2 | 27 | 20 | 1.5-3 | 25.5 | 5.5 | 80.1 | 15 | 21.4 |
| 15 | Flip10-318c | 164 | 172 | 81 | 3-2 | 33 | 51 | 1.6-3.1 | 33.2 | 20.2 | 245.6 | 14 | 20.4 |

Cədvəl 2-dən göründüyü kimi həm məhsuldarlıq, həm də biokimyəvi analiz göstəricilərinə görə ən yüksək standart Cəmilə sortudur. Bu sortdan sonra yüksək məhsuldar, keyfiyyətli sortlar Flip 11-40c, SHKB 1-119, Flip11-09c, Flip10-355c, Flip11-22c sort nümunələrdir. Bu sortlardan gələcəkdə yeni sort və formaların alınması üçün qiymətli başlanğıc material kimi istifadə etmək olar.

**Cədvəl 3.**

Məhsuldarlıq və biokimyəvi göstəricilər arasında qurulan korelyasiya analizi

| | bh | bbm | ytk | bkmm | bps | yağ | zülal |
|---|---|---|---|---|---|---|---|
| bh | | 0.230 | 0.203 | 0.173 | -0.147 | 0.055 | 0.065 |
| | | 0.410 | 0.467 | 0.538 | 0.601 | 0.845 | 0.817 |
| bbm | | | 0.985** | 0.978** | 0.400 | -0.038 | 00.020 |
| | | | 0.999 | 0.999 | 0.760 | 0.323 | 0.488 |
| ytk | | | | 0.995** | 0.356 | -0.077 | -0.016 |
| | | | | 0-.093 | -0.009 | -0.044 | 0.014 |
| bkmm | | | | | 0.411 | -0.113 | -0.043 |
| | | | | | 0.174 | 0.269 | 0.259 |
| bps | | | | | | -0.434 | -0.268 |
| | | | | | | -0.762 | -0.625 |
| yağ | | | | | | | 0.246 |
| | | | | | | 0. 400 | 0.109 |
| zülal | | | | | | -0.267 | |

Cədvəl 3-də göründüyü kimi bir bitkinin məhsuldarlığı ilə yüz toxumun kütləsi, bir kvadrat metr sahədəki məhsuldarlıq arasında ($0.985^{**}$, $0.978^{**}$), həmçinin yüz toxumun kütləsi ilə bir kvadrat metr sahədəki məhsuldarlıq arasında ($0.995^{**}$) müsbət korelyativ əlaqə mövcuddur. Məhsuldarlıq ilə biokimyəvi göstəricilər əks korelyativ nəticəyə malikdirlər.




**Şəkil 1.** Nümunələrin Evklid genetik məsafə indeksinə görə qruplaşdırılması

Klaster analizindən alınan nəticələrə əsasən nümunələr 3 klasterdə qruplaşmışlar (Şəkil 1). Birinci klaster A, ikinci B, üçüncü C. Birinci klaster A-da 9 gnotip, ikinci klaster B-də 4 genotip, üçüncü klaster C-də 2 genotip yer almışdır. Birinci klasterdə olan nümunələr bitki hündürlüyü, bir bitkidəki məhsuldarlıq, bir kvadrat metr sahədəki məhsuldarlığa görə bir birinə yaxın olmaqla qruplaşmışlar. Birinci klasterdə olan nümunələr məhsuldarlıq göstəricilərinə görə üstün olmaqla digərlərindən fərqlənirlər. İkinci klasterdə olan nümunələr yüz toxumun kütləsi, zülal, yağ analiz göstəricilərinə görə yaxın olmaqla qruplaşmışlar. İkinci klasterdəki nümunələr keyfiyyət göstəricilərinə görə digərlərində üstün olmaqla fərqlənirlər. Üçüncü klasterdə genotiplər bitkidə paxla sayına görə bir birinə yaxın olmaqla qruplaşmışlar. Məhsuldarlıq və biokimyəvi göstəricilərinə görə ən yaxşı nəticəyə malik olan Cəmilə sortudur. Digər perspektivli sortlar Flip11-40c, Flip11-22c, SHKB 1-119-dur. Bunlar perspektivli genotiplər kimi seleksiya məqsədilə gələcəkdə istifadə edilə bilər.

## YEKUN NƏTİCƏ

Tədqiqat işində əkilən noxud nümunələrinin məhsuldarlıq, keyfiyyət analizlərinin nəticəsi olaraq AZE 48, AG2724, Qaraca 50, CİAR 25, SHKB 1-60, CİAR 59, SHKB 1-119, Cəmilə, Flip 11-40c, Flip11-09c, Flip10-355c, Flip11-22c ən perspektivli sort nümunələr olaraq seçilib ayrılmışdır. Bu nümunələr gələcəkdə seleksiya proqramında yeni sortların alınmasında istifadə edilə bilər.

## MİNNƏTDARLIQ

Tədqiqat işinin aparılmasında əməyi olan Elmi-Tədqiqat Əkinçilik İnstitutunun "Dənin keyfiyyəti" laboratoriyasının müdiri, aqrar elmlər doktoru Qətibə Musa qızı Həsənova və laboratoriyanın bütün kollektivinə minnətdarlığımı bildirirəm.

## ƏDƏBİYYAT


1. Amod Madurapperumage. “Chickpea (*Cicer arietinum* L.) as a Source of Essential Fatty Acids” / Madurapperumage Amod., Tang Leung, Thavarajah Pushparajah [et al.] // Journal Plant Breeding, – 2021, 12, – p. 1-12.
2. Bulti Merga., Jema Haji., Fatih Yildiz. “Economic importance of chickpea (*Cicer arietinum* L.)” // Journal of Cogent Food & Agriculture, – 2019. – p. 1615718.
3. 3. Əmirov, L.Ə. Dənli paxlalı bitkilərin seleksiyası / L.Ə.Əmirov, Z.İ.Əkpərov, R.S.Mirzəyev [et al.] // Əkinçilik ET İnstitutunun elmi əsərləri məcmuəsi, – 2005. №21, – s. 55-59.
4. Fred, J. Muehlbauer., Ashutosh Sarker. “ The Chickpea Genome” // Compendium of Plant Genomes book series (CPG), – 2018. – p. 5-12.
5. Федотова, Л.С. Эффективность применения хелатов микроэлементов / Л.С.Федотова, С.А.Егоренко, Р.В.Гордеев [и др.] // ВНИИКХ. ООО «Элитные Агросистемы». Научная статья в Сибирском экологическом журнале, – 2008. №3, – с. 8-10.
6. Kali Kotsiou. “Physicochemical and functional aspects of composite wheat-roasted chickpea flours in relation to dough rheology, bread quality and staling phenomena”/ Kotsiou Kali., Sacharidis Dimitrios-Diogenis., Matsakidou Anthia [et al.] // Journal Food Hydrocolloids, – 2022, 124, – p. 107322.
7. Гусейнов, С.И. Засухоустойчивые и высококачественные образцы пшеницы // Azərbaycan Aqrar Elmi Jurnalı, – 2009. №1, – с. 58-59.
8. Matthew, G. Nosworthy. “Thermal processing methods differentially affect the protein quality of Chickpea (*Cicer arietinum*)” / Nosworthy, Matthew G., Medina Gerardo, Franczyk, Adam J [et al.] // Journal Food Science Nut, – 2020. – p. 2950-2958.
9. Mirzəyev, R.S., Əmirov, L.Ə., Cahangirov, A.A. Ərzaq-paxlalıları nümunələrinin quraqlığa davamlılığının öyrənilməsi // Azərbaycan Elmi Tədqiqat İnstitutunun elmi əsərləri məcmuəsi, – 2014. №25, – s. 152-155.
10. Mirzəyev, R.S., Əmirov, R.V., Şıxəliyeva, K.B. Perspektivli noxud və mərcimək nümunələrinin təsərrüfat əhəmiyyətli əsas göstəriciləri // ƏETİ-nin elmi əsərləri, – 2020. №1, – s. 43-47.
11. Никольский, В.М. Влияние хелатных соединений кобальта (II) на растения фасоли / В.М.Никольский, Т.И.Смирнова, О.В.Шилова [и др.] // Проблемы трансформации естественных ландшафтов в результате антропогенной деятельности и пути их решения «Сборник научных трудов по материалам Международной научной экологической 234 конференции, посвященной Году науки и технологий», – 2021. – с. 120-123.
12. Omprakash Maurya, Hemant Kumar. “Growth of chickpea production in India” // Journal of Pharmacognosy and Phytochemistry, – 2018, 7 (5), – p. 1175-1177.
13. Парахним, П.В. Зернобобовые културы / П.В.Парахним, И.В.Кобозев, И.В.Горбачев – М., Колос, – 2006. – 78-90 с.
14. Шилова, О.В., Смирнова, Т.И. Влияние хелатированного молибдена на урожайность гороха посевного // П 78 Проблемы и перспективы …, 2023 - vniimz.ru. «Проблемы и перспективы инновационного развития землепользования на мелиорированных ЗЕМЛЯХ», – 2023. – с. 225-234.
15. Вавилов, П.П. Бобовые культуры и проблемы растителъного белка / П.П.Вавилов, Г.С.Посыпанов – М., Росселъхозиздат, – 1983. – 256 с.

# STUDY OF YIELD AND BIOCHEMICAL PARAMETERS OF NEWLY INTRODUCED CHICKPEA (CİCER ARİETİNUM L.) GENOTYPES AND USE OF VALUABLE FORMS IN BREEDING

**M.R. Salmanova, S.G. Hasanova, R.I. Hasanova**

The research work includes yield parameters of 64 accessions introduced by ICARDA and conserved in the gene bank and the local variety of chickpea (Cicer arietinum.L) (st.Jamila), statistical analyses and their comparison based on the obtained results. The accessions were compared with the variety st.Jamila. The plant height (65-98 cm), the number of productive first and second nodes (2-1; 4-2 pcs) were determined. Number of beans per plant was 20-88, 100 seeds weight 24.2-42.4 g. Yield parameters of AZE 48, AG2724, Garaca 50, CIAR 25, SHKB 1-60, CIAR 59, SHKB 1-119 were higher than standard. Biochemical analyses were carried out on 15 selected samples from these accessions. The highest quantitative and qualitative parameters were observed in Jamila, Flip 11-40c, SHKB 1-119, Flip11-09c, Flip10-355c, Flip11-22c according to the analysis results.

**Keywords:** *protein, quality, fat, quantity*

# ИЗУЧЕНИЕ УРОЖАЙНОСТИ И БИОХИМИЧЕСКИХ ПОКАЗАТЕЛЕЙ ГЕНОТИПОВ НУТА (CİCER ARİETİNUM L.) ИНТРОДУЦИРОВАННЫХ ИЗ ИКАРДА И ИСПОЛЬЗОВАНИЕ ЦЕННЫХ ФОРМ В СЕЛЕКЦИИ

**М.Р. Салманова, С.Г. Гасанова, Р.И. Гасанова**

Научно-исследовательская работа включает параметры урожайности 64 образцов, интродуцированных из ИКАРДА и сохраняемых в Генбанке, и местного сорта нута (Cicer arietinum.L) (ст.Джамила), статистический анализ и их сравнение на основе полученных результатов. Образцы сравнивали со ст.Джамила. Определяли высоту растений (65-98 см), количество продуктивных первых и вторых узлов (2-1; 4-2 шт.), количество бобов на растении (20-88), масса 100 семян (24,2-42,4 ед.). Высокие по сравнении со стандартом показатели урожайности наблюдались у AZE 48, AG2724, Garaca 50, CIAR 25, SHKB 1-60, CIAR 59, SHKB 1-119. Биохимические анализы были проведены на 15 образцах, отобранных среди этих форм. По результатам анализа наиболее высокие количественные и качественные показатели наблюдались у ст.Джамиля, Flip 11-40c, SHKB 1-119, Flip11-09c, Flip10-355c, Flip11-22c.

**Ключевые слова:** *белок, качество, жир, количество.*

# HUMANİTAR ELMLƏRİ

**UOT: 94**
https://doi.org/10.59849/2409-4838.2024.2.41

# XIX ƏSR AZƏRBAYCAN QADINLARININ TƏHSİL VƏ MAARİFİN İNKİŞAFINDA ROLU

**Zəhra Məhərrəm qızı Qəniyeva**
AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, Azərbaycan
*zehra.qeniyeva@mail.ru

*Məqalədə Azərbaycan qadınlarının həyat və ictimai-siyasi fəaliyyətlərinə dair şərh verilmişdir. Müzakirə olunan əsas məsələlər, Azərbaycan qadınlarının məişət və siyasətdə tutduqları mövqe, maarif, təhsil məsələləri nümunə gətirilən qadınların simasında araşdırılır. Tədqiqatda qadınların maariflənməsinin, təhsilinin vacibliyi nəzərə çatdırılır. Azərbaycan gerçəkliyində, ictimai-siyasi həyatında həqiqətən də qadına və anaya yüksək qiymət verilmişdir. Cəmiyyətin idarə edilməsində, dövlətin formalaşmasında, eyni zamanda gənc nəslin tarixi ənənələr və müqəddəs amallar əsasında tərbiyə olunmasında qadının yüksək rolu danılmaz olmuşdur. Qadın hüququ, qadın təhsili ilə bağlı məsələlər hər bir dövlət üçün demokratizmin, cəmiyyətin ümumi inkişaf səviyyəsinin əsas meyarlarından biri sayılmışdır.*

*XIX əsr Azərbaycanın həyatında qadınların fəallığı və böyük yaradıcılıq uğurları ilə səciyyələnir. Həmin əsrdən Azərbaycanda baş verən siyasi, iqtisadi və mədəni proseslər qadınların maariflənməsi və ictimai həyatda daha fəal iştirak etməsinə güclü təkan verdi.*

*İlk olaraq XIX əsr tarixindən bəhs edilərək, ümumilikdə qadınlar haqqında danışılmış, daha sonra isə həmin dövr qadınlarının həyatı tədqiq edilmişdir. XIX əsrdən Azərbaycanda qadınların ictimai fəallığı daha artıq hiss edilməyə başlanmışdır. Eyni zamanda bu dövrdə təhsil qadınların həyatının bir hissəsi kimi təsvir olunur. Təhsilli qadın təhsilli millət, təhsilli nəsil deməkdir. Bir qadının təhsil alması onun cəmiyyət üçün savadlı övlad yetişdirməsinin əsas göstəricisidir. Ancaq təhsil qadınları irəliyə apara və problemlərini həll etməyə kömək edə bilər. Tədqiqat zamanı müxtəlif mənbələrə istinad edilmişdir.*

***Açar sözlər:*** *cəmiyyət, ailə, qadın, təhsil, transformasiya, tərəqqi*

Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar, onlar bizim nəslimizi artırırlar. Qadınlarla kişilərin bərabərliyinə gəldikdə, açıq demək lazımdır ki, qadınlar həmişə kişilərdən çox zəhmət çəkiblər. Qədim zamanlardan belə təsəvvür var ki, kişi işləyir, pul qazanır, ailəni saxlayır, qadın isə ev işi görür. Bu, belə olubdur. Amma indi belə deyildir. İndi kişi də işləyir, qadın da işləyir, kişi də qazanır, qadın da qazanır. Demək olar ki, ailəni ikisi birlikdə saxlayırlar, uşaqlarını böyüdürlər. Amma onların arasında böyük fərq var. Qadın uşaq doğur, körpə böyüdür. Qadının bu zəhməti əvəzsizdir və heç bir kişi belə zəhməti çəkə bilməz. Biz qadınları ilbəil daha da çox qiymətləndiririk. Bu da müəyyən qədər təbiidir. Çünki keçmişdə qadınlara olan münasibət dərin köklər salmışdı və bu dəyişiklikləri təmin etmək üçün zaman lazım idi. Bu zaman da, təbiidir ki, artıq gəldi və çatdı.

*HEYDƏR ƏLİYEV*

## GİRİŞ

Məişət həyatının mərkəzində yer alan sosial institutlardan biri ailədir. Qadın isə məişət, həmçinin ailə anlayışının mərkəzində yer alır. Bu iki termin (qadın və məişət) bəzən bir kimliyi əks etdirəcək qədər yaxındır.

Klassik Azərbaycan ailəsi ana-ata, uşaqlar və qan bağı olan əqrəbalardan ibarət idi. XVIII-XIX əsrlərdə yaşanan sosial və dini şiddətlənməyə qədər Azərbaycan ailəsi hüquqi, iqtisadi və sosi-

al cəhətdən qadın üçün qənaətbəxş idi. Dar ailə modelinin hakim olduğu klassik Azərbaycan ailəsində qadın evin təyinedici gücü hesab edilirdi. Şübhəsiz, kişi mərkəzli olan ailə həyatı, dövrün əcnəbi səyyahlarının da qeyd etdikləri kimi, bir çox hallarda kişi-qadın bərabərliyinə əsaslanırdı [9].

Tarix boyu bir fərd kimi hüquqlara sahib ola bilən qadınlar hal-hazırda da ən yüksək səviyyədə imkanlara malikdir. Hər kəs türk qadınlarının necə ziyalı, müdrik, ağıllı, cəsarətli, ən əsası namuslu olduğunu, tarixə qızıl hərflərlə ad salmış oğullar yetişdirdiyinin şahididir. Azərbaycanda ziyalı, vətənin adını daima ucaldan qadınlar çoxdur. Bugün Azərbaycanın ictimai həyatında qadınların rolu və mövqeyi getdikcə daha da artır. Qadınlar xalq təsərrüfatının müxtəlif sahələrində kişilərlə çiyin-çiyinə çalışaraq fədakarlıq göstərmiş, elmin, texnikanın, maarif və mədəniyyətin və s. sahələrin inkişafında əhəmiyyətli rola malik olmuşlar.

Məlum olduğu kimi, tarixin bütün mərhələlərində əsas rol oynamalarına baxmayaraq, qadınların kişilərlə hüquq bərabərliyi məsələsi müəyyən səbəblərdən əsrlər boyu həllini tapmaqda çətinlik çəkmişdir. Təsadüfi deyil ki, ilk beynəlxalq qadın təşkilatı yalnız XIX əsrin sonlarına doğru yarana bilmişdir. Şərq ölkələrində, o cümlədən Azərbaycanda qadın hərəkatının başlanması da təxminən həmin dövrə, XIX əsrin sonu-XX əsrin əvvəllərinə təsadüf edir. Məhz bu dövrdən etibarən Azərbaycanda qadın təhsili sahəsində ciddi uğurlar qazanılmışdır. XIX əsrin ikinci yarısında Azərbaycanın maarifpərvər ziyalıları və təhsilli qadınları artıq öz hesablarına Şamaxıda, Bakıda, Gəncədə, Şəkidə, Naxçıvanda xüsusi qız məktəbləri açmışdılar [3, 8].

XIX əsr Azərbaycanın həyatında qadınların fəallığı yaradıcılıq uğurları ilə səciyyələnir. Bu mənada Xurşidbanu Natəvanın, Ağa Bəyim Ağa Ağabacının, Qönçəbəyimin, Fatma xanım Kəminənin, Şahnigar xanımın, Qəmərbəyim Şeyda Qarabağinin və başqalarının yaradıcılığı diqqəti cəlb edir. Həmin əsrdən Azərbaycanda baş verən siyasi, iqtisadi, mədəni proseslər qadınların maariflənməsi və ictimai həyatda daha fəal iştirak etməsinə güclü təkan vermişdir.

Zaman keçdikcə, qadın təhsilinə diqqət daha da artmağa başlamış, elmdə, maarifdə qadınların mövqeyi, onların söz sahibi olmaları, nailiyyətləri yüksək qiymətləndirilmişdir. Bununla da qeyd edə bilərik ki, qadın təhsili sahəsində Azərbaycan ötən əsrdə də, indiki dövrdə də dünyada qabaqcıl sıradadır.

XIX əsrin əvvəllərində - 1846-cı ildə rus çarizmi tərəfindən Tiflisdə yaradılmış "Müqəddəs Nina" xeyriyyə cəmiyyəti məhz qadınların təhsilinə xüsusi diqqət yetirmişdir. Azərbaycanda yaradılmış bu cəmiyyət müxtəlif tədris müəssisələri açmağa başladı. "Müqəddəs Nina" Xeyriyyə cəmiyyətinin Şamaxı, Bakı, Gəncə və İrəvanda şöbələri yaranıb, fəaliyyətə başladı.

Qadınların maariflənməsinə xüsusi önəm verən dahi publisist Cəlil Məmmədquluzadə qadın təhsilini hər iki cinsin nümayəndəsi üçün vacib amil hesab edirdi. O, kinayə ilə "oğlanlarınızı oxutmayın" deyə müsəlmanlara xitab edirdi. Əslində isə pərdə arxasında "qızın da təhsil almasının vacibliyini bununla əsaslandırırdı ki, savadlı oğlan təhsilli qızla ailə həyatı qurmaq istəyəcək" [7]. Beləliklə də, bu fikirlə cəmiyyətin maariflənməsini, xüsusilə də, qadın təhsilini təbliğ və təşviq edirdi.

Qədim türklərin qadınlar barədə fikir və düşüncələri həmin dövrdəki əhvalatlar, kitabələr, əfsanələrdə öz əksini tapmış və müxtəlif əsərlər bu məzmunda mənbə kimi istifadə edilmişdir. Lakin onu da xüsusi vurğulamaq lazımdır ki, keçmişdə də qadına olan hörmət yüksək səviyyədə idi [4, 5].

Azərbaycanın aparıcı ziyalılarından olan Əhməd bəy Ağaoğlunun qadın və təhsil haqqındakı fikirlərini ümumiləşdirilmiş halda belə ifadə etmək olar ki, "müsəlmanların maddi, mənəvi, hətta siyasi tərəqqisinin həlli ilk öncə qadın məsələsinin həllinə bağlıdır. Qadın əsarəti islam aləminin ən həqiqi düşmənidir ki, onun müalicə olunmayan xəstəliyinin təsiri altında islam cəmiyyəti yavaş-yavaş məhv olur. Müsəlman qadını ancaq sərbəst və savadlı ana və həyat yoldaşı olduğu təqdirdə normal cəmiyyət formalaşa bilər".

Ağaoğlu islam düşüncəsində aparılacaq islahatlar və Qurana dönüş nəticəsində müsəlmanların yenidən islamın ilk qızıl dövrünə qayıdacaqlarına inanırdı. Ə. Ağaoğlunun bu fikirləri mütərəqqi din xadimləri tərəfindən də müdafiə olunurdu [6, s. 83]

N.Nərimanov qadınların təhsil almasının, ictimai işlərdə iştirakının hər zaman tərəfdarı olmuşdur. Onun bilavasitə yaxından köməyi ilə təşkil edilmiş qız məktəblərində təhsil alan yüzlərlə azərbaycanlı qız xalqın mədəni inkişafında böyük rol oynamışdır [2].

Azərbaycan Xalq Cümhuriyyətinin banisi M.Ə.Rəsulzadə müsəlman qadınlarının təhsil almasını hər şeydən vacib sayırdı. Ona görə yalnız təhsillə qadınlar öz haqlarını başa düşər və bunun ardınca, övladlarına da normal tərbiyə verə bilər.

Onun fikrincə, qadınları elmdən məhrum etmək əslində milləti kor qoymaqdır: "Bugün bizim üçün ibtidai ünas (qadın) məktəbləri ilə müslimə müəllimlərin əhəmiyyəti hər şeydən ziyadədir" [8, s. 49].

## ƏSAS HİSSƏ

XIX əsr Azərbaycanın maarifçi qadınlarından biri Səkinə xanım Bakıxanovadır. Səkinə xanım Azərbaycanın görkəmli şərqşünası, tarixçi alimi A.A.Bakıxanovun həyat yoldaşı olmuşdur. Dövrünün tərəqqipərvər və zadəgan qadınlarından olan Səkinə xanım 1807-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, Kəblə Hüseyn Ağanın (1776 - 1814) 1805-ci ildə evləndiyi ikinci arvadı Xurşid xanımdan olan qızıdır. Səkinə xanım Bakıxanova ailəsinə iki istedadlı, nəcib, ziyalı qız Bikə və Suğra xanımı bəxş etmişdir. F.B. Köçərlinin verdiyi məlumata görə, Suğra xanım Azərbaycan dilində lirik şeirlər yazmış, dövrünün şair qadınları arasında məşhur olmuşdur. Səkinə xanım haqqında professor Feyzulla Qasımzadənin "Abbasqulu Ağa Bakıxanov" (1956) kitabında və professor Camal Əhmədovun araşdırmalarında az-çox məlumata rast gəlirik. C. Əhmədov 1966-cı ildə "Azərbaycan qadını" jurnalında Səkinə xanım Bakıxanova haqqında dərc etdirdiyi məlumatında yazırdı: "A.A.Bakıxanovun zəngin kitabxanası onun sağlığında ikən geniş şöhrət qazanmışdır... Burada Şah Qasım Ənvarın, Caminin, Sahib Təbrizinin, Əlişir Nəvainin, Nizami Gəncəvinin və başqa mütəfəkkirlərin 253 nüsxədən artıq əlyazması olmuşdur. A.A.Bakıxanovun vəfatından sonra Səkinə xanım kitabxananı qoruyub saxlamış, onu Peterburq Elmlər Akademiyası kitabxanasına bağışlamışdır. Rusiya Maarif Nazirliyinin jurnalı 1852-ci ildə bu haqda yazırdı: "Polkovnik A.A. Bakıxanovun dul qadını Səkinə xanım əri öləndən sonra ondan qalmış Şərq dillərinə aid kitabları pulsuz olaraq Elmlər Akademiyasına bağışladığı üçün hədiyyə ilə mükafatlandırılıb". Bu, azərbaycanlı qadının nəcibliyini, xeyirxahlığını göstərən bir faktdır. Görünür, Səkinə xanım o dövrdə Azərbaycanda kitabxana, elmi mərkəz olmadığı və həyat yoldaşının uzun illərdən bəri topladığı kitabların, əlyazmaların itib-batmaması üçün onu təmannasız olaraq Peterburq Elmlər Akademiyasına təqdim etmişdir [1, s. 17].

Dövrün digər ziyalı qadınları sırasında Gövhər xanım İsmayılova – Qacarın adını qeyd etmək olar (1864-1924). Gövhər xanımın atası tacir olsa da tərəqqiyə meyil edən bir şəxs idi. Azərbaycanın böyük filosofu, dramaturq M.F. Axundov ilə dostluğu, ondan dərs alması Ağa Ələsgərin tezliklə Tiflisin mədəni mühitinə qaynayıb-qarışmasına kömək etmişdir. O, cəhalətpərəstlərin təzyiqinə, hədə-qorxusuna baxmayaraq üç qızını - Fərruxu, Sitarəni və Gövhəri o dövrün ən ali qız təhsil ocaqlarında oxutdurmuşdur. Fərrux və Sitarə Tiflisdə Zaqafqaziya Qızlar İnstitutunda, Gövhər isə Sankt-Peterburqda Nəcib Qızlar İnstitutunun nəzdində olan xüsusi kursda təhsil almışlar. Azərbaycanın bu ilk ali təhsilli qızları milli mədəniyyətin inkişafında xüsusi rol oynamışlar [5, s. 65].

Qadın ziyalılar sırasında özünəməxsus yer tutan qadınlardan biri də Qarabağ xanlarının zadəgan nəslinə mənsub olan, Əhməd bəy Cavanşirin qızı Həmidə xanım (1873-1955) Cavanşir Məmmədquluzadədir. Həmidə xanım Məmmədquluzadə XVIII əsrin II yarısında Qarabağda hökmranlıq etmiş İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşirin (1756-1797) nəvəsi Əhməd bəy Cavanşirin (1828-1903) qızıdır. Həmidə xanım 1873-cü il yanvar ayının 6-da Ağcabədi rayonunun Kəhrizli kəndində doğulmuşdur. Uşaqlıq illərində heç bir rəsmi məktəbdə təhsil almamış, Azərbaycan və rus dillərində oxuyub-yazmağı atasından öyrənmişdir. Sonralar Həmidə xanım şəxsi mütaliə vasitəsilə savadını artıraraq zəmanəsinin ən qabaqcıl ziyalılarından biri olmuş, Azərbaycanın ictimai-siyasi və mədəni həyatında fəal iştirak etmişdir. Atası Əhməd bəy Cavanşir kimi Həmidə xanımın da tərcümeyi-halı vaxtilə ətraflı tədqiq edilməmişdir.

Dövrünün açıqfikirli qadınlarından olmuş Qönçəbəyimin doğum tarixi ehtimala əsasən 1827-ci il hesab edilir. Amma vəfat etdiyi il tarixə məlum deyil. Ümumiyyətlə, bu şairənin həyat və fəaliyyəti barədə məlumat çox azdır.

Qönçəbəyim haqqında ilk məlumata gürcü şairi Barataşvilinin 1845-ci ildə Naxçıvandan dayısı qızı Maiko Orbelianiyə yazdığı məktubunda, M.Nəsirlinin, L.Hüseynzadənin tədqiqatlarında, D.Əliyevanın "Elm və həyat" jurnalında çap etdirdiyi məqaləsində (1969, №2), yazıçı Ə.Cəfərzadənin tərtib etdiyi "Azərbaycanın aşıq və şair qadınları" kitabında (1974) rast gəlirik.

1827-ci ildə sarayda Ehsan xanın körpəsi dünyaya gəlmişdir. Xan onu baharın eşqinə Qonçabəyim adlandırdı. Elin başbilənləri, ağsaqqalları körpənin baxışındakı təbəssümdən, üzündəki pərişanlıqdan onun şairə olacağını, sevmədiyinə verilib butasından uzaqlarda qalacağını, əllərinin içindəki yazılardan uzaq yollar yolçusu olacağını söylədilər. Qonçabəyim könülləri ovsunlayan, dillərdə dastan olan misraları ilə dillər əzbəri olmuşdur. O, 12 yaşında ikən saray qanunlarına uyğun olaraq Şamil xana gəlin köçür. Ömrünün sonuna kimi nisgilli bayatılar, qoşmalar düzən Xan qızının sevgisindən sonda "Şahzadə İbrahim" dastanı yaranır. Ağlı, istedadı, nəzakəti, müdrikliyi, yüksək saray mədəniyyəti, lirik şeirləri ilə dövrünün iki məşhur simasını A.Qriboyedovu və Barataşvilini heyran edən Qonçabəyim onların vasitəsilə zamanında Gürcüstanda və Rusiyada da məşhurlaşır.

Məşhur Kəngərli nəslindən olan Qönçəbəyimin uşaqlığı çarizmin Azərbaycanı işğal etdiyi ilk illərə təsadüf etmişdir. O, 1837-ci ildə Naxçıvanda açılmış rus qız məktəbində oxumuş, rus və fars dillərini öyrənmiş, Şərq poeziyası ilə maraqlanmış, şeirlər yazmışdır.

Naxçıvanda "Qönçeyi-ülfət" məclisinin üzvü olan Qönçəbəyim Ehsan xan Kəngərlinin qızı idi. Ş.Nəzirli yazır ki, o zaman Naxçıvanda "mahal rəisi yanında məmur" işləyən gürcü şairi Nikoloz Barataşvili dayısı qızına yazdığı bir məktubda Qönçəbəyimdən bəhs edib: "İndi Naxçıvanda yeni bir şeir var. Bu, 18 yaşlı Qönçəbəyimin şeirləridir. Xan qızıdır. Olduqca gözəl və vüqarlı görkəmi var. Təsəvvür edin, gözəllikdə lap Orlovun arvadına oxşayır. Ərindən çox yanıqlıdır. İndi ərindən ayrılıb, çalışır ki, boşansın. Yazıq qızın 12 yaşı olanda zorla ərə veriblər. Bunların əhvalatı bir romandır".

Professor Əzizə xanım Cəfərzadə qeyd edir ki, rus yazıçısı A.Qriboyedov və Barataşvili Ehsan xanın qonağı olarkən Qönçəbəyimlə maraqlanmış, onun ağlına və istedadına yüksək qiymət vermişlər. Barataşvili onun şeirlərini gürcü əlifbası ilə köçürüb, gürcü dilinə tərcümə edilmək üçün Tiflisə göndərmişdi [5].

Azərbaycan mədəniyyətinin özünəməxsus gözəlliyinin bir cəhəti də odur ki, klassiklərdən üzü bəri hər bir tanınmış kişi dahilərin ömür-gün yoldaşları əsl Azərbaycan xanımlarına xas olan səbrli, iradəli, təmkinli, ismətli olmaları və xanım-xatınlıqları ilə bir çox millətlərin qadınlarından seçiliblər. Belə xanımlardan onlarla, yüzlərlə misal göstərmək mümkündür. Mişkinaz xanım da belələrindəndir.

Hüseyn Cavidin ömür-gün yoldaşı Mişkinaz xanım Hüseyn Cavidin həbsindən sonra tikiş artelində işləmiş, mənzilləri əllərindən alınmış, məşəqqətli günlər yaşamışdır. Lakin bu qeyrətli qadın bütün əzab-əziyyətlərə mərdliklə sinə gərərək dahi ərinin şərəf və ləyaqətini uca tutmuşdur.

Hər bir cəmiyyətin xoşbəxt sabahı onun qadınlarından asılıdır. Bugün Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi dövlətin uğurlu, xoşbəxt sabahına, xalqın firavanlığına ən ciddi təminatlardan biridir. Respublikada bərqərar olan demokratik mühit ölkə qadınlarının zəngin potensialının gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaradır. Azərbaycan dövlətinin qadınlarla bağlı həyata keçirdiyi siyasət hər cür ayrı-seçkiliyi aradan qaldıraraq, qadınların bərabər hüquqlarını və bərabər imkanlarını təmin etməyə yönəlmişdir. Əminliklə demək olar ki, bu siyasət daimi və dönməz səciyyə daşımaqla, bütövlükdə qadınların cəmiyyətdə layiqli mövqeyini hər zaman qoruyub saxlamağa imkan verəcəkdir.

**YEKUN NƏTİCƏ**

Qadın cəmiyyətin tərbiyəçisi adının halal haqqını qazanıb. Odur ki, Azərbaycan qadınları tarixən özünün nəcibliyi, şərəfi, mərdliyi və məğrurluğu ilə hər zaman ucada dayanıb. Elə sözün, fikrin əsl mənasında da qadın bir çox xüsusiyyətləri iradəli, qətiyyətli olması, xeyirxahlığı ilə həqiqətən üstün mövqedədir. Qədim və orta əsrlərə nəzər saldıqda, müasir dövrdə Azərbaycan qadınının statusunun transformasiyaya məruz qaldığını görürük. Məhz bu transformasiya müsbət xarakterli olub, cəmiyyətin qadına qarşı fikrinin dəyişməsinə səbəb olmuşdur. Buna nümunə olaraq, Şərqdə ilk dəfə Azərbaycan qadınlara səsvermə hüququ vermiş, xalqın taleyüklü məsələlərinin həllini qadınlara da həvalə etmişdir.

## ƏDƏBİYYAT

1. Əhmədov, C. Səkinə xanım Bakıxanova: [A.Bakıxanovun həyat yoldaşı haqqında] // – Bakı: Azərbaycan qadını, – 1966. – №8, – 17 s.
2. Əhmədov, H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi / H.M.Əhmədov. – Bakı: Elm., – 2001. – 320 s.
3. Həsənova, V. Azərbaycanın milli dövlətçilik tarixində görkəmli qadınlar / V.Həsənova. – Bakı: İmakofset, – 2008. – 211 s.
4. Hidayətqızı, S. Yüz türk qadını. Sarı sim.-Yüz türk qadını. Sarı sim.- I Kitab / S.Hidayətqızı. – Bakı: Apostroff, – 2012. – 320 s.
5. Məmmədov, S.G. Qadın, gözəllik və ülviyyət. (Ensiklopedik toplu) / S.G.Məmmədov. – Bakı: Azərbaycan nəşriyyatı, – 2001. – 336 s.
6. Mir Məhəmməd Kərim., Mircəfər əl-Bakuvi., Kəşfül-Həqayiq // [3 cilddə] – Bakı: İpəkyolu, – 2014. – 693 s.
7. Oğlanlarınızı oxutmayın [Mətn] / İmzasız // Molla Nəsrəddin, – 1907.
8. Rəsulzadə, M.Ə Əsərləri (1909-1914) / – Bakı: Şirvannəşr, – 2001. – 528 s.
9. Erkül, Ali. Eski Türklerde Aile / Ali, Erkül. – Ankara: Yeni Türkiyə Yayınları, – 2002. – 98 s.

## THE ROLE OF 19TH CENTURY AZERBAIJANI WOMEN IN THE DEVELOPMENT OF EDUCATION AND KNOWLEDGE

**Z.M. Ganiyeva**

The article contains comments on the life and socio-political activities of Azerbaijani women. The main issues discussed, the position of Azerbaijani women in way of life and politics, education and upbringing are dealt with in the person of women. he study takes into account the importance of enlightenment, education of women. In the social and political life of Azerbaijan, women and mothers are highly valued. The high role of women in the management of society, in the formation of the state, and at the same time in educating the young generation based on historical traditions and sacred practices, has been undeniable. Issues related to women's rights and women's education are considered one of the main criteria of democracy and the general level of development of society for each state.

The 19th century was characterized by women's activity and great creative achievements in the life of Azerbaijan. The political, economic and cultural processes that took place in Azerbaijan from that century gave a strong impetus to women's education and more active participation in public life.

Firstly, the history of the nineteenth century was told, it talked about women and then explored the lives of women of the time. Since the 19th century, women's social activity has been increa-

singly felt in Azerbaijan. At the same time, education during this period is described as part of women's lives. An educated woman means an educated nation, an educated generation. The fact that a woman is educated is a major indicator that she is raising educated children for society. But education can move women forward and help them solve their problems. Various sources were used in the course of the study.

**Keywords:** *society, family, woman, education, transformation, progress.*

## РОЛЬ АЗЕРБАЙДЖАНСКИХ ЖЕНЩИН XIX ВЕКА В РАЗВИТИИ ОБРАЗОВАНИЯ И ЗНАНИЙ

**З.М. Ганиева**

Статья содержит комментарии о жизни и общественно-политической деятельности азербайджанских женщин. Основные обсуждаемые вопросы, положение азербайджанских женщин в быту и политике, образование и воспитание рассматриваются в лице женщин. исследовании учитывается важность просвещения, образования женщин. В общественно-политической жизни Азербайджана высоко ценятся женщины и матери. Высокая роль женщин в управлении обществом, в формировании государства и одновременно в воспитании молодого поколения на основе исторических традиций и сакральных практик неоспорима. Вопросы, связанные с правами женщин и женским образованием, считаются одним из главных критериев демократии и общего уровня развития общества для каждого государства.

XIX век характеризовался женской активностью и большими творческими достижениями в жизни Азербайджана. Политические, экономические и культурные процессы, происходившие в Азербайджане с того столетия, дали мощный толчок образованию женщин и более активному участию в общественной жизни.

Сначала была рассказана история девятнадцатого века, в ней говорилось о женщинах, а затем исследовалась жизнь женщин того времени. Начиная с XIX века, в Азербайджане все больше ощущается социальная активность женщин. В то же время образование в этот период описывается как часть жизни женщин. Образованная женщина - это образованная нация, образованное поколение. То, что женщина образована, - главный показатель того, что она воспитывает образованных детей для общества. Но образование может продвинуть женщин вперед и помочь им решить свои проблемы. В ходе исследования были использованы различные источники.

**Ключевые слова**: *общество, семья, женщина, образование, трансформация, прогресс*

**UOT: 811.512.162**
https://doi.org/10.59849/2409-4838.2024.2.47

# SUBYEKTİV MODALLIQ: NİDALARIN SUBYEKTİV MODALLIĞIN YARANMASINDA ROLU

**Könül Aydın qızı Məmmədova**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
*konulkokoromemmedli@gmail.com

*Modallıq danışanın ifadə etdiyi fikrə münasibətini, ifadə olunan fikrin obyektiv reallığa münasibətini əks etdirən qrammatik-semantik kateqoriyadır. Modallıq obyektiv və subyektiv olmaqla iki növə bölünür. Subyektiv modallıq danışanın təsvir olunan fakt və hadisələrə qiymətidir; əminliyinin, əminsizliyinin, razılığının, narazılığının, narahatlığının, müsbət və mənfi qiymətləndirilməsidir. Kommunikativ aktın iştirakçısı öz niyyətinə və emosional vəziyyətinə uyğun olaraq nitqində ötürülən məlumatın müxtəlif modal qiymətləndirilməsini həyata keçirir və emosional reaksiyalarını bildirir. Modal reaksiyalar danışanın emosional vəziyyəti ilə sıx bağlıdır. Dildə emosionallığı bildirən, hiss və duyğuları ifadə edən dil vasitələrindən biri və ən əsası nidalardır. Nidalarda subyektin obektə münasibəti əks olunur. Nidalar hiss, həyəcan bildirməklə yanaşı, cümlə daxilində fikrə şəxsin münasibətini bildirmiş olur. Nidalar cümlənin ekvivalenti kimi onun modal komponenti, tərkib hissəsi qismində çıxış etmək imkanına malikdir.*

***Açar sözlər:*** *subyektiv modallıq, emosiya, nida, modal sözlər*

## GİRİŞ

Modallıq danışanın ifadə olunan fikrə münasibətini, ifadə olunan fikrin obyektiv reallığa münasibətini əks etdirən qrammatik-semantik kateqoriyadır. Modallıq ətrafı tanımaq zərurətindən və mümkünlüyündən bəhs edən semantik anlayışdır. Bu bir çox alimlərin diqqətini çəkən mürəkkəb semantik kateqoriya imkan, vaciblik, mümkünlük, öhdəlik, icazəlik, məqsədəuyğunluq, müəyyənlik, zərurət və s. ilə bağlıdır. Demək olar ki, həyatımızdakı bir çox ifadələr modallıqla əlaqələndirilir. Ənənəvi və müasir dilçilik ədəbiyyatlarında ən mühüm sintaktik kateqoriya kimi modallıq kateqoriyası məsələsi geniş və hərtərəfli işıqlandırılmışdır. Modallıq kateqoriyasının tədqiqi çərçivəsində tədqiqatçılar danışanın şəxsiyyəti probleminə müraciət edərkən onun kommunikativ əhəmiyyətini vurğulayırlar. Bu kommunikativ mövqe ifadənin subyektivliyinin əsas amili kimi çıxış edir.

XX əsrdən XXI əsrin əvvəllərinə qədərki elmi araşdırmalar özünün antroposentrik istiqaməti ilə xarakterizə olunur. Müasir dilçilik dili yalnız daxili qayda-qanunları ilə deyil, eyni zamanda, insanla, onun qavrayışı, düşüncəsi, daxili aləmi və mədəniyyəti ilə qırılmaz vəhdətdə öyrənir. Dil həm insanlararası kommunikasiya, həm də insanın özünün və ətrafının əksolunma vasitəsidir. Belə ki, insan ətraf aləmdə baş verənləri öz həyat təcrübəsindən keçirərək bu proseslərə münasibət bildirir. XIX əsrdə yaşamış V.F.Humbolt da qeyd edir ki, insanın bütün digər fəaliyyətlərində olduğu kimi hisslər də dilə nüfuz edərək özünü büruzə verir [10, s. 399].

## ƏSAS HİSSƏ

Dilçilər modallığı obyektiv və subyektiv olaraq diferensiallaşdırırlar. Lakin onların arasında fərqli fikirlər də mövcuddur. Bəziləri hesab edirlər ki, modallığın yalnız bir növü var və bu bölgülər arasındakı bərabərlikdə tərəddüd edirlər. Digərlərinə görə, obyektiv və subyektiv modallıq vəhdət şəklində cümlədə təşəkkülünü tapır. Bir qisim dilçilər düşünür ki, subyektiv modallıq mətnin ilk yox, sonrakı cümlələrində ortaya çıxır. Dildə hər şey insandan gəlir və insana ünvanlanır. Bununla yanaşı, bizi dilin subyektiv təbiətinə yönləndirərək subyektiv modallığın üstünlüyünü önə çəkənlər də az deyil.

Dilçilərin bir qismi hesab edir ki, subyektiv modallıq obyektiv reallığın insan təfəkküründə əksidir. Hər bir fərd obyektiv reallığa münasibət göstərir və onu subyektivləşdirir. Bunları əsas götürən dilçilər obyektiv modallığın mövcudluğunu bir kənara qoyurlar. Modallıq emosionallıq və qiymətləndirmə kateqoriyaları ilə sıx bağlıdır. Hətta onların sərhədlərini müəyyənləşdirmək bəzən çətinlik törədir. Bu kateqoriyalar subyektiv modallıqla əlaqəlidir. Bir kateqoriya kimi qiymətləndirmənin rolu danışanın münasibətinin reallığa ötürülməsindən ibarətdir.

V.Z.Panfilova görə, subyektiv modallıq danışanın ifadə olunmuş fikrə münasibətini göstərir və daha dəqiq desək, onun necə qiymətləndirildiyini əks etdirir [9, s. 37]. Subyektiv modallıq danışanın və ya obrazın təsvir olunan fakt və hadisələrə qiyməti, əminliyinin, əminsizliyinin, razılığının, narazılığının, narahatlığının, müsbət və mənfi qiymətləndirməsinin ifadəsidir. Kommunikativ aktın iştirakçısı öz niyyətinə və emosional vəziyyətinə uyğun olaraq nitqində ötürülən məlumatın müxtəlif modal qiymətləndirilməsini (etibarlılıq, etibarsızlıq, reallıq, qeyri-reallıq, istək, imkan, öhdəlik və s.) həyata keçirir və nitq obyektinin təsnifatının qiymətləndirmə dərəcələri üzrə yaxşı və ya pis və onlarla əlaqəli kommunikatorların emosional reaksiyalarını bildirir. V.Z.Panfilov subyektiv modallığa xas olan qiymətləndirici elementin əhəmiyyətini vurğulayır [9, s. 38]. Subyektiv modallıqda danışanın ifadə olunan fikrə inamı, inamsızlığı, deyilən fikirlə razılaşıb, razılaşmamağı və s. öz əksini tapır. Subyektiv modallıq obyektiv reallığın konkret fərdin təfəkküründə əksidir. Mənimsəmə konkret şəxsin bilik səviyyəsindən, məntiqi-psixoloji təfəkkür tərzindən, yaddaşından və s. amillərdən asılı bir yaradıcı prosesdir. Obyektiv reallığın əksi, qavranılması, mənimsənilməsi həmişə subyektivdir. Obyektiv reallığa münasibət fərd tərəfindən bildirilir [2, s. 20].

Subyektiv modallıq anlayışını geniş araşdıran fransız alimi Ş.Ballinin fikrincə, subyektiv modallıq söyləmin əsas əlaməti olaraq yaranır. Bu modallığın əsasında dəyərləndirmə anlayışı gizlənir.

Y.R.Taqiltsyevanın fikrincə, subyektiv modallıq fikir subyekti tərəfindən ötürülən situasiyanın əks olunmasının adekvatlığının qiymətləndirilməsini ifadə edir [2, s. 19]. Yəni danışanın nöqteyi-nəzərindən söyləmin məzmununa etibarlılıq dərəcəsini göstərə bilir. Subyektiv modallıq bizə kommunikasiya aspektində hökmləri nəzərdən keçirməyə imkan verir. O, danışanın daxili vəziyyətinin (aləminin) ötürülmə vasitəsidir, bu da geniş mənada daxili aləmin dil vasitələri ilə açılması deməkdir. Bu kateqoriyası özündə fikir cəhətdən yaxın, lakin müxtəlifçalarlı bir neçə məna daşıya bilər.

Subyektiv modallıq cümlə, mətn fraqmenti və ya bütöv mətn səviyyəsində araşdırıla bilər. Mətn modallığı müəllifin reallığa olan ümumi münasibətini ifadə edə bilir. Müəllif modallığının subyektiv modallıqdan fərqi odur ki, subyektiv modallıq cümlə səviyyəsində reallaşa bilmək imkanına malikdir. Bu növ modallıqlar üçün oxşar olan xüsusiyyət kimi danışan (və ya müəllif) münasibətindən yaranan qiymətləndirmə komponentini göstərmək olar. Subyektiv modallıq cümlədə özünü əks etdirir, sintaktik kateqoriya kimi cümlənin vacib əlamətlərindən birinə çevrilir, onun semantik yükünü müəyyənləşdirir.

N.E.Petrov modallıqda emosional münasibətin olduğunu qeyd edir. O, bura qorxu, məyusluq, sevgi, tərif, ironiya, nifrət və digər emosiyaları daxil edir [2, s. 28].

E.M. Qalkina Fedoruk qeyd edir ki, subyektin xüsusiyyətini, onun emosiya keçirmək və ifadə etmək kimi cəhətlərini özündə əks etdirən emosionallıq nitq materialı ilə danışan arasındakı subyektiv modallıq münasibətlərində ifadə olunur [7, s. 102]. Dilçilikdə bəzi fikirlər vardır ki, ötürülənə emosional münasibət elə modallıqdır və subyektiv modallıq ötürülən fikrə emosiyaların ekspressiv münasibətidir.

Beləliklə, bir çox dilçilər modallıq və emosionallığın sərhədlərini müəyyənləşdirərkən nitq predmetinə danışanın emosional münasibətinin olduğunu qeyd edirlər. Bu da emosionallığın modallıq kateqoriyasına aidliyini müəyyənləşdirir. Subyektiv modallıq təbii dildə həqiqətən mövcud olan danışanın fikrə subyektiv münasibətinin emosioal-ekspressiv çalarlarını (inam, etiraz, şübhə, təəccüb, ironiya və s.) əhatə edir.

Dilçilikdə fikrə münasibətdə hiss, duyğuların da əks olunduğunu, kədər, sevinc, qəzəb, təəccüb, qorxu və digər emosional-ekspressiv səciyyəli ifadələri modallığı yaradan vasitələr arasında heç bir əlaqə olmadığını qeyd edənlər də vardır.

Modallıq özündə kommunikativ modusları əhatə edir: danışanın, biliyin, fikrin, qiymətləndirmənin modusu. Linqvistik modallıq məntiqi modallığın əsasında olur. Modallıq münasibətin ifadəsi kimi öz təbiətinə görə qiymətləndirici və subyektivdir, belə ki, o, subyektdən asılıdır və onun tərəfindən yönləndirilir.

Modal reaksiyalar danışanın emosional vəziyyəti ilə sıx bağlıdır. Nitq predmetinə danışanın emosional münasibətinin əks olunduğu emosional-ekspressivlik insanı əhatə edən ətraf aləmə münasibətin xüsusi spesifik forması hesab olunur, bu da modallıq kateqoriyasında emosional-ekspressivliyin vacib olduğu qənaətinə gəlməyə imkan verir. Modallıq və emosionallıq bir bütövün tərkibi şəklində iştirak edirlər.

Modallığın özündə bir-biri ilə əlaqəli iki növ ifadə olunur: obyektiv və subyektiv. Başqa sözlə desək, daxili və xarici modallıq. Daxili modallıqdan fərqli olaraq, xarici modallıq nitq predmetinə emosional münasibəti reallaşdıran bütün propozisiyaya aiddir. Nitq predmetini müəyyənləşdirərkən daxili modallıq, emosional münasibəti müəyyən edərkən isə xarici modallıq dominant olur.

Emosiyaların yaranmasından əvvəl çox vaxt hər hansı əşyanın vəziyyətinin qavranılması, subyekt üçün onun yaxşı və ya pis kimi intellektual dəyərləndirilməsi (qiymətləndirilməsi) lazım gəlir. Bunlar emosiyaların modallığını izah edir. Bundan başqa, bir çox nitq aktları müxtəlif növ emosiyalarla və ya adresatda müəyyən emosiyalar oyatmaq arzusu ilə formalaşır.

Dilçilikdə danışanın emosiyalarının ifadəsi situasiyalarında dinləyənin mütləqiyyəti və ya fakültətivliyi ilə bağlı müxtəlif fikirlər vardır. Ş.Balli hesab edir ki, affektiv söyləmlərin vacib olan məqsədlərindən biri danışanın subyektiv (daxili) aləmini ifadə etmək və ya dinləyənə təsir etmək üçün lazımi dil vasitələrindən istifadə etməkdir.

Dilçilərin bir çoxu bu qənaətə gəlir ki, emosiyalar dildə onun formaları ilə ifadə olunur, bu bilavasitə (siqnal şəklində) deyil, dolayı yolla vəziyyətlərin təsviri şəklində ifadə olunur.

Dil nəinki təfəkkür elementlərini, həmçinin hissləri, duyğuları da ifadə edə bilir. Emosionallıq ifadə edən dil vasitələrini intellektual nitqdən ayrı təsəvvür etmək düzgün deyil. Danışan düzgün anlaşılmaq və adresata təsir etmək istəyir.

Dildə emosionallığı bildirən, hiss və duyğuları ifadə edən dil vasitələrindən biri və hətta ən əsası nidalardır. Nidalar öz növbəsində subyektin emosional vəziyyətini təsvir etmir, ona siqnal verir.

Hər hansı bir dildəki nida həmin xalqa mənsub olan kollektiv tərəfindən başa düşülən kommunikativ məzmuna malikdir.

Nidalar qeyd etdiyimiz kimi, hiss və duyğuları ifadə edən sözlərdir və çoxmənalılığa malikdir. K.Hacıyev ″Azərbaycan dilində xüsusi nitq hissələri″ kitabında modal sözlərdə olduğu kimi nidalarda da cümlənin daxilində danışanın öz fikrinə münasibət bildirmə xüsusiyyətinin olduğunu qeyd edir. Lakin onun fikrincə, nidalar bunu birbaşa deyil, dolayı yolla ifadə edir [4, s. 165]. İ.İ.Meşaninov qeyd edir ki, cümlənin ayrılmış üzvlənməyən hissəsi cümlənin digər üzvləri arasındakı əsas münasibətləri dəyişmir. Onlar cümlənin əsas sərhədlərini təşkil edən hissələrinə daxil deyil. Onların vasitəsilə bütünlükdə söyləmin ümumi koloriti, ekspressivliyi və s. verilir. Belə hisslərlə danışan münasibətini və ya emosional-iradi ifadəsini ötürür. Onlar verilmiş nitq seqmentinin ümumi ideyasını ümumi kontekstin məzmununun ideyası ilə birbaşa əlaqədə olaraq öz semantik mənalarını qoruyub saxlayırlar. Tədqiqatçının fikrincə, emosional-iradi məna daşıyan köməkçi sözlərə nidaları aid etmək olar. O, bunların cümlənin əsasında yalnız heç bir üzvü ilə əlaqəsi olmadığını, ümumilikdə bütöv cümlənin məzmununa aid olduğunu qeyd edir [9, s. 158 ].

Təcrid olunmasına baxmayaraq, nidalar bütöv söyləmin ümumi mənası ilə əlaqəli olur, cümlənin ümumi məzmununa uyğun olaraq istifadə olunur. Bununla yanaşı, dil materiallının təhlili göstərir ki, emosional çalarlar, danışanın iradi xüsusiyyətlərini göstərməklə yanaşı, həmçinin cümlənin

modal imkanını da inkişaf etdirir. İ.R.Qalperin vurğulayır ki, söyləmin subyektiv qiymətləndirici modallığının birbaşa və bilavasitə ifadəçisi kimi nidaları da qeyd etmək lazımdır.

Vacib olan məqamlardan biri də belə söyləmlərdə subyektiv modal mənaya uyğun intonasiyanın verilməsidir. Məhz intonasiya bu dil vasitələri ilə birlikdə semantikanın (inam, inamsızlıq, şübhə, razılıq və s.) modal ifadə vasitəsi hesab edilir. V.V.Vinoqradovun qeyd etdiyi kimi, bəzi affektiv söyləm tiplərində ötürülənin qrammatik, leksik-semantik ayrılmazlığında intonasiya onların mənasını müəyyən etməkdə əsas rol oynayır [6, s. 58 ].

Nidalar semantik cəhətdən çoxmənalılıq ifadə edə bilir və buna görə də onların dəqiq semantik mənalarının aydınlaşmasında mətn, intonasiya mühüm rol oynayır.

M.Hüseynzadə nidaların subyektin daxili aləmi ilə bağlı olduğunu, hiss və həyəcanını, duyğularını, istək və arzularını, hiddət və nifrətini, coşğunluğunu, nəşə və kədərini təzahür etdirən vasitə olduğunu göstərir [ 5, s. 273-274 ].

Nidalarda subyektin obyektə münasibəti əks olunur. Nidalar hiss, həyəcan bildirməklə həmçinin cümlə daxilində sözü gedən məsələyə də şəxsin münasibətini bildirmiş olur. Morfoloji əlamətə malik olmayan nidalar söz-cümlə funksiyasında işlənə bilir. Bu xüsusiyyəti, yəni cümlə şəklində çıxış edə bilməsi onun həm də cümlənin əsasını təşkil edən xüsusiyyətlərdən biri olan modallıq bildirməsi deməkdir.

İnsan hiss, duyğularını bildirərkən bunlar əvvəlcə insanın beynində şüurlu surətdə yaranır. K.Hacıyev bununla bağlı yazır ki, nidalar ixtiyari, şüurlu söylənilir və anlaşmaya, ünsiyyətə xidmət edir, bununla yanaşı ekspressiv funksiya daşıyır [3, 4, s. 158].

Modal məna daşıyan nidaların istifadəsi subyektiv modallığın semantik sahəsi və emosiyaların semantik sahələrinin kəsişmə zonasını əhatə edir. Burada da V.V.Vinoqradovun nidalar və modal sözlərin yaxınlığı məsələsi haqqında dediyi sözlərə diqqət yetirsək, görərik ki, o, güclü subyektiv çalarlığına görə modal sözləri və nidaları yaxınlaşdırır [6, s. 67]. Nidaların bəzi hallarda yalnız emosional deyil, həm də modal keyfiyyətlər daşıması adresatın iştirakının vacib olduğu nitq situasiyasının xarakteri ilə bağlıdır. Nitqin dialoji xüsusiyyəti nidaların həmsöhbəti danışanın ehtiyac duyduğu qiymətləndirmələr dairəsinə cəlb etməsinə, əlaqə funksiyasını yaratmasına xidmət edir. Danışanın fikrə münasibəti çoxşaxəliliyi, mürəkkəbliyi ilə seçilir. Onun məzmununa və ifadəsinə nitq situasiyasının izi, ünsiyyətin forması, nitqin növü və s. yerləşdirilir (yəni adresatın iştirak edib və ya etməməyi (dialoq-monoloq) onun yaxınlığı və ya uzaqlığı, fəal və ya qeyri-fəallığı).

Nidaların modal funksiyalarını daha geniş tədqiq edən İ.R.Qalperin qeyd edir ki, nida bir nitq hissəsi kimi hissləri birbaşa deyil, şüurumuzdan keçən bir proses kimi hisslər haqqında məlumatı çatdırır. Bu spontanlığın deyil, dil vasitələrinin istifadəsinin məqsədyönlülüyünün sübutudur. Nida öz mənaları ilə nəinki cümləni, bütövlükdə söyləmi bəzəyir. Bununla yanaşı, təkrarlanaraq fikrə müəllif subyektiv-qiymətləndirici münasibətini ifadə etməyə başlayır və bununla da mətnin modallıq kateqoriyasına çevrilir. Emosionallıq bildirən nidalar mətn daxilində modallığın ifadə vasitəsi kimi çıxış edir. Bu nidalar vasitəsilə müsbət və mənfi modal mənalar ifadə oluna bilir: ağrı, heyranlıq, heyrət, bezdirmə, məyusluq, rəğbət, nəzakət, etiraz, istehzalı münasibət, qəzəb qorxu, çaşqınlıq, qıcıqlanma və s. Bəzən eyni nida müxtəlif kontekstlərdə müsbət, həm də mənfi modal mənalar ifadə edə bilir. Qeyd etmək lazımdır ki, bu modal mənalar çox vaxt leksik vahidlər və intonasiya ilə birgə fəaliyyət göstərir. Bəzən dilçilikdə bunları polimodal vasitələr də adlandırırlar. Nidalar implisit modal ifadə vasitəsi olmaqla yanaşı, bəzən qəsdən nidaların istifadəsi mətnin gizli mənasını açmağa kömək edir. Cümlənin modal mənaları danışanın, yazıçının mətndə təsvir olunan nitq situasiyasiyasının emosional reaksiyasıdır. Nidaların iştirak etdiyi cümlələrdə söyləmin məzmunu subyektin nitqinin emosional münasibətini göstərir. Subyektiv nitq situasiyasının müxtəlifliyi emosional nidaların fərqli mənalılığından irəli gəlir.

Modallıq kateqoriyası ayrı-ayrı cümlələrdə, kontekstdə, söyləmlərdə və mətndə reallaşır. İstənilən cümlə modal mənanı ifadə etdiyi üçün emosional nidalar subyektiv modallığı bildirir və ətraf aləmə danışanın emosional münasibətini əks etdirir və subyektin nitqinin məzmununu ekspressiv

qiymətləndirir. Nida cümlələrinin modallığı və onların modal mənaları mətndə digər vasitələrlə ifadə oluna bilir ki, bu tip cümlələrin modal funksiyasının təhlili və araşdırılması məqsədilə kontekstin bəzi göstəricilərini nəzərdən keçirmək lazım gəlir:

1) Emosional reaksiya bildirən situasiyanın təsviri;
2) Müəllif interpretasiyasının və vokal jestin xarakteristikası (vokal jestin nominasiyasi və emosional vəziyyətin nominasiyası);
3) Emosional nidanı müşahidə edən jest və mimikanın təsviri;
4) Emosiyanın subyektinin davranışının verbal və qeyri-verbal (nitqdaxili və nitqxarici) təsviri.

Hiss, həyəcan bildirən nidaların subyektiv modallığı danışanın söyləmin məzmunundakı hadisələrə emosional reaksiyaları şəklində özünü göstərir. Nidalar ekspressivlik, emosionallıq və subyektivlik ifadə edə bilir. Nidalar əsas nitq hissələrinə daxil olmayan nitq hissəsidir. Cümlə üzvlərindən təcrid olunmuş hissəsində qalır və ya özü cümlə kimi çıxış edə bilir. Bu məqamda nidalar ətrafa emosional və emosional-iradi reaksiyaların ifadə olunmasında iştirak edir. Nidalar cümlədəki fikrə əlavə emosional və ekspressiv çalar verən modal sözlərə oxşayır və bu xüsusiyyəti onları bir-birilə yaxınlaşdırır. Nidalar nitqin üç semantik sahəsinə təsir edir: emosional qiymətləndirməyə, iradənin ifadəsinə, etiketlərə.

Emosional qiymətləndirici nidalar semantik cəhətdən sadə (təkmənalı) və diffuz (çoxmənalı) ola bilərlər. Diffuz semantik funksiyalı nidalar müxtəlif daxili hal-vəziyyətin ifadəsində istifadə oluna bilər. Belə nidaların semantik mənalarının dəqiqləşdirilməsində intonasiya, mimika, jestin və s. rolu vardır. Emosional nidaların ekspressiv mənası müxtəlif söz və söz birləşmələri ilə güclənə bilər. Bəzən nidalar cümlədə başqa sözlərlə əlaqənə bilirlər: məsələn, əvəzliklərlə.

Nidalar cümlənin ekvivalenti, modal komponenti və onun tərkib hissəsi kimi çıxış etmək imkanına malikdir. Demək olar ki, bütün nidaların cümlənin ekvivalenti funksiyasını yerinə yetirmək imkanı var və onlarda söyləmin gücü olur, özünəməxsus intonasiyası ilə seçilir.

Nidaların modal sözlərə oxşarlığı vardır. Lakin nidalar hər hansı hissi daha emosional çatdırır. Eyni nida müxtəlif nitq situasiyalarında müxtəlif cür səslənir. Ə.Dəmirçizadə "Dilin lüğət tərkibi və qrammatik quruluşu" kitabında nidanın təsəvvürlərin deyil, duyğuların ifadəsi kimi işlənən sözlər olduğunu vurğulayır. M.Adilova görə, nidalar hiss, duyğularla bərabər, həm də fikir bildirir, ax, ey, of, oxx və s. səs kompleksləri bütöv cümlələr kimi müəyyən bir fikri bildirir [1, s. 270]. Nida cümlələrinin modal funksiyalarını konkret mətn daxilində araşdırmaq daha aydın olardı. Nidalarla dinləyənə təsir etmək mümkündür və danışıq zamanı fikrin, mənanın ifadəsinə xidmət edir. Nida insanın daxili aləmi ilə bağlı olub, hiss və duyğularını, subyektin obyektə münasibətini bildirir. Belə ki, nidalarda münasibət bildirmə modal sözlərdən fərqli olaraq dolayısı yolla (hisslərlə) verilir:

*− Oho, xoş görmüşük, qardaş! – deyərək qaraqaş, qaragöz, nazik, qarabağ gənci salamladı. Yaxınlaşıb görüşdü və xanımlardan son dərəcə sadə və görkəmli qızı gördükdə əlavə etdi. –Oho, bu gün nə xoş gündür, Afaq xanımı da görmək olarmış* [12, s. 212].

Mətn hissəsində göründüyü kimi *"oho"* nidası iki dəfə işlənmiş, hər ikisində də danışan sevincini bildirməklə, vəziyyətə müsbət qiymətləndirici məmnunluğunu ifadə etmiş olur.

Digər nümənələrə diqqət edək:

- *Bıy, bıy bunda bir sözə bax!−Hökümə xala sakit olmadı, −a balam, tərifləyənlərdən biri elə sən deyildin?! Nə oldu belə üzün döndü*?! [12, s. 140].

Verilmiş nümunədəki *bıy* nidası əsərdəki obrazın təəccübünü göstərir, diqqətlə baxsaq, nidanın iki dəfə təkrarlanması, obrazın sakit olmamağı (leksik vasitələrlə verilmişdir) həmçinin onun qəzəbini də ortaya çıxarmış olur.

*Eh....oğullarım...onu bir görəydiniz, arvad deyil, bir tərlan balası idi...Bir göyərçin idi, qara tüklü papağın altından üzü bir ay kimi işıq verirdi.......Nə deyim fələyə!* [12, s. 198].

Burada *eh* nidasının bir təəssüflük bildirdiyini müəyyən etmək üçün ümumi kontekstə də nəzər salmaq lazım gəlir. Təsvir olunan obrazın xüsusiyyətlərinin (göyərçin idi, ...üzü bir ay kimi işıq

verirdi və s.) keçmiş zamanda verilməsi ilə də müəllif artıq bu cəhətlərin qalmadığını məyusluqla ötürür. Nidalar cümlədə ifadə olunan modal mənaya uyğun olaraq danışanın əhval-ruhiyyəsini bildirən sözlərdir. Nidalar nitqin məzmununa emosional münasibəti müxtəlif cür ifadə edə bilir. F.Cahangirov nidaları modallığın fonetik ifadə vasitələrinə daxil edir. Onun fikrincə, ilk növbədə hər bir nida özü-özlüyündə müəyyən əhval-ruhiyyə bildirir, ikincisi, emosiyaların gərginliyindən, gücündən asılı olaraq nidalarda fonetik dəyişikliklər baş verə bilir. Emosional münasibətin təsiri ilə nidaların semantik mənasının dəyişməsinin bir tipi onun təkrar işlədilməsi hesab olunur. Həmçinin o, əlavə edir ki, nidalar modal mənalara heç nə əlavə etmir, sadəcə, danışanın nitqin məzmunu ilə əlaqədar keçirdiyi əhval-ruhiyyəni büruzə verir [11, s. 81-82].

## YEKUN NƏTİCƏ

Bütün deyilənlərdən belə nəticəyə gələ bilərik ki, nidalar fikrin məzmununa danışanın emosional, ekspressiv, dəyərləndirici münasibətini göstərərək subyektiv modallığı reallaşdırır. Onlar modal mənalar ifadə edir, reallığa bu və ya başqa formada münasibət göstərir. Sadəcə, nidalardakı subyektiv modallıq birbaşa deyil, dolayısı yolla hisslər ilə ifadə olunur. Çox vaxt da semantik mənasını kontekst daxilində tapa bilir. Çoxmənanlılıq daşıyaraq müxtəlif modal mənaların yaranmasında iştirak edir.

## ƏDƏBİYYAT


1. Adilov, M. Dilçilik problemləri / M..Adilov, Z.Verdiyev, F.Ağayeva – Bakı: Elm, − 2019. − 328 s.
2. Cahangirov, F. İngilis və Azərbaycan dillərində modallığın struktur semantik tədqiqi ( müqayisəli tipoloji tədqiqat) / F.Cahangirov. – Bakı: − 2005. − 311 s.
3. Dəmirçizadə, Ə.M. Dilin lüğət tərkibi və qrammatik quruluşu / Ə.M. Dəmirçizadə.− Bakı: − 1965. − 50 s.
4. Hacıyev, K. Azərbaycan dilində nida / K.Hacıyev.− Bakı: Nurlan,− 2005. − 215 s.
5. Hüseynzadə, M. Müasir Azərbaycan dili. Morfologiya (III cild) / M.Hüseynzadə. – Bakı: Şərq-Qərb, − 2007. − 279 s.
6. Виноградов, В.В. О категории модальности и модальных словах в русском языке / В.В.Виноградов. Избранные труды. Исследования по русской грамматике, –Москва: − Наука, − 1975, − с. 53-87.
7. Галкина-Федорук, Е.М. Об експрressивности и эмоциональности в языке / Е.М. Галкина-Федорук. Сборник статей по языкознанию. – Москва: − 1968. − с. 102-103.
8. Мещанинов, И.И. Члены предложения и части речи / И.И.Мещанинов. – Ленинград: Наука. Ленингр. Отд-ние.,− 1978. − 387 с.
9. Панфилова, В.З. Категории модальности и ее роль в конструктировании структуры предложения и суждении / В.З. Панфилова. ВЯ: − 1977. №4, − с. 37-38.
10. https://cyberleninka.ru/article/n/vilgelm-fon-gumboldt-vnutrennyaya-forma-yazyka-kak-otrazhenie-samobytnosti-etnicheskoy-kultury/viewer
11. https://muhaz.org/pars_docs/refs/107/106136/106136.pdf
12. http://anl.az/el/i/im_se1.pdf

## SUBJECTIVE MODALITY: THE ROLE OF EXCLAMATIONS IN THE FORMATION OF SUBJECTIVE MODALITY

**K.A. Mammadova**

Modality is a grammatical-semantic category that reflects the speaker's attitude to the idea expressed the attitude of the expressed idea to objective reality. There are 2 types of modality: objective and subjective. Subjective modality is the speaker's assessment of the described facts and events. It is an expression of his certainty, uncertainty, his agreement, his dissatisfaction, his concern, his positive and negative evaluation. A participant in a communicative act in accordance with his intention and emotional state, carries out various modal assessments of the information transmitted in his speech and expresses his emotional reactions. Modal reactions are closely related to the emotional state of the speaker. One of the linguistic and most importantly means of expressing emotionally in language. Expressing feelings and emotions are exclamations. Exclamations reflect the attitude of the subject towards the object. In addition to expressing feelings and excitement exclamations express a person's attitude to an idea within a sentence.

**Keywords:** *subjective modality, emotion, interjection, modal words*

## СУБЪЕКТИВНАЯ МОДАЛЬНОСТЬ: РОЛЬ ВОСКЛИЦАНИЙ В ФОРМИРОВАНИИ СУБЪЕКТИВНЫЙ МОДАЛЬНОСТИ

**К.А. Мамедова**

Модальность грамматическая, семантическая категория, выражающая отношение говорящего к содержанию его высказывания, отношение содержания высказывания к действительности. Модальность делится на 2 типа: объективная и субъективная. Субъективная модальность это оценка говорящим описываемых фактов и событий. Это выражение его уверенности, неуверенности, беспокойства, положительной и отрицательной оценки. Участник коммуникативного акта в соответствии со своим намерением и эмоциональным состоянием осуществляет в своей речи различные модальные оценки передаваемой информации и сообщает о своих эмоциональных реакциях. Модальные реакции тесно связаны с эмоциональным состоянием говорящего. Одним из языковых средств, а точнее важнейшем средств выражения эмоциональности, выражающий чувств и эмоций в языке являются восклицания. В восклицаниях отражается отношение субъекта к объекту. Восклицания выражают чувство, волнение а также выражают отношение человека к идее в предложении. Восклицания имеют возможность выступать как эквивалент предложения, как модальный компонент предложения, как составная часть предложения.

**Ключевые слова:** *субъективная модальность, эмоция, междометие, модальные слова*

**UOT: 7.03**
https://doi.org/10.59849/2409-4838.2024.2.54

# AZƏRBAYCAN KARİKATURA SƏNƏTİNİN İNKİŞAFINDA AZƏRBAYCAN KARİKATURAÇI RƏSSAMLAR BİRLİYİNİN ROLU

**Kəmalə Kamandar qızı Mustafayeva**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Bakı, Azərbaycan
*kamalamustafazadeh@gmail.com

*Məqalədə Azərbaycan karikatura sənətinin inkişafı, beynəlxalq aləmdə tanınması və təbliği istiqamətində Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin atdığı addımlar, eləcə də bu ictimai birliyin təşkil etdiyi beynəlxalq karikatura müsabiqələrindən, sərgilərdən və festivallardan bəhs olunur. Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin təşkil etdiyi beynəlxalq karikatura müsabiqələrində iştirak edən rəssamların qazandıqları uğurlar, habelə müxtəlif ölkələrdə təşkil olunmuş beynəlxalq karikatura müsabiqələrində və festivallarında rəssamlarımızın nailiyyətləri, mükafatları ardıcıllıqla göstərilmiş, karikaturaçı-rəssamlarımızın rəsmlərində müasir karikaturanın inkişaf perspektivləri, onun milli ənənələrə bağlılığı öz əksini tapmış, şərti və lokanik ifadə vasitələrinin zənginliyi, metafora, qrotesk, satira və yumora müasir tələblər baxımından yanaşma göstərilmişdir. Məqalədə, Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə nəşr olunan elmi metodiki vasitələr, albom və jurnallar, bu nəşrlərdə çap olunan rəssamların çoxşaxəli yaradıcılığı, müxtəlif dövrlərdə işləyib hazırladıqları karikaturaları, müxtəlif mövzulu satirik rəsmləri müqayisəli təhlil olunur.*

***Açar sözlər:*** *karikatura, təşkilat, rəssam, sərgi, jurnal, cərəyan, satira, yumor, qrafika.*

## GİRİŞ

Bir əsrdən çox tarixi olan Azərbaycan karikaturasının inkişafında milliliklə bərabər mütərəqqi dünya karikaturasının təsirini aydın görmək olar. Müasir dövrdə dünya karikatura ailəsinə inteqrasiya istiqamətini tutmuş Azərbaycan karikaturası yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu illər karikaturaçılarımızın müasir, eyni zamanda milli-mənəvi köklərə bağlı və yenilik axtarışında olan yeni ruhlu əsərləri ilə yadda qalmışdır. Karikaturaçı rəssamlarımız müstəqillik dövrünün ilk illərindən müxtəlif mövzuları əhatə edən, özündə sarkazm, tənə və ironiya daşıyan, kəsərli satirası ilə seçilən əsərləri ilə beynəlxalq müsabiqələrdə, sərgilərdə, mötəbər tədbirlərdə uğurla iştirak etmişlər.

Azərbaycan təsviri sənətinin əsas tərkib hissəsi olan karikaturanın ənənələrini yaşatmaq, cəmiyyətdə və dünyada bu nadir sənət növünü tanıtmaq və təbliğ etmək, beynəlxalq karikatura müsabiqələrində, festival, sərgi və biennalelərdə rəssamlarımızın fəal və davamlı iştirakını təmin etmək birbaşa Azərbaycan Karikaturaçı Rəssamlar İctimai Birliyinin fəaliyyəti ilə bağlıdır desək, yanılmarıq. Bugün də müasir Azərbaycan karikaturasının sürətli inkişafı məhz bu təşkilatın ölkəmizi beynəlxalq aləmdə tanıtmaq, milli karikatura sənətini yaşatmaq məqsədi ilə apardığı səmərəli fəaliyyətinin müsbət nəticəsidir. Azərbaycan karikatura sənətinin inkişafını, fəaliyyətinin əsas istiqaməti elan etmiş Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin dəstəyi ilə rəssamlarımız ABŞ, Kuba, Çin, Suriya, İsrail, Avropa ölkələrində, qonşu Türkiyə, İran və Rusiyada keçirilən beynəlxalq karikatura müsabiqələrində və sərgilərində xüsusi diplomlara və mükafatlara layiq görülmüş, bu mötəbər tədbirlərdə ölkəmizi layiqincə təmsil etmişlər.

Bu haqda AKRB-nin sədri Bayram Hacızadə "Müasir Azərbaycan Karikaturası" kitabında yazır: "Məqsədimiz Azərbaycan təsviri sənətinin ayrılmaz tərkib hissəsi olan, milli karikatura məktəbini yaşatmaq, Azərbaycan karikatura sənətini beynəlxalq aləmdə, tanıtmaq və təbliğ etməkdir. Düşmənlərimizin maddi-mənəvi sərvətlərimizi öz adlarına yazdıqları bir vaxtda, yüz ildən artıq tarixi olan karikatura sənətimizə yiyə durmaq, onu qorumaq, inkişaf etdirmək və dünyada tanıtmaq xalqımız qarşısında borcumuzdur" [13, s. 23, 2, s. 3].

2006-cı ildə rəsmi dövlət qeydiyyatından keçmiş "Azərbaycan Karikaturaçı Rəssamlar İctimai Birliyi"nin ilk günlərdə 30 nəfər üzvü olduğu halda, hal-hazırda bu təşkilat öz ətrafında 100-dən artıq rəssamı birləşdirir. Fəaliyyətə başladığı gündən AKRB tərəfindən karikatura sənətinin ölkəmizdə və beynəlxalq aləmdə tanınması və təbliği istiqamətində mühim tədbirlər həyata keçirilmiş, dəyirmi masalar, tanınmış karikatura ustaları ilə görüşlər, sərgilər və beynəlxalq müsabiqələr təşkil olunmuşdur. Bu nadir və mübariz sənətin öyrənilməsinə, tədrisi və təbliğinə həsr olunmuş elmi-bədii nəşrlər, kitablar, albomlar və kataloqların hazırlanıb,

çap edilməsi milli təsviri sənətimizin beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə xidmət edən addımlardandır. Bu haqda tanınmış sənətşünas alim Ziyadxan Əliyev "Azərbaycan incəsənəti" kitabında yazır: "Azərbaycan Karikaturaçı Rəssamlar Birliyində birləşən yaradıcıların zəngin ənənələri olan Azərbaycan karikatura sənətini yaşatmaq, onu beynəlxalq aləmdə təbliğ etmək niyyətini təqdir edən Azərbaycan Rəssamlar İttifaqı öz nəzdində də "Karikatura" bölməsinin yaradılmasını qərarlaşdırmaqla birliyin əhatəli fəalyyətinə mənəvi dəstək vermiş oldu. Elə həmin il birlikdə fəaliyyət göstərən rəssamların çox güclü bədii potensialı yeni qurumun Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyasına tam hüquqlu üzv qəbul olunmasını şərtləndirmişdir. Azərbaycanın Əməkdar incəsənət xadimi Bayram Hacızadənin sədri olduğu bu qurumun fəaliyyəti Azərbaycan karikatura sənətinin yeni dirçəliş dövrünü yaşadığını təsdiqləyir" [6, s. 22]. Həqiqətən də, Azərbaycan Karikaturaçı Rəssamlar Birliyi qısa zaman ərzində müxtəlif ölkələrin karikatura təşkilatları ilə qarşılıqlı əməkdaşlıq prinsiplərinə söykənən beynəlxalq əlaqələr yaratmış, FECO (Beynəlxalq Karikatura Təşkilatları Federasiyası) təşkilatına tam hüquqlu üzv qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, post-sovet ölkələri sırasında ancaq AKRB bu mötəbər təşkilata tam hüquqlu üzv seçilmiş və bugün də təşkilatın ən fəal və nüfuzlu qruplarından biri kimi fəaliyyət göstərməkdədir. Bu illər ərzində Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin təşkilatçılığı ilə dünyanın bir çox ölkələrində "Azərbaycan karikaturası" başlığı altında karikaturaçı-rəssamlarımızın əsərlərindən ibarət beynəlxalq sərgilər təşkil olunmuşdur. Təbii ki, bütün bunlar təşkilatın sədri B.Hacızadənin məhsuldar və gərgin əməyinin nəticəsidir [12, s. 54; 20, s. 2; 7, s. 4].

Həmin günlərdə Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin orqanı olan "Biz və karikatura" jurnalı da təsis edilir. Jurnalın birinci nömrəsində AKRB-nin sədri B.Hacızadə "Baş redaktordan" başlıqlı məqaləsində yazır: "Bir əsrlik tarixi olan Azərbaycan karikatura məktəbini yaşatmaq və inkişaf etdirmək məqsədi ilə "Biz və karikatura" adlı jurnalı oxucularımızın ixtiyarına veririk. Məqsədimiz bir əsrdən çox tarixi olan, Ə.Əzimzadə ənənələrindən qaynaqlanan milli karikatura sənətini cəmiyyətdə təbliğ etmək və inkişafını sürətləndirməkdir. Eyni zamanda gənc rəssamlar arasında bu sahəyə marağı artırmaq, Azərbaycan karikatura tarixi haqqında sənətsevərlərə məlumat vermək, müasir dünya karikaturasında yerimiz və çəkimiz haqqında oxucularımızı bilgiləndirməkdir" [2, s. 3].

Karikatura sənətinin tanınması, təbliği, tədrisi və janr olaraq inkişafını həyat amalına çevirmiş B.Hacızadə, həqiqətən də "Biz və karikatura" jurnalının ilk nömrəsindən başlayaraq cəmiyyətin saflığı və sağlamlığı, inkişaf edən və çiçəklənən ölkəmizin tərəqqisinə mane olan bütün xarici və daxili qüvvələrlə mübarizə cəbhəsində durmuşdur. Rəssamın "Biz və karikatura" jurnalında dərc olunmuş "İlhamla irəli!", "Alınmaz qala", "Korlar şəhərində", "Arzularımız", "Azərbaycan diplomatiyası", "Müstəqil Azərbaycan", "Şüarlarda inqilab", "Könlüm açılır bir belə dövranı görcək", "Yeniləşən Azərbaycana – yeni məktəblər", "Haqq-ədalət zəfər çalacaq!", "Torpaqlarımızı azad edək!" və s. bu kimi əsərlərinin qayəsini ölkəmizin müstəqilliyi və inkişafına mane olan ünsürlərlə barışmaz mübarizə, millilik, xəlqilik və dövlətçilik prinsiplərinə sədaqət təşkil edir. Bu əsərlərin hər birinin təhlili rəssamın yaradıcılığının kökündə vətəninə və xalqına sevgi, millətinə və dövlətinə sədaqət durduğunu, onun ilk növbədə ölkəsinin maraqlarının keşiyində dayanan mübariz əsgər və vətəndaş olduğunu göstərir.



"

**Şəkil 1.** Bayram Hacızadə "İlhamla İrəli!" ("Biz və karikatura" jurnalı, 2005).

Biz və karikatura" jurnalının ilk nömrəsinin üz qabığında dərc olunmuş "İlhamla irəli!" adlı plakat xarakterli karikatura ölkəmizdə keçirilən prezident seçkilərinə həsr olunmuşdur. B.Hacızadənin bu əlamətdar hadisə münasibəti ilə işləyib hazırladığı əsərində cəmiyyəti yabançı ünsürlərdən-xalqının taleyinə laqeyd qalan məsuliyyətsiz və süründürməçi təşkilat rəhbərlərindən, rüşvətxorlardan, fırıldaqçı mollalardan və dələduz məmurlardan və möhtəkirlərdən təmizləyən sağlam düşüncəli insanlar təsvir olunmuşdur.

Əsərin mərkəzində əllərində Azərbaycanın üçrəngli dövlət bayrağını və "İlhamla irəli" sözləri yazılmış şüarları tutmuş gəncləri görmək olar. Ölkə başçısının ətrafında birləşmiş bu gəncləri ekskavator arxasında təsvir edən rəssam, onları sağlam cəmiyyət və güclü dövlət qurucuları kimi təqdim etmişdir. Yeni Azərbaycan qurucularının və onların silahdaşlarının mübariz, cəsarətli və əzmkar vətəndaş kimi təsvir olunduğu bu əsər bu gün də öz aktuallığını qoruyub saxlamışdır. Bu gün də cəmiyyətdə mövcud olan əyintilərə, nöqsanlara qarşı "İlhamla irəli" şüarı altında bütün karikaturaçı rəssamlarımız mübarizə aparırlar [2, s. 1; 11, s. 226; 4] (şəkil 1). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları 2006-cı il, yanvar ayının 23-də "Molla Nəsrəddin" jurnalının 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında sərəncam imzalanmışdır [2, s. 2]. Bu münasibətlə Azərbaycan Karikaturaçı Rəssamlar Birliyi tərəfindən 2006-cı ilin aprel ayının 7-də S.Bəhlulzadə adına mərkəzi sərgi salonunda "Molla Nəsrəddin" satirik jurnalının 100 illik yubileyinə, məcmuənin yaradıcısı və baş redaktoru, yazıçı-puplisist Cəlil Məmmədquluzadənin 140 illiyinə həsr olunmuş "Biz və Karikatura" adlı sərgi təşkil olunmuşdur. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Rəssamlar İttifaqının dəstəyi, Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilmiş sərgidə çıxış edən natiqlər "Molla Nəsrəddin" bədii məktəbinin əhəmiyyətindən, bu janrın cəmiyyətdə vacibliyindən söz açmış, karikaturaçı rəssamlara gələcək yaradıcılıq uğurları arzulamışlar. "Biz və karikatura" sərgisində iştirak edən B.Hacızadə, Y.Əsədov, V.Allahyarova, E.Mirzəyev, E.Avalov, H.Nəsiroğlu, B.Qasımov, S.Soltanlı, Y.Səmədov, B.Yəhyayev, B.Qasımxanlı, N.Salmanova, Q.Vəlicanov, T.Məmmədov, K.Abdin və başqalarının əsərləri mövzu genişliyinə, məzmun dərinliyinə, problemə yanaşma tərzinə, obrazların satirik və yumoristik yozumuna və fakta yaradıcı baxış üsuluna görə tamaşaçıların böyük marağına səbəb olmuşdur (şəkil 2). "Molla Nəsrəddin" – 100" yubiley tədbirləri çərçivəsində Karikaturaçı Rəssamlar Birliyi tərəfindən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə M.F.Axundov adına Azərbaycan Milli Kitabxananın binasında "Molla Nəsrəddin" və mollanəsrəddinçilər", Azərbaycan Rəssamlar İttifaqının V.Səmədova adına sərgi salonunda "Molla Nəsrəddin" – 100", Azərbaycan Respublikası Sosial Müdafiə Fondu ilə birlikdə fondun əsas binasında "Müasir Azərbaycan karikaturası" adlı sərgilər təşkil olunmuşdur [19; 3, s. 6; 17].




**Şəkil 2.** Bayram Qasımxanlı. "Ekologiya haqqında qanun"
("Biz və karikatura" sərgisi, 2006).

"Molla Nəsrəddin" və mollanəsrəddinçilər" sərgisində B.Hacızadənin "Biz, yüz il əvvəl və bu gün" başlığı altında "Millətі-biçarənin dərdini çəkməkdən əriyib çöpə döndüm…", "Niyə bu xalq başına özgə papağı qoyur", "Bizim tiplər dünən və bugün", "Qarabağ mahalında məktəblər", "Pirlərimiz", "Geyimlərimiz dünən və bu gün" adlı silsilə karikaturaları nümayiş olunmuşdur. Bu rəsmlərdə müəllifin xalqın milli mentallığına yaxından bələd olması, onun xarakterik cəhətlərini dərindən bilməsi aydın görünür. Rəssam, bu əsərlərində nadanlığı, savadsızlığı, xalqın bu vəziyyətinə "millət atalarının" laqeydliyini kəskin və ifşaedici satira ilə tənqid edir. Acı gülüşlə aşılanmış karikaturalarında dövrün real həqiqətlərini işıqlandıran B.Hacızadə, bu əyintinlərin aradan qaldırılmasının vacibliyini ön plana çəkir, son yüz ildə itirdiklərimizi və qazandıqlarımızı müqayisə edir. Əsasən enli, qara kontur xətlər vasitəsi ilə plastik fiqur və formalar yaradan rəssam, bədii estetik səviyyəsi və yüksək professionallığı ilə seçilən karikaturaların müəllifi kimi tanınır (şəkil 3).



**Şəkil 3.** Bayram Hacızadə "Bizim tiplər dünən və bu gün" ("Kirpi", 2005).

Sərgidə, "Sabirin yeni hədəfləri" silsilə karikaturaları ilə çıxış edən tanınmış karikaturaçı rəssam Vəfa Allahyarova görkəmli şairin məhşur misralarına müasir dövrümüzdən yanaşmış, onları yeni və orijinal interpretasiyada təqdim etmişdir. V.Allahyarovanın bu sərgidə nümayiş olunan rəsmləri sırasında mövzusu folklorumuzdan və klassik ədəbi mənbələrdən qidalanan, lakin rəssam tərəfindən müasir yozumda təqdim olunan karikaturaları da diqqət çəkir. "Qarğa və tülkü", "Fitnə", "Məşədi İbad", "Xoruz", "Molla Nəsrəddin" və digər karikaturalar mövzunun yeni baxımdan və orijinal nöqteyi-nəzərdən işlənilməsi, obrazların bədii həlli, kompozisiyanın ifadəli quruluşu və rəssamın qrafik üslub fərdiliyi baxımından xüsusilə maraqlıdır (şəkil 4).



**Şəkil 4.** Vəfa Allahyarova "Qarğa və tülkü"
("Müasir Azərbaycan karikaturası" kitabı, 2007).

AKRB-nin təşkilatçılığı ilə Azərbaycan Rəssamlar İttifaqının V.Səmədova adlı sərgi salonunda təşkil olunmuş “Molla Nəsrəddin” – 100” sərgisində iştirak edən rəssamlarımızın yubiley mövzusu ilə bağlı olan karikaturaları öz incə yumoru və maraqlı interpretasiyasına görə seçilir. Bu karikaturalarda köhnəliklə müasirliyin sintezi çox incə çalarlarda təqdim edilmişdir. Y.Əsədovun “Muğam ifaçısı”, “Düşüncələr”, “Ekologiya”, V.Allahyarovanın “Molla xəstəxanada”, “Təzə rəis”, “Maskalar”, E.Mirzəyevin “Əməliyyat”, “Satıcı”, “Sərginin açılışı”, E.Avalovun “Mehmanxanada”, “Anna Karenina”, “Avtobusda”, H.Nəsiroğlunun “Səhrada”, “Mətbuat”, “Polis”, N.Salmanovanın “Tribuna”, “Həbsxanada”, “Hərbi qaydalar”, K.Abdinin “Güzgü qarşısında”, “Oğru”, “Çəkicin dəfni”, T.Məmmədovun “Sürücü”, “Mikrafon önündə”, “Neft-petrol”, B.Qasımovun “Vəzifə düşkünü”, “Çadralı qız”, “Doğum evi”, R.Hüseynlinin “Həyacan zəngi”, “Press” və digər rəssamlarımızın karikaturaları uğurla nümayiş olunmuşdur [16] (şəkil 5).




**Şəkil 5.** Tofiq Məmmədov “Neft-Petrol”
(“Molla Nəsrəddin – 100 karikatura sərgisi, 2005).

Bu tədbirdə “Azərbaycan karikatura sənətinin inkişafında göstərdikləri xidmətlərinə görə AKRB-nin üzvləri – Bayram Hacızadə, Yavər Əsədov, Bulud Qasımov, Elman Mirzəyev, Bayram Qasımxanlı və Vəfa Allahyarova karikatura sənətinin təbliği və inkişafı istiqamətində göstərdikləri səmərəli fəaliyyətə görə Azərbaycan Rəssamlar İttifaqı tərəfindən fəxri diplomlara layiq görülmüşlər” [3, s. 2].

2007-ci ilin aprel ayının 7-də Karikaturaçı Rəssamlar Birliyinin təşkilatçılığı və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında “Molla Nəsrəddin” – 100”, həmin ilin aprel ayının 20-də “Mozalan” satirik kino-jurnalı ilə birlikdə Muzey Mərkəzində “Bu bizlikdir”, 2008-ci ildə Ə.Əzimzadə ev muzeyində “Əzimzadənin davamçıları”, S.Bəhlulzadə adına sərgi salonunda “Azərbaycan karikaturası dünən və bu gün”, 2009-cu ildə “Əsrin müqaviləsi” neft kontraktının imzalanmasının 15 illiyinə həsr olunmuş “Neft və karikatura”, 2010-cu ildə Ə.Əzimzadənin anadan olmasının 130 illiyinə həsr olunmuş “Rəssam və karikatura”, 2012-ci ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dəstəyi ilə “Narkotiklərə yox!” və digər karikatura sərgiləri uğurla keçirilmişdir [5; 1, s. 10; 3, s. 10; 9, s. 43; 10]. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının binasında keçirilmiş “Molla Nəsrəddin” –100” adlı karikatura sərgisində təcrübəli rəssamlarla yanaşı, Akademiyanın müəllimləri və tələbələri də müvəffəqiyyətlə çıxış etmişlər.

Sərgidə siyasi, sosial, mətbuat, ekologiya və məişət mövzularına geniş yer verilməsi də təsadüfi deyildi. Bu tendensiya ilk növbədə son illər bütün dünyada ətraf mühitin çirkləndirilməsi, söz və fikir azadlığı və sosial probleminin aktuallığı ilə bağlı idi. Sərgidə, S.Süleymanovanın “Müğənni”, “Pəhriz”, S.Qasımovun “Sərgidə”, “Palma”, T.Ağayevanın “Tısbağa və qını”, “Müalicə”, İ.İsmayılovanın “Rəssam”, “Tütək səsi”, E.Kərimovun “Dəvəquşu”, “Femida”, G.Əhmədovanın “Qır qazanı”, “Şeytan”, R.Quliyevin “Metroda”, “Yağış”, A.Hüseynovun “Mətbuatda vəziyyət”, “İşçi tələb olunur”, R.Əliyevin “Ölüm yaxındadır”, “Kömək edin”, M.Aslanovanın “Tıxac”, “Yeni tikililər”, F.İsmayılovun “Tutuquşu”, “Balıqçı”, L.Salamovanın “Taksi”, “Şimalda”, R.Həsənovanın “Mehriban ailə”, “Dilənçi”, E.Qasımovun “Təmirə bağlanıb”, “Gecikdim”, N.Hüseynovun “Mina axtaran”, “SOS” və digər karikaturalar problemə maraqlı aspektdən yanaşma tərzinə görə seçilir [16] (şəkil 6).



**Şəkil 6.** Rəhimə Həsənova "Dilənçi"
("Müasir Azərbaycan karikaturası" kitabı, 2007).

Sərgi haqqında Azərbaycanın xalq rəssamı, professor Yusif Hüseynov yazır: "Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında keçirilmiş "Molla Nəsrəddin" – 100" sərgisi hər bir karikaturasevər üçün çox böyük əhəmiyyət kəsb edir. Bu sərgidə akademiyamızın tələbələri və müəllimləri də iştirak etmişlər. Sevindirici haldır ki, burada nümayiş olunan karikaturalar sözün əsl mənasında ciddi sənət əsəri kimi yadda qalır. Demək lazımdır ki, bu rəsmlərin hər biri bizim müəllim və tələbələrimizin həvəslə və səylə çalışmalarının nəticəsi kimi də qiymətlidir. Sərgidə B.Hacızadənin "Azərbaycan karikaturası dünən və bu gün" adlı kitabının sərgi iştirakçılarına təqdim olunması da təsadüfi deyildir. Sərginin təşkilatçısı, mənim keçmiş tələbəm Bayram Hacızadənin Azərbaycan karikatura sənətinin tanınması və təbliği istiqamətində məqsədyönlü fəaliyyəti və nailiyyətləri məni sevindirir. Bayram Hacızadəyə və bu sahəni dirçəltmək arzusunda olan bütün rəssamlara aktual mövzulu, yüksək professionallığı ilə seçilən yeni-yeni sənət əsərləri arzulayıram" [3, s. 11].

Qeyd etməliyik ki, bu sərgilər rəssamlarımızın son illərdə əldə etdikləri nailiyyətlərin əyani şəkildə əks etdirilməsi istiqamətində uğurlu addım idi. Karikaturaçı-rəssamlarımızın nümayiş olunan rəsmlərində müasir karikaturanın inkişaf perspektivləri, onun milli ənənələrə bağlılığı öz əksini tapmış, şərti və lokanik ifadə vasitələrinin zənginliyi, metafora, qrotesk, satira və yumora müasir tələblər baxımından yanaşma peşəkarlıqla göstərilmişdir. Bütün müsəlman Şərqində ilk və profil etibarilə yeganə satirik jurnal olan "Molla Nəsrəddin" məcmuəsinin il dönümünə, eləcə də tanınmış şəxsiyyətlərin yubileylərinə, tarixi və dövlət əhəmiyyətli hadisələrə həsr olunmuş bu sərgilər, əlbəttə ki, ilk növbədə "Molla Nəsrəddin" məktəbinə, milli karikatura ənənələrinə hörmət, bu ənənələrin bu gün yaşaması, bu sənət növünün müasir dövrdə təbliği istiqamətində atılmış mühim addım kimi qiymətləndirilməlidir. Təşkil olunan hər bir sərgi bu janrın cəmiyyətdə, xüsusilə də, gənclər arasında tanınmasında mühim əhəmiyyət daşıyır və nəticə etibarı ilə rəssamlarımızın yaradıcılıq imkanlarının, fəaliyyət diopozonunun genişlənməsinə, potensialının tam açılmasına xidmət edir.

Karikaturaçı rəssamlarımızın beynəlxalq aləmdə, eləcə də ölkənin ictimai-siyasi və mədəni həyatında baş verən hadisələri özündə əks etdirən qrafik əsərləri yüksək bədii səviyyəsi və mövzu aktuallığı ilə seçilir, orijinal rəssam tapıntısı, müasir yanaşma tərzi ilə bu gün də diqqət çəkir. Tanınmış karikaturaçı rəssam B.Hacızadənin 2005-ci ildə Çində "Lenq Mu" beynəlxalq karikatura müsabiqəsində qızıl medala, İsraildə keçirilən XI beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata, 2007-ci ildə Kubada I yerə, 2009-cu ildə ABŞ-da "Devenport" beynəlxalq karikatura müsabiqəsində I yerə, 2015-ci ildə Suriyada qızıl medala, E.Mirzəyevin müəllifi olduğu karikaturanın 2005-ci ildə İsraildə keçirilən beynəlxalq karikatura müsabiqəsində YUNESKO-nun xüsusi mükafatına, S.Cəfərlinin 2008-ci ildə Kubada gümüş medala, 2009-cu ildə Braziliyada I yerə, 2011-ci ildə Koreyada bürünc medala, S.Soltanlının 2017-ci ildə İspaniyada II yerə, Türkiyədə bürünc medala layiq görülməsi Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin üzvlərinin beynəlxalq karikatura müsabiqələrində ilk uğurlarındandır [21; 22; 23; 2, s. 17] (şəkil 7).



**Şəkil 7.** Bayram Hacızadə “Sözsüz”
(“Lenq Mu” beynəlxalq karikatura müsabiqəsi, Çin, 2005, Qızıl medal).

2009-cu ildə ABŞ-da keçirilmiş dünyanın ən mötəbər yarışmalarından biri olan “Devenport” beynəlxalq karikatura müsabiqəsində B.Hacızadənin qızıl medala layiq görülmüş karikaturanın süjet xəttinə görə həyatın haqsızlıqlarından, insanların riyakarlığından, bəlkə də səfalətdən və ya xəyanətindən zara gəlmiş bir insan intihar etməyə qərar verir. Rəssam, boğazına kəndir keçirib özünü asmağa hazır olan insanın ayağının altında stul və ya hər hansı bir əşya əvəzinə onun sədaqətli dostunu – itini təsvir etmişdir. Rəsmdən aydın olur ki, dünyadan bezmiş bu insanı sözün hər mənasında həyata bağlayan yeganə varlıq – onun itidir. Ömrünün son anında, son nəfəsində, bəlkə də müəyyən tərəddüdlərinə son qoymaq məqsədi ilə öz yeganə dostunu yoxlamaq qərarına gələn insan, əlindəki sümüyü itə atır. Sədaqət və etibar simvolu olan itin, onu həyata bağlayan yeganə canlının onu atıb, sümük arxası ilə qaçmayacağına ümid edən qəhrəman, bu dəfə də yanılır. Bir parça sümüyü görən it dərhal öz sahibini qoyub, yeməyin arxasınca qaçır və əlbəttə ki, bununla da kəndir çəkilir və əsərin qəhrəmanı ölür. Bəlkə də həyatda, müasir dövrümüzdə tez-tez rastlaşdığımız, bəlkə də artıq alışdığımız xəyanət mövzusuna rəssam acı gülüş qataraq, bu səhnəni tamaşaçıya çox fərqli bir vəziyyətdə və gözlənilməz formada təqdim etmişdir [8, s. 54; 15, s. 12] (şəkil 8).



**Şəkil 8.** Bayram Hacızadə “Sədaqətli dost”
(“Devenport” beynəlxalq karikatura müsabiqəsi, ABŞ, 2009, Qızıl medal)

AKRB-nin sədri Bayram Hacızadə müsahibələrinin birində bu haqda deyir: “Son illər Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin üzvləri beynəlxalq karikatura müsabiqələrində uğurlar qazanır, ölkəmizi bu mötəbər tədbirlərdə layiqincə təmsil edirlər. Onların əsərləri qızıl, gümüş, bürünc medallara layiq görülür, xüsusi mükafatlar və diplomlarla təltif olunurlar. Rəssamlarımızın əsərləri müsabiqələrin seçilmiş ən yaxşı karikaturalardan ibarət kataloqlarına daxil edilir ki, bu da əslində çox yüksək göstəricidir. Əgər ABŞ-da təşkil olunan nüfuzlu beynəlxalq karikatura müsabiqəsində I və II yerləri azərbaycanlı karikaturaçı tutursa, Kubada keçirilən karikatura festivalında I yer və müsabiqənin xüsusi mükafatını azərbaycanlı karikaturaçı qazanırsa, Çində keçirilən 80 ölkədən minlərlə rəssamın qatıldığı beynəlxalq karikatura müsabiqəsində gümüş və bürünc yerlərə bizim rəssamlar layiq görülürsə, əlbəttə ki, bu bizim uğurumuzdur. Bu, müasir Azərbaycan

karikaturaçılarının uğurudur!" [18, s. 328]. Azərbaycan Karikaturaçı Rəssamlar Birliynin təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı və Beynəlxalq Karikatura Təşkilatları Federasiyasının dəstəyi ilə hər il ölkəmizdə "Molla Nəsrəddin" - Azərbaycan" beynəlxalq karikatura müsabiqəsi elan olunur və uğurla başa vurulur. Hər il uğurla keçirilən "Molla Nəsrəddin" – Azərbaycan" beynəlxalq müsabiqəsində 60-a yaxın ölkədən yüzlərlə rəssam, tanınmış karikatura ustaları iştirak edir. Respublikanın ictimai-siyasi və mədəni həyatında baş verən mühüm hadisələrə, əlamətdar günlərə həsr olunmuş "Molla Nəsrəddin" - Azərbaycan" karikatura müsabiqəsi ilk gündən beynəlxalq status almışdır. Təsadüfi deyil ki, 2013-cü ildə elan olunmuş "Molla Nəsrəddin" - Azərbaycan" beynəlxalq karikatura müsabiqəsi "Separatizmə və işğala yox!" başlığı altında keçirilmişdir. Bu beynəlxalq müsabiqəyə qatılmış yüzlərlə rəssam torpaqlarımızın işğalı, xalqımızın üzləşdiyi ədalətsizlik və haqsızlığa öz "Yox!" səslərini ucaltmışlar.

Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyasının vitse-prezidenti xanım Marlen Pole bu haqda yazır: "Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyasının (FECO) idarə heyətinə demək olar ki, hər gün çoxlu sayda müsabiqələrin keçirilməsi haqqında məlumatlar daxil olur. Amma təəssüf hissi ilə deməliyəm ki, onların heç də hamısı ədalətli və şəffaf şəkildə keçirilmir. Bu müsabiqələrin əksəriyyətində təşkilatçıların şəxsi maraqları karikaturaçıların hüquqlarından üstün tutulur. Bu kimi xoşagəlməz halların qarşısını almaq məqsədi ilə FECO müəyyən qaydalar hazırlamış və bu qaydaları müxtəlif ölkələrdə fəaliyyət göstərən karikatura təşkilarlarına da təklif etmişdir.

Bu gün dünyada ciddi karikatura müsabiqələri sırasında Bayram Hacızadənin rəhbərliyi altında keçirilən "Molla Nəsrəddin" – Azərbaycan" Beynəlxalq Karikatura Müsabiqəsinin adını çox böyük sevinc hissi ilə - ən mötəbər, ciddi və əhəmiyyətli müsabiqələrdən biri kimi çəkərdim. Artıq neçənci ildir ki, Azərbaycanda Beynəlxalq Karikatura Müsabiqəsi elan edilir və müvəffəqiyyətlə keçirilir. Bu müsabiqənin şərtləri FECO-nun qaydaları ilə tam uyğun gəlir və bu səbəbdən də "Molla Nəsrəddin" - Azərbaycan" beynəlxalq karikatura müsabiqəsi bizim tərəfimizdən ən yüksək qiymətə - beş ulduza layiq görülmüşdür. Bu gün biz tam əminliklə deyə bilərik ki, müasir Azərbaycan karikaturası xalqlar və mədəniyyətlər arasında bir körpüyə çevrilmişdir. FECO-nun vitse-prezidenti kimi, mən, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinə göstərdiyi diqqəti və dəstəyi yüksək qiymətləndirirəm. Ümid edirəm və arzulayıram ki, xalqları bir-birinə yaxınlaşdıran və onlar arasında bir ünsiyyət vasitəsi olan karikatura sənətimizin daha da tanınması və təbliğ olunması naminə bu dəstək gələcəkdə də davam edəcəkdir" [14, s. 84].

"Molla Nəsrəddin" beynəlxalq karikatura müsabiqəsinin münsiflər heyətinin üzvü, İranlı karikaturaçı rəssam Sevda Cənnəti Rad yazır: "Bir karikaturaçı, bu sənəti sevən, ona bağlı olan bir insan kimi, mən də, minlərlə həmkarımla birlikdə "Molla Nəsrəddin" – Azərbaycan" layihəsini alqışlayıram, bu layihədə iştirakımdan iftixar və qürur duyuram. Eyni kökdən – "Molla Nəsrəddin" satirik jurnalından qaynaqlanan Azərbaycan və İran karikatura məktəbini yaşadan, dünyada tanıdan bu fədakar insana, "Molla Nəsrəddin" layihəsinin rəhbəri, hörmətli ustadımız Bayram Hacızadəyə bütün İranlı bacı və qardaşlarımız adından dərin minnətdarlığımı bildirməyi özümə borc bilirəm" [14, s. 86].

"Molla Nəsrəddin" –Azərbaycan" beynəxalq karikatura müsabiqəsi layihəsinin ideya müəllifi və rəhbəri, AKRB-nin sədri Bayram Hacızadənin təşkilatçılığı ilə dünyanın müxtəlif ölkələrində keçirilən çoxsaylı sərgilər, tədbirlər və konfranslar respublikamızın mədəni həyatında baş verən müsbət dəyişikliklərin dünya miqyasında təbliğini şərtləndirir desək, həqiqəti söyləmiş olarıq. Bu isə Azərbaycanın çox yaxın gələcəkdə beynəlxalq karikatura mərkəzinə çevrilmə ehtimalını artırır.

Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə "Azərbaycan Karikaturası" başlığı altında 2008-ci ildə, Türkiyənin İstanbul və Bursa şəhərlərində "Azərbaycan karikaturası dünən və bu gün", Bakıda, Əzim Əzimzadə ev muzeyində "Əzimzadənin davamçıları", 2009-cu ildə, İranın "Fədək" Mədəniyyət Kompleksinin qalereyasında "Dolanbac küçələr", Türkiyədə, Əskişəhər karikatura evində "Azeri Sanatçısı", 2010-cu ildə, Rusiyanın Yekaterenburq şəhərində "100-illik Azərbaycan karikaturası", 2012-ci ildə, İsrailin Hayfa şəhərində "Silahdaşlarımız", Macarıstanda, Azərbaycan Respublikası səfirliyinin binasında "100-illik Azərbaycan karikaturası", Bakıda, Muzey Mərkəzinin sərgi salonunda "Hophopnamə", V.Səmədova sərgi salonunda "Mətbuat və karikatura", 2015-ci ildə, Yunanıstanın Livadi şəhəri, Mətbuat evində "Azərbaycan Karikaturası", 2016-cı ildə, Ukraynanın Kiyev şəhərində Tapas Şevçenko adına milli muzeyində "Satirik qrafika", Rusiyada, Yekaterinburq Bədii Sərgi salonunda "Dünya karikatura ustaları", Belarusda, Yakub Kolas Dövlət Memorial muzeyində "Sözsüz", 2017-ci ildə, İstanbul Karikatura evində "Azerbaycandan sevgilerle", İsraildə, "Tveriya" rəsm qalereyasında "Tolerantlıq", Ukraynada, Poltava Muzey Mərkəzinin sərgi salonunda "Karlyukva", İranda, Təbriz Karikatura muzeyində "Müasir Azərbaycan karikaturası", İspaniyada, "Mezanina" incəsənət mərkəzində "Karikatura", Rusiyada, Muzey-sərgi kompleksində "İroniyalı

qrafika", 2018-ci ildə Azərbaycan Milli İncəsənət Muzeyində "Karikatura" və digər sərgilər uğurla keçirilmişdir [8, s. 16; 6, s. 23]. "Azərbaycan incəsənəti" kitabında professor Z.Əliyev bu haqda yazır: AKRB-nin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyasının dəstəyi ilə təşkil etdiyi beynəlxalq müsabiqələr və sərgilər həm də ölkəmizin mədəni məkanında baş verən müsbət dəyişikliklərin dünya miqyasında təbliğini sərgiləndirir desək, həqiqəti söyləmiş olarıq. 2005-ci ildən Azərbaycan Rəssamlar ittifaqin rəyasət heyətinin üzvü, bu nüfuzlu yaradıcı təşkilatın nəzdindəki "Karikatura" bölməsinin sədri olan B.Hacızadə əvvəllər diqqətdən kənarda qalmış və ənənəvi olaraq ümumi qrafika sənətinin tərkibində "əridilmiş", lakin XX əsr təsviri sənətimizin dirçəlməsində və inkişafında böyük rol oynamış karikatura sənətinin əhəmiyyətini özünə qaytarmaq istiqamətində mühüm işlər görmüşdür. Bu illər ərzində Bakıda və onun hüdudlarından çox-çox uzaqlarda təşkil olunmuş sərgi və beynəlxalq müsabiqələrin uğurlu nəticələri də dediklərimizi təsdiqləyir" [8, s. 16].

Tanınmış sənətşünas alimin bu fikri dəqiq və obyektivdir. Doğrudan da müasir dövrdə yeni formalar qazanmış Azərbaycan satirik qrafikasının araşdırılması, faktiki materialların təhlili onu deməyə əsas verir ki, Azərbaycan Karikaturaçı Rəssamlar İctimai Birliyi fəaliyyətə başladığı ilk günlərdən beynəlxalq karikatura təşkilatları ilə əlaqələri gücləndirməklə rəssamlarımızın xaricdə təşkil olunan karikatura müsabiqələrində və sərgilərində iştirakını təmin etmişdir ki, bu da nəticə etibarı ilə onların yaradıcılıq imkanlarının genişlənməsinə ciddi təsir göstərmiş, Azərbaycan karikaturasının dünya karikatura ailəsinə inteqrasiya prosesini sürətləndirmişdir.

**YEKUN NƏTİCƏ**

Yuxarıda qeyd olunanlara əsaslanaraq, tam əminliklə deyə bilərik ki, araşdırdığımız dövr Azərbaycan karikaturasının beynəlxalq aləmdə tanınması və təbliği, rəssamlarımızın beynəlxalq müsabiqələrdə, sərgilərdə fəal iştirakı və uğurlarının təmin olunmasında Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin ciddi və məqsədyönlü fəaliyyəti ilə yadda qalmışdır. Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin fəaliyyəti dövründə mütərəqqi dünya karikaturasının nailiyyətlərindən bəhrələnmə, milli ənənələrə əsaslanan klassik üslub xüsusiyyətlərinin işlənilməsi, problemə yanaşmada beynəlmiləlçilik ruhu, beynəlxalq karikatura təşkilatları ilə yeni əlaqələrin yaradılması və yeniləşməsi tendensiyası ilə qarşılaşırıq.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi "Narkotiklərə yox!" beynəlxalq karikatura müsabiqəsinin kataloqu // Bakı: "CBS" nəşriyyatı, – 2012. – 216 s.
2. "Biz və karikatura" jurnalı // Bakı: "Çaşıoğlu" nəşriyyatı, – 2006. №1, – 24 s.
3. "Biz və karikatura" jurnalı // – Bakı: "Çaşıoğlu" nəşriyyatı, – 2006. №3, – 24 s.
4. "Biz və karikatura" sərgisinin kataloqu // – Bakı: – 2006.
5. "Bu bizlikdir" karikatura sərgisinin kataloqu // – Bakı: – 2007.
6. Əliyev, Z. Azərbaycan incəsənəti II-III cild / Z.Əliyev. – Bakı: "Letterpress" nəşriyyatı, – 2011. – 146 s.
7. Əliyev, Z. "Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin 5 yaşı" / Z.Əliyev. – Bakı: "Mədəniyyət" qəzeti, – 2010. – 15 s.
8. Əliyev, Z. Azərbaycanın karikaturaçı rəssamları - Bayram Hacızadə / Z.Əliyev. – Bakı: "Azəri-Dizayn" nəşriyyatı, – 2018. – 80 s.
9. Əliyev, Z. "Əzim Əzimzadənin davamçıları" elmi məqaləsi // "Qobustan" sənət toplusu -Bakı: Azərbaycan Yazıçılar Birliyinin nəşriyyatı, – 2010. №2, – 96 s.
10. "Əzimzadənin davamçıları" karikatura sərgisinin kataloqu // – Bakı: – 2008.
11. Hacızadə, B. 100 illik karikatura tariximiz / B.Hacızadə. – Bakı: "Sədа" nəşriyyatı, – 2006. – 240 s.
12. Hacızadə, B. Dünya karikaturası / B.Hacızadə. – Bakı: "Şərq-Qərb" nəşriyyatı, – 2009. – 336 s.
13. Hacızadə, B. Müasir Azərbaycan Karikaturası / B.Hacızadə. – Bakı: "Şərq-Qərb" nəşriyyatı, – 2007. – 128 s.
14. Hacızadə, B. Rəssam və Karikatura / B.Hacızadə. – Bakı: "Azəri-Dizayn" nəşriyyatı, – 2010. – 280 s.
15. Məhərrəmli, Q. "Azərbaycanlı rəssamın ABŞ zəfəri", "Zaman" qəzeti / Q.Məhərrəmli. – Bakı: "Zaman-Azər" mətbəəsi, – 2009. №1-2, – 16 s.
16. "Molla Nəsrəddin – 100" karikatura sərgisinin kataloqu // – Bakı: – 2007.
17. "Molla Nəsrəddin" və "mollanəsrəddinçilər" karikatura sərgisinin kataloqu // – Bakı: – 2006.

18. Mustafayeva, K. “Beynəlxalq dildə danışan “sözsüz” karikaturalar” elmi məqaləsi // – Bakı: AMEA “Filologiya və sənətşünaslıq” elmi məcmuəsi, – 2023. – 363 s.
19. “Müasir Azərbaycan karikaturası” sərgisinin kataloqu // – Bakı: – 2006.
20. “Feconews” magazine // – Holland: – 2005. №52, – 30 p.
21. https://scaferli.wixsite.com/humortoons/seyran-caferli
22. http://soltan-soltanli.com/about.htm
23. https://www.azercartoon.com/prizes.htm

## THE ROLE OF THE AZERBAIJAN CARTOONISTS UNION IN THE DEVELOPMENT OF AZERBAIJANI CARICATURE ART

**K.K. Mustafayeva**

In article, the steps taken by the Union of Cartoonists of Azerbaijan in the direction of the development, recognition and promotion of the art of Azerbaijani caricature in the international world, as well as the international caricature competitions, exhibitions and festivals organized by this public union, are discussed. The successes of the artists participating in the international caricature competitions organized by the Public Union of Azerbaijan Caricaturists, as well as the achievements and awards of our artists in the international caricature competitions and festivals organized in different countries are shown in sequence, the development prospects of modern caricature and its commitment to national traditions are reflected in the drawings of our caricaturists-artists, the wealth of conventional and logical means of expression, metaphor, grotesque, satire and humor are approached in terms of modern requirements. In the article, the scientific methodical tools, albums and magazines published by the initiative and organization of the Union of Azerbaijan Caricaturists, the multifaceted creativity of the artists published in these publications, the caricatures they developed in different periods, and the satirical drawings on various topics are comparatively analyzed.

**Keywords:** *caricature, organization, artist, exhibition, magazine, trend, satire, humor, graphics.*

## РОЛЬ СОЮЗА КАРИКАТУРИСТОВ АЗЕРБАЙДЖАНА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНСКОГО ИСКУССТВА КАРИКАТУРЫ

**К.К. Мустафаева**

В статье обсуждаются шаги, предпринимаемые Союзом карикатуристов Азербайджана в направлении развития, признания и продвижения искусства азербайджанской карикатуры в международном мире, а также международные конкурсы карикатуры, выставки и фестивали, организуемые этим общественным объединением. . Последовательно показаны успехи художников, участвующих в международных конкурсах карикатуры, организованных Общественным Союзом Карикатуристов Азербайджана, а также достижения и награды наших художников на международных конкурсах и фестивалях карикатуры, организованных в разных странах, перспективы развития современная карикатура и ее приверженность национальным традициям отражены в рисунках наших художников-карикатуристов, богатство условных и логических выразительных средств, метафора, гротеск, сатира и юмор рассматриваются с точки зрения современных требований. В статье представлены научно-методические пособия, альбомы и журналы, издаваемые по инициативе и организации Союза карикатуристов Азербайджана, опубликованное в этих изданиях многогранное творчество художников, разработанные ими в разные периоды карикатуры, сатирические рисунки на различные темы. темы сравнительно анализируются.

**Ключевые слова**: *карикатура, организация, художник, выставка, журнал, направление, сатира, юмор, графика.*

**UOT: 069.7**
https://doi.org/10.59849/2409-4838.2024.2.64

# NİZAMİ GƏNCƏVİ ADINA MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİNİN EKSPOZİSİYASININ TƏŞKİLİ VƏ BƏDİİ TƏRTİBATININ XÜSUSİYYƏTLƏRİ

**Aytac Ələsgər qızı Bayramova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, Azərbaycan
*biraytacc@gmail.com

*Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi ölkəmizin əsas mədəniyyət mərkəzlərindən biridir. Muzeyin zalları Azərbaycan ədəbiyyatının inkişaf mərhələlərini özündə təcəssüm etdirir. Bu zalları tablolar, portretlər, illüstrasiyalar, heykəllər, büstlər, rəsm əsərləri, xalçalar, numizmatika nümunələri, sənədli foto-şəkillər, nadir çap nümunələri, şəxsi əşyalar, qiymətli sənədlər və əlyazmalar bəzəyir. Muzeydə mühafizə edilən eksponatlar mədəniyyətimizin və incəsənətimizin təbliğində əvəzsiz rola malikdir. Bu eksponatlar öz tarixiliyi və unikallığı ilə seçilir. Məqalədə məhz muzeyin ekspozisiyası işıqlandırılmış, zallardakı eksponatlar tədqiq edilmişdir. Eksponatların mədəniyyət tariximizdəki və ədəbiyyatımızın öyrənilməsindəki yeri və rolu qeyd olunmuş, onların muzey əhəmiyyəti təhlil edilmişdir.*

***Açar sözlər:*** *muzey ekspozisiyası, muzey fondu, sənət inciləri, mədəni irs.*

## GİRİŞ

Ümummilli Liderimiz Heydər Əliyev demişdir: "Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nadir bir binadır, unikal bir muzeydir, oranı qorumaq, saxlamaq lazımdır".

Muzeylər xalqımızın qiymətli maddi və mənəvi mədəniyyət abidələri hesab edilir. Çünki muzeylər xalq kütlələri arasında böyük elmi-kütləvi iş aparır, onları humanizm ruhu altında tərbiyə edir. Azərbaycanda müxtəlif profilli muzeylər var. Bu bilavasitə qədim tariximiz, zəngin mədəniyyətimiz və irsimizlə bağlıdır. Muzeylər xalqımızı tarix içərisində daha aydın görməyə yardım edən vacib vasitələrdən biridir. Müdrik fikirlər, vətənpərvərlik hissi, azadlıq duyğuları və humanist ideyalar aşılayan, Azərbaycan ədəbiyyatının çoxəsrlik tərəqqi yolunu ekspozisiyasında işıqlandıran Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin əsrlər boyu həyata keçirdiyi bu iş Azərbaycan mədəniyyətinin tədqiqi və təbliği, eləcə də, öyrənilməsi nöqteyi-nəzərindən xüsusi rola malikdir. Nizami muzeyi Azərbaycan ədəbiyyatının xalq kütlələrinin tərbiyəsində əvəzolunmaz rolunu öz ekspozisiyasında xüsusi peşəkarlıqla işıqlandırır.

Eyni zamanda muzey, Azərbaycan incəsənətinin və ədəbiyyatının tərəqqisində də mühüm rol oynamışdır. Muzeyin əsas məqsədi yerli və əcnəbi xalqı Azərbaycanın zəngin ədəbi irsi ilə tanış etməkdir. Bundan əlavə, muzey, Azərbaycan adət-ənənələrinin təmsilçisidir. Muzeydə bir neçə dildə aparılan ekskursiya muzeyin təsvirini və təbliğini tamaşaçıya tam və dolğun şəkildə çatdırır. Muzey üçün ədəbi mövzularda eksponatların yaradılması əsrlər boyu ədəbiyyatla təsviri və təbliği incəsənət arasında mövcud olmuş qarşılıqlı əlaqənin inkişafına öz təsirini göstərmiş və daha da möhkəmlənməsinə təkan vermişdir. Nizami muzeyi XX əsrdə yaranmışdır. Dahi şairimiz Nizami Gəncəvinin adını daşıyan muzey, əvvəlcə karvansara kimi fəaliyyət göstərmiş, milyonçu Hacı Hacıağa Dadaşov tərəfindən tikilmişdir. 1860-cı ildə isə Qasım bəy Hacıbababəyov tərəfindən binanın ikinci mərtəbəsi inşa olunmuşdur. 1914-cü ildə mühəndis Aleksandrit tərəfindən sahibinin razılığı ilə üçüncü mərtəbə inşa edilərək "Metropol" adlı mehmanxanaya çevrilir. Bakının mərkəzində yaradılan bina muzeyin ixtiyarına keçməmişdən əvvəl başqa qurumların tərkibində olmuşdu. 1919-1920-ci ildə isə Azərbaycan Xalq Cümhuriyyətinin idarə heyəti bu binada fəaliyyət göstərir və öz iclaslarını hal-hazırda muzeyin "İstiqlal" adlanan konfrans zalında keçirir. 1920-1930-cu ildə isə Həmkarlar Təşkilatı bu binada fəaliyyət göstərir. Nəhayət, 1939-cu ildə dahi şairimiz Nizami Gəncəvinin 800 illiyi münasibətilə bina alınaraq şairin yubileyinə hazırlıq işlərinə başlayır. 1943-cü ildə bina

muzey standartlarına uyğunlaşdırılmış, interyeri Azərbaycan milli üslubunda yenidən qurulmuşdur.1945-ci il mayın 14-də muzeyin açılışı olmuşdur.

Muzeydə Ümummilli Liderimiz Heydər Əliyev və onun layiqli davamçısı, cənab prezidentimiz İlham Əliyevə aid olan guşə qurulmuşdur. Ulu öndər ədəbiyyatımıza, mədəniyyətimizə xüsusi xidmət göstərmiş, şair və yazıçılarımıza yüksək dəyər vermişdir. Guşədəki lövhələrin birində ümummilli liderimizin Azərbaycanın görkəmli şəxsiyyətlərinə göstərdiyi qayğı və minnətdarlıq hissi öz əksini tapmışdır. Heydər Əliyev 3 dəfə muzeyi ziyarət etmişdir.

Muzeyin ekspozisiyasında, eləcə də fondunda mühafizə edilən eksponatların tarixi əhəmiyyəti böyükdür. Məhz bu eksponatlar özündə müəyyən bir dövrün mədəniyyətini əks etdirir və həmin məlumatları tarixin vərəqlərindən bizə bilavasitə çatdırır.

**ƏSAS HİSSƏ**

Azərbaycan ədəbiyyatının öyrənilməsində maddi mədəniyyət nümunələrinin rolu və əhəmiyyəti ekspozisiyada ədəbi inkişaf tarix fonunda əks etdirilir. Ekspozisiyada sənətkarlarımıza məxsus külli miqdara xatirə əşyaları, sənədlər, əlyazmalar və onlar haqqında yazılmış fikirlər peşəkarlıqla nümayiş etdirilir. Ekspozisiyada sənətkarların yaradacılıqları əsasında bir neçə maraqlı və önəmli eksponatlar nümayiş etdirilir. Muzeyin ilk orijinal eksponatı Nizami Gəncəvinin qəbrindən tapılmış parça və Nizami "Xəmsə"sinin XV əsrə aid olan əlyazması olmuşdur. Araşdırmaların nəticəsi olaraq parçanın Nizami Gəncəvinin geyiminə aid olduğu məlum olmuşdur. Parça xüsusi ikiqat şüşə altında mühafizə edilir və öz unikallığı ilə muzeyin digər eksponatlarından fərqlənir. Parçanın Nizami muzeyində nümayiş olunması təsadüfi hal deyildi. Şübhəsiz, belə unikal eksponatın Azərbaycanın və dünyanın yeganə ədəbiyyat muzeyində saxlanılması Nizami Gəncəvinin ölkəmizdə, eləcə də bütün dünyada olan yüksək ədəbi dühasının nəticəsi idi. Ekspozisiyada Sasanilər dövrünə aid olan və Naxçıvan ərazisindən tapılmış qrifon muzeyin ən unikal eksponatlarından hesab edilir. Qrifonun üzərində Sasanilər dövlətinin qüdrətini və qüvvətini təcəssüm etdirən qartal, şir və aslan pəncəsi təsvir edilmişdir. Qrifon digər dünya muzeylərində – Ermitajda, Britaniya muzeyində, Metropolitendə və eyni zamanda Nizami muzeyində sərgilənir. Bu dəyərli eksponatın muzeydə nümayişi Azərbaycanın bir çox tayfaların, xalqların, həmçinin bu xalqların mədəniyyətinin təsirinə məruz qaldığını göstərir. Muzeydə Azərbaycan memarlığına aid olan abidələrin orijinal variantlarını və bəzilərinin surətini görə bilərik. XII əsrdən qalma Pirsaat çayı sahilindəki Pir Hüseyn xanəgahının mehrabı bunlardan biridir. Muzeyin divarında biz mehrabın orjinal variantını görə bilərik. Xanəgah özü hal-hazırda dağılmışdır və 1939-cu ildə artıq dağılmaq üzrə olan xanəgahın mehrabı sökülərək Nizami muzeyinin divarına həkk edilmişdir. O zamandan etibarən muzeydə mühafizə edilir. Mehrabın üzərində onu tikdirən və tikən müəllifin adı görsənir, kənarında isə müxtəlif yazılar var. Xanəgahın ornamental kaşı bəzəkləri olmuşdur və onlardan bir neçə fraqment Nizami muzeyinin ekspozisiyasında nümayiş edilir. Ümumiyyətlə, dünyanın müxtəlif muzeylərində sərgilənən 400-dən artıq belə fraqment məlumdur ki, onlardan bir neçəsi də məhz Nizami muzeyində mühafizə edilir.

Muzeydə bilərzik, muncuq, banka tipli qablar, qaşıq, xəncər, qolbaq, ox ucluqları, quş fiqurları və müxtəlif təyinatlı parçalar, bəzək əşyaları kimi eksponatlar mühafiz edilir. Bəzək əşyaları forma, həm də çeşid müxtəlifliyinə görə fərqlənir. Baş bəzək əşyası kimi istifadə olunmuş orta əsrlərə aid iki ədəd yastılanmış mis təbəqənin iki ucunda deşik açılmışdır. Bir əşyanın qırılmış iki hissəsidir. Döymə üsulu ilə hazırlanıb [4, s. 47].

Üzüklər iki ədəddir. Orta əsrlərə aid üzüklərdən biri tökmə üsulu ilə hazırlanıb, lakin çox kiçikdir. Digəri isə nazik mis məftildən düzəldilərək ucları üz-üzə əyilmişdir. Müxtəlif minerallardan hazırlanmış muncuqlar formalarına görə də müxtəlifdirlər. Orta əsrlərin muncuq və asma bəzək əşyaları 23 ədəddir. Gəncədən tapılmış şüşədən hazırlanmış saç bəzək əşyası qırılmışdır. Bu əşyanın üzəri qabartmalı naxışlarla bəzədilmişdir. Orta əsrlərə aid şüşə bilərziklər əsasən qırıqlardan ibarət olub müxtəlif rənglərdə hazırlanmışdır. Onların içərisində bütöv olanları da var. Bir ədəd bütöv bi-

lərziyin diametri 4,5 santimetrdir. Digər bilərziklər, bəzək əşyaları parçalardan ibarət olub, göy, firuzəyi ağımtıl rənglərdə hazırlanmışdır [4, s. 47].

Muzeyin fondlarında yerləşən materiallar içərisində şəhərsalma mədəniyyətinin inkişafinda, mövcud şəhərlərin abadlaşdırılmasında geniş istifadə olunan şirlənmiş kaşılar, bişmiş kərpiclər və kirəmidlər mühüm yer tutur. Orta əsrlərdə Azərbaycanda olan şəhərlərin əzəməti, möhtəşəmliyi, orada yerləşən binaların, dəbdəbəli sarayların çoxmərtəbəli olması, kaşılarla bəzədilməsi və s. haqqında o dövrün tarixçi, coğrafiyaşünas, səyyahlarının əsərlərində çoxlu məlumat var. Bu baxımdan, arxeoloji materiallar arasında adları göstərilən tapıntıların çoxluğu sənətkarlığın yüksək inkişafindan xəbər verir. Muzeydə xüsusi qiymətə malik olan kaşılar saxlanılır. Xarici səthi firuzəyi olan bu kaşılar qara şirlə örtülmüşdür və forma cəhətdən öz müxtəlifliyi və gözəlliyi ilə seçilir [4, s. 43].

Azərbaycan xalqının əsrlərboyu keçdiyi tarixə nəzər saldıqda şahid oluruq ki, bu təşəkkül və tərəqqi yolunun çox eniş-yoxuşları, zəfərləri və hüzünləri olmuşdur. Tariximizin belə təzadlı, eyni zamanda taleyüklü səhifələrindən biri də XVIII əsrdə Azərbaycan torpaqlarının xanlıqlara ayrılması dövrüdür. XVIII əsrin ikinci yarısında yaranmış belə xanlıqlardan biri də Qarabağ xanlığı idi. Bu dövlətin qurucusu isə Cavanşir tayfasından çıxmış Pənahəli xan idi. Məhz Ədəbiyyat muzeyində Pənahəli xanın orijinal üst geyimi nümayiş etdirilir. Geyim xüsusi şüşə altında mühafizə edilir. Bu geyim muzeyin ən nadir, unikal eksponatlarından biridir.

Azərbaycan xalçaları həmişə kompozisiyasının mürəkkəbliyi ilə başqa ölkələrdə olan xalçalardan fərqlənmişdir. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində “Dörd fəsil” kompozisiyalı xalı saxlanılır. Bu xalı Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan xalıya oxşasa da, ondan kompozisiyası, ornamenti və təsvirləri ilə fərqlənir. Xalı xalq məişətinin güclü şəkildə təsvir olunması ilə diqqəti cəlb edir. Təbiətdə olan dörd fəsil səhnələri xalının üzərində xüsusi ustalıqla işlənmişdir. İncəsənət Muzeyində nümayiş edilən "Dörd xalı" dan fərqli olaraq bu xalıda məişət səhnələrinə deyil, memarlıq abidələrinin təsvirinə yer verilmişdir. Bu abidələrə Göy məscid, Mədain xərabələri, Soltaniyyə türbəsi və Təxti-Cəmşid sarayının xərabələri aiddir. Xalıda daha çox soyuq rənglərə üstünlük verilsə də, "burada iki yüzə yaxın rəng bir-birinə qovuşmuşdur" [6, s.178].

Xalının eni 2.5 metr, uzunu 3.22 metr, xovunun qalınlığı 4 millimetr, ümumi sahəsi 8 kvadratmetrdən bir az çoxdur. Onun hər kvadrat santimetrində 64 ilmə, ümumiyyətlə xalıda 5 milyondan çox ilmə vardır.

Nizami adına Ədəbiyyat muzeyinin ekspozisiyasına nəzər yetirdikdə burada Nizami Gəncəvinin məşhur "Xəmsə" sinə daxil olan poemalarıı xalça üzərində əksini görə bilərik. Bu xalçalar üçün ekspozisiyada ayrıca otaqlar ayrılmışdır.

Muzeyin Nəsimi zalında İmadəddin Nəsiminin 600 illiyinə ithaf olunan xalça xüsusi diqqəti cəlb edir. Xalça Dilarə Əliyeva tərəfindən toxunmuşdur. Xalçanın ortasında Nəsimi obrazı canlandırılmışdır. Portret 3 haşiyəyə ayrılmış və Kətəbə zəncirəsindən düzəldilmişdir. Kətəbələrin daxilində Azərbaycan və rus dillərində “Nəsimi” sözləri yazılmışdır.

Ekspozisiyada nümayiş olunan xalçalardan biri də 1810-cu ildə Təbrizdə toxunmuş sujetli xalçadır. Xalçanın üzərində "Leyli və Məcnunun səhrada görüşü" səhnəsinə də yer verilmişdir. Ölçüsü 1.79x1.46 m olan xalça diqqəti xüsusi cəlb edir. Kompozisiyanın mərkəzində dəbdəbəli libas geyinmiş Leyli və onun qolları arasında bihuş olmuş yarıçılpaq Məcnun təsvir edilmişdir. Xalçada rənglərin ahəngi gözlənilmiş, qızılı-sarı, göy, yaşıl rənglərin vəhdətində kolorit qurulmuşdur. Bu nümunələr Nizami muzeyinin ekspozisiyasını bəzəməklə yanaşı, onun zənginləşməsi, tamaşaçılar tərəfindən daha çox diqqəti cəlb etməsi baxımından xüsusi diqqətəlayiq hesab olunur [1, s. 224].

Ekspozisiyada işıqlandırılan digər bir xalça nümunəsi XIX əsr Təbriz xalçaçılıq məktəbinin nümunəsi olan xalçadır. Xalça muzeyə Cənubi Azərbaycandan hədiyyədir. Xalçanın kompozisiyası dörd bərabər hissəyə bölünmüşdür və hər bir bucaqda medalyonlar vardır. Medalyonlarda “Adəm və Həvva”, “Musa və Sina” dağı, “İsmayılın qurban verməsi”, “Musanın çobanlıq etməsi” kimi sujetlərin təsviri verilmişdir. Digər medalyonlarda isə Nizami Gəncəvi, Ömər Xəyyam, Firdovsi, Hafiz və Sədinin obrazları toxunmuşdur. 4 fəsildə zəhmət adamlarının əməyi göstərilmişdir. Xalçaçı

Təbrizdəki “Göy məscid” abidəsini də xalçada əks etdirmişdir. Yun xalçanın sıxlığı 80x80, ümumi sahəsi 8,2 metrdir [6, s. 112].

Ekspozisiyanı bəzəyən digər bir xalça Xurşidbanu Natəvana məxsus olan və xalçaçı A.Kərimova tərəfindən toxunulan sujetli xalçadır. Bu xalça ara sahə və 3 hissəli haşiyədən ibarətdir. Medalyonun daxilində Natəvanın obrazısının təsviri verilmişdir. Məşhur şairənin portreti iki ara haşiyəyə uyğun naxışlarla verilmişdir.

Nizami Muzeyində yaradılan “İncəsənət” fondunun ən zəngin, dəyərli və xüsusi seçilən bölmələrindən biri heykəltəraşlıq bölməsi hesab edilir. Fondda məşhur heykəltəraşlar tərəfindən yaradılmış təxminən 120-yə yaxın heykəl və büst mühafizə edilir. Bu bölmənin ədəbi-mədəni ictimaiyyətə təqdim edilən böyük kataloqu var. Azərbaycanın görkəmli heykəltəraşlarından Ö. Eldarov, M. Rzayeva, F. Əbdürrəhmənov, E. Şamilov, C. Qaryağdı, T. Məmmədov və digər məşhur heykəltəraşlar Azərbaycan ədəbiyyatının xüusi seçilən və dəyərli mədəniyyət nəhənglərinin obrazlarını daimi əbədiləşdirmişlər. Bu dəyərli şəxsiyyətlərə Nizami, Nəsimi, Füzuli, Xaqani, Natəvan, M. Gəncəvi, Sabir, Müşfiq və digər ədiblərə məxsus olan heykəl və büstləri misal göstərmək olar [3, s. 146].

Muzeyin ekspozisiyasında isə bir-birindən dəyərli ədiblərin, filosof, şair və yazıçıların heykəlləri və büstləri nümayiş edilir. Muzeyin ekspozisiyasında  Münəvvər Rzayevanın yaratdığı heykəllərə daha çox yer verilmişdir. O, Azərbaycanın ilk qadın heykəltəraşı hesab edilir. Məşhur heykəltəraşın ağ mərmərdən yaratdığı, XI əsrin görkəmli filosofu sayılan Ə. Bəhmənyarın heykəli onun simasında olan fəlsəfi ideya və düşüncələrdən xəbər veir. XII əsrdə yaşayıb-yaratmış Məhsəti Gəncəvinin tuncdan hazırlanmış heykəli qadın füsunkarlığının ən bariz nümunələrindən biridir. Heykəltəraş öz yaratdığı əsərlərində Seyid İmaməddin Nəsiminin üsyankarlığını Şah İsmayıl Xətainin əzmkarlığını, 1937-ci ilin resressiya qurbanlarının bəzilərinin acı və məşəqqətli talelərini, çəkdikləri zülmləri onların simalarında böyük ustalıqla verməyi bacarmışdır.

Nizami muzeyinin ən unikal, ekspozisiyada ən çox diqqəti cəlb edən heykəli məhz şairə Natəvanın heykəli hesab olunur. Bu heykəl məşhur heykəltəraş Ömər Eldarova məxsusdur. O, çətin bir işi xüsusi ustalıqla işləmişdir. Heykəl müsəlman qadınlarına xas olan xüsusiyyətləri lirik şairənin simasında tamaşaçıya çatdırır. Nizami təfəkkürü və dünyagörüşünün məhsulu olan “Xəmsə” məktəbi təkcə ədəbiyyatda deyil, həmçinin bədii incəsənətdə, sənətkarlıqda, heykəltəraşlıqda və rəssamlıqda da davam edirdi. Azərbaycan rəssamı Oqtay Sadıqzadənin yaratdığı 5 tablo zalda işıqlandırılır. Əsərlərin hər biri maraqlı sujetə malikdir. Bu tablolardan biri Yunanıstanda, Afina məbədi qarşısında 7 filosofu təsvir edir, çünki Nizami “Xəmsə”sinin sonuncu əsəri “İsgəndərnamə” adlanır. Bu poemada qədim ellin mədəniyyətinin və fəlsəfəsinin 7 filosof obrazı yaradılmışdır ki, əsərdə İsgəndərin onlarla söhbəti verilmişdir.

Zalda nümayiş edilən digər tablo isə “Nizami Gəncəvinin xələfləri və sələfləri” adlanır. Bildiyimiz kimi, Nizami özündən əvvəlki yunan fəlsəfəsini, şərq fəlsəfəsini, ədəbiyyatını və qədim dövr şərq ədəbiyyatının bir çox incilərini mənimsəmiş bir gənc idi.

Oqtay Sadıqzadənin fırçasının məhsulu olan “Nizami və Azərbaycan mədəniyyəti” adlanır. Rəssam burada böyük peşəkarlıqla Göygölün sahilində Nizaminin təsvirini vermiş və onun ətrafında həm Nizami məktəbinin davamçıları olan Azərbaycan ədəbiyyatının nümayəndələri, həm də Məhsəti Gəncəvi, Füzuli, Memar Əcəmi, Xətai və Tusi əks olunur [5, s. 44].

Ekspozisiyada Nizami Gəncəvinin əsərlərinə çəkilmiş rəngarəng miniatürlər, illüstrasiyalar şairin həyat və yaradıcılığını əyani şəkildə işıqlandırır. Respublikamızın istedadlı sənətkarları tərəfindən hazırlanmış bu eksponatlar orta əsr qaranlıqlarının coşqun tərənnümçüsü olan Nizami Gəncəvinin surətini bütün əzəməti ilə tamaşaçının gözü önündə canlandırır. “İlyas (Nizami) mədrəsədə”, “Nizami sənətkarlar arasında” (rəssam Cahid Camal), “Qizil Arslan Nizaminin yanında” (rəssam Ə. Əzimzadə) illüstrasiyalar eyni zamanda şairin təhsilinin, dünyagörüşünün əsas cəhətlərini, dövrünün hakimlərinə münasibətini göstərir [2, s. 144].

Ekspozisiyada humanist sənətkarımız N.Gəncəvinin poemaları mövzusunda XV əsrdə yaşamış təsviri incəsənətin görkəmli nümayəndəsi Behzadın çəkdiyi miniatürlər də nümayiş etdirilir ki,

bunlar da tamaşaçıya çox gözəl təsir bağışlayır. Külli miqdarda miniatürlər ve illustrasiyalar aydın göstərir ki, Nizami Gəncəvi əsərləri incəsənətin bir çox sahələrinə güclü təsir göstərmiş, gözəl sənət əsərlərinin yaranmasına səbəb olmuşdur.

Ekspozisiyada böyük Azərbaycan şairi M.Füzulinin əsərlərinə çəkilmiş illüstrasiyalar öz zənginliyi və müxtəlifliyi ilə diqqətəlayiqdir. Bu illustrasiyalarda Füzuli sənətinin ictimai, fəlsəfi, bədii mahiyyəti bütün aydınlığı ilə nümayiş etdirilir. Zalda görkəmli sənətkarımız rəssam Maral Rəhmanzadənin Füzulinin qəzəlinə çəkdiyi illüstrasiyalar nümayiş etdirilir. Rəssam Füzuli qəzəlindəki fikri elə sənətkarlıqla duymuşdur ki, nəticədə gözəl fırçası ilə yüksək səviyyəli sənət əsərini yarada bilmişdir. Rəssamın sənətkarlığı ondadır ki, Füzulinin beyti əsasında çəkdiyi illüstrasiyada qəzəlin ümumi ruhunu rənglərin dili ilə tamaşaçıya çatdırmağa müvəffəq olmuşdur [2, s. 144].

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin ekspozisiyasında XVI-XVII əsrə aid olan "Dastanlar" mövzusunda da illüstrasiyalar nümayiş etdirilir. Bu illüstrasiyalarda şifahi xalq ədəbiyyatının inkişafı öz əksini tapmışdır. Səfəvi dövlətinə və yerli feodallara qarşı alovlanan kəndli üsyanlarının bədii ifadəsi olan “Koroğlu” dastanı mövzusunda çəkilmiş “Koroğlu döyüş ərəfəsində”, “Koroğlu döyüş meydanında”, “Koroğlu Həsən paşanın sarayında” illüstrasiyalarında qüvvətli vətənpərvərlik, qəhrəmanlıq ruhu, əməkçi xalq məhəbbəti, işğalçılara nifrət hissi əks olunur. Rəssam Tahir Salahovun və T.Tağıyevin yaratdığı bu illüstrasiyalarda tamaşaçı Koroğlunu həm döyüşkən sərkərdə, həm də adamlara qarşı mehriban münasibətdə görürlər [2, s. 144]. XVII əsrin məhsulu olan “Aşıq Qərib” dastanı mövzusu əsasında rəssam X. Səfərovanın çəkdiyi illüstrasiyalar da bu qəbildəndir. XVI əsrdə həm məhəbbət, həm də qəhrəmanlıq mövzusunda yazılmış “Şah İsmayıl” dastanına çəkilmiş illüstrasiyalarda zülmkar Zülal şah ilə ədalətli şahzadə İsmayılın mübarizəsi təsvir edilmişdir. Burada həqiqətin qələbəsi və xalqın adil hökmdar haqqında arzuları göstərilir. İllüstrasiyaları nəzərdən keçirən hər bir tamaşaçı rəssam C.Əzimovun “Şah İsmayılın quyuya salınması” səhnələrində Zülal şahın həm hiyləgərliyi, həm də öz oğlu şah İsmayılın gözlərinin çıxarılması ilə əyani şəkildə tanış olurlar.

Azərbaycan ədəbiyyatının klassiki, milli realist dramaturgiyanın, teatrın və Şərqdə fəlsəfənin banisi, demokrat və maarifçi M.F.Axundovun “Aldanmış kəvakib” hekayəsi əsasında çəkilmiş illüstrasiyalar xüsusilə maraqlıdır.

Ekspozisiyada, həmçinin, M.F.Axundovun komediyalarına aid rəssam İsmayıl Axundovun akvarelləri nümayiş edilir. Sözügedən akvarellər muzeyin eksponatı kimi pyesin ideya və məzmununun açılmasına kömək edir və tamaşaçıda maraq oyadır. Bunun səbəbi rəssamın eksponatları hadisələrə uyğun şəkildə yaratmasıdır.

Ekspozisiyada sənət sırasına daxil olan tablo və portretlərə də geniş şəkildə yer verilmişdir. Tablolar döyüş səhnələri, vuruş səhnələri, ədəbi məclislər, şairin həyatına aid faktlar, mənzərələr, portretlər və s. mövzularda yaradıla bilər. bu tablolar müəyyən tarixi, həyati, olmuş hadisəni təsvir edən rəssamın müstəqil yaradıcılıq əsəridir [2, s. 144].

Hazırda ekspozisiyada yağlı boya ilə çəkilmiş bir sıra tablolar vardır ki, istər kompozisiyanı, istərsə də işlənmə üslubu və forması etibarı ilə məzmunu dolğun şəkildə ifadə edir. Belə əsərlərdən ilk növbədə “Xətib Təbrizi Bağdadda” (rəssam S.Şərifzadə), “Nizami Gəncəvi şəhər sənətkarları arasında” (rəssam B.Əliyev), “Nəsimi edam qarşısında” (rəssam Nəcəfqulu) “Azərbaycanlıların Bağdada köçməsi” (rəssam Ə.Məmmədov) və başqalarını misal göstərmək olar. XI əsrin sonu XII əsrin əvvəllərində yaşamış şairə Məhsəti Gəncəvinin rəssam G.Mustafayeva tərəfindən çəkilmiş portreti ekspozisiyada da nümayiş etdirilir. Şeirlərində Şərq qadınının nalə və fəryadlarını tərənnüm edən Məhsəti G.Mustafayevanın işində məğrur və nikbin planda verilmişdir.

Ekspozisiyada R.Xalıqovun “Nizami Gəncəvi” portreti sənət əsərləri içərisində mərkəzi yerlərdən birini tutur. Bu portretə baxan tamaşaçı XII əsr Azərbaycanının fəzasında parlayan bu dühа günəşinin şahlara, sultanlara üsyankarlığını görür.

Ekspozisiyada sənətkarların yaradacılıqları əsasında bir neçə maraqlı və önəmli eksponatlar nümayiş etdirilir. Bu eksponatların izahat prosesində rolu xüsusi əhəmiyyətə malikdir.

## YEKUN NƏTİCƏ

Araşdırmaların nəticəsi olaraq deyə bilərik ki, Nizami muzeyində mühafizə olunan eksponatlar nəinki muzey, eləcə də mədəniyyətimiz, incəsənətimiz və ədəbiyyatımız üçün əhəmiyyətli rola malikdir. Bunun əsas səbəbi muzeyin dünyada yerləşən yeganə ədəbiyyat muzeyi olmasıdır. Məhz Azərbaycan tarixinə aid bir neçə unikal eksponat muzeydə nümayiş edilir. Muzeydə Azərbaycanın məşhur sənətkarları tərəfindən yaradılmış incəsənət əsərləri bizə sözügedən dövrün öyənilməsində bilavasitə əsaslı mənbə rolunu oynayır.

Muzey profilinə və zəngin mədəni irsinə görə, həm müxtəlif dövr maddi mədəniyyət nümunələrini, həm də müxtəlif dövrdə yaşayıb-yaratmış ədiblərin həyat və yaradıcılığını öyrənməyə imkan yaradır. Muzey ötən əsrlərin təsvirini və təbliğini xüsusi peşəkarlıqla verməklə tamaşaçılarda maraq oyadır. İzahatçının danışığını əyaniləşdirir və bu əyani danışıq tamaşaçıya bütün hadisələri hafizəsində həkk etməsinə kömək edir.

## MİNNƏTDARLIQ

Bu tədqiqat işinin ərsəyə gəlməsində əvvəlcə böyük rolu olan Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynova və digər muzey əməkdaşlarına təşəkkür edirəm. Məqalənin hazırlanmasında yol göstərən, təhlillərin aparılmasına istiqamət verən və lazımi tədqiqat materiallarını toplamaqda əlindən gələn köməyi əsirgəməyən elmi rəhbərim kult.ü.f.d Nailə xanım Əliyevaya öz dərin minnətdarlığımı bildirirəm.

## ƏDƏBİYYAT

1. Əfəndiyev, R. Azərbaycan incəsənəti / R.Əfəndiyev. – Bakı: Şərq-Qərb, – 2007. – 160 s.
2. Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin əsərləri: [12 cilddə] / – Bakı: Şərq-Qərb, – c.10. – 2001. – 142 s.
3. Həsənova, G. Nizami muzeyinin heykəltəraşlıq fondu // – Bakı: Risalə (Araşdırmalar toplusu), – 2014. №10, – s. 143-149.
4. Hüseynov, R.Yerin altından qayıtmış gözəllik / R.Hüseynov, A.Seyidli. – Bakı: Araz, – 2009. – 328 s.
5. Qasımov, X. Azərbaycan mədəniyyəti (XVI-XVII əsrlər) / X.Qasımov. – Bakı: – 2002. – 169 s.
6. Mikayıllı, A. Nizami muzeyinin xalça fondundakı nümunələrdə istifadə olunan kompozisiya və elementlər // – Bakı: Risalə (Araşdırmalar toplusu). – 2016. №12. – s. 187-195.

## CHARACTERISTICS OF THE ORGANIZATION OF THE EXHIBITION OF THE NATIONAL MUSEUM OF AZERBAIJAN LITERATURE NAMED AFTER NIZAMI GANJAVI AND ARTISTIC PROCEDURE

**A.A. Bayramova**

Nizami Museum of Azerbaijan literature is one of the main cultural centers of our country. The halls of the museum embody the development stages of Azerbaijani literature. These halls are decorated with paintings, portraits, illustrations, statues, busts, paintings, carpets, examples of numismatics, documentary photographs, rare prints, personal items, valuable documents and manuscripts. The exhibits preserved in the museum have an invaluable role in the promotion of our culture and art. These exhibits are distinguished by their historicity and uniqueness. In the article, the exposition of the museum was highlighted, the exhibits in the halls were studied. The place and role of the exhibits in our cultural history and the study of our literature was noted, and their museum value was analyzed.

**Keywords:** *museum exposition, museum fund, art pearls, cultural heritage.*

# ХАРАКТЕРИСТИКА ОРГАНИЗАЦИИ ВЫСТАВКИ НАЦИОНАЛЬНОГО МУЗЕЯ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ ИМЕНИ НИЗАМИ ГЯНДЖАВИ И ХУДОЖЕСТВЕННОЙ ПРОЦЕДУРЫ

**А.А. Байрамова**

Литературный музей Низами – один из главных культурных центров нашей страны. Залы музея отражают этапы развития азербайджанской литературы. Эти залы украшены картинами, портретами, иллюстрациями, статуями, бюстами, картинами, коврами, образцами нумизматики, документальными фотографиями, редкими гравюрами, личными вещами, ценными документами и рукописями. Экспонаты, хранящиеся в музее, играют неоценимую роль в популяризации нашей культуры и искусства. Эти экспонаты отличаются своей историчностью и уникальностью. В статье освещена экспозиция музея, изучены экспонаты в залах. Отмечалось место и роль экспонатов в истории нашей культуры и изучении нашей литературы, анализировалась их музейная ценность.

**Ключевые слова:** *экспозиция музей, музейный фонд, художественные жемчужины, культурное наследие.*

# İCTİMAİ ELMLƏRİ

**UOT: 1.16.165.3**
https://doi.org/10.59849/2409-4838.2024.2.72

# BİLİKLƏRİN SİNTEZİ: MÜRƏKKƏBLİK PARADİQMASI KONTEKSTİNDƏ

**Vüsal Rəhman oğlu Zülfüqarov**

AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı, Azərbaycan
*vzulfugarov@gmail.com

*Məqalədə elmlərarası əlaqələrin müasir vəziyyəti prizmasında biliklərin sintezi problemi fəlsəfi araşdırılır. Göstərilir ki, indiki zamanda biliklərin sintezi dinamik, qeyri-xətti, mürəkkəb və açıq prosesdir. Onun adekvat fəlsəfi-elmi dərki üçün fərqli epistemoloji yanaşma tələb olunur.*

*Müasir dövrdə biliklərin sintezi fraqmentar deyil, bütöv və tam reallaşan holistik prosesdir. Məqalədə vurğulanır ki, indiki mərhələdə biliklərin sintezi məsələsi mürəkkəblik anlayışı, mürəkkəblik paradiqması və elmlərarası əlaqələrin epistemoloji xüsusiyyətləri ilə sıx bağlılıqda dərk edilə bilər.*

*Məqalənin əsas elmi məqsədi müasir mərhələdə elmlərarası əlaqələrin xarakterinin biliklərin sintezinə təsirini araşdırmaqdan ibarətdir. Bunun üçün fənlərarası yanaşmadan istifadə edilir. Metodoloji prinsiplər olaraq sistem yanaşma, qeyri-xətti və intersubyektiv analiz və sinergetik təşəkkül seçilmişdir. Metod qismində dinamik inteqrasiya tətbiq edilir.*

*Elmi yenilik biliklərin sintezinin araşdırılması əsasında yeni sintetik elmi istiqamətlərin formalaşması tendensiyasının intensivləşə biləcəyinin proqnozlaşdırılması ilə əlaqəlidir.*

***Açar sözlər:*** *elmi bilik, elmlərarası əlaqələr, elmin disiplinar quruluşu, mürəkkəblik, fənlərarası yanaşma, biliyin ierarxikliyi, biliyin açıqlığı, sinergizm, dinamik inteqrasiya.*

## GİRİŞ

Elmi biliklərin sintezi elmlərarası əlaqələrin intensivləşməsi və genişlənməsi fonunda daha da aktuallaşmışdır. Filosoflar bu problemi elmin fəlsəfəsi, epistemoloji və metodoloji aspektlərdə araşdırırlar. Müxtəlif yanaşmalar özünü göstərir.

Problem özü mürəkkəb xarakterli olduğundan anlayışların məzmunu və semantik anlamı ilə bağlı yekdil fikir hələ formalaşmamışdır. Lakin elmin cəmiyyətdə rolunun daha da artması, süni intellekt faktorunun insan həyatı üçün fundamental əhəmiyyət kəsb etməsi və bütün bunların elmi biliklərin müasir dünyada yeri və rolu ilə bağlı olması avtomatik olaraq, vurğulanan istiqamətdə tədqiqatların əhəmiyyətini getdikcə artırır.

Bunları nəzərə alaraq biz, müasir elmi biliklərin sintezi məsələsinə sinergetik təsəvvürlərə əsaslanan yanaşma fonunda baxacağıq. Bu təsəvvürlər çərçivəsində xüsusi yeri və rolu olan “mürəkkəblik paradiqması” prizmasında biliklərin sintezinin bir sıra fəlsəfi məqamlarını təhlil edəcəyik.

Təbii ki, “mürəkkəblik paradiqması” anlayışının mərkəzində “mürəkkəblik” anlayışı dayanır. Məhz bu anlayışla bağlı müasir fəlsəfədə fərqli fikirlər mövcuddur. Biz bu məqamda da mürəkkəbliyin E.Moren və P.Saymon anlamları əsasında sinergetik izahını əsas götürürük. Onu vurğulayaq ki, digər yanaşmaların əhəmiyyətini zərrə qədər də azaltmaq doğru deyildir. Lakin hələlik mürəkkəblik haqqında elə bir universal və yekdilliklə qəbul edilən təsəvvür mövcud deyildir. Eyni zamanda müasir elmi rasionallıqda plüralizm və alternativlik kriteriyalar kimi vacib yer tuturlar. Bu səbəbdən, bizim də yanaşmamızda konkret fokuslaşma olmalıdır.

Beləliklə, müasir dövrdə biliklərin sintezi məsələsi özlüyündə “mürəkkəblik anlayışı-mürəkkəblik paradiqması-elmlərarası əlaqələrin epistemoloji xüsusiyyətləri” kimi “məntiqi sistem” prizmasında araşdırıla bilər.

Bunun üçün sistem yanaşma, qeyri-xətti və intersubyektiv analiz və sinergetik təşəkkül metodoloji prinsiplərinə müraciət edirik.

Metod kimi müxtəlifliyin vəhdətini özündə ehtiva edən dinamik inteqrasiya metodunu tətbiq edirik.

## ƏSAS HİSSƏ

### 1.Mürəkkəblik və mürəkkəblik paradiqması

“Mürəkkəblik nədir?” sualına birmənalı cavab yoxdur. Bu terminin ilk olaraq riyaziyyatda işləndiyini yazırlar. Məsələn, A.N.Kolmoqorovun mürəkkəbliyin alqoritmik anlamına çox müraciət olunur. Şərti olaraq “Kolmoqorov mürəkkəbliyi” adlandırılan bu anlamı “təsviri mürəkkəblik”, “Kolmoqorov-Çaytin müərkkəbliyi”, “stoxastik mürəkkəblik”, “alqoritmik entropiya” və ya “alqoritmik mürəkkəblik” kimi də ifadə edirlər. Əsas mənası ondan ibarətdir ki, riyazi ardıcıllığa alqoritmik yanaşdıqda informasiya davamlı olaraq sıxlaşırsa (məcazi mənada “akkumulyasiya edilirisə”), elə bir hədd çatır ki, ondan sonra qəbul edilən norma çərçivəsində riyazi ardıcıllığı təsvir etmək mümkün olmur – riyazi təsvir təsadüfə bağlı qalır. Bu “sıxıla bilməyən vəziyyət” mürəkkəblik adlanır və “sıxılmayan mürəkkəblik” kimi başa düşülür.

Əlbəttə, bu, mövcud yanaşmalardan və izahlardan (hətta riyaziyyat daxilində) biridir. Mürəkkəblik fenomeninin fəlsəfi dərkinə həsr edilmiş tədqiqatlarda çoxlu sayda nümunələr müqayisə edilir [5, s. 27-33]. Bu zaman süni intellekt sahəsində tanınmış alim olan Hilbert Saymonun tərifinə diqqət edirlər. İngilis alim mürəkkəbliyə mürəkkəb sistem kontekstində baxır. Onun tərifinə görə, mürəkkəb sistem bir-biri ilə mürəkkəb qarşılıqlı əlaqədə olan “çoxlu sayda tərkib hissələrindən ibarətdir”. Bu cür sistemlərdə “tam hissələrin cəmindən böyükdür” [20, s. 183-184]. Aydındır ki, burada bir anlaşılmazlıq vardır, çünki H.Saymon sistemin mürəkkəbliyini tərkib hissələrin mürəkkəbliyi vasitəsi ilə tərif edir. Bu da semantik tavtologiyadır.

Buna baxmayaraq, bir sıra filosoflar mürəkkəbliyi bütövlükdə dünyaya aid edirlər. Onlar insanların “mürəkkəb dünyanın öhdəsindən gəlməli olduğu”ndan yazırlar. Məsələn, avstraliyalı filosof və mürrəkəbliyin tədqiqində qəbul edilən Paul Silliers bu fikirdədir [10; 11].

M.Fullzak isə mürəkkəbliyin nisbi məzmuna malik anlayış olduğunu ifadə edir. O, bu aspektdə mürəkkəblik ölçüsünün dərkedənin mürəkkəbliyi necə və nə dərəcədə anlaması ilə əlaqələndirir. Konkret ədədi silsilə nümunəsində göstərir ki, bir alim üçün mürəkkəb olan situasiya, fərqli baxış bucağı altında sadə görünə bilər [18, s. 57-70].

Vurğulanan yanaşmalara fransız filosof və metodoloq Edqar Morenin “mürəkkəblik” və “mürəkkəb paradiqma” anlayışları ciddi təsir göstərmişdir. Diqqət daha çox E.Morenin formula etdiyi “mürəkkəb təfəkkürün prinsipləri”nə yönəldilir. E.Moren mürəkkəb təfəkkürün 7 prinsipin aşağıdakı kimi müəyyən etmişdir:

Təşkilati prinsip: Bu prinsip bütövün dərk edilməsi ilə hisssələrin dərki arasında vəhdəti görməyə aiddir;

Holoqrafik prinsip: hər bir mürəkkəb hadisədə yalnız hissə tama daxil deyildir, həm də tam hər bir hissədə mövcuddur;

Əks-əlaqə prinsipi: sistem təsir-əks-təsir prosesində özünü tənzimləyir;

Rekursiv ilgək prinsipi: özünüyaratma və özünütəşkili ifadə edir. Bu zaman hər bir elementi həm yaradır, həm də yaradılır;

Avto-eko-təşkilati prinsip: sistem enerjini özünütəşkil etmək üçün sərf edir ki, bu mənada özünə yetərlidir və prosessuallıq baxımından avtonomdur;

Dialojilik prinsipi: kommunikativ əlaqələrdə dialoqa üstünlük verilməsi;

İdraki situasiyaya təkrar daxilolma prinsipi: dərk edən hər bir idraki prosesə təkrar daxil olaraq subyektliyini yenidən bərpa edir. İdrak həmişə özünüdərk və özünümüşahidədir və bu mənada konstruksiyadır [6, s. 15-20].

E.Morenin mürəkkəbliyi və mürəkkəb sistemləri bu cür dərkinin əsasında “mürəkkəblik paradiqması”nın formalaşdığını yazırlar. Bu bağlılıqda braziliyalı filosof N.Fidler-Ferrara maraqlı qeyd edir. O vurğulayır ki, E.Morenin prinsiplərini qəbul edir, lakin onların universal olduğunu qəbul etməyənlər də vardır. Buna görə də mürəkkəblik paradiqmasının hələ təşəkküldə olduğunu demək olar [17, s. 7-9, 21]. M.Fullzakın yuxarıda vurğuladığımız fikirlərindən də eyni qənaət alınır. Ancaq bir sıra filosoflar artıq birmənalı E.Morenin mürəkkəblik paradiqmasından bəhs edirlər. Məsələn,

rusiyalı filosoflar V.İ.Arşinov və Y.İ.Svirskiy yazırlar ki, "mürəkkəblik paardiqması" termininin mənşəyi E.Morenin adı ilə ilk növbədə onun "Metod" əsəri ilə bağlıdır. Həmin kitabdakı ideyaların qaynağı isə bizi Q.Beytsom və H. Fon Fyorsterin yaradıcılığına aparır [3, s. 70].

Əslində, mürəkkəblik paradiqması ilə bağlı qeyri-müəyyənliyin olması bütövlükdə "elmi paradiqma" anlayışının ümumi tərifi fonunda başa düşüləndir. Paradiqma ümumi olaraq konsepsiyaların, nəzəriyyələrin, tədqiqat metodlarının, postulat və standartların sistemidir. Vurğulanan faktorların mürəkkəblik paradiqması çərçivəsində təşəkkülü başa çatmamışdır. Oksford lüğətində də paradiqmanın analoji tərifinə rast gəlinir. Orada paradiqma elmi məktəb və ya fənnin fəlsəfi-nəzəri əsası kimi izah edilir. Onun çərçivəsində nəzəriyyələr, qanunlar və ümumiləşdirmələr formula edilir ki, eksperiment vasitəsi ilə alınan nəticələr təsdiq olunur [13].

Bunlara baxmayaraq, E.Morenin 7 prinsipi mürəkkəbliyin fəlsəfi dərkinə paradiqmal səviyyədə yanaşmağa xeyli əsas verir. Həmin prinsiplər həm ümumi xarakterlidirlər, həm də dərketmə prosesini metodoloji aspektdə əhatə edirlər. Burada hissə-tam münasibətləri, idrak prosesinin ümumi gedişi və xarakteristikası, sistem-ətraf mühit əlaqələri və sistemin özünüyaratması kimi aspektlər vardır. Bu kimi xarakteristikalar elmi biliklərin alınması və onların sintezi məsələsini vahid yanaşma çərçivəsində araşdırmağa imkan verir. Bu imkandan çıxış edərək, vurğuladığımız anlamda mürəkkəblik paradiqması prizmasında müasir mərhələdə elmi biliklərin sintezi məsələsinə baxaq.

**2. Elmi biliklərin sintezi dinamik proses kimi**

Bir çox filosof insanın təbiətən bilikləri ümumiləşdirməyə, onları sintez etməyə can atdıqlarını vurğulamışdır. Biliklərin sintezi konsepsiya kimi isə keçən əsrin əvvəllərində formalaşmağa başladığını filosoflar İ.Çalmers, L.V.Hedges və H.Kuper vurğulayırlar. Ancaq onda biliklərin sintezi konsepsiya kimi məhdud və konkret displinar istiqaməti əhatə edirdi. Filosoflara görə bu, tibbdə özünü daha çox göstərdi. Burada biliklərin sübuta yetirilməsi əsasında tibbin bir sahəsindən digərinə "biliklərin köçürülməsi" və "tərcüməsi" önəm daşıdı [16, s. 523-524]. 1960-cı illərdən isə biliklərin sintezi məsələsi sosial elmlərə, təhsilə və psixologiyaya yayıldı [9, s. 13-35].

Məhz keçən əsrin 60-cı illərindən başlayaraq biliklərin sintezi konsepsiya kimi yeni forma, məzmun və idraki strategiya aldı. Bunun başlıca səbəbi müxtəlif fənlər arasında qarşılıqlı əlaqələrin sürətlə artması fonunda həm yeni sintetik elmi istiqamətlərin formalaşması prosesinin vüsət alması (sinergetika, avtopoyezis, qeyri-səlis çoxluqlar nəzəriyyəsi və s.), həm də tədqiqat obyektlərinin mürəkkəb sistem kimi təsəvvürün üstünlük təşkil etməsindən ibarət idi. İndi biliklərin sintezi "biliklərin ötürülməsində, tədqiqatlarla qərar qəbul etmələr arasında uçurumların aradan qaldırılmasında mərkəzi rol oynayır" [14, s. 936].

Biliklərin sintezi məsələsinin aktuallığı və konseptual səviyyədə koqnitiv və qnoseoloji əhatəliliyi ilə bağlı digər nümunələr də gətirmək olar. Lakin başlıca məqam ondan ibarətdir ki, keçən əsrin 60-cı illərindən bu günə biliklərin sintezi həm nəzəri-metodoloji problem, həm də praktiki-tətbiqi elmi fəaliyyət üsulu kimi çox aktuallaşmışdır və müasir elmi idrakın fundamental problemlərindən biridir. Ancaq bu prosesin həm məzmununda, həm də onun fəlsəfi dərkində hər şey heç də aydın deyildir – tədqiq olunmalı çox məqamlar vardır.

Bu kontekstdə C.T.Andrea və həmkarları vurğulayırlar ki, "sintezə konkret yanaşmaları təsvir edən terminologiya zaman keçdikcə inkişaf etmişdir. Bu terminlərdən ardıcıl istifadə qaydası mövcud deyildir" [7, s. 11].

Eyni zamanda, filosof onu da qeyd edir ki, hazırda biliklərin sintezinin fəlsəfi refleksiyasında "yenilik vardır". Həmin yenilik "qlobal faktlar kontekstində fərdi araşdırmaların nəticələrinin interpretasiyası üçün" biliklərin sintezindən istifadə edilməsi ilə əlaqəlidir. Bu da öz növbəsində "tədqiqatlarla qərarların qəbul edilməsi arasında kəsintiləri aradan qaldırır" [7, s. 12].

Müasir dövrdə elmlərarası əlaqələrin xarakteri, qnoseoloji və metodoloji özəllikləri prizmasında vurğulanan tezislər başa düşüləndir. Çünki kifayət qədər mürəkkəb bir proses gedir və biliklərin münasibətləri getdikcə daha mürəkkəb, iyerarxik, çoxşaxəli xarakter alır. Həmin səbəbdən indi fi-

losoflar biliklərin sintezinə konseptual səviyyədə daha fundamental aspektdən yanaşırlar. Bu məqalədə bizi məsələnin həmin tərəfi maraqlandırır.

Yuxarıda vurğuladığımız kimi, hazırda filosofların əksəriyyəti biliklərin sintezinə mürəkkəblik paradiqması kontekstində yanaşmağı daha adekvat sayırlar. Onları da şərti olaraq iki qrupa ayırmaq olar – birinci qrupa mürəkkəblik paradiqması çərçivəsində biliklərin sintezinin fəlsəfi dərkinin adekvatlığına tam əmin olanlar daxildirlər, ikinci qrupa isə mürəkkəblik paradiqmasının özünün təşəkkül mərhələsində olmasından çıxış edərək, alternativ yanaşmaları da istisna etmirlər. Lakin hər iki qrup üçün ortaq olan bir sıra qnoseoloji və metodoloji xarakterli məsələlər vardır ki, bizim üçün əsas olanı onlardır. Bundan başqa yanaşmanın mahiyyəti baxımından nikbin əhval-ruhiyyəli filosoflar sırasında sinergetiklər üstünlük təşkil edirlər. Həmin istiqamətdə araşdırmaçılar bir qayda olaraq sinergetik təsəvvürlərə söykənirlər. Bu məqam müasir filosoflar olan B.R.Broun, J. Sanabria-Z, B.Alfaro-Ponçe, P.Gonzales, V.İ.Arşinov, V.Q.Budanov, Ə.F.Abbasov, F.M.Qurbanov və digərlərinin əsərlərində ayrıca vurğulanır.

B.R.Broun məsələyə elmi idrakın ən son nümunələri misalında baxır. O, hazırda (obrazlı olaraq, filosof “Google dövrü” terminini işlədir) “biliklərin sıçrayışlı sintezi” mərhələsinin başladığını yazır. “Sıçrayışlı sintez” ifadəsini adi anlayış kimi işlətmir – onun fəlsəfi-epistemoloji anlamını açır. Bunun üçün bir nümunə gətirir: son illər tədqiaatçılar Googledə 28 milyon tədqiqatı araşdırmışlar və onlarla bərabər 5 milyondan çox patenti təhlil etmişlər. Aydın olmuşdur ki, tədqiqatların məzmunu, nəticələri və həcmlərində kəskin irəliləyiş (yəni “sıçrayışlı dəyişiklik”) o zaman baş verir ki, öncəki biliklərin böyük həcmi cari, mövcud yanaşmalarla sintezdə olur. Yəni faktiki olaraq yeniliklər ənənə optimal nisbətdə olurlar [8, s. 1]. Bununla da sıçrayış anlayışı idraki maneənin aradan qaldırılması anlamını verir, biliklərin sıçrayışı isə biliklərin inkişafı qarşısındakı maneələrin aradan qaldırılmasını ifadə edir [15, s. 2-8; 8, s. 1-10]. Deməli, biliklərin sintezi ilə bağlı təkcə kəmiyyət göstəriciləri onu ifadə edir ki, problem fəlsəfi aspektdə kifayət qədər əhatəli xarakter almışdır və onun araşdırılması xüsusi paradiqmal yanaşma tələb edir. Buna görədir ki, filosoflar mürəkkəblik paradiqmasını həmin istiqamət üçün daha adekvat hesab edirlər. Rusiyalı filosoflar V.İ.Arşinov, V.Q.Budanov, V.Y.Lepskiy və Y.İ.Svirskiy biliklərin sintezinə mürəkkəblilik təfəkkürünə əsaslanan, E.Moren mənasında anlaşılan mürəkkəblik paradiqması prizmasında yanaşmağa üstünlük verirlər. Onlar problemin fəlsəfi təhlilini mürəkkəblilik təfəkkürünün məzmunu, şəbəkə və sistem yanaşmaların konvergensiyası (sinergetik mərkəzli), refleksiv fəallıq kimi faktorların vəhdətində təbiət elmləri ilə sosio-humanitar elmlərin konvergensiyası fonunda aparırlar. Bu zaman biliklərin sintezi məsələsi “yeni texnoloji növ”ün yaranması kontekstində nəzərdən keçirilir [4].

Azərbaycan filosofları Ə.Abbasov və F.Qurbanov da təqribən eyni mövqedədirlər. Ə.Abbasov müasir mərhələdə elmi idrak üçün “elmlərin vahidliyi”nin çox aktual olduğunu vurğulayır və bunun reallaşmasını yalnız sinergetik mərkəzli mürəkkəblik paradiqmasının yeni keyfiyyətdə formalaşdırılmasında görür [1, s. 67-88]. F.Qurbanov biliklərin sintezinə nəzəri-metodoloji və konseptual səviyyədə yeni sintetik elmi istiqamətlərin elmlərarası əlaqələrə gətirdiyi məzmun çalarları kontekstində yanaşır. Bu yanaşmanın da mərkəzində sinergetika durur [2, s. 208-244]. J.Sanabria-Z və həmkarları biliklərin sintezinə elmi idrakla sosial-mədəni mühitin qarşılıqlı əlaqəsi kontekstində yanaşırlar. Onlar bu məqsədlə son 5 ildə (2022-ci ilə qədər müddətdə) işlənmiş 49 elmi layihəni araşdırmışlar. Belə qənaətə gəlinmişdir ki, elm, texnologiya və innovasiyalar arasında kəsintini aradan qaldırmaq üçün geniş ictimaiyyətlə əlaqələr gücləndirilməlidir [19, s. 2-20].

Daha konkret istiqamətdə apardıqları araşdırmada eyni qənaətə M.Cruz-Sandoval və həmkarları gəlmişlər. Onlar biliklərin sintezinə kəmiyyət faktorlarını analiz edərək təhlili yanaşmışlar. Belə aydınlaşmışdır ki, sosial sahibkarlığa kompleks yanaşma metodologiyası səmərəlidir [12, s. 2-13]. Biliklərin sintezi ilə bağlı vurğulanan özəlliklər problemin fəlsəfi refleksiyasına müəyyən aydınlıq gətirir.

**3. Biliklərin sintezinin fəlsəfi mənzərəsi**

Edqar Morenin mürəkkəblik paradiqmasının 7 prinsipi sintez halında biliyin ümumi mənzərəsini yaradır.

Birinci prinsipə görə müasir elmi biliyin təşkili onun məzmununa ciddi təsir göstərir. Buna görə də biliklərin sintezi prosesdə iştirak edən hər bir bilik vahidinin özəlliklərinin nəzərə alınmasını tələb edir. Müxtəlif elmlərin qnoseoloji qovşağında formalaşan biliklər həmin elm sahələrinin qnoseoloji və metodoloji xüsusiyyətlərindən tam xilas ola bilməz. Deməli, biliklərin sintezi üçün məzmun, təbiət və metodoloji olaraq fərqli bilik vahidlərinin eyni məntiqi çərçivədə qarşılıqlı əlaqələri fonunda reallaşa bilər. Bununla I prinsip biliyin təşkili ilə sintetik biliyin məzmunu arasında sıx bağlantını zəruri edir.

İkinci prinsip biliklərin sintezinin mahiyyətcə holoqrafik xarakterli olduğunu ifadə edir. Holoqrafiklik burada hissədə tamın və tamda hissənin mövcudluğuna xüsusi məna verir. Konkret olaraq müasir biliklərin sintezi bütöv informasiyanı ifadə edən holoqrafik strukturdur. Bu struktur fraqmentar dərk edilə bilməz. Onu dərk etmək holistik mahiyyətli idrakla mümkündür, yəni bütöv mənzərəni “mühaşidə etməyə” imkan verən idraki yanaşma tələb olunur. Holoqrafik quruluş biliklərin sintezinin elə bir dinamik və açıq poses olduğunu ifadə edir ki, orada tam hissədə və hissə tamdadır. Bu mənada sintetik bilik fraqmentlərə ayrıla bilməz, çünki o, fraqmentlərindədir və fraqmentlər də sintez-bilikdədir.

Üçüncü prinsip biliklərin sintezinin yalnız koqnitiv sahə ilə məhdudlaşmadığını göstərir. Sintetik bilik həmişə koqnitivliklə biliyin sosiallığının, nəzəri ilə praktiki-tətbiqinin vəhdətidir. Və bu keyfiyyətdə o, öncəki mərhələlərdə yaranan biliklərdən keyfiyyətcə və funksiyaca fərqlənir

Dördüncü prinsipə görə, biliklərin sintezi faktiki olaraq biliyin prosesdə “özünüyaratması”dır. Bu, geniş fəlsəfi anlamda biliyin özünütəşkilidir. Müasir elmi təsəvvürlərə uyğun olan bir prinsipdir. Rəqəmsallıq həmin keyfiyyəti daha da inkişaf etdirir. Və M.Fukonun XX əsrdə proqnozlaşdırdığı kimi, “bilik rəmzə çevrilir”. Bununla o, getdikcə müstəqil bir “reallıq olur”.

Beşinci prinsip, biliklərin sintezinə müəyyən “ekohadisə” kimi baxmaq zərurətini ortaya çıxarır. Bilik yalnız elmi çərçivədə, sırf koqnitiv kriteriyalara görə elm deyildir. Elm enerjisini özünütəşkilə xidmət etməyə yönəldir. O, prosessuallıq baxımından “qapalıdır”, lakin yeniliyə həmişə açıqdır. “Əməliyyat qapalılığı” biliyin ətraf mühitlə eko münasibətlərinin mövcudğulunu göstərir. Bu da biliklərin sintezini avto-eko-təşkilati aspektlərin vəhdəti kimi təsəvvür etməyə imkan verir.

Altıncı prinsip biliyin sintezi ilə onu formalaşdıran subyektin qarşılıqlı təsirlərinin əhəmiyyətini ifadə edir. Belə ki, bilik yalnız koqnitiv və sosial-mədəni aspektlərin deyil, texnoloji faktorların da təsirinə məruz qalır. Onun formalaşması vurğulanan aspektlərin sintezində baş verir. Biliyin sintezləşməsi də avtomatik olaraq həmin idraki “dairədə” baş verir.

Nəhayət, yeddinci prinsip bütövlükdə idrakı və o cümlədən, alınan biliklərin sintezini davamlı və ümumiləşdirici xarakterdə təqdim edir. Belə ki, subyekt müşahidəçi kimi təkrar dərketmə prosesinə daxil olur və orada özünü yeniləşdirməklə biliyi də yeniləşdirir. Yəni bilik müşahidəçinin idraki pozisiyasından asılıdır. Deməli, biliklərin sintezi açıq və mürəkkəb prosesdir ki, sadədən mürəkkəbə, fraqmentdən bütövə, differensiasiyadan inteqrasiyaya doğru istiqaməti əks etdirir.

Vurğulanan müddəalardan bir neçə fəlsəfi nəticə çıxarmaq olar.

**YEKUN NƏTİCƏ**

Biliklərin sintezi məsələsinin öz tarixi vardır. Keçən əsrin əvvəllərindən başlayan bu proses gedikcə daha mürəkkəb və dinamik xarakter almışdır. Bunun səbəbi elmlərarası əlaqələrin inkişafı nəticəsində fərqli qnoseoloji, metodoloji və təşkilati nühitin formalaşması ilə bağlıdır.

İndiki mərhələdə biliklərarası əlaqələr ümumilikdə inteqrativ xarakter daşıyır. Bu, postqeyrirasionallığın rəqəmsallıq şəraitində yeni məzmun çalarları kəsb etməsi ilə əlaqəlidir. Faktiki olaraq bilik “multibilik”dir və dərkedən subyekt intersubyektdir. Biliklərin sintezi bu kimi dəyişmələr əsa-

sında fərqli məzmun almağa başlayır. O cümlədən, indi elə bir araşdırma yoxdur ki, fənlərarası yanaşma tətbiq edilməsin.

Biliklərin sintezi məsələsinə mürəkkəblik paradiqması prizmasında yanaşmaq daha adekvat təsiri bağışlayır. Müasir idrak prosesinin mürəkkəb sistem kimi təsəvvür edilməsi bütövlükdə elmi kriteriyaları dəyişir. Həmin kontekstdə müasir biliyin plüralistik məzmuna və ierarxik quruluşa malik olduğu nəticəsini çıxarmağa əsas verir.

Nəhayət, biliklərin sintezi müxtəlif elm sahələrinin qarşılıqlı əlaqəsi məsələsini yeni səviyyəyə qaldırır ki, bu proses yeni sintetik elmi istiqamətlərin formalaşması tendensiyasının intensivləşəbiləcəyini proqnozlaşdırmağa imkan yaradır.

## ƏDƏBİYYAT


1. Abbasov, Ə.F. Müasir fəlsəfə və elmi idrak / Ə.F.Abbasov, İ.R.Məmmədzadə, Ə.S.Abasov [və b.] // Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq, – Bakı: “Elm və təhsil”, – 2022. – s. 28-111.
2. Qurbanov, F.M. Süni intellektin yaradılmasının fəlsəfi refleksiyasına dair / F.M.Qurbanov, İ.R.Məmmədzadə, Ə.F.Abbasov [və b.] // Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq, – Bakı: “Elm və təhsil”, – 2022. – s. 208-246.
3. Аршинов, В.И., Свирский, Я.И. Сложностный мир и его наблюдатель. Часть первая // – Москва: Журнал «Философия науки и техники», – 2015, 20 (2), – с. 70-84.
4. Буданов, В.Г. Сложностность и проблема единства знания. Вып. 1: К стратегии познания сложности / В.Г. Буданов, В.И. Аршинов, В.Е. Лепский [и др.] // Российский Академия Наук. Институт Философии, – 2018. – 105 с.
5. Милославов, А.С. Что такое сложность? // – Санкт-Петербург: СПбГУ ИТМО. Научно-технический вестник СПб ГУИТМО, – 2007, 36, – с. 27-34.
6. Морен, Э. Метод. Природа природы / Э.Морен. – Москва: «Канон+»; «Реабилитация», – 2013. – 488 с.
7. Andrea, C.T. The art and science of knowledge synthesis / C.T.Andrea, T.Jennifer [et al.] // Journal of Clinical Epidemiology, – 2011. №64, – p. 11-20.
8. Brown, B.R. Breakthrough Knowledge Synthesis in the Age of Google // – Waterloo: University of Waterloo.School of Public Health and Health Systems, – 2020, 5 (4), – p. 1-13.
9. Chalmers, I. A brief history of research synthesis / İ.Chalmers, L.V. Hedges [et al.] // Journal “Evaluation & the Health Professions”, – 2002. №25, – p. 12-37.
10. Cilliers, P. Complexity and Postmodernism. Understanding complex systems. This edition / P.Cilliers. – London-New York: Routledge is an imprint of the Taylor & Francis Group, – 2002. – 167 p .
11. Cilliers, P. On the Importance of a Certain Slowness / P. Cilliers. – Singapore. İn: “Worldviews, Science, and Us: Philosophy and Complexity”, – 2007. – p. 1-9.
12. Cruz-Sandoval, M. Complex thinking and social entrepreneurship. An approach from the methodology of compositional data analysis / M.Cruz-Sandoval, J.C.Vázquez-Parra, M.CarlosArroyo [et al.] // Science Direkt: Gell Press, Journal HELIYON, – 2023, 9 (2), – p. 1-15.
13. URL:https://www.oxfordlearnersdictionaries.com/definition/english/paradigm#:~:text=paradigm,noun,exampleorpatternofsomething. Müraciət tarixi 07.05.2024.
14. Graham, I.D. Some theoretical underpinnings of knowledge translation // Journal “Academic Emergency Medicine”, – 2007, 14 (11), – p. 936-941.
15. Mukherjee, S. The nearly universal link between the age of past knowledge and tomorrow’s breakthroughs in science and technology: The hotspot / S.Mukherjee, D.M.Romero, B.Jones [et al.]

// The American Association for the Advancement of Science (AAAS). Yournal “Science Advances”, – 2017, 3, – p. 1-9.
16. Naylor, C.D. Clinical decisions: from art to science and back again // Journal “The Lancet”, – 2001, 358 (9281), – p. 523-524.
17. Fiedler-Ferrara, N. Complex thinking: building a new paradigm // Journal “V!RUS”, – 2010. №.3, – p. 1-21.
18. Füllsack, M. Observing productivity: what it might mean to be productive when viewed through the lens of Complexity Theory // Journal of “Philosophical Economics”, – 2012, 1 (1), – p. 56-77
19. Sanabria Z.J., J. Sanabria-Z.R., M.Soledad., F.J.García-Peñalvo., M.Cruz-Sandoval. Complex Thinking in Interdisciplinarity: An Exploratory Study in Latin American. – Prague. Population // In Proceedings of the 15th International Conference on Computer Supported Education (CSEDU 2023), – 2023, – p. 288-295.
20. Simon, H.A. The Sciences of the Artificial. Cambridge. Third ed. / H.A.Simon. – Massachusetts, London: MIT Press, – 2015. – 241 p.

## SYNTHESIS OF KNOWLEDGE: IN THE CONTEXT OF THE COMPLEXITY PARADIGM

**V.R.Zulfugarov**

In the article, the problem of the synthesis of knowledge is philosophically investigated in the light of the modern state of inter-science relations. It is shown that knowledge synthesis at the modern stage is a dynamic, non-linear, complex and open process. For its adequate philosophical-scientific understanding, a different epistemological approach is required.

At the current stage, the synthesis of knowledge is not a fragmentary, but a whole and fully realized holistic process. The article emphasizes that the issue of knowledge synthesis at the current stage can be understood in close connection with the concept of complexity, complexity paradigm and epistemological features of inter-science relations.

The main scientific goal of the article is to investigate the influence of the character of interdisciplinary relations on the synthesis of knowledge in the modern stage. An interdisciplinary approach is used for this. Systemic approach, non-linear and intersubjective analysis and synergistic formation were chosen as methodological principles. Dynamic integration is used as a method. Scientific innovation is related to the prediction that the tendency of the formation of new synthetic scientific directions on the basis of the investigation of the synthesis of knowledge may intensify.

**Keywords:** *scientific knowledge, inter-science relations, disciplinary structure of science, complexity, interdisciplinary approach, hierarchy of knowledge, openness of knowledge, synergism, dynamic integration*

# СИНТЕЗ ЗНАНИЙ: В КОНТЕКСТЕ ПАРАДИГМЫ СЛОЖНОСТИ

**В.Р.Зульфугаров**

В статье проблема синтеза знаний философски исследуется в свете современного состояния междисциплинарных отношений. Показано, что синтез знаний на современном этапе представляет собой динамичный, нелинейный, сложный и открытый процесс. Для ее адекватного философско-научного понимания необходим иной эпистемологический подход.

На современном этапе синтез знаний представляет собой не фрагментарный, а целостный и вполне реализованный целостный процесс.

В статье подчеркивается, что вопрос синтеза знаний на современном этапе можно понимать в тесной связи с понятием сложности, парадигмой сложности и гносеологическими особенностями междисциплинарных отношений. Основная научная цель статьи – исследование влияния характера междисциплинарных связей на синтез знаний на современном этапе. Для этого используется междисциплинарный подход. В качестве методологических принципов были выбраны системный подход, нелинейный и интерсубъектный анализ и синергетическое становление.В качестве метода используется динамическая интеграция. Научная новизна связано с прогнозированием того, что может усилиться тенденция формирования новых синтетических научных направлений на основе исследований синтеза знаний.

**Ключевые слова:** *научное знание, междисциплинарные связи, дисциплинарная структура науки, сложность, междисциплинарный подход, иерархия знаний, открытость знаний, синергизм, динамическая интеграция*

UOT: 33
https://doi.org/10.59849/2409-4838.2024.2.80

# FİLM SƏNAYESİ İQTİSADİYYATIN SUBSEKTORU KİMİ VƏ AZƏRBAYCANDA İNKİŞAF SƏVİYYƏSİ

**Cəmaləddin Pərviz oğlu Məmmədov**
İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan
*jamal.mammadov23@gmail.com

*Film sənayesi musiqi və dəb sənayesi ilə birlikdə mədəniyyət sahələri arasında ən gəlirli sektorlardan biri kimi çıxış edir. Bu sektor işsizliyə təsir edən mühüm sahələrdən biridir. Belə ki, həm kino, həm də teatr komanda işi olmaqla özündə bir çox iş sahəsini birləşdirir. Aktyor, rejissor, ssenarist, işıqçı, qrim ustası, geyim dizaynerləri və stilistlər, səs rejissoru, produser və s. kimi peşə sahibləri hər iki sahədə fəaliyyət göstərir. Mədəniyyət sahələri yaratdıqları əlavə dəyərlə də iqtisadiyyatın digər sahələrini də dəstəkləməklə geniş iqtisadi potensial yaradırlar. Film sənayesi isə bu sahələrin başında gələn sahələrdən biridir. Ölkəmiz Sovet dönəmində güclü film sənayesinə malik olmaqla, istehsal edilən yerli filmlərimiz həm keçmiş sovet ölkələrində, həm də onun hüdudlarından kənarda rəğbətlə qarşılanırdı. Lakin müstəqilliyin əldə edilməsi dönəmindən sonra ölkədə yaranmış vəziyyət film sənayesindən də yan keçməmişdir. Bu dövrdən etibarən istehsal edilən edilən filmlərin sayı azalmış və çəkilən filmlərin keyfiyyəti də müasir zamanın tələbləri ilə uzlaşmamışdır. Yaranmış vəziyyət əhalidə yerli istehsal filmlərə olan marağı azaltmışdır. Lakin son onillikdə yerli istehsal filmlərinin sayı nisbətən artsa da, hələ də istənilən səviyyəyə çatmamışdır. Məqalənin yazılmasında məqsəd də ölkəmizdə film sənayesinin mövcud vəziyyətini araşdırmaq və buradakı mənfi nüansları ortaya çıxarmaqdır. Məqalədə müxtəlif kütləvi informasiya vasitələrində yayımlanan məlumatlar və rəqəmlər əsasında yerli film sənayesindəki boşluqlar müəyyən edilmiş və bu istiqamətdə atılmalı olan addımlar qeyd edilmişdir. Qeyd etmək istərdim ki, ölkəmizdə digər mədəniyyət sahələrində olduğu kimi film sənayesinin iqtisadi aspektləri araşdırılmamışdır. Məqalə bu istiqamətlərdə aparılmış ilk elmi araşdırmalardan biridir.*

***Açar sözlər:*** *film, kino, sənaye, mədəniyyət, iqtisadi*

## GİRİŞ

Filmlər ortaya çıxmamışdan əvvəl insanlar əsasən teatrlara üz tuturdular və ya öz asudə vaxtlarını başqa formada, daha çox kommersiyalaşmamış fəaliyyətlərlə məşğul olurdular. Filmlərin ortaya çıxması ilə insanların asudə vaxtlarının təşkil edilməsi üçün yeni bir fəaliyyət növü meydana çıxmış oldu. 1890-cı illərin əvvəllərində Tomas Edison tərəfindən yaradılmış kinematoqrafiya film sənayesinin yaranması üçün əsas təməldaşlardan oldu. Bundan sonra eyni onilliyin ortalarında Lümyer qardaşlarının Tomas Edisonun ixtirasına əlavə etdiyi proyeksiya ixtirası daha sonra çəkilmiş filmlərin yayımlana bilməsi üçün şərait yaratmış və ilkin kinoteatrların təməli beləcə qoyulmuş oldu.

Artıq XX əsrin əvvəllərində film sənayesi bir çox qərb ölkəsinin iqtisadiyyatında aparıcı rol oynamağa başlamışdı. Avtomobil, elektrik enerjisi, kimyavi maddələr və s. kimi yeni yaranan sahələrlə yanaşı inkişaf edən film sənayesi əyləncə sektorunun ilk sənayeləşmiş forması kimi geniş istifadəçi toplamağa başlamışdı. Həmin dövrlərdə bu sahənin tamaşaçısı olmayan çox az sayda idi. Artıq 1910-cu ildən etibarən hər il milyardlarla film biletləri satılırdı. Məsələn, bugün İtaliyada film sənayesi əvvəlkitək populyar olmasa da, Birinci Dünya Müharibəsindən əvvəl bu sənaye ölkənin dördüncü əsas ixrac məhsulu kimi çıxış edirdi. Böyük depressiya dönəmində film sənayesi ABŞ iqtisadiyyatının onuncu ən gəlirli sahəsi kimi çıxış edir, 1930-cu ildən etibarən isə Fransa film sənayesi ən sürətlə inkişaf edən sektorlardan biri olmuşdur [4]. Bütün bu göstəricilər film sənayesinin uğurlu perspektivini labüd edirdi. XX əsrin ortalarında artıq yeni texnologiyaların inkişafı, İkinci

Dünya Müharibəsinin bitməsi, ölkələr arasında iqtisadi münasibətlərin genişlənməsi və s. kimi amillər bütün sahələrə təsir etdiyi kimi film sənayesindən də yan keçməmişdir. Xüsusilə müharibənin bitməsi bir çox ölkələrdə müharibə mövzulu filmlərin istehsalını təşviq etmişdi. Təsadüfi deyil ki, SSRİ-də də müharibə dövrünü əks etdirən “Bizim Cəbiş müəllim”, “Tütək səsi”, “Şərikli çörək”, “Mən ki gözəl deyildim” və s. kimi bir çox filmlər istehsal edilmişdi. Azərbaycan filmlərinin məhz şahlanma dövrü bu zamandan SSRİ-in dağılması dövrünə qədər olan müddəti əhatə edirdi. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda ilk film, film sahəsinin yaranmasından cəmi 3 il sonra, 1898-ci ildə çəkilmişdi. Filmi fransadan gəlmiş fotoqraf Aleksander Mixayloviç Mişon lentə almışdır.

Müasir dövrümüzdə film istehsalının yeni qaydaları vardır. Film istehsalının istər yaradıcı istiqamətində, istərsə də maliyyə və digər iqtisadi aspektlərində dəyişiklər qaçınılmaz olmuşdur. Buna görə də hər bir ölkə öz film sənayesinin inkişafını müasir standartlar üzrə formalaşdırmağa çalışmalıdır. Bu olmadığı təqdirdə əlbəttə ki, film səanyesinin inkişafı ləng templə gedəcək və yan ümumiyyətlə inkişaf etməyəcəkdir. Buna görə də film sənayesi həm mədəni və yaradıcı aspektdən, həm də iqtisadi obyekt kimi araçdırılması vacib olan sahlərdən biridir. Yazdığım məqalədə film sənayesinin istehsalı prosesi, onun maliyyələşmə mənbələri və ölkəmizdə film sənayesinin mövcud vəziyyəti öz əksini tapmışdır.

## ƏSAS HİSSƏ

### Film sənayesinin istehsal prosesləri

Film sənayesi çox prosesli olmaqla, özündə çoxsaylı insan resursu tələb edən sahələrdən biridir. Təsadüfi deyil ki, burada istehsal və insan faktorları əsas hissələrini təşkil edir. Filmin istehsalı Film production) dedikdə çox uzun bir proses nəzərdə tutulur. İlkin mərhələ inkişafdır (development). Buraya ssenari, ideyanın yaranması, qanuni hüquqlar, maliyyə təminatı daxildir. İkinci mərhələ istehsaldan əvvəlki (pre-production) dövrdür. Buraya setlərin və kastınq formalaşdırılması daxildir. Sonrakı mərhələ isə istehsal (production) dövrüdür. Burada artıq çəkilişlər və foto çəkilişlər həyata keçirilməyə başlanılır. Növbəti mərhələdə prinsipial fotoqrafiya (principial photography) işləri həyata keçirilir. Bu prosesdə filmin çəkiləcəyi yerdə kastla birgə əsas çəkilişlər həyata keçirilir. Daha sonra ingilis dilində “wrap” (bükmə, sarğı) adlanan hissə var ki, bu filmin artıq post-istehsal dövrünə hazır olduğunu göstərir. Bundan sonra artıq qeyd etdiyimiz kimi post-istehsal (post-production) dövrü gəlir ki, bu da audio və video editlər kimi prosesləri əhatə edir. Artıq film hazır olduqdan sonra paylama (distribution) mərhələsi həyata keçirilir. Artıq bu proseslərdən bəlli olur ki, film istehsalı çox geniş olmaqla bu proseslərin hər birində fərqli peşələri təmsil edən şəxslər çalışır. Bu isə bir filmdə bəzən minlərlə şəxsin çalışması deməkdir. Nəticədə bir filmin istehsalı üçün minlərlə iş yeri yaradılmış olur.

### Film səanayesində maliyyələşmə

Filmlərin çəkilməsi üçün əlbəttə maliyə xərcləri çəkilir. Bu xərclər əsasən filmin istehsalı, inkişafı, marketinqi və reklamına çəkilir. Filmin istehsalı qədər onun tanıdılmasına çəkilən xərclər də xüsusi əhəmiyyət kəsb edir. Belə ki, amerikan filmlərinin təşviqi və reklamı (P&A – promotion and advertising) filmin büdcəsinin yarısı qədər, bəzən isə bundan çox olur. Bu filmə daha çox diqqət çəkmək, onları insanlara daha maraqlı etməyin yolları kimi qiymətləndirilir.

Film sənayesinə investiya etmək isə bir qədər riskli hesab edilir. Buna əsas səbəb filmlərin yayımından sonra onlara marağın nə dərəcə olacağını əvvəlcədən dəqiq bilinməməsidir. Məsələn, buna misal olaraq “Little Miss Sunshine” və “John Carter” filmlərinin müqayisəsini göstərə bilərik. Belə ki, adı çəkilən ilk filmin büdcəsi cəmi 8 milyon dollar olmuş və “Fox Searchlight”a 10.5 milyon dollara satılmışdı. Film ABŞ kinoteatrlarında tam 59.89 milyon dollar gəlir əldə etmişdi. Bunun əvəzində isə ikinci filmin büdcəsi 250 milyon dollar olsa da ABŞ film kassasında cəmi 73 milyon gəlir qazanmışdı. [2]

Filmlərin gəlir mənbəyinə gəldikdə isə bu fərqli mənbələr hesabına formalaşır. Bunlardan ilki bilet satışlarıdır. Bu birbaşa olaraq filmlərin kinoteatrlarda izləyicilər tərəfindən izlənilməsi nəticəsində yaranan gəlir formasıdır. Bundan başqa filmlər xarici satışlardan da külli miqdarda gəlir əldə edirlər. Filmlər kinoteatrlarda verildikdən bir müddət sonra, müxtəlif televiziya şirkətlərində yayımlanması üçün satılır. Bu zaman həmin televiziya şirkətləri filmin yayım hüququnu əldə etmək məqsədilə istehsalçıya ödəniş edir. Bu həmçinin DVD və son dönəmlərdə onlayn platformalar üçün də keçərlidir. Bundan başqa filmlər ticarət fəaliyyətindən də gəlir əldə edə bilirlər. Məsələn, film istehsalçıları öz qəhrəmanlarının əksi olan geyimlər və ya oyuncaqların istehsal edilməsi üçün şirkətlərə patent verirlər. Beləliklə, film istehsalçıları bu vasitə ilə də gəlir əldə etmiş olurlar. Lakin bu üsul bütün filmlər üçün keçərli olmaya bilər.

Sadalanan mənbələrlə yanaşı dünya film sənayesində digər maliyyə qaynaqlarının da rolu böyükdür. Bunlardan ilkin adını çəkəcəyimiz xüsusi investisiyalar və ya biznes partnyorlarıdır. Bu tip maliyyə dəstəkçiləri filmin satışından gələn gəlirin bir hissəsinə sahib olmaq məqsədilə bu tip investisiyaları yatırmaqda maraqlı olurlar. Bundan başqa filmlərin istehsalında mühüm əhəmiyyət kəsb edən amillərdən biri də film qrantlara və dövlət maliyyələşməsidir. Xüsusilə dövlətlər lokal film istehsalının inkişafı məqsədilə filmlərin istehsalını qrantlar vasitəsilə dəstəkləyir. Həmçinin film istehsalçıları müxtəlif festivallarda iştirak edərək həmin festivalların qrantlarını əldə edə bilirlər. Digər maliyyələşmə üsulu “crowdfunding” və ianələrdir. Kroudfoundinq bir neçə şəxsin və ya qrupun maliyyələrini cəmləşdirərək əmələ gətirdiyi maliyyə vəsaiti, ianələr isə bir və ya bir neçə şəxsin şəxsi vəsaitindən film istehsalına etdikləri ianələri əhatə edir.

Azərbaycan Respublikasında isə filmlərin maliyyələşməsi əsasən dövlət dotasiyaları hesabına həyata keçirlir. Bəzi kommersiya məqsədli filmlərin istehsalında isə əsasən biznes partyorlarının və ya sponsorların iştirakı müəyyən dərəcədə gözə dəyir. Fondlardan isə digər mədəniyyət sahələrində olduğu kimi film sənayesində də Heydər Əliyev Fondudur ki, o da əsasən sənədli filmlərin istehsalına maliyyə vəsaitlərinin qoyuluşunu həyata keçirir. Dövlətin maliyyə dəstəyi ilə çəkilən filmlərin gəlirliyi isə çox zəif olur.

**Film sənayesinin fəaliyyəti**

İnsan resursu və digər faktorlara gəldikdə film istehsalında əsas şəxs ssenaristir. Belə ki, ssenari olmadığı halda filmdən söhbət gedə bilməz. Daha sonra filmin maliyyə və menecment tərəfini üzərinə götürən prodüserlər gəlir. Filmin istehsalından sonra onun yayımlanmasını təşkil edən distribüter şirkətlər xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə filmlərin əsas yayım mərkəzi olan kinoteatrlar filmlər üçün vacib faktorlardan hesab edilir. Agentliklər də film istehsalında xüsusi əhəmiyyət kəsb edir. Buraya həm istedadların axtarılması üzrə, həm də satış və s. üzrə agentliklər daxildir. Bundan əlavə makeup artistlər də film çəkilişi dövründə iştirak edən əsas insan kapitalına daxildir. Film redaktoru, bəstəkar, kinematoqraf da film istehsalında iştirak edən əsas şəxslər arasındadır. Bundan əlavə film çəkilişində kostumlar üzrə stilistlər də çalışır. Artıq bu danışılanlardan aydın olur ki, film sənayesi özlüyündə iqtisadi inkişaf gətirməsi ilə yanaşı, digər sahələrə də əlavə dəyər yaratmaqla daha geniş iqtisadi dəyər yaratmış olur.

Hazırda filmlərin yayımında digital platformanın sürətli inkişafı ilə yeni yayım platformaları yaranır. Bu filmlər üçün yeni yayım imkanları yaratmaqla, həmçinin daha çox izləyiciyə çatmaq şansı verir. Bu isə özlüyündə həm filmin yayımlandığı platforma üçün, həm də filmlər üçün gəlirin daha çox olmasına, gəlir mənbəyinin diversifikasiyasına gətirib çıxarır. Son dövrlərdə bu sahədə yeni platformalar yaranmaqla məhz onların orjinal istehsalı olan filmlər istehsal olunur. Bu tip platformalara biz “Netflix”, “Disney Plus”, “Amazon Prime”, “HBO” aid edilir. Təkcə “Netflix” digital film kanalında 6000 orijinal film istehsal edilib ki, bunlara filmlərlə yanaşı seriallar, sənədli filmlər və digər kontentlər daxildir. [6] Qonşu dövlət Türkiyədə də bu yolda addımlar atılır. Təsadüfi deyil ki, son dövrdə ölkədə “Exen” kimi yeni digital kanallar formlaşmışdır. Bu tip platformaların əsas gəlir mənbəyi izləyici abunəliklərdən əldə olunan vəsaitlərdir və bu abunəliklər əsasən müxtəlif ka-

teqoriyalara və ölkələrə görə fərqlənir. Qeyd etmək lazımdır ki, bu tip platformalar yalnız bir ölkənin istehsalı olan filmləri yayımlamaqla kifayətlənmir. Məsələn, "Netflix" platformasında Amerika istehsalı filmlərlə yanaşı İspaniya, Böyük Britaniya, İtaliya, Türkiyə, İsveç və s. kimi ölkələrin istehsalı olan kinematoqrafiya məhsulları yayımlanır. Azərbaycan hökuməti də bu yolda müxtəlif addımlar atmaq fikrindədir. Lakin hazırda hələ də yerli istehsal olan filmlər bu platformada yayımlanmayıb. Yalnız bəzi xarici istehsal olan filmlər Azərbaycanda çəkilmiş və ya filmlərdə Azərbaycan barədə bəzi fraqmentlər olmuşdur ki, bu da məhz ölkənin təbliğatının aparılması məqsədilə həyata keçirilmişdir. Bu tip filmlərə "Leyli və Məcnun", "Boz adam" (The Gray Man) filmləri daxildir.

Hazırda Azərbaycan Respublikasında bir neçə film studiyaları fəaliyyət göstərir. Bunlara "Butafilm", "Azərbaycan Beynəlxalq Kino Şirkəti", "M Group Production", "Soy Production" və s. daxildir. Lakin ölkə filminin əsas sütun təşkilatları kimi Azərbaycan Kinematoqrafçılar İttifaqı və Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqıdır. Bu ittifaqlar əsasən dövlət büdcəsi hesabına filmlərin istehsalını həyata keçirirlər. Lakin deyə bilmərik ki, bu ittifaqlar son dövrlərdə iqtisadi səmərəli hər hansısa filmə imza atmışlar. Təəssüf edilməli haldır ki, dövlət sifarişi hesabına çəkilən bu filmlərin büdcəsi və gəlirləri barədə nə ittifaqlar tərəfindən, nə filmi çəkən studiyalar, nə də Mədəniyyət Nazirliyi tərəfindən ictimai hesabat dərc edilmir. Lakin hesablamalar palatasının həm 2022, həm də 2023-cü illərdə apardıqları hesablamalar əsasında film istehsalında baş verən nöqsanlar ortaya çıxmışdır. Belə ki, 2022-ci ildə aparılan hesablar əsasında aşkar edilmişdir ki, dövlət sifarişi ilə çəkilən filmlər cəmi 1905.2 manat gəlir gətirmişdir [3]. Hesablama Palatasının 2023-cü ildə Mədəniyyət Nazirliyi və Kino Agentliyində apardığı araşdırmalarda nəticə belə olmuşdur: "Auditlə Nazirlik və Agentlikdən əlavə olaraq C.Cabbarlı adına "Azərbaycanfilm", "Filming Azerbaijan" və "Salnamə" studiyaları, həmçinin Azərbaycan Dövlət Film Fondu əhatə olunmuş və tabelikdə olan studiyalara auditlə əhatə olunan dövrdə dövlət vəsaiti ayrılmamış və icra edilməmişdir. Auditlə ümumilikdə, 10.7 milyon manat vəsait əhatə edilib. Bundan başqa əvvəlki auditlə müəyyən edildiyi kimi, cari auditlə də dövlət vəsaitlərinə tələbat və icra göstəriciləri arasında kəskin fərqlər olmuş, filmlərin istehsalında ilkin olaraq özəl studiyaların iştirakı proqnozlaşdırılmasa da, il ərzində bu studiyalara 9 film ilə bağlı vəsait ödənilib, icra zamanı ilkin nəzərdə tutulandan 2,7 dəfə az sayda bədii film çəkilib, 1 filmə proqnozlaşdırılmış məbləğdən 34,8% daha çox vəsait sərf edilib. Auditin əhatə etdiyi illərdə müsabiqələrdə iştirak etməyən filmlər də maliyyələşdirilib, 2 dövlət studiyasına 922,1 min manat, digər studiyalar üzrə 6 filmə 3,5 mln. manat büdcə vəsaiti əvvəlki illərdə müsabiqədənkənar layihələr üzrə yönəldilib. 2022-ci ildə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası ilə bağlanmış 3, "Salnamə" studiyası ilə bağlanmış 1 müqavilənin icrası başa çatdırılmayıb, həmin müqavilələr üzrə 304,7 min manat vəsait ödənilib [5]. Son dönəmlərdə bu tipli araşdırmaların güclənməsi və ortaya çıxan nəticələr onu deməyə imkan verir ki, uzun illər film istehsalında yaranan boşluqların səbəblərindən biri də məhz idarəetmə ilə bağlı olmuşdur.

Ölkədə özəl film istehsalı şirkətlərinin də istehsal edildiyi filmlər nümayiş olunur. Bu filmlər əsasən kommersiya məqsədilə çəkilir. Müstəqillik dövrü ərzində yerli istehsal olan filmlərin inkişafı əsasən 2012-2014-cü illərdən sonraya təsadüf edir. Respublika ərazisində yeni kinoteatrların yaranması, onların öz qapılarını yerli filmlərə də açması (əvvəlki dövrlərdə kinoteatrlar yerli filmlərin yayımında maraqlı olmamışlar) kimi amillər, həmçinin də aktyor və aktrisaların yerli seriallar vasitəsilə ölkədə populyarlıq qazanması onlara olan tələbatı artırmışdır ki, bunun nəticəsində də dövlət büdcəsi hesabına çəkilməyən filmlər formalaşmağa başlamışdır. Ölkədə çəkilən bir çox film istehsalçıları üçün rentabelli olmuşdur. Belə ki, Toğrul Maşallının "Azlogos.eu" saytında dərc edilmiş "Azərbaycanın kino bazarı" adlı yazısında qeyd edilmişdir ki, yerli istehsal olan "Xoxan" filmi 65-70 min manat büdcə ilə çəkilməklə 250 min tamaşaçı baxışı toplamış və filmin ümumi yığımı 1 milyon manat təşkil etmişdir. Eyni dövrdə çəkilən "My name is İntiqam" filmi isə yarım milyona yaxın yığım əldə etmişdir [8].

Müqayisə üçün qeyd etmək istərdim ki, dünya film sənayesində ən yüksək büdcə ilə çəkilən filmlər "Star Wars: The Force Awakens"in büdcəsi 447 milyon ABŞ dolları, "Jurrasic World: Fal-

len Kingdom"un büdcəsi 432 milyon ABŞ dolları, "Pirates of the Carribean: On stranger tides" filminin büdcəsi 379 milyon ABŞ dolları, "Avangers: Age of Ultron"un büdcəsi 365 milyon ABŞ dolları təşkil etmişdir [7]. Müvafiq olaraq ən çox gəlir gətirən filmlər isə 2923706026 ABŞ dolları ilə "Avatar", 2799439100 ABŞ dolları ilə "Avangers: Endgame", 2264743305 ABŞ dolları ilə "Titanic", 2071310218 ABŞ dolları ilə "Star Wars: Episode VII – The Force Awakens" və bu kimi digər filmlər olmuşdur. [9]

Artıq 2020-ci ildən etibarən Azərbaycan hökuməti mədəniyyət sahələrinin inkişafına xüsusi diqqət ayırmağa başlamışdır. Yuxarıda qeyd etdiyimiz məsələ də buna bariz nümunələrdən biri sayılır. Bu yöndə film sənayesi də kənarda qalmamışdır. Belə ki, film sənayesinin inkişafı məqsədilə 2022-ci ilin noyabr ayının 16-ı tarixində Prezident İlham Əliyevin Fərmanı əsasında Azərbaycan Respublikası Kino Agentliyinin Nizamnaməsi təsdiq edilmişdir. Agentliyinin Nizamnaməsində qeyd edilir – "*Azərbaycan Respublikasının Kino Agentliyi (bundan sonra – Agentlik) Azərbaycan Respublikasında kinematoqrafiyanın inkişafının, o cümlədən yerli və müştərək kino istehsalının dəstəklənməsi, kino mədəniyyətinin təbliğinin təşkili, kinematoqrafiya müəssisələrinin və kino sənayesi iştirakçılarının fəaliyyətinin, eləcə də kinematoqrafiya sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, Azərbaycan kinematoqrafiyasının dünya kinematoqrafiyasına inteqrasiyası sahələrində (bundan sonra – müvafiq sahədə) fəaliyyət göstərən, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyindəki kinematoqrafiya müəssisələrini idarə edən və onların fəaliyyətinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir."* [1]. Lakin artıq qeyd etdiyimiz kimi son 2023-cü ildə Hesablama Palatası tərəfindən Mədəniyyət Nazirliyi və Kino Agentliyində aparılan araşdırmalar ürəkaçan olmamışdır. Ümid edilir ki, bu dövrdən sonra agentlik ölkəmizdə filmin inkişafına töhvə verməklə, bir sənaye sahəsi kimi çiçəklənməsinə xidmət edəcəkdir.

**YEKUN NƏTİCƏ**

Ölkəmizdə film istehsalının inkişafının qarşısında duran bir neçə məqam var. Bunları aşağıdakı kimi sadalaya bilərik:

Maliyyə çatışmazlığı;

Müasir texnologiyaların çatışmazlığı;

Bu sahədə təhsil səviyyəsinin aşağı olması və s.

Bu məsələlərin aradan qaldırılması hazırda film sənayemizin qarşısında duran əsas məqamlardan biridir. Bunun üçün isə dövlət və özəl sektor birlikdə fəaliyyət göstərməlidir. Yalnız dövlətin maliyyəsindən asılı olan bir sektorun inkişafından təbii ki, söhbət belə gedə bilməz. Bu sahəyə yerli biznes mənsublarının marağını cəlb etməyə ehtiyac var. Burada isə öhdəlik təbii ki, dövlətin üzərinə düşür. Düşünülmüş mədəniyyət siyasəti nəticəsində bu istiqamətdə müxtəlif addımların atılmasına ehtiyac duyulur.

Təəssüflər olsun ki, digər mədəniyyət sferalarında olduğu kimi kino sahəsinin də iqtisadi təsirləri barədə daha öncə araşdırılmaların aparılmaması, statistik məlumatların kifayət qədər yetərli verilməməsi və s. kimi amillər bu sahənin daha da dərindən araşdırılmasına imkan vermir. Hər hansısa sahədə dərin elmi araşdırmaların aparıla bilinməməsi isə həmin sahələrin inkişafdan qalması deməkdir. Xüsusilə kommersiya məqsədli fəaliyyət sahələrində buna xüsusilə ehtiyac var. Nəticədə, həmin sahələrin zəif və güclü tərəflərinin müəyyən edilməsi dövlət siyasətinin müəyyənləşdirilməsində yardımçı olacaq ki, bu da öz növbəsində ölkədə adıçəkilən sahə üzrə biznes mühitinin yaxşılaşdırılmasında xüsusi rol oynamaqla biznes subyektlərinə yaradılan münbit şərait nəticəsində inkişafa səbəb olacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Kino Agentliyinin Nizazmnaməsi - Azərbaycan Respublikası Kino Agentliyinin NİZAMNAMƏSİ » Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi (president.az)
2. https://www.investopedia.com/articles/investing/093015/how-exactly-do-movies-make-money.asp
3. https://fed.az/az/maliyye/dovlet-sifarisi-ile-cekilen-filmler-cemi-1905-manat-gelir-getirib-144353
4. https://eh.net/encyclopedia/the-economic-history-of-the-international-film-industry/
5. https://qafqazinfo.az/news/detail/nazirlik-ve-agentlikde-yoxlama-materiallar-bas-prokurorluga-gonderildi-422026
6. https://blog.filmtrack.com/industry-insights/streaming-platforms-and-their-impact-on-the-film-industry
7. The most expensive movies ever - The Most Expensive Movies Ever Made (movieweb.com)
8. https://azlogos.eu/azərbaycanin-kino-bazari/
9. https://www.boxofficemojo.com/chart/top_lifetime_gross/?area=XWW

## THE FILM INDUSTRY AS A SUBSECTOR OF THE ECONOMY AND THE LEVEL OF DEVELOPMENT IN AZERBAIJAN

**J.P. Mammadov**

The film industry, along with the music and fashion industries, is one of the most profitable sectors of culture. This sector is one of the important areas affecting unemployment. Thus, both cinema and theater are teamwork and combine many areas of work. Actor, director, screenwriter, lighting, make-up artist, costume designers and stylists, sound director, producer, etc. such professionals operate in both fields. Cultural areas create a wide economic potential by supporting other areas of the economy with the added value they create. The film industry is one of the leading industries. Our country had a strong film industry during the Soviet era, and our locally produced films were well received both in the former Soviet countries and beyond. However, the situation that arose in the country after the period of independence did not escape the film industry. Since this period, the number of films produced has decreased, and the quality of the films has not met the requirements of modern times. The situation has reduced the interest in locally produced films among the population. However, although the number of locally produced films has increased relatively in the last ten years, it has not yet reached the desired level. The purpose of writing the article is to investigate the current situation of the film industry in our country and to reveal the negative nuances here. In the article, the gaps in the local film industry were determined based on the data and figures published in various mass media and the steps to be taken in this direction were noted. I would like to note that the economic aspects of the film industry, as in other cultural fields, have not been investigated in our country. The article is one of the first scientific studies conducted in these directions.

**Keywords:** *film, cinema, industry, culture, economic*

# КИНОИНДУСТРИЯ КАК ПОДОТРАСЛЬ ЭКОНОМИКИ И УРОВЕНЬ РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНЕ

**Дж.П. Мамедов**

Киноиндустрия, наряду с музыкальной и модной индустрией, является одной из самых прибыльных отраслей культуры. Этот сектор является одной из важных областей, влияющих на безработицу. Таким образом, и кино, и театр — это командная работа, объединяющая множество направлений работы. Актер, режиссер, сценарист, художник по свету, гример, художники по костюмам и стилисты, звукорежиссер, продюсер и т.д. такие профессионалы работают в обеих областях. Культурные территории создают широкий экономический потенциал, поддерживая другие области экономики создаваемой ими добавленной стоимостью. Киноиндустрия является одной из ведущих отраслей. В советское время в нашей стране была сильная киноиндустрия, и наши фильмы местного производства были хорошо приняты как в странах бывшего СССР, так и за их пределами. Однако ситуация, сложившаяся в стране после периода независимости, не обошла стороной киноиндустрию. С этого периода количество выпускаемых фильмов уменьшилось, а качество фильмов не отвечало требованиям современности. Ситуация снизила интерес населения к фильмам местного производства. Однако, хотя количество фильмов местного производства за последние десять лет относительно увеличилось, оно еще не достигло желаемого уровня. Цель написания статьи – исследовать современное положение киноиндустрии в нашей стране и выявить здесь негативные нюансы. В статье на основе данных и цифр, опубликованных в различных средствах массовой информации, определены пробелы в отечественной киноиндустрии и отмечены шаги, которые необходимо предпринять в этом направлении. Хочу отметить, что экономические аспекты киноиндустрии, как и других сфер культуры, в нашей стране не исследованы. Статья является одним из первых научных исследований, проведенных в этих направлениях.

**Ключевые слова:** *кино, кино, промышленность, культура, экономика*

**UOT: 1.16.165.0**
https://doi.org/10.59849/2409-4838.2024.2.87

**SÜNİ ŞÜUR: FORMALAŞMASININ FƏLSƏFİ-ELMİ ÖZƏLLİKLƏRİ**

**Turanə Bahəddin qızı Əsədova**
Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
*esedovaturane246@gmail.com

*Məqalədə hazırkı dövrdə süni intellektin süni şüura malik olub-olmamasının fəlsəfi və epistemoloji xüsusiyyətləri araşdırılır. Göstərilir ki, bu problem hazırda bütövlükdə fəlsəfi-elmi idrak üçün çox aktual hesab edilir.*

*Ümumiyyətlə götürdükdə, süni şüurun formalaşmasına fərqli yanaşmalar mövcuddur. Onu mümkün hesab edənlər vardır. Bununla razılaşmayaraq mövcudluğunu inkar edən tədqiqatlara da rast gəlinir. Digər araşdırmalarda isə süni şüurun perspektivdə yarana biləcəyi tezisi irəli sürülür. Bütün hallarda bu problem intensiv surətdə və getdikcə daha əhatəli tədqiqat sahəsində təhlil edilir.*

*Məqalədə məsələyə fənlərarası yanaşma prizmasında baxılır. Burada əsas elmi məqsəd mövcud fəlsəfi-elmi ədəbiyyatda rast gəlinən tədqiqatların işığında süni şüurun formalaşmasının müxtəlif aspektlərini fəlsəfi-elmi təhlil etməkdən ibarətdir.*

*Bunun üçün metodoloji prinsiplər olaraq qeyri-xəttilik, intersubyektivlik və sinergetik sintez tətbiq edilmişdir.*

*Metod kimi sistem və dinamik inteqrasiyadan yararlanılır.*

*Elmi yenilik "etik istiqamətin düzgün seçilməsi variantında bəşəriyyətin daha geniş idraki imkanlara malik olan təbii intellekt+süni intellekt simbiozuna nail olmasının mümkünlüyü" tezisi ilə əlaqəlidir.*

***Açar sözlər:*** *insan intellekti, süni intellekt, rəqəmsallaşma, koqnitiv, "güclü intellekt", fövqəlzəka, özünütəlim, biilyin kodlaşması, məna*

## GİRİŞ

Fəlsəfi və elmi ədəbiyyatda süni intellekt-şüur münasibətləri aktiv şəkildə müzakirə olunur. Məsələyə əsas olaraq müasir fəlsəfi-elmi idrakın xüsusiyyətləri ilə yanaşı, sosial-mədəni mühitin müasir özəllikləri prizmasında baxırlar. Burada kültür mühitindən müxtəlif faktorlar götürülsə də, ortaq məntiq eynidir: İndiki elmin inkişafı ilə kültür sisteminin qarşılıqlı əlaqəsinin fonunda süni intellekt və şüurun qarşılıqlı əlaqəsinin fəlsəfi dərki necə ola bilər? Bu zaman, bir qayda olaraq problem rəqəmsallaşma, yeni informasiya-kommunikasiya texnologiyaları və süni intellekt yaradılmasının son nailiyyətlərinin əlaqəsi mərkəzi yer tutur [4; 5, s. 251-259].

Araşdırmalarda müasir kültür mühiti şəraitində, yəni informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı və rəqəmsallaşmanın cəmiyyətə geniş tətbiqinin reallaşdığı bir dönəmdə süni intellektin şüura malik olub-olmaması aktual hesab edilir. Burada iki mövqe özünü göstərir. Birincisi, süni intellekt şüura malik deyil və ola da bilməz, ikincisi, süni intellektin elə növü vardır ki, şüura malikdir və ya perspektivdə ola bilər [9, s. 59; 19, s. 122-127].

Azərbaycan filosofları da süni intellektin fəlsəfi dərki kontekstində müxtəlif aspektlərlə yanaşı, şüurla bağlı da araşdırma aparırlar. Bu zaman süni intellektin etik aspektləri, elmi-metodoloji və məntiqi özəllikləri, süni varlıqların ümumi fəlsəfi təfəkkür kontekstində dərki, bütövlükdə süni varlıqların yaradılmasınını fəlsəfi, qnoseoloji və metodoloji imkanları və ayrıca, mürəkkəblik paradiqması çərçivəsində onun yaradılmasının xüsusiyyətləri ön plana çıxarılır [14, s.6-26; 8, s.219-246; 2, s. 28-111; 1, s. 112-149; 13, 34-37 və s.].

Professor İlham Məmmədzadə vurğulayır ki, indi fəlsəfi tədqiqatlarda ümumi kontekstdə süni intellektin şüur və təfəkkürlə münasibətinə daha çox diqqət yetirilir. Bunun fonunda ayrıca olaraq, insan intellekti və süni intellekt arasındakı fərq məsələləri araşdırılır [14, s. 21-23].

Ə.Ə.Abbasov məsələyə “fəlsəfə epistemoloji meqabilik statusunda” tezisi prizmasında yanaşmışdır [2, s. 89-111]. Ə.S.Abasov və M.Abbas isə bütövlükdə müasir epistemologiyanın məntiqi-metodoloji əsaslarını təhlil edərək, fəlsəfi-elmi biliyin koqnitiv imkanlarını araşdırmışlar. Bu çərçivədə süni intellektin şura malik olub-olmaması məsələsi də aktual görünür [1, s. 112-149].

F.M.Qurbanov süni intellektin yaradılmasının nəzəri, metodoloji və praktiki sərhədlərini müəyyən etmək əsasında insan şüuru-süni intellekt münasibətlərinin adekvat dərk edilə biləcəyi tezisini irəli sürür. Hesab edir ki, fəlsəfi-elmi idrakın hazırkı səviyyəsi bu məsələni adekvat həll etməyə imkan vermir. Deməli, yeni yanaşmalara və məntiqi sistemlərə ehtiyac vardır [8, s. 237-240].

B.Məmmədova isə hesab edir ki, süni intellektlə bağlı nəzəri araşdırmalar “...təkcə fəlsəfə sahəsində deyil, etika, siyasət, hüquq, iqtisadiyyat, sosiologiya, psixologiya kimi sahələrdə də ciddi problemlər yaradır” [13, s. 34].

Bütün bu fikirlərdən belə ümumi nəticə çıxara bilərik ki, süni şüurun mövcudluğu məsələsinin adekvat fəlsəfi dərki üçün, ümumiyyətlə, süni varlıqların yaradılmasının çox müxtəlf elmi aspektlərinə müraciət etmək lazımdır. Yekunda həmin bilikləri fəlsəfi kontekstdə ümumiləşdirərək, süni intellektin şüura malik olub-olmaması ilə bağlı fikir söyləyə bilərik.

Bu məqalədə yuxarıda qoyulan fəlsəfi-elmi problemə vurğuladığımız kontekstdə baxacağıq. Bunun üçün fənlərarası yanaşma prizmasında araşdırma aparacağıq.

Metodoloji prinsiplər kimi qeyri-xəttilik, intersubyektivlik və sinergetik sintezdən yararlanacağıq.

Bu zaman sistem və dinamik inteqrasiya metodlarını tətbiq edəcəyik.

## ƏSAS HİSSƏ

### 1. Süni şüurun mümkünlüyü haqqında: fəlsəfi yanaşmalar

Hər şeydən öncə, filosoflar süni intellekt probleminin insan şüurunu ciddi çətinliklərlə qarşılaşdırdığından bəhs edirlər. Hətta bu prosesin insan şüuru haqqında fəlsəfi təlimləri belə böhrana salmışdır. Hazırda filosoflar süni intellektin yaradılması təsiri altında hansı şüur təliminin daha adekvat olduğunu müəyyən edə bilmirlər. Bəlkə də buna ehtiyac yoxdur. Lakin süni intellektin daha səviyyəli növləri yaradıldıqca insan şüurunun fəlsəfi və elmi anlamı nəinki aydınlaşır, əksinə meydana çoxlu sayda suallar çıxır [17]. Onlardan bir qismi haqqında Manozotti və Çella 2018-ci ildə dərc olunmuş araşdırmalarında bəhs etmişlər. Onlar şüur haqqında klassik nəzəriyyələrin “güclü intellekt” GOFAC-ın tədqiqi zamanı qarşılaşdıqları çətinliklərdən yazırlar. Süni intellekt üçün ən çətin şüuri problemin robotun “real subyektiv yaşantıya” malik olması ilə bağlıdır. GOFAC elə bir fiziki aləm nəzərdə tutur ki, şüur müəyyən aralıq səviyyədə əmələ gəlir. Bu mövqeyə əsaslanan nəzəriyyə həmin fiziki aralıq səviyyənin konkret nədən ibarət olduğunu izah etməlidir. Lakin bu izah problematikdir. Mövcud olan yanaşmalara görə, izah üçün yeni aralıq səviyyə daxil etmək lazım gəlir ki, bu da sonsuza qədər prosesin uzadılması deməkdir. Həmin səbəbdən, filosoflar bu cür yanaşmanı “aralıq səviyyənin yanılması” adlandırırlar. Digər tərəfdən, şüur haqqqında elə nəzəriyyələr vardır ki, onlar şüuru fiziki deyil, mənəvi-ruhani aləmlə əlaqələndirirlər. Məsələnin bu tərəfini GOFAC, ümumiyyətlə, anlamır [12, s. 1-10].

Başqa istiqamətlərdən də yanaşmalar göstərir ki, hələlik sözün həqiqi mənasında süni şüurdan bəhs etmək üçün insan intellekti (və ya zəkası) müəyyən mərhələni keçməlidir. Deyək ki, Harvard Universitetinin professoru Devid Mamford süni intellektin mətni qarammatik oxuması ilə rasional yaradıcılıq imkanları arasında müqayisə apararkən belə qənaətə gəlir ki, neyroşəbəkələrin bütün uğurlarına baxmayaraq “bir pillə də yüksəlmək lazımdır”. Hələlik “mən yeni şablon tapıram” “deyə bilən” alqoritm yoxdur. Bu imkana sahib olan süni intellekt yeniliyi axtarıb tapmaq potensialına malik olar ki, bu da insan şüuru analogiyasında kreativ olmaq deməkdir. Bu səviyyə hələlik fəth edilməmişdir [15].

Filosof Amelie Şrayber isə problemə daha geniş və dərin kontekstdə yanaşır. O yazır ki, “bizim müasir zəka nəzəriyyəmiz çox məhduddur”. Süni intellektin şüura malik olması üçün “ümumi

süni intellekt nəzəriyyəsi" və "fövqəlzəka" nəzəriyyəsi hazırlanmalıdır. Bu nəzəriyyələr faktiki olaraq yeni elmi istiqamət çərçivəsində formalaşmalıdır. Filosof həmin yeni elmin ümumi nəzəri cizgilərini də vermişdir. O, neyrobiologiyanı, psixologiyanı, fizikanı, riyaziyyatı, fəlsəfəni və dini birləşdirməlidir. Lakin bu sırf nəzəri proyektin indi reallaşması imkanları görünmür [20].

Vurğuladığımız mövqelər elmdaxili məntiq prizmasında süni şüurun yaradılmasına baxışlardır. Məsələnin koqnitiv aspektdən heç də az əhəmiyyətli olmayan tərəfi sosial mühit kontekstidir. Çünki araşdırmalar göstərir ki, süni intellektin yaradılması və ondan istifadə cəmiyyətin fərdləri və bütövlükədə kollektiv mövcudiyyatı ilə o dərəcədə sıx əlaqəli olmuşdur ki, bu fenomenin birbaşa insan intellektinə təsirindən danışmaq lazım gəlir. Bu mənada süni intellekt insan şüurunun koqnitiv "sərhədlərini zorlayır" demək olar. Görünür, söhbət ümumiyyətlə, intellektin insan tərəfindən yaradılmasından getdiyindən və bu, faktiki olaraq intellektin özündən intellekt yaratması məzmununa malik olduğundan həmişə problemlər meydana atacaqdır. Hazırda məsələnin vurğulanan aspekti müxtəlif yanaşmalarda tədqiq edilir və fərqli nəticələr alınır.

Həmin mövqeləri aşağıdakı kimi qruplaşdırmaq olar. Birincisi, ümumiyyətlə, süni şüurun yaradılması insan şüurunun koqnitiv və psixoloji-məntiqi imkanları xaricindədir. İkincisi, süni şüurun yaradılmasından yalnız perspektivdə və müəyyən şərtlər altında danışmaq olar. Üçüncüsü, artıq nəzəri olaraq elə prqoramlar vardır ki, süni şüuru imitasiya edə bilirlər. Məsələn, "Kukilər" [9, s. 57-59]. Dördüncüsü, süni şüurdan yalnız məntiqi-alqoritmik aspektdə danışmaq olar. Yəni insanın yaratdığı intellekt heç zaman mənəvi-əxlaqi və ruhani dəyərlər yarada bilməz. Maraqlıdır ki, bu barədə hazırda mövcud olan süni intellektlərdən biri onunla dialoqa girən insana deyir. Mixail Qrekovun "gpt.zor.gg – ChatGPT-4"lə dialoqu bu baxımdan maraqlıdır.

Süni intellekt özünün şüura malik olması üçün aşağıdakı şərtlərin ödənməsini zəruri sayır.

-kommunikasiya qabiliyyəti;

- özünütəlimin yüksək səviyyəsi;
- öz emosiyalarını aldığı emosional təsirlər nəticəsində yaratmaq qabiliyyəti;
- təcrübə əsasında öyrənmək qabiliyyəti.

Süni intellektin kommunikasiya qabiliyyəti dedikdə, onun insanla yalnız mətn məlumatları vasitəsi ilə ünsiyyətdə olması ilə məhdudlaşması nəzərdə tutulmur. Burada süni intellektin jestlər, mimikalar, üz ifadələri və səslə kommunikasiyada olması lazım gəlir.

Özünütəlimin yüksək səviyyəsi dedikdə süni intellektin yeni informasiyalar əsasında özünü daim öyrətməsi nəzərdə tutulur. Onu deyək ki, burada süni intellekt üçün bir özəllik vardır – o, informasiyaları insandan almalıdır. İnsan da infromasiyaları digər insanlardan alır, lakin hər bir insanı təbiət yaratmışdırsa, süni intellekti təbiətin yaratdığı insan yaradır. Burada obyektiv məhdudiyyət özünü göstərir. Belə ki, hər bir anda süni intellekt insandan az kəmiyyət və keyfiyyətdə informasiya ala bilir. Lakin digər tərəfdən, süni intellekt daha çox informasiya alıb saxlamaq imkanına da malik ola bilir. Əsas məsələ bu informasiyalar əsasında özünü necə öyrətmək prosesindən ibarətdir.

Süni intellektin aldığı emosional təsirlər nəticəsində öz emosiya aləmini yaratması şüur baxımından prinsipial əhəmiyyət daşıyır. Süni intellekt emosiyanı imitasiya edə bilər. Bu əsasda o, konteksti daha yaxşı anlaya bilər. Nəticədə daha səviyyəli ünsiyyət qura bilər. Buna nail olmaq şüura malik olmaq yolunda vacib bir mərhələdir.

Nəhayət, şüuri fəaliyyət üçün ciddi əhəmiyyəti olan bir məsələ - təcrübə əsasında öyrənmək tələb olunur. Süni intellekt şüura malik olmaq üçüm özünün və başqalarının təcrübəsindən qərar qəbul etmək üçün istifadə etməyi bacarmalıdır. Bu mürəkkəb bir düşüncə sxeminə sahib olmağı tələb edir. O cümlədən, süni intellekt öz səhvlərindən öyrənməlidir ki, qarşısına qoyduğu məqsədlərə çata bilsin.

## 2. Süni şüur vardır!

Bir sıra filosofun gəldiyi qənaəti məhz bu cür konkret ifadə etmək olar. Onlar süni şüurun yaranmasının fəlsəfi, nəzəri, metodoloji və konkret elmi aspektlərini analiz edirlər. Maraqlıdır ki, belə

pozitiv nəticə əsasən fəlsəfi-epistemoloji təhlil əsasında alınır. Bir tədqiqat nümunəsində biz məsələnin bu aspektinin ümumi özəllikləri üzərində dayanacağıq.

Vurğuladığımız istiqamətdə müstəqil tədqiqatçı və ixtiraçı kanadalı Viktor Senkeviçin tədqiqatları maraq doğurur. Həmin mövzuda V.Senkeviçin bir neçə araşdırması vardır. Həmin araşdırmalar elmi dairələrdə ciddi qəbul olunur. Eyni zamanda, V.Senkeviç həm də ixtiralar müəllifidir [18, s. 1-11; 19, s. 120-128].

O, problemlə bağlı 2023-cü lldə yazdığı məqaləsində tədqiqatın əsas məqsədini belə təqdim etmişdir: “”şüur” anlayışının və onlarla əlaqəli koqnitiv konsepsiyaların “kodlaşdırılan” təriflərinin formalaşdırılması və bu əsasda həmin anlayışların süni intellektin predmet sahəsinə tətbiqi” [19, s. 120]. Buradan aydın olur ki, tədqiqatçı başlıca olaraq kodlaşdırılan anlayışların nəzəri konstruksiyası əsasında süni şüurun mövcudluğunu isbat etməyə çalışır. Bu kontekstdə maraqlı təriflər verir. Lakin bir məqam nədənsə unudulmuş kimi görünür. Məsələ ondan ibarətdir ki, çoxlu sayda fəlsəfi və epistemoloji araşdırmalara görə, anlayışların tam kodlaşdırılması reallaşmır. Burada M.Polaninin daxil etdiyi “qeyri-aşkar bilik” fenomeni özünü göstərir [16]. Biliyin M.Polani mənasında daxil edilmiş anlamı ilə bağlı araşdırmalar çox aparılmışdır və belə bir ümumi qənaət mövcuddur ki, istənilən halda yaradıcılığı və biliyi tam olaraq kodlaşdırmaq mümkün deyildir [6, s. 2-13; 21, s. 2387-2390]. Ayrıca, rəqəmsallaşma mərhələsində biliyi tam olaraq rəqəmlərlə ifadə etməyin mümkün olmadığı tezisi vardır [10, 2022, s. 39-44]. Bunlara baxmayaraq, V.Senkeviç “şüur”, “anlamaq”, “məna”, “bilik” və s. kimi anlayışlara formal tərif vermək əsasında kodlaşdırmanın mümkünlüyünü vurğulayır. O yazır ki, anlamaq mühakimə etmək mexanizmidir. İntellekt anlamadan mənalar üzərində əməliyyat aparmaq üçün istifadə edir. Bununla intellekt mənalar yaradır. Nəticədə intellekti “subyektiv ontologiyaların kollkesiyası” kimi qəbul etmək olar. İntellekt mahiyyətlər arasında münasibətləri dərk etməklə bilik yaradır. Lakin hər bir koqnitiv məsələ əvvəlcədən qeyri-müəyyənliyə məhkumdur.

V.Senkeviç bütün bunların kontekstində “məna” anlayışını da tərif edir və kodlaşdırır. Onun fikrincə, “məna istənilən növ ayrıca bir münasibət aktıdır” [18]. Bu akt düstur, alqoritm və proqram kodu formasında da ola bilər. Buradan V.Senkeviç belə nəticə çıxarır ki, elementar məna virtual varlıqlar arasında ən sadə qarşılıqlı əlaqə kimi mövcud ola bilər. “Məna” bu cür anlaşılırsa, onda “bilik mənalar kolleksiyasıdır” ki, yekunda onu da kodlaşdırmaq olar. Elmi həqiqət də “mövcud olandır” [19, s. 122-125].

Nəhayət, bu kimi təriflərin əsasında V.Senkeviç şüura da tərif verir. O yazır ki, “şüur anlamlı qavramadır”. Daha konkret belə ifadə edir: “dərkolunmuş qavrama”! Şüur sensor təcrübədən, fizioloji verilənlərdən başlayır. Onlar qeyri-verbal formada beyində saxlanılır. Ancaq şüur həmin elementlərin müəyyən qarşılqlı əlaqəsinin anlamı nəticəsində formalaşır. Bu, “məxsusi şüuri qavrayışdır”. Sonra şüuri qavrama bilik yaradır. Bu, özlüyündə subyektiv ontologiya yaratmaq deməkdir. Real olaraq şüurun fəaliyyəti məhz subyektiv ontologiya yaratmaqdan ibarətdir. Bunlardan da tədqiqatçı maraqlı qənaət əldə edir. Vurğulayır ki, “kompüterdə şüur yarana bilər”. Bunun üçün kompüter “informasiyaları müəyyən tərzdə aşılamalıdır”. Məhz həmin üsulla kompüter bilik formalaşdıra bilər. Real zamanda müəyyən verilənləri qavramaqla bunu edə bilər. Şüur ikili xarakterli deyil – şüurlaşma prosesi ardıcıldır, tədricidir.

Münasibətlər mürəkkəbləşdikcə, daha yüksək səviyyədə şüur yaranır. Şüurun kəmiyyət səviyyəsini ölçmək olar. Bunun üçün biliyin gücü qrafikini yaratmaq lazımdır. Səbəb-nəticə əlaqələrini dərk etməklə elementar səviyyədə şüur yaratmaq olar. Bütün bunların əsasında V.Senkeviç ümumiləşdirici sual qoyur: “Süni intellekt şüura malik ola bilərmi?” və dərhal cavab verir: “birmənalı olaraq, bəli!” Hesab edir ki, qəbul etdiyi təriflər əsasında proqram formasında süni şüur yaratmaq olar [19, s. 127-128].

Lakin V.Senkeviç onu da vurğulayır ki, bu keyfiyyətə hər bir süni intellekt malik deyildir. Hələlik ancaq Ümumi Süni İntellekt (AGİ) buna qabildir. Adi süni intellektdən fərqli olaraq AGİ mənaları anlaya bilər və bu mənada “düşünəndir”.

Beləliklə, süni intellektin şüura malik olub-olmaması fəlsəfi-elmi aspektdə birmənalı həll edilməmişdir. Yanaşmalar, izahlar fərqlidir. Bununla yanaşı, problem haqqında daha əhatəli təsəvvürə malik olmaq üçün sosial-mədəni konteksti də mütləq nəzərə almaq gərəkdir.

**3. Rəqəmsallıq və süni şüur: sosial mühit süni intellektə necə təsir edir?**

Ümumiyyətlə, rəqəmsal mühitin insan fəaliyyətinə təsirləri müasir fəlsəfi və elmi ədəbiyyatda geniş araşdırılır. Bura müxtəlif aspektlər daxildir. Süni intellektlə bağlı yeni sosial-mədəni şəraitdə həm yeni süni intellekt nümunələrinin yaradılması, həm də insan-süni intellekt münasibətlərinin fərqli cəhətlərinin fəlsəfi dərki önəmli yer tutur. Aktual sayılan problemlər sırasında yeni rəqəmsal və informasiya-kommunikasiya texnologiyalarının insanın identikliyinə təsiri də vardır. Y.V.Maslanov "texnorəqəmsal identiklik"dən bəhs edir. Göstərir ki, indiki mərhələdə rəqəmsallıq və informasiya-kommunikasiya texnologiyalarının inkişafı insanın identikliyinin transformasiyası məsələsinə yeni məzmun çaları vermişdir. Xüsusilə, şəhər mühitində fərdin mənəvi-əxlaqi, sosial, siyasi, iqtisadi, mədəni, psixoloji, etnik və digər identifikasiyasının dəyişməsi araşdırılmalıdır [11, s. 6-7].

"Texnorəqəmsal identiklik" insanı birgəyaşam üsulu çərçivəsində mənəvi, psixoloji, sosial, mədəni və əxlaqi aspektlərdə dəyişir. Onun bir tərəfi müsbət tendensiyaya bağlıdır. Məsələn, yeni elmi tədqiqat təcrübələri və formaları əmələ gəlir. Bu, özünü müxtəlif elmlərin inteqrasiyası nəticəsində yeni araşdırma üsullarının meydana gəlməsində və onun məntiqi yekunu olaraq yeni inteqrativ biliklərin formalaşmasındadır. Məsələn, bu "koqnitiv dalğa" yeni inteqrativ elmi istiqamətlər yaradır ki, digər məsələlərlə yanaşı süni intellektin daha yüksək səviyyədə yaradılmasına təkan verir. Tədqiqatçıların ifadə etdikləri süni şüura malik süni varlıqların (robotların, kobotların, superkompüterlərin və s.) ixtirasında daha geniş koqnitiv və sosial-mədəni imkanlar ortaya çıxır. Bununla yanaşı, rəqəmsal texnologiyalar insanların dehumanistləşməsinə, mənəvi-əxlaqi deqradasiyasına səbəb ola bilər. Hazırda insanlar nəzarətsiz şəkildə geniş informasiya məkanında qala bilirlər. Burada subyekt istədiyi informasiyadan istifadə edə bilir. Bu vəziyyətə rəqəmsal texnologiyaların ikili xarakterini (ambivalentlik) əlavə etdikdə kifayət qədər mürəkkəb mənzərə yaranır. Tədqiqatçılar bu kontekstdə insanla maşın (süni intellekt arasında "hakimiyyət bölgüsü" məsələsini araşdırmağa başlamışlar. Bu problem filosofları daha çox məhz rəqəmsal texnologiyaların inkişafı kontekstində maraqlandırır. İnformasiyanın yığılması və ondan süni varlıqların da istifadə etməsi "insan-maşın" münasibətlərinə yeni məna çalarları verir. Subyektin müşahidə üsulunun məzmunu da yeniləşir. O, istər-istəməz özünü birbaşa proseslərin içərisinə atır. Yəni subyekt həm situasiyanı yaradır, həm situasiyada özünü yaradır, həm də onu idarə etməyə çalışır. Bu zaman insanla süni intellektin, təbii intellektlə süni şüurun hakimlik üstündə rəqabəti meydana gələ bilər. Tədqiqatçılar hesab edirlər ki, bu proses bütövlükdə bəşəriyyətin "texnomərkəzçi ideya"ya transformasiyasına səbəb olur. Müqayisə üçün deyək ki, bir neçə əsr insan "etnosentrik ideya"ya üstünlük verirdi. Sonra "antroposentrik ideya" meydana çıxdı və, nəhayət, indiki dövrdə "texnosentrik ideya"dan bəhs edilir [7, s. 47-50].

Bu tendensiyanı filosoflar süni intellekt-insan intellekti aspektində daha geniş kontekstdə fəlsəfi-elmi tədqiqatın mərkəzinə gətirirlər. Yuk Huey həmin aspektdə "texnokosmisizm" anlayışını daxil edir və bu özəlliyi adekvat dərk etmək üçün yeni epistemologiyaya ehtiyacın yarandığı tezisini irəli sürür. "Texnokosmisizm" dedikdə Cənubi Koreya filosofu Y.Huey hazırda bütövlükdə Kosmosun belə texnoelm, yəni müasir elm prizmasında dərk edildiyini ifadə edir. Burada əsas məqam ondan ibarətdir ki, filosoflar Kosmosun elmə alternativ ola biləcək hər hansı dərketmə üsulu ilə dərk edilmədiyi tezisini qeyri-aşkar bütün təhlillərin əsasına qoyurlar. Buna görə də müasir bəşər övladı üçün Kosmos əslində texnokosmosdur – insan başlıca olaraq elmi idrakın "gözü ilə Kosmosa baxır. Kosmosun obrazı əsas olaraq elmidir! [3].

Yuxarıda vurğulanan müddəalar göstərir ki, hazırkı tarixi mərhələdə sosial-mədəni mühitin süni intellektin yaradılmasına təsiri çox ciddidir və demək olar ki, insan cəmiyyətin bütün sferalarına nüfuz edir. Burada insan-süni intellekt münasibətlərində rəqəmsallaşmanın ambivalentliyi əhəmiyyətli rol oynayır. O cümlədən, süni varlıqların şüura malik olması üçün bu məqam mühüm epis-

temoloji rol oynaya bilər. Bu, süni intellektin yeni mənaların yaradılmasında "spontan meydana gələn vasitəçi zona (interfeys)" funksiyasını yerinə yetirməsindən əsaslı olaraq asılıdır. Məsələnin fəlsəfi və epistemoloji mahiyyəti ondan ibarətdir ki, insan-insan, insan-elm, insan-texnika, insan cəmiyyət münasibətlərinin süni intellektin vasitəçiliyi ilə təşkil edilməsi ayrıca koqnitiv şərait yaradır. Rəqəmsallıq da buna xüsusi məzmun verir. Belə ki, rəqəmlər mənaların rəmzi ifadə forması olaraq, insan idrakının məntiqinə və duyğusallığa fərqli təsirlər göstərir. Burada prosesin süni intellekt (məsələn, superkompüterlər və ya sinergetik kompüterlər) vasitəsi ilə aparılması təmin edilirsə, yeni mənalar insan-süni intellekt münasibətlərinin vəhdətində formalaşa bilər. Bu "simbioz" isə bütövlükdə idrakı dəyişir, insanın identikliyinə yeni incə məqamlar qatır. Meydana müxtəlif xarakterli yeni problemlər çıxır. O cümlədən, süni intellektin etikası aktuallaşır və hətta mövcudluğu kontekstində strateji faktora çevrilir. Deməli, süni intellektin ambivalentliyi prizmasında süni şüurun formalaşması nəzəri olarq mümkündür, lakin onun praktiki-tətbiqi tərəfi etik faktora bağlı olacaqdır. İnsanın etik seçimi süni şüuru fəlakətin səbəbinə də çevirə bilər, bəşəriyyətin yeni tərəqqi səviyyəsinə yüksəlməsinə də təkan verə bilər. Birinci halda insan süuru özünü də, yaratdığı süni şüuru da məhv edə bilər. İkinci variantda isə bəşəriyyət daha geniş idraki imkanlara malik olan təbii intellekt+süni intellekt simbiozuna nail olar!

Aparılan təhlillərdən bir sıra fəlsəfi nəticələr çıxara bilərik.

**YEKUN NƏTİCƏ**

Süni intellektin şüura malik olub-olmaması müasir fəlsəfi və elmi idrak üçün getdikcə daha da aktuallaşır. Bunun iki aspektdə səbəbləri vardır.

Birincisi, elmi idrakın təkamül dinamikası elmlərarası əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəldir. Tədqiqat predmetinə görə, ən uzaq fənlər belə bir-biri ilə ortaq araşdırma sahəsinə malik ola bilirlər. Nəticədə ən yeni sintetik elmi sitiqamətlər meydana gəlir ki, onların nəzəri və metodoloji özəllikləri süni intellektin daha mükəmməl növlərinin yaradılmasını zəruri edir.

İkincisi, cəmiyyətin demək olar ki, total surətdə rəqəmsallaşması həyatın bütün sahələrinin yeniləşməsinə səbəb olur. Bu, ən yeni texnologiyaların ixtirası və kəşfi ilə müşaiyət olunur. Həmin ixtiralar əsas olaraq süni şüurun yaradılmasına istiqamətlənir. Hazırda bununla bağlı müxtəlif proqramlar həyata keçirilir. Lakin onların heç biri insan zəkasına bərabər süni zəka yarada bilməmişdir. Müəyyən məntiqi istiqamətlərdə AGİ-lər insan intellektini uda bilirlər. Lakin bütövlükdə şüur olaraq onlar hələ çox geridədirlər. Xüsusilə, duyğusal və emosional yaşantıları yoxdur.

Bunlar onu ifadə edir ki, fəlsəfi-elmi idrak üçün süni şüur məsələsi getdikcə daha çox aktuallıq kəsb edir. Digər tərəfdən, qarşıya çıxan koqnitiv və sosial-mədəni xarakterli çətinliklər bütövlükdə insan elmi idrakının yeni mərhələyə keşidi üçün təməl hazırlayır. İndi bütövlükdə bəşəriyyət bu mərhələnin çox maraqlı pilləsindədir. Faktiki olaraq insan zəkası "texnokosmik" mahiyyət kəsb edir. Bu, bir tərəfdən, elmi idrakı xeyli yayğınlaşdırır və hardasa mistikləşdirirsə, digər tərəfdən yeni qnoseoloji və metodoloji şərtləri formalaşdırır. O cümlədən, biliyin substantiv, təşkilati və funksional özəllikləri dəyişir.

**ƏDƏBİYYAT**


1. Abasov, Ə., Abbas, M. Müasir epistemologiyanın məntiqi-metodoloji əsasları // – Bakı: Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq, – 2022. – s. 112-149.
2. Abbasov, Ə.F. Müasir fəlsəfə və elmi idrak // – Bakı: Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq, – 2022. – s. 28-111.
3. Hui, Y. Recursivity and Contingency // – London: Rowman & Littlefield International Ltd., 2019, – p. xv + 336.
4. https://nauchniestati.ru/spravka/neskolko-slov-o-soznanii-ii/.

5. Касавина, Н.А. Цифровизация как предмет междисциплинарных исследований // Эпистемология и философия науки, – 2019, 56 (4), – с. 251–259.
6. Kimble, C. Knowledge management, codification and tacit knowledge Information Research / C. Kimble. – 2013, 18 (2), – 577 p.
7. Кудрявцева, А.А. Отношения властности между Человеком и машиной // Цифровой ученый: лаборатория философа, – 2019. №1, – с. 46-52.
8. Qurbanov, F. Süni intellektin yaradılması probleminin fəlsəfi dərkinə aid // – Bakı: Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq, – 2022. – s. 219-246.
9. Ляхова, Е.С., Суслов, М.Д. Может ли искусственный интеллект обладать сознанием? // The Digital Scholar: Philosopher's Lab, – 2019, 2 (1), – с. 53-59.
10. Масланов, Е.В. Креативность и цифровизация // Эпистемология и философия науки, – 2022, 59 (3), – с. 38-45.
11. Масланов, Е.В. Цифровизация и развитие информационно-коммуникационных технологий: новые вызовы или обострение старых проблем? // Цифровой ученый: лаборатория философа, – 2019. №1, – с. 6-21.
12. Manzotti, R., Chella, A. Good Old-Fashioned Artificial Consciousness and the Intermediate Level Fallacy // Frontiers in Robotics and AI, – 2018, 5 (39), – p. 1-10.
13. Məmmədova, B. Süni intellekt müasir fəlsəfi problem kimi // AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, "Elmi əsərlər", – 2023, 2 (41), – s. 34-37.
14. Məmmədzadə, İ. Giriş // – Bakı: Müasir fəlsəfə,süni intellekt və qeyri-səlis məntiq, – 2022. – s. 6-26.
15. https://www.dam.brown.edu/people/mumford/blog/
16. Polanyi, M. The tacit dimension / M. Polanyi. – London: ANCHOR BOOKS, – 2009. – 128 p.
17. https://habr.com/ ru/articles/ 500732/
18. https://doi.org/10.48550/arXiv.2202.03155.
19. Senkevich, V.V. Can Artificial Intelligence be Conscious? // Engineering: Open Access, – 2023, 1 (3), – p. 120-128.
20. https://medium.com/@thesingularity.research/ai-theory-of-mind-faac45c988a
21. Tsvetkov, V.Ya. Spatial Information Models // European Researcher, – 2013, 60 (1-10), – p. 2386-2392.

## ARTIFICIAL CONSCIOUSNESS: PHILOSOPHICAL AND SCIENTIFIC FEATURES OF ITS FORMATION

**T.B. Asadova**

The article discusses the philosophical and epistemological features of the presence of artificial consciousness in artificial intelligence at the present stage. It is shown that this problem is currently considered very relevant for philosophical and scientific understanding in general.

In general, there are different approaches to the formation of artificial consciousness. There are those who think this is possible. There are also studies that disagree with this and deny its existence. Other studies have suggested that artificial consciousness may be created in the future. In all cases, the problem is analyzed intensively and across an increasingly broad field of research.

The article examines the issue through the prism of an interdisciplinary approach. Here the main scientific goal is a philosophical and scientific analysis of various aspects of the formation of artificial consciousness in the light of research available in the existing philosophical and scientific literature.

For this purpose, nonlinearity, intersubjectivity and synergetic synthesis were applied as methodological principles.

The method used is system and dynamic integration. Scientific novelty is associated with the thesis “about the possibility of humanity achieving a symbiosis of natural intelligence + artificial intelligence with broader cognitive capabilities in choosing the right ethical direction.”

**Keywords:** *human intelligence, artificial intelligence, digitalization, cognitive, “strong intelligence.” superintelligence, self-learning, codification of knowledge, meaning.*

## ИСКУССТВЕННОЕ СОЗНАНИЕ: ФИЛОСОФСКО-НАУЧНЫЕ ОСОБЕННОСТИ ЕГО ФОРМИРОВАНИЯ

**Т.Б. Асадова**

В статье рассматриваются философско-гносеологические особенности наличия у искусственного интеллекта искусственного сознания на современном этапе. Показано, что данная проблема в настоящее время считается весьма актуальной для философско-научного понимания в целом.

Вообще существуют разные подходы к формированию искусственного сознания. Есть те, кто считает это возможным. Есть также исследования, которые не согласны с этим и отрицают его существование. В других исследованиях выдвигается тезис о том, что искусственное сознание может быть создано в будущем. Во всех случаях эта проблема анализируется интенсивно и во все более обширной области исследований.

В статье вопрос рассматривается через призму междисциплинарного подхода. Здесь основной научной целью является философско-научный анализ различных аспектов формирования искусственного сознания в свете исследований, имеющихся в существующей философско-научной литературе.

Для этого в качестве методологических принципов были применены нелинейность, интерсубъективность и синергетический синтез.

В качестве метода используется системная и динамическая интеграция. Научная новизна связано с тезисом «о возможности достижения человечеством симбиоза естественного интеллекта+искусственного интеллекта с более широкими когнитивными возможностями в выборе правильного этического направления».

**Ключевые слова:** *человеческий интеллект, искусственный интеллект, цифровизация, когнитивный, «сильный интеллект». сверхинтеллект, самообучение, кодификация знаний, смысл*

**UOT: 33**
https://doi.org/10.59849/2409-4838.2024.2.95

# BİZNESLƏRDƏ RƏQABƏTQABİLİYYƏTLİLİK VƏ ONA TƏSİR EDƏN AMİLLƏRİN TƏDQİQİ

**Hüseyn Fuad oğlu Davudov**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
*mrdavudoff@mail.ru

*Biznesdəki rəqabətə, şirkətin uğurlu gələcəyinə və bazardakı mövqeyinə əhəmiyyətli dərəcədə təsir göstərəm müxtəlif amillər vardır. Xüsusilə qeyd etməkdə fayda var ki, bu amillərin təsiri konkret sənayedən, bazar seqmentindən və fərdi inkişaf strategiyalarından asılı olaraq dəyişə bilər. Bundan əlavə iqtisadi şərait, sosial sabitlik və sosial mədəni meyillər kimi xarici amillər də rəqabət qabiliyyətinə təsir göstərə bilər. Rəqabət əsrlərdir ki, əksər növ biznesin ayrılmaz tərkib hissəsi olmağa davam edir. Şirkətlərin də əsas hədəflərindən biri "ayaqüstə qalmaq" üçün rəqabətqabiliyyətlilik balansını qoruyub saxlamaq olmalıdır. Rəqibləri qarşısında davam gətirə bilməyən, geridə qalan istənilən biznes tənəzzül etməyə məhkumdur və rəqabətqailiyyətlilik balansını qoruyub saxlamanın ən vacib yolu rəqbətqabiliyyətliliyə təsir edən amilləri dərindən araşdırmaq və bu barədə ciddi dərəcədə dəyərli məlumata sahib olmaqdır. Bizim hazırladığımız elmi iş üzrə gəldiyimiz nəticə bundan ibarətdir ki, rəqabətqabiliyyətlilik əksər biznes sahəsinin mütləq əlində tutmalı olduğu, bu faktor olmadan qısa müddətdə tənəzzülə məhkum olduğudur. Məqalənin elmi yeniliyi rəqabət qabiliyyətinin müxtəlif baxış bucaqlarından təsnifləşdirilməsi və hazırlanan rəqabətqabiliyyətlilik piramidası əsasında rəqabət mövzusuna müxtəlif miqyaslarda baxılmasıdır.*

***Açar sözlər:*** *Biznesdə rəqabət, rəqabətqabiliyyətlilik, rəqabət piramidası, rəqib yanaşmalar,rəqabət nəzəriyyəsi.*

## GİRİŞ

Rəqabət və rəqabətqabiliyyətlilik iqtisadi sistemin bazar mexanizmlərinə əsaslanan funksionallığını təmin edən ən əsas tərkib hissəsidir. Qloballaşan dünyada inkişafın müasir mərhələsi dövlətlərarası münasibətlərin və bazarlara müstəqil daxilolmaların artımı və dərinləşməsi ilə xarakterizə olunur. Müvafiq olaraq hər hansı ölkə iqtisadiyyatında müxtəlif faktorların təsiri altında formalaşan rəqabətin vəziyyəti ilk növbədə iqtisadi effektivlik göstəricilərində özünü biruzə verir. Rəqabət təbiətdə, iqtisadiyyatda və insan cəmiyyətində flora və faunalar, mülkiyyət formaları və milli iqtisadiyyat sahələri, ölkələr, millətlər, xalqlar arasında və daxilində həyat üçün ümdə olan resurslar və imkanlar naminə gedən açıq və ya üstüörtülü yarışdır. Rəqabət - iqtisadi inkişafın, məhsulun keyfiyyətinin yüksəlməsinin, elmi texniki tərəqqinin sürətlənməsinin, istehsal xərclərinin və qiymətin aşağı enməsinin güclü stimuludur. Cəmiyyət üçün səmərəsiz, yüksək məsrəf tələb edən və mənfəətsiz istehsalın ləğv edilməsini tələb edən rəqabət, ictimai istehsalın səmərəliliyinin intensiv artması üçün şərait yaradır. Praktikada rəqabət, müəssisələri bazar tələblərinə istiqamətləndirərək, əmtəə və xidmətlərin istehlakçılar tərəfindən geniş seçiminə və istehsal ehtiyaclarının lazımi dərəcədə ödənilməsinə zəmin yaradır [1].

## ƏSAS HİSSƏ

Rəqabətin iqtisadi mahiyyətini izah edərkən əsasən üç yanaşmadan istifadə olunur: *davranış, struktur və funksional yanaşmalar*.

Tarixi inkişaf yolunda rəqabətin iqtisadi yöndən izahında **davranış yanaşması** ilk yanaşma hesab olunur və Adam Smit bunu "Satıcıların məhsullarını satmaq üçün daha əlverişli şərtlər uğrunda göstərdikləri ədalətli rəqabət prosesi" olaraq ifadə edirdi. Bir çox neoklassik nəzəriyyələrdə isə

davranış yanaşması çərçivəsində rəqabət qıt iqtisadi resurslar üstündə aparılan mübarizə kimi dəyərləndirilirdi [9].

**Struktur yanaşmasında** isə bazarın tipi və mövcud bazar mexanizmində hökmran olan şərtlər vaciblik ərz edir: "Rəqabət bazarda mövcud olan çoxsaylı alıcı və satıcıların bazara sərbəst şəkildə daxil olmaq və tərk etmək imkanlarını təqdim edən şərtlər məcmuəsidir".

**Funksional yanaşma** rəqabət anlayışını onun iqtisadiyyatda olan rolu baxımından öyrənir. Başqa sözlə, müvafiq bazar tipindən və xüsusiyyətlərindən asılı olaraq, bazarda mövcud rəqabətin statusu onun həmin iqtisadiyyatdakı iqtisadi məzmununu əhatə edir [5].

Təbiət etibarilə rəqabət dinamik prosesdir. Rəqabət göstəriciləri sırasına aşağıdakıları göstərmək mümkündür:

- Cari bazarda mövcud olan müəssisələrin sayı;
- Homogen əmtəələrin müxtəlif əlamətlərə əsasən fərqləndirilməsi (marka, keyfiyyət, rəng və s.)
- Müəssisənin bazara giriş və çıxış azadlığı və s.

Rəqabət öz iqtisadi məzmununu bir neçə müstəvidə göstərir. Mükəmməl rəqabət – bazarda çoxlu sayda satıcıların və alıcıların mövcud olduğu elə bir rəqabət formasıdır ki, onlar bazar strukturunun dəyişilməsinə heç bir təsir göstərə bilmirlər və öz məhsullarını artıq formalaşmış qiymətdən satmağa məcburdurlar və təklifin miqdarını dəyişərək qiymətə təsir etmələri mümkün deyil. Mükəmməl rəqabətin hakim olduğu bazarda elə bir iqtisadi mühit vardır ki, istehsalçılar maksimal istehsal effektivliyinə və buraxılan məhsul assortimentinin yenilənməsinə və zənginləşməsinə aid bir çox imkanlara sahibdirlər. Mükəmməl rəqabətin təmin edilməsi üçün məhsulun qiymət və keyfiyyət homogenliyi və bazar iştirakçılarının daxil olan əmtəələr haqda eyni dərəcədə məlumatlandırılması kimi şərtlərin mövcudluğu mütləqdir. Əgər zəruri şərtlərdən heç olmasa birinin əskik olarsa, o zaman biz artıq qeyri-mükəmməl rəqabətdən bəhs etmiş olarıq. Qeyri-mükəmməl rəqabət bazar iqtisadiyyatının elə bir formasıdır ki, eynicinsli əmtəənin bir neçə deyil, çox az miqdarda, bəzənsə bir istehsalçısı olur. Digər iştirakçıların zəruri informasiyaya çıxışı yoxdur. Bazara giriş və çıxış bir çox süni əngəllərlə əhatə olunduğuna görə sərbəst daxilolmalar və çıxışlar olduqca çətindir. Qiymət balansı mövcud deyil. Əgər çox az sayda iştirakçı varsa, onların gələcəkdə inhisarçı olmaq şansı çoxdur. İstehsalın miqdarını, əmtəə və xidmətin qiymətini özü müstəqil surətdə müəyyənləşdirən inhisarçıdan fərqli olaraq real həyatda daha çox oliqopol bazar tipinə və uyğun olaraq da onda hakim olan qeyri-mükəmməl rəqabət tipinə rast gəlinir. Oliqopol bazar elə bazar növüdür ki, bazarda az miqdarda satıcılar var və süni baryerlər olduğundan bazara daxilolmalar çətindir. Belə bazar tipində müvafiq olaraq hər bir iştirakçı öz rəqibinin davranışlarını mütləq şəkildə nəzərə alır. Bir çox halda mənfəət makzimizasiyası məqsədi ilə satıcılar birləşib vahid təşkilat adından çıxış edirlər.

**Rəqabət qabiliyyətlilik:** Rəqabət anlayışının mahiyyətinə əsaslanan digər vacib anlayış rəqabətqabiliyyətlilikdir. İqtisadi nəzəriyyədə rəqabət qabiliyyətinin vahid dəyərləndirmə metoduna və yanaşmasına əsaslanan tərifi yoxdur. Ümumi olaraq isə rəqabət qabiliyyəti əmtəələr və xidmətlər bazarında rəqabət etmək proseslərini əhatə edən davranışları ifadə edir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının tərəfindən təqdim olunan tərifdə rəqabətqabiliyyətlilik, firmaların, sahələrin, regionların və millətlərin beynəlxalq rəqabətə açıq qalmaq şərtilə nisbi olaraq yüksək gəlir səviyyəsi və əmək haqqı təmin etmək üsul və vasitələrdən ibarət olduğu vurğulanır. M.Porterə görə isə rəqabətqabiliyyətlilik əmtəə, xidmətlər və ya bazar subyektlərinin bazarda mövcud olan analoji əmtəə, xidmət və bazar subyekləri ilə bərabər səviyyədə rəqabət aparmaq xüsusiyyətləridir. M.Helvanovskiyə görə isə rəqabətqabiliyyətlilik müvafiq subyekt üçün iqtisadi yarışda üstünlük yaradan xüsusiyyətlərdir. Rəqabətqabiliyyətlilik elmi müzakirələrin planında prioritet olmaqla yanaşı, həm də bütün dünya iqtisadiyyatlarını narahat edən öncəlik məsələ olub və qalmaqdadır. İqtisadi siyasət və islahatlar rəqabət qabiliyyətinin intensivliyinin artırılması və davamlı fəaliyyətin əsas alətləri kimi qəbul edilmişdir. İqtisadiyyatın rəqabət qabiliyyəti təkcə makroiqtisadi müstəvidə deyil, həm də mikroiqtisadi səviyyədə fəaliyyət göstərən amillərin inteqrasiya olunmuş məcmusudur.

Rəqabətqabiliyyətlilik termininin məqsədəuyğun şəkildə istifadə edilərək aid olduğu obyektləri müəyyənləşdirmək və tətbiq etmək üçün ilk öncə onun əhəmiyyətli xüsusiyyətlərini aydınlaşdırmaq lazımdır.

**Nisbilik** – Rəqabətqabiliyyətlilik bir obyektin göstəricilərinin digər rəqib obyektin göstəriciləri ilə müqayisəsi zamanı yaranır. Rəqiblərlə müqayisə etmədən rəqabətqabiliyyətlilik haqda hər hansısa yekun nəticəyə gəlmək mümkün deyil. Nisbilik hər hansısa müəssisənin rəqabətqabiliyyətliliyinin arxasında dayanan rəqabət kontekstini formalaşdıran ən əsas xüsusiyyətdir. Məhz bu məqam rəqabətqabiliyyətliliyi effektivlik, məhsuldarlıq, keyfiyyət, inkişaf tempi və digər müəssisədaxili sahibkarlıq göstəricilərindən fərqləndirir.

**Şərtilik** - Rəqabətqabiliyyətliliyin müəyyən məhsul qrupu üçün konkret bazarda və rəqiblərdən asılı olaraq formalaşdığını ifadə edir. Müxtəlif bazarlarda 10 fəaliyyət göstərən müəssisələr rəqib hesab oluna bilməz, çünki onların göstəricilərini müqayisə etmək üçün ortaq fəaliyyət sahəsi yoxdur.

**Obyektivlik** – Obyektivlik rəqabətqabiliyyətlilik haqda subyektiv nəticələrin məcmusu deyil, hər hansısa müəssisənin və ya sahənin immanent, obyektiv xüsusiyyətlərini əks etdirir.

**Dinamiklik** – Dinamiklik rəqabətqabiliyyətinin zamanla olan qarşılıqlı əlaqəsini bildirir. Bu özünü müəyyən zaman periodu üçün və ya konkret tarix üçün göstə bilər.

Bir çox iqtisadi təhlillərdə rəqabətli və rəqabətqabiliyyətlilik anlayışlarını bir-biri ilə qarışıq salırlar ki, bu da təhlillərin obyektivliyinə təsir göstərir. Termin olaraq "rəqabətli" terminini əsasən bazar, sahə, fəaliyyət sahəsi və əmtəələrə aid edirlər. "Rəqabətqabiliyyətlilik" isə termin olaraq əsasən müəssisələrə, məhsullara və personala aid edilir. Sözsüz ki, hər iki termin bir-biri ilə yaxından əlaqəlidir, buna baxmayaraq konkret fərqlər mövcuddur. Belə ki, biz rəqabətli bazar deyərkən daxilində olan iştirakçıların bir-biri ilə rəqabət apardığı bazar növünü nəzərdə tuturuq, lakin rəqabətqabiliyyətli bazar dedikdə isə, qısaca olaraq, böyüyən, investisiya cəlb edən bazarı nəzərdə tuturuq.

Rəqabətqabiliyyətlilik ölkələrin, sənayelərin və müəssisələrin uğurlarının dərəcə olaraq göstərilməsində əsas meyar olaraq qəbul edilir. Dünya İqtisadi Forumu (WEF) rəqabətqabiliyyətlilik anlayışını məhsuldarlığın səviyyəsini müəyyən edən vasitə, siyasət və amillərin məcmusu kimi təyin etmişdir. Həmçinin, rəqabətqabiliyyətlilik bazarda daha ciddi və möhkəm yer tutmaq, daha yüksək mənfəət əldə edə bilmək, uzunmüddətli sabitliyi qorumaq və bu kimi göstəricilərin böyüməsi nəticəsində insanların rifahının və yaşam səviyyəsinin yüksəlməsinə töhfə verən önəmli amil kimi qeyd olunur. Əksər müəssisələr "ayaqüstə qalmaq" üçün daxili və beynəlxalq bazarlarda bir-birləri ilə mütləq rəqabət aparmalıdırlar. Uğur qazanmaq adına ciddi rəqabət üstünlüyünə şahid olmaq lazımdır ki, bu da yüksək performans nümayiş etdirmək və bunu qoruyub saxlaya bilmək deməkdir. Müəssisələrin davamlı iqtisadi inkişafının təmin edilməsi kontekstində rəqiblərlə müqayisədə cari vəziyyətin, imkanların və təhdidlərin obyektiv surətdə qiymətləndirilməsi əhəmiyyətlidir. Rəqabət qabiliyyəti olan sahəni olmayanlardan ayırmağın bir neçə sadə üsulu var. Sadə bir dil ilə izah etmək istəsək deyə bilərik ki, hər hansı bir biznes sektorunun daxilində fəaliyyət göstərən müəssisələr arasında rəqabət mühiti varsa, həmin sahəni rəqabətli sahə adlandırmaq olar. Bununla yanaşı həmçinin, əgər həmin sahə istehsal potensialında yüksəliş nümayiş etdirirsə, həm ölkə daxili, həmçinin beynəlxalq müstəvidə digər sahələrə nisbətdə investisiya hərəkətliliyinin cəlb edilməsində uğurlu nəticələrə malikdirsə, həmin sahəni rəqabətqabiliyyətli sahə adlandırmaq mümkündür.

Rəqabətqabiliyyətlilik yekun nəticədə çoxyönlü model formasında müxtəlif kateqoriyada - əmtəənin, sənaye sahəsinin və ya milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini xarakterizə edən və səviyyədə göstərici olaraq qəbul edilən rəqabətqabiliyyətlilik piramidasını əmələ gətirir.




**Şəkil 1.** Rəqabətqabiliyyətlilik piramidası
Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Birinci, yəni alt yaşıl pillə istehsal olunan əmtəənin rəqabətqabiliyyətliliyini göstərir. Piramidanın ikinci qırmızı rəngli mərtəbəsində firmanın rəqabət qabiliyyəti qeyd olunub. Üçüncü sarı rəngli mərtəbədə sənaye sahəsinin rəqabət qabiliyyəti, dördüncü mavi mərtəbədə milli iqtisadiyyatın rəqabət qabiliyyəti və nəhayət ən son bənövşəyi mərtəbəsində ölkənin rəqabət qabiliyyəti öz əksini tapmışdır. Bu ən ümumi, geniş miqyas hesab olunur (şəkil 1).

Milli iqtisadiyyatın rəqabət qabiliyyəti dedikdə həm daxili, həm də xarici bazarlarda digər iştirakçılarla təqdim etdikləri zəngin çeşid və yüksək keyfiyyətli məhsul və ya xidmətlərlə kifayət qədər rəqabət qabiliyyətinə malik firmaların varlığı başa düşülür. Xarici bazarlara ixrac olunan məhsul və xidmətlərin kəmiyyət və keyfiyyət göstəricilərinin yüksək olması rəqabət qabiliyyətlilik haqqında kifayət qədər məlumat versə də, eyni zamanda milli və xarici kapitalın inteqrasiya prosesi ilə əlaqədar adaptasiya şərtləri də bir o qədər ciddi xarakterə malik olur. Bu istiqamətdə dövlətin iqtisadi mühiti yaxşılaşdırma funksiyaları qabarıq olaraq özünü biruzə verir.

Biznesdə rəqabətqabiliyyətlilik şirkətin müştərilərə optimal təcrübə təqdim etmək üçün məhsul və xidmətlərin qiymətini keyfiyyətlə balanslaşdırma qabiliyyətinə aiddir. Bundan əlavə biznesdə rəqabət qabiliyyəti keyfiyyət, qiymət və ya hər iki amilin birləşməsinə görə şirkətin rəqiblərindən daha çox satış və ya müştəri loyallığına nail olmaq qabiliyyətinə deyilir.

Biznesdə rəqabət qabiliyyətini iki qrupa bölmək olar: qiymət rəqabətliliyi və struktur rəqabət qabiliyyəti. Qiymət rəqabətliliyi biznesin təklif etdiyi mal və ya xidmətlərin keyfiyyətini qoruyub saxlaya bilməsi, eyni zamanda onlara rəqiblərindən daha aşağı qiymət qoyması vəziyyətinə aiddir.

Struktur rəqabət qabiliyyəti təklif etdikləri qiymətlərdən asılı olmayaraq, biznesin rəqiblərə nisbətən daha yaxşı satış və ya müştəri loyallığını qoruyub saxlaya bildiyi vəziyyəti əks etdirir. Bunun səbəbləri onların daha güclü brend şəxsiyyətinə, daha keyfiyyətli məhsul və xidmətlərə və ya rəqiblərinin təklif etmədikləri əlavə məhsul və ya xidmətlərə malik olması ola bilər.

**Biznesdə rəqabətədavamlı olmaq nə üçün vacibdir?**

Ümumi olaraq deyə bilərik ki, biznes dünyasında rəqabətə davamlı olmaq, inkişaf etmək, seçilən olmaq üçün vacibdir. Bu müəssisəni innovativ düşüncə və iş prinsipləri ilə daha sürətli hərəkətə keçirərək müştərilərin və digər maraqlı tərəflərin maraqlarını qarşılamaq mövzusunda öndə getməyə imkan yaradır. Ayrıca rəqabətə davamlı olmaq sürətli dəyişən iş dünyasında uğurlu olmağın önəmli açarlarından biridir və müəssisəni bu mühitə hazırlayır [2, 6].

Biznesdə rəqabətə davamlı olmağın vacib olmasının bəzi əsas səbəbləri arasında aşağıdakılar var:

Biznesləri təkmilləşdirməyə ruhlandırır: Rəqabət qabiliyyəti biznesdə vacibdir, çünki o, sizi və rəqiblərinizi sənayeniz daxilində və ondan kənarda təkamülə davam etməyə ruhlandıra bilər. Bu, biznesinizin aktual qalmasına və dəyişən istehlakçı ehtiyaclarına uyğunlaşmağa kömək edə bilər. Yeni məhsul və texnologiyaların yaradılmasına töhfə verir: Biznesdə rəqabət qabiliyyəti istehlakçıya fayda verən innovativ yeni məhsul və texnologiyaların yaradılmasına səbəb ola bilər. Məsələn,

daha yaxşı maşın və alətlər təklif etmək üçün rəqabət aparan iki tibbi təchizat şirkəti xərçəngin aşkarlanmasına kömək edən yeni cihaz yarada bilər. Rəqabət qabiliyyəti sayəsində onlar xərçəng diaqnozunu sürətləndirməyə kömək edən bir şey yaradırlar ki, xəstələr daha tez müalicə ala bilsinlər [3, 8]. Rəqiblərə xeyriyyəçilik işlərinə töhfə verməkdə kömək edir: Biznesdə rəqabətqabiliyyətliliyin digər müsbət elementi bir şirkətin xeyriyyəçilik təşəbbüslərinin rəqiblərinə təsir göstərə bilməsidir. Əgər ofis ləvazimatları mağazanız varsa və şəhərdaxili məktəblərə pulsuz məktəb ləvazimatları bağışlamaq məqsədi daşıyan reklam kampaniyası yaratsanız, rəqibləriniz xeyirxah brend şəxsiyyəti yaratmaq üçün oxşar hərəkətlər edə bilər. Töhfələrdən əlavə, xülasə olaraq deyə bilərik ki, biznesdə rəqabətə davamlı olmaq müəssisələrin bazar payını artırmaq, müştəri məmnuniyyətini təmin etmək, innovasiya və səmərəliliyi artırmaq, qlobal bazarda rəqabət qabiliyyətini yüksəltəmk və uzunmüddətli dayanıqlılığı təmin etmək üçün vacibdir [7].

**Biznesinizin rəqabətdə qalması yolları**

Biznesinizi böyütməklə yanaşı sənayenizdə rəqabətədavamlı olmağın bir neçə yolu var:

Dəyər təklifi yaradın. Dəyər təklifi şirkətinizin yaxşı iş gördüyünə inandığınız, şirkətinizi rəqiblərdən daha da fərqləndirən amillərin siyahısıdır.

Şirkətinizin ölçüsünü, məhsul və ya müştəri xidməti baxımından nə təklif etdiyinizi nəzərdən keçirərək başlayın. Sonra bir neçə rəqibin biznesinə əsas komponentləri nəzərdən keçirin.. Bundan siz bazarda nəyi daha yaxşı etdiyinizi müəyyən edə bilərsiniz. Məsələn, daha yaxşı qiymətə, daha çox pərakəndə satış yerinizə və ya onların təklif etmədiyi əlavə məhsul və xidmətlərə sahib ola bilərsiniz. Bu komponentləri daha da inkişaf etdirmək üçün təməl kimi istifadə edin.

Müştəri münasibətlərini inkişaf etdirin. Sənayenizdə rəqabətədavamlı qalmağın digər əla yolu müştərilərlə əlaqə qurmaq, onların təcrübəsini təkmilləşdirmək və müştəri bazanızı artırmaq üçün ardıcıl olaraq yeni və innovativ yollar tapmaqdır. Rəqabətə davamlı olmaq üçün, mövcud müştərilərinizin rəqibdən çox sizə qayıtmaq üçün bir səbəbi olduğundan əmin olun. Daxili təşkilatı nəzərdən keçirin. Şirkətinizin şöbələr və yerlər arasında əlaqə qurma tərzi məhsuldarlığınıza və ümumi uğurunuza təsir edə bilər. Hansı şöbələrin əlavə işçi heyətinə ehtiyacı olduğunu, hansı şöbələrin əhəmiyyətli fayda vermədiyini və şirkət işçiləri arasında məlumatın yayılmasını yaxşılaşdırmaq üçün hansı kommunikasiya kanallarını tətbiq edə biləcəyinizi müəyyən etmək üçün şirkətinizin daxili quruluşunu nəzərdən keçirin.

Yeni texnologiyalara investisiya qoyun. Məhsulların istehsalı üçün yeni mexanizmlər, İT proqram təminatı və digər texnologiyalar biznesiniz üçün sərfəli və sürətli nəticələrin yaradılmasında faydalı ola bilər. Bu, e-poçtdan başqa daha şəxsi səviyyədə işçilərlə əlaqə yaratmaq üçün biznes mesajlaşma proqramından istifadə etmək və ya geyim fabrikinizə parça yayan maşınlar əlavə etmək kimi sadə bir şey ola bilər.

İşçinin işə qəbul prosesini gücləndirin. Rəqabətə davamlı olmaq üçün siz həmçinin yüksək səviyyəli işçiləri işə götürməlisiniz. Geniş bir işə qəbul və təlim proqramı yaratmaqla siz işçilərinizin üzərində işləmək üçün vacib dəyərləri aşılaya bilərsiniz.

Biznesdə rəqabətqabiliyyətliliyi qoruyub saxlamaq üçün mütləqdir ki, bura təsir edən amilləri də bilmək lazımdır. Rəqabətqabiliyyətliliyə təsir edən ən əsas amillər aşağıda sadalanmışdır.

1. Bazar və Sənaye Şərtləri: Müəssisənin fəaliyyət göstərdiyi bazar və sənayenin vəziyyəti həlledici rol oynayır. Bazarın ölçüsü, böyümə sürəti, tələb meylləri, müştərilərin üstünlükləri və rəqabət mənzərəsi kimi amillər şirkətin effektiv rəqabət qabiliyyətinə təsir edə bilər.

2. Texnoloji irəliləyişlər: Sürətli texnoloji irəliləyişlər biznes üçün həm imkanlar yarada, həm də çətinliklər yarada bilər. Texnologiyanı effektiv şəkildə mənimsəyən və istifadə edən şirkətlər rəqabət üstünlüyü qazana bilər, tempi davam etdirə bilməyənlər isə rəqabətdə qalmaq üçün mübarizə apara bilərlər.

3. İnnovasiya və Məhsulların İnkişafı: Yeni məhsul və ya xidmətlərin innovasiyası və inkişaf etdirilməsi bacarığı rəqabətə davamlı olmaq üçün vacibdir. Tədqiqat və inkişafa sərmayə qoyan, innovasiya mədəniyyətini inkişaf etdirən və bazara unikal və əlavə dəyərli təkliflər gətirən şirkətlər

çox vaxt əhəmiyyətli üstünlük əldə edirlər...

4. Xərclərin Strukturu və Səmərəlilik: Effektiv əməliyyatlar və təchizat zəncirinin idarə edilməsi vasitəsilə xərc səmərəliliyinə nail olmaq rəqabətqabiliyyətlilik üçün çox vacibdir. Keyfiyyətdən ödün vermədən xərcləri minimuma endirə bilən müəssisələr rəqabətqabiliyyətli qiymətlər və daha yaxşı mənfəət marjaları təklif edə bilərlər.

5. İnsan Kapitalı: Bacarıqlı və motivasiyalı işçilər istənilən biznes üçün dəyərli varlıqdır. Bacarıqlı və məşğul işçi qüvvəsi məhsuldarlığı artıra, innovasiyalara təkan verə və müstəsna müştəri xidməti göstərə bilər və şirkətin rəqabət qabiliyyətinə töhfə verə bilər.

6. Marketinq və Brendinq: Effektiv marketinq strategiyaları və güclü brendləşdirmə səyləri müəssisələrə rəqiblərdən fərqlənməyə, müştəri loyallığını yaratmağa və bazar payını ələ keçirməyə kömək edir. Yaxşı müəyyən edilmiş brend imici və cəlbedici marketinq mesajları istehlakçıların qavrayışlarına və seçimlərinə təsir göstərə bilər.

7. Maliyyə Resursları: Müəssisələrin böyümə imkanlarına, tədqiqata, inkişafa və marketinq səylərinə sərmayə qoyması üçün adekvat maliyyə resurslarına çıxış çox vacibdir. Güclü maliyyə sağlamlığı, kapitala çıxış və səmərəli maliyyə idarəçiliyi şirkətin rəqabət qabiliyyətinə töhfə verir.

8. Hökumət Qaydaları və Siyasətləri: Tənzimləmə mühiti biznesin rəqabət qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Əlverişli tənzimləmələr, dəstəkləyici siyasətlər və sabit qanunvericilik bazası əlverişli biznes mühiti yarada bilər, həddindən artıq qaydalar və ya siyasət qeyri-müəyyənlikləri isə rəqabət qabiliyyətinə mane ola bilər.

9. Qloballaşma və Beynəlxalq Ticarət: Qlobal qarşılıqlı əlaqənin artması bizneslər üçün həm imkanlar, həm də problemlər yaradır. Qlobal bazarlar geniş müştəri bazası, resurslara çıxış və autsorsing və ya qlobal təchizat zəncirləri vasitəsilə potensial xərc üstünlükləri təklif edir. Bununla belə, şirkətlər beynəlxalq oyunçuların intensivləşən rəqabəti ilə də mübarizə aparmalıdırlar.

10. Müştəri Məmnuniyyəti və Təcrübə: Müstəsna müştəri məmnuniyyəti və təcrübənin təmin edilməsi rəqabət qabiliyyəti üçün çox vacibdir. Müştəri ehtiyaclarını prioritetləşdirən, fərdiləşdirilmiş həllər təklif edən və satışdan sonra əla dəstək göstərən bizneslərin müştərilərini saxlamaq və rəqabət üstünlüyü əldə etmək ehtimalı daha yüksəkdir [4].

## YEKUN NƏTİCƏ

Biznesmenlər, xüsusilə kiçik və orta sahibkarlar davamlı rəqabət qabiliyyətinə nail olmağa töhfə verən strateji fəaliyyətlərdən istifadə etməlidirlər, çünki bu, iqtisadi artıma, rəqabət mədəniyyətinin gücləndirilməsinə və təşkilati nəticələrin təkmilləşdirilməsinə, beləliklə də, idarəetmənin effektivliyinə nail olunmasına kömək edir.

Aparılan sorğular müəyyən etmişdir ki, müəssisələrin, özəlliklə KOM - ların 59%-i davamlı rəqabətqabiliyyətlilik strategiyalarını həyata keçirmir, çünki onların strateji planlaşdırma prosesi empirik şəkildə aparılır; onların məhsuldarlığı artırmaq və uzunmüddətli nəticələr əldə etmək üçün fəaliyyətləri müəyyən etmələri vacibdir, bunun üçün menecerlərin idarəetmə, əməyin təşkili, istehsalın təşkili, marketinq, texnologiya və biznesin idarə edilməsi sahəsində biliklərini gücləndirmələri vacibdir.

Biznesin inkişafı bir neçə faktorla bağlıdır, məsələn: iqtisadi vahid əsasında böyümə, digər vahidlər yaradaraq böyümə; iqtisadiyyatın, səmərəliliyin, effektivliyin, məhsuldarlığın və rəqabət qabiliyyətinin yüksəldilməsi. Həmçinin daha yaxşı səviyyələrdə likvidlik, idarəetmə, ödəmə qabiliyyəti və gəlirlilik əldə etməklə.

Kiçik və orta sahibkarlığın inkişafı hər bir ölkənin iqtisadi və sosial inkişafı üçün prioritet məsələdir. Əgər onlar bu mühitdə qalmaq və böyümək istəyirlərsə, biznesin inkişafı məqsədlərinə çatmağa imkan verən dinamik strategiyalar təklif etməlidirlər; deməli, biznes ehtiyaclarına və ətraf mühit şəraitinə uyğun olaraq strateji planlaşdırma prosesinin həyata keçirilməsinin əhəmiyyəti böyükdür.

Biznes uğurunda insan amilini vurğulamaq vacibdir, çünki insanlar müxtəlif sahələrdə rəqabətqabiliyyətlilik və məhsuldarlıq vasitəsilə hədəflərə çatmaq üçün şirkətin bütün sahələrinin idarə edilməsinə cavabdehdirlər. Bir çox kiçik və orta sahibkarlıq subyektlərinin mühasibat uçotu yoxdur və dünya sisteminin hazırkı qloballaşdığı mühitdə onlar iqtisadi və texnoloji dəyişikliklərin sürətləndiyi şəraitdə qərar qəbul edə bilmirlər. Hazırda təşkilatlarda mühasibat uçotu informasiya sistemləri mühüm rol oynayır.

KOS-lar böyük şirkətlərin təkamülü üçün başlanğıc nöqtədir; lakin onların heç də hamısı bu mərhələyə çata bilmir, çünki onlar biznesin davamlılığına nail olmurlar; buna görə də onları uzun müddət biznesdə saxlamaq üçün davamlı strateji tədbirlər həyata keçirilməlidir. Nəzərə almaq lazımdır ki, inzibati, iqtisadi-maliyyə, vergi və hüquqi idarəetmənin təkmilləşdirilməsi üçün çoxlu alət və üsullar mövcuddur.

KOS-ların əhəmiyyəti təkcə onların yenidən bölüşdürülmə potensialı və məşğulluq yaratmaq qabiliyyəti ilə deyil, həm də onların rəqabət qabiliyyəti ilə bağlıdır, çünki onlar fəaliyyət göstərdikləri yerlərin ayrılmaz inkişafına töhfə verirlər.

## ƏDƏBİYYAT


1. Cabrera, A., & Lopez, P. Business competitiveness: a conceptual framework for its study. Research papers. Business Administration, – 2011.
2. Rosales, B.F.J., Linda, C.A., & Toro, W.J. Accounting system in the administrative management of MSMEs in the Province of St. Helena Province, – 2017.
3. https://www.redalyc.org/journal/5732/573270855001/html/
4. https://www.indeed.com/hire/c/info/competitivenessdefinition#:~:text=10,What%20is%20competitiveness%20in%20business%3F,customers%20with%20the%20optimal%20experience
5. https://www.studysmarter.co.uk/explanations/businessstudies/strategicanalysis/competitiveenvironment/#:~:text=It%20involves%20five%20elements%3A%20competitive,suppliers%2C%20and%20threat%20of%20substitutes.
6. https://www.investopedia.com/ask/answers/042115/what-factors-influence-competitionmicroeconomics.asp#:~:text=From%20a%20microeconomics%20perspective%2C%20five,as%20there%20is%20no%20competition.
7. Korhan, K. Rekabet üstünlüğünün etkileyen unsurların yapısal eşitlik modeli ile belirlenmesi / K.Korhan. İSO 500 büyük sanayi işletmesi örneği, Erciyes Üniversitesi İktisadi ve dari Bilimler Fakültesi Dergisi, – 2009, – s. 165-187.
8. Nick Godfrey. “Why is Competition Important for Growth and Poverty Reduction”, Global form on international investment, – 2008.
9. Porter, M.E The Competitive Advantage of Nations. Harvard Business Review, – 1990. – p. 73-93.


## STUDY OF COMPETİTİVENESS İN BUSİNESSES AND FACTORS AFFECTİNG IT

**H.F. Davudov**

There are various factors that significantly affect the competition in the business, the successful future of the company and its position in the market. In particular, it is worth noting that the impact of these factors may vary depending on the specific industry, market segment and individual development. In addition, external factors such as economic conditions, social stability and sociocultural trends can also affect competitiveness. Competition has been an integral part of most types

of business for centuries. One of the main goals of the companies should be to maintain the balance of competitiveness in order to "stay afloat". Any business that can't keep up with its strategies competitors and lags behind is doomed to decline. And the most important way to maintain the balance of competitiveness is to deeply study the factors affecting competitiveness and to have a serious amount of valuable information about it. The author Davudov Huseyn son's of Fuad conclusion based on the scientific work prepared is that competitiveness is something that most business areas must hold in their hands, without this factor, they are doomed to decline in a short time. The scientific novelty of the article is the classification of competitiveness from different points of view and the consideration of the topic of competition on different scales based on the pyramid of competitiveness developed by the author.

**Keywords:** *Competition in business, competitiveness, competition pyramid, competing approaches, competition theory.*

## ИЗУЧЕНИЕ КОНКУРЕНТОСПОСОБНОСТИ БИЗНЕСА И ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА НЕЕ

**Г.Ф. Давудов**

Существуют различные факторы, которые существенно влияют на конкуренцию в бизнесе, успешное будущее компании и ее положение на рынке. В частности, стоит отметить, что влияние этих факторов может варьироваться в зависимости от конкретной отрасли, сегмента рынка и индивидуального развития. Кроме того, на конкурентоспособность могут влиять и внешние факторы, такие как экономические условия, социальная стабильность и социокультурные тенденции. Конкуренция была неотъемлемой частью большинства видов бизнеса на протяжении веков. Одной из основных целей компаний должно стать сохранение баланса конкурентоспособности, чтобы «оставаться на плаву». Любой бизнес, который не успевает за стратегиями конкурентов и отстает, обречен на упадок. И самый важный способ сохранить баланс конкурентоспособности–глубоко изучить факторы, влияющие на конкурентоспособность, и иметь о ней серьезный объем ценной информации. Вывод автора Давудова Гусейна сына Фуада, основанный на подготовленной научной работе, заключается в том, что конкурентоспособность – это то, что большинство сфер бизнеса должны держать в своих руках, без этого фактора они обречены на упадок в короткие сроки. Научная новизна статьи заключается в классификации конкурентоспособности с разных точек зрения и рассмотрении темы конкуренции в разных масштабах на основе разработанной автором пирамиды конкурентоспособности.

**Ключевые слова:** *Конкуренция в бизнесе, конкурентоспособность, пирамида конкуренции, конкурирующие подходы, теория конкуренции.*

**UOT: 33C**
https://doi.org/10.59849/2409-4838.2024.2.103

# AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA KLASTERLƏRİN ROLU

**İlahə Sultan qızı Əlibəyli**
Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, Azərbaycan
*elibeylii@mail.ru

*Rəqabət üstünlüyünün əldə olunması, ixrac potensialının artırılması, firmaların öz imkanlarını genişləndirməsi, bölgədə sosial-iqtisadi dəyişikliklərin əldə olunması üçün ən optimal yol klasterlərin yaradılmasıdır. Ərazi bütövlüyünü yeni təmin etmiş ölkəmizdə heç bir klaster nümunəsinin olmaması və son dövrlərdə ölkə başçısının klasterləşmə fəaliyyətinə olan marağı bu anlayışın tədqiq edilməsinin zərurətini və aktuallığını ortaya çıxarır. Tədqiqatda statistik göstəricilərdən istifadə edərək kiçik və orta sahibkarlığın iqtisadiyyatdakı yeri müəyyənləşdirilməyə çalışılmış, eləcə də bugün bu sahədə klaster şəbəkələrinin formalaşmasının gətirəcəyi müsbət səmərə öz əksini tapıb. Tədqiqatın üstünlüyü klasterləşmənin kiçik və orta sahibkarlığa verəcəyi faydanın konkret nədən ibarət olduğunu ortaya çıxarmağındadır. Tədqiqatın nəticəsi kiçik və orta sahibkarlığın inkişafı və kiçik və orta sahibkarlıqda (KOS) klasterlərin formalaşdırılması üzrə konkret tövsiyələrin hazırlanmasında istifadə edilə bilər.*

***Açar sözlər:*** *Kiçik və orta sahibkarlıq, klaster, rəqabətqabiliyyətlilik.*

## GİRİŞ

Müasir dünyamızda qloballaşma nəticəsində firmalar yalnız ölkədaxili deyil, eyni zamanda beynəlxalq firmalarla da, rəqabət aparmaq məcburiyyətində qalırlar. Belə gərgin rəqabət mühiti xüsusilə kiçik və orta sahibkarlar üçün olduqca çətin olur. KOS-lar öz güclərini birləşdirərək, bilik və təcrübələrini paylaşaraq rəqabətə tab gətirməyə çalışırlar. Beləliklə, firmaların birləşərək müştərək fəaliyyət göstərməsi nəticəsində klasterlər yaranır. Klaster dedikdə-müştərək fəaliyyət göstərən və eyni zamanda rəqabət aparan, coğrafi əlamətlərinə görə qarşılıqlı əlaqədə olan şirkətlərin, ixtisaslaşmış xidmət sahəsinin, tədarükçülərinin, eləcə də bir-birinə yaxın sahələrin və onların fəaliyyətləri ilə bağlı olan təşkilatların təmərküzləşməsi başa düşülür [4]. Ölkəmizdə heç bir klaster nümunəsinin olmaması, klasterlərin yaradılması və inkişafı məsələlərinə dövlətin xüsusi dəstəyinin olması bu mövzunun aktual və tədqiqatın zəruri mövzu olduğunu göstərir. Tədqiqatda araşdırılan mövzuya kompleks və sistemli yanaşma, kəmiyyə, tədqiqat, ümumiləşdirmə və qiymətləndirmə metodlarından istifadə edilmişdir. Klasterlərin KOS-ların inkişafındakı əhəmiyyətliliyini aşkara çıxarmaq üçün "Azərbaycan Dövlət Statistika Komitəsi"nin ictimaiyyətlə paylaşdığı statistik göstəricilərdən, müxtəlif xarici mənbələrdən, klasterləşmə fəaliyyəti ilə bağlı dövlət başçısının verdiyi müvafiq sərəncam və fərmanlardan istifadə edilmişdir. Kiçik və orta sahibkarlıqda yaradılan klasterlərin əhəmiyyətliliyi bu tədqiqat işində araşdırılmışdır; əvvəlcə KOS-ların iqtisadiyyatdakı rolu və yeri müvafiq statistik göstəricilərdən istifadə edilərək aşkara çıxarılmışdır. Digər başlıqda isə dünyada geniş şəkildə istifadə edilən klaster konsepsiyasının KOS-ların inkişafındakı əhəmiyyətliliyi aşkara çıxarılmışdır.

## ƏSAS HİSSƏ

### KOS-ların iqtisadiyyatda yeri və rolu

İqtisadiyyatın dinamik və çevik amillərindən biri kimi çıxış edən kiçik və orta sahibkarlığı ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafının açarı hesab etmək mümkündür. Kiçik və orta sahibkarlıq (KOS) subyektləri, adından da göründüyü kimi iri müəssisələr olmasalar da, onların iqtisadiyyatda oynadığı rol hər baxımdan iri müəssisələrə nisbətən daha əhəmiyyətlidir [5]. Xüsusən də ümumi daxili məhsulun istehsalının davamlı artırılması, büdcənin vergi ehtiyaclarının ödənilməsi və məşğulluğun artırılması məsələlərində KOS-ların əvəzedilməz imkanları var. Bu cəhətlərinə görə dünyanın inkişaf arzusunda olan bütün ölkələrində KOS-lara dəstək sahibkarlığa dəstəyin əsas əlaməti sayılır [3]. Belə ki, KOS-ların inkişafı ilə iqtisadi artıma, məşğulluğun artırılmasına, rəqabətin yüksəldilməsinə, əhali tələbatının yüksək səviyyədə ödənilərək iqtisadiyyatın idxaldan asılılığının azaldılmasına və s. nail olmaq mümkündür [3].

Xüsusilə, inkişaf etmiş ölkələrin iqtisadiyyatında KOS-ların olduqca əhəmiyyətli olduğunu statistik göstəricilərə nəzər yetirdikdə görmək mümkündür. Dünya Bankında aparılmış hesablamalar göstərir ki, KOS-ların 2030-cu ilə qədər 600 milyon yeni iş yeri tələbini qarşılayacaq [10]. Aşağıdakı şəkildə bir neçə İEÖ-lərdə fəaliyyət göstərən KOS-ların ÜDM və məşğulluqdakı payı göstərilmişdir.




**Şəkil 1.** İEÖ-də KOS subyektlərinin ÜDM-ə və məşğulluğa təsiri (faizlə)

Mənbə: World Bank, World Development Indicators - 2022

Yuxarıdakı şəkil1-dəki məlumatlara nəzər yetirsək, İEÖ-lərin iqtisadiyyatında KOS-ların ÜDM-dəki payının 40%-dən çox, məşğulluqdakı payının isə 55%-dən çox olduğunu görmək mümkündür. KOS-lar inkişaf etmiş ölkələrin iqtisadiyyatındakı oynadığı əhəmiyyətli rolunu inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatı üçün də qoruyub saxlaya bilir [3]. KOS-ların İEOÖ-lər üçün əhəmiyyətliliyini izah etmək üçün bəzi İEOÖ-lərdə fəaliyyət göstərən KOS-ların həmin ölkələrin ÜDM və məşğulluqdakı payını nəzərdən keçirə bilərik. Şəkil 2-də Dünya Bankının paylaşdığı statistik göstəricilər əks etdirilmişdir.

Şəkil 2-də KOS-ların sürətlə inkişaf edən ölkələrin iqtisadiyyatında rolunun daha çox olduğunu görmək mümkündür. İnkişaf tempi daha yüksək olan ölkələrdə KOS-ların ÜDM-dəki payının 40%-dən, məşğulluqdakı payının isə 60%-dən çox olduğunu söyləmək mümkündür. İnkişafı daha zəif sürətlə davam edən ölkələrdə isə göstəricilərin olduqca aşağı olduğunu statistik göstəricilərə baxdıqda görmək olar. Belə ölkələrdə KOS-ların ÜDM içərisindəki payı 30-20%, məşğulluqdakı payı isə 25-35%-dir.




**Şəkil 2.** İEEÖ-də KOS subyektlərinin ÜDM-ə və məşğulluğa təsiri, faizlə

Mənbə: World Bank, World Development Indicators - 2022

İEÖ və İEOÖ-lərin statistik göstəriciləri nəzərdən keçirdikdən sonra həmin göstəricilərin Azərbaycan iqtisadiyyatında fəaliyyət göstərən KOS-ların iqtisadiyyata təsirini müqayisəli şəkildə aydınlaşdırmaq mümkündür. Aşağıdakı şəkildə KOS-ların ÜDM və məşğulluqdakı payı əks etdirilmişdir.




**Şəkil 3.** Azərbaycanda KOS subyektlərinin ÜDM və məşğulluğa təsiri, faizlə
Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi - 2022

Yuxarıdakı şəkil 3-ü nəzərdən keçirsək, KOS-ların ÜDM içərisindəki payı qeyri-neft sektorunda 15%-dək (neft sektoru üzrə isə 8%-dək), məşğulluqdakı payının isə 30-40% olduğunu görərik. Azərbaycana aid rəsmi göstəriciləri digər ölkələrlə müqayisə etdiyimiz zaman Azərbaycan iqtisadiyyatında KOS-ların ÜDM və məşğulluqdakı payının olduqca aşağı olduğunu görmək mümkündür. Dünya Bankının rəsmi statistik məlumatlarına görə dünya üzrə mövcud olan müəssisələrin təxminən 90%-ni və məşğulluğun 50%-ni KOS-lar təşkil edir və bu baxımdan da, KOS-ları qlobal iqtisadi inkişafa töhfə verən amillərdən hesab etmək mümkündür [10]. Dünya Bankının proqnozlarına görə 2030-cu ilə qədər artan qlobal işçi qüvvəsini işlə təmin etmək üçün 600 milyon yeni iş yeri tələb olunacaq ki, bu da KOS-ların inkişafının dünyanın bir çox ölkələri üçün əhəmiyyətliliyini ortaya çıxarır [10]. Yuxarıdakı statistik məlumatlar Azərbaycanda fəaliyyət göstərən KOS-ların vəziyyəti-

nin heç də ürəkaçan olmadığını göstərir. Bütün bu məlumatlar KOS-ların iqtisadiyyata müsbət istiqamətli təsirini artırmaq üçün dövlətin müəyyən köklü dəyişikliklərin aparılmasının əhəmiyyətliliyini ortaya çıxarır.

**Kiçik və orta sahibkarlığın inkişafında klasterlərin yaradılmasının əhəmiyyəti**

Dünya təcrübəsi göstərir ki, KOS-ların ölkə iqtisadiyyatında effektivliyininin artırılması, məşğulluğun artırılması, bazarda rəqabətqabiliyyətliliyin artırılması, əhali tələbatının ən yüksək səviyyədə ödənilməsi, artan rəqabət şəraitində mal və xidmətlərin keyfiyyət göstəricisinin yüksəldilməsində KOS klasterlərininin yaradılmasının böyük rolu vardır [7]. Klaster dedikdə, bənzər məhsul və xidmət istehsalı ilə məşğul olan və eyni məqsədə istiqamətlənmiş firmaların eyni bir coğrafi ərazidə yerləşməsi və birlikdə fəaliyyətlərinə davam etməsi kimi başa düşülə bilər [7]. Klasterlərlə bağlı elmi ədəbiyyatda müxtəlif təriflər mövcuddur. Bu müxtəliflik hər bir alimin bu konsepsiyaya yanaşma tərzinin müxtəlifliyindən ortaya çıxır. Lakin klaster konsepsiyasının yaradıcısı hesab olunan M.Porterin tərifi daha çox istifadə edilənlərdəndir. M.Porterə görə klaster- müştərək fəaliyyət göstərən və eyni zamanda rəqabət aparan, coğrafi əlamətlərinə görə qarşılıqlı əlaqədə olan şirkətlərin, ixtisaslaşdırılmış xidmət sahəsinin, tədarükçülərinin, eləcə də bir-birinə yaxın sahələrin və onların fəaliyyətləri ilə bağlı olan təşkilatların təmərküzləşməsidir [7].

Məhdud maliyyə resurslarına malik olmaq KOS-ların böyüməsi və fəaliyyətini davam etdirməsinin qarşısında duran ən böyük amillərdəndir [6]. Eləcə də KOS-ların bank kreditləri əldə etməsi iri firmalara nəzərən daha çətindir və əsasən KOS-lar öz daxili vəsaitlərinə, dostlardan və ya ailədən gələn nəğd ödənişlərə güvənərək fəaliyyətə başlayır və davam etdirir. Beynəlxalq maliyyə korporasiyasının hesablamalarına görə inkişaf etməkdə olan ölkələrdə 65 milyon KOS-ların 40%-i 5.2 trilyon ABŞ dolları məbləğində maddi vəsaitə ehtiyac duyur [11]. Dünya Bankının rəsmi statistik məlumatlarına görə ümumi maliyyə çatışmazlığının 46%-i Mərkəzi Asiyanın, 15%-i isə Şərqi Asiya və Avropanın payına düşür [10]. Rəsmi KOS-ların yarısının rəsmi kreditə çıxışının olmaması da, dünya bankı tərəfindən verilən məlumatlar arasındadır. Azərbaycanda da, KOS-lar zəif maliyyə çıxışlarına malikdir [5]. Asiya İnkişaf Bankının (ADB) hesablamalarına görə, Azərbaycanda KOS-ların maliyyə ehtiyacları 6.8 milyard ABŞ dolları səviyyəsində qiymətləndirilir. Maliyyə ehtiyaclarını qarşılamaqda çətinlik çəkən KOS-lar üçün ən optimal yollardan biri kimi klasterləşməni misal göstərmək olar. İri sahibkarların və KOS-ların qarşılıqlı fəaliyyət göstərərək yaratdıqları klaster şəbəkəsi sahibkarlar üçün maliyyə ehtiyaclarının qarşılanmasını, kreditlərin əlçatanlığını təmin edir [5]. Klasterin tərkib hissəsi olduğu zaman KOS-ların dövlət tərəfindən verilən subsidiyaları əldə etməsi təkbaşına fəaliyyət göstərdiyi dövrlə müqayisədə daha əlverişlidir. Məsələn, Avropa Klaster Əməkdaşlıq Təşkilatı tərəfindən üzv ölkələrdə fəaliyyət göstərən klasterlərə pandemiyanın mənfi nəticələrini yumşaltmaq üçün təxminən 95 milyard avro maliyyə yardımı göstərilmişdir [11]. Beləliklə də, KOS-ların maliyyə ehtiyaclarını təmin edə bilməsi üçün onların klasterlərin tərkib hissəsi olmağı zəruridir.

2021-ci ilə dair statistik məlumatlar nəzərdən keçirildikdə 12011 mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ləğv edildiyini görə bilərik. Müsbət hal isə ondan ibarətdir ki, 2020-ci illə müqayisədə bu rəqəm 55% azalmışdır. Fəaliyyətlərini davam etdirə bilmək üçün dövlət dəstəyinə ehtiyac duyan firmaların belə dəstəklə təminat məsələlərində klasterlərin böyük faydası vardır. Klasterin tərkib hissəsi olmaqla KOS-lar elmi-tədqiqat mərkəzlərinin və dövlət tərəfindən maliyyələşən universitetlərin elmi araşdırmalarınının nəticələrinə, dövlət tərəfindən göstərilən subsidiyalara və müxtəlif digər məqsədli dövlət quruluşlarının xidmətlərindən ödənişsiz və asanlıqla yararlana bilərlər [8]. Belə üstünlüklər əldə edən KOS-lar isə öz fəaliyyətini dayandırmaz, əksinə fəaliyyət istiqamətlərini genişləndirə bilər. Beləliklə, Azərbaycanda klasterlərin yaranması ilə KOS sahibkarların fəaliyyətini dayandırmasının qarşısını almaq mümkündür. Dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycanda da, klasterlərə xüsusi güzəştlər təyin edilir. KOS-lar fəaliyyət göstərdikləri zaman

öz dövriyyə məbləğinə görə sadələşdirilmiş gəlir və ƏDV vergisi ödəyiciləri kimi çıxış edirlər. Vergi məcəlləsinin 102.1.32. maddəsinə əsasən, KOB klasterlərin tərkib hissəsi olduqları zaman 7 il müddətində bu vergilərdən azaddırlar [2]. Bundan başqa, KOB klaster şirkətləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə mülkiyyətində və ya istifadəsində olan və KOB klaster fəaliyyətində istifadə olunan torpaqlara görə torpaq vergisini ödəməkdən azaddır [2]. Təbii ki, vergi yükünün azaldılması və ya aradan qaldırılması sahibkarların gəlirini və istehsalatının artımına gətirib çıxaran vacib amillərdəndir. Yalnız klasterin tərkib hissəsi olmaqla belə güzəştlərə malik olan KOS-lar öz gələcək fəaliyyətlərini genişləndirə bilər. Bu baxımdan da, klasterin tərkib hissəsində fəaliyyət göstərmək KOS-lara böyük fayda verəcəkdir. Texnologiyadakı insanların zövq və düşüncələrindəki, ətraf aləmdə baş verən dəyişikliyi izləyərək ona uyğun biznes strategiyası formalaşdırmaq və dəyişiklikləri mənimsəyərək öz məhsul və xidmətlərinə tədbiq etmək KOS-lar üçün olduqca çətindir [5]. Bu səbəbdən KOS-lar dünya bazarındakı mövcud rəqabətə tab gətirə bilmədiyinə görə yeni bazarlara çıxış əldə edə bilmirlər. Eyni zamanda, dünya bazarına çıxmaq və fəaliyyətini davam etdirə bilmək istəyən KOS-lar ilk öncə yerli bazardakı iri firmalara qarşı rəqabətqabiliyyətli olmağı bacarmalıdır. Belə gərgin rəqabət mühitinə çox vaxt KOS-lar tab gətirməyə bilir. Lakin klasterin tərkib hissəsi olmaqla KOS-lar iri firmalarla rəqabət mühitindən çıxaraq ortaq fəaliyyətə keçid edirlər [1]. İri firmalarla əməkdaşlığı nəticəsində yeni satış bazarlarına daha rahat çıxa bilməsi, texnologiyadakı dəyişikliyə və yeni ortaya çıxan biliklərə asan əlçatanlıq və s. bu kimi məsələlərdə üstünlüyə malik olurlar. Digər firmalar qarşısında rəqabət üstünlüyünə malik olan KOS-lar isə yaradılışlarının ali məqsədi hesab edilən mənfəəti maksimumlaşdırmağa nail ola bilirlər. Firmaların öz istəkləriylə birləşərək müştərək fəaliyyət göstərməsi və ya dövlətin birbaşa müdaxilə etməsi nəticəsində klasterlər yarana bilir [1, 9]. Klasterləşmə təcrübəsinə malik olmayan respublikamız üçün klasterlərin yaradılması yalnızca dövlətin dəstəyi ilə mövcud ola bilər. Dövlətin stimullaşdırıcı tədbirlər və müxtəlif sosial layihələr çərçivəsində yarada biləcəyi klasterlər müəyyən prinsiplər üzərində qurulmalıdır. Kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinə birbaşa təsir edən prinsipləri aşağıdakı şəkildə sıralamaq mümkündür:

Klasterin tərkib hissəsi olan KOS-lar öz müstəqilliyini qoruyub saxlamalıdır. Belə ki, KOS-ların firmadaxili qərarlarına heç bir klaster iştirakçısı müdaxilə etməməlidir;

KOS-lar şəxsi iradələri ilə klasterləşmənin iştirakçısı olmalı və ya iştirakçı olmaqdan imtina etməlidir. Dövlətin və ya hər hansı başqa sahibkarlıq subyektlərinin məcburiyyəti əsasında klasterlər yaradılmamalıdır. Burada dövlət yalnızca firmaları stimullaşdırmaqla klaster iştirakçısı olmağa sövq etməlidir. Digər tərəfdən, digər firmanın təhdidləri və ya haqsız rəqabət formasına əl ataraq KOS-ların klasterdaxili fəaliyyətinə maneə olan hər bir firma qanun qarşısında cəzalandırılmalıdır;

Klaster iştirakçısı olan hər bir sahibkarın müəyyən öhdəliyi olmalıdır. KOS subyekti və digər firmalar qarşılıqlı fəaliyyəti üzrə öhdəçilik götürməlidir. Məsələn, klaster iştirakçılıqdan imtina etmək istəyən sahibkarlıq subyekti KOS-ların fəaliyyətinə xələl gətirməmək üçün öz öhdəliyini yerinə yetirməyə məcburdur. Bu prinsip KOS-ların hüquqlarının qorunmasına kömək edir;

Klasterin hər bir iştirakçısı əldə etdiyi elmi yenilik barəsində digər firmaları məlumatlandırmalıdır. Texnologiyadakı yenilikləri izləmək imkanına malik olan iri firmalar klasterin ümumi inkişafına nail olmaq üçün digər KOS-ları bu barədə məlumatlandırmalıdır. Dəyişiklikləri təqib etməkdə çətinlik çəkən KOS-lar bu prinsip əsasında klasterin iştirakçısı olmaqla yeni məlumatları daha rahat əldə edə bilər;

Klaster iştirakçılarının hər biri bərabər hüquqa malik olmalıdır. Firmalar ölçülərinə, tutduqları mövqeyə görə fərqləndirilməməli, iş bölgüsü ədalətli şəkildə aparılmalı, şəffaf şəkildə dəyər zənciri yaradılmalıdır.

**YEKUN NƏTİCƏ**

Tədqiqat zamanı aşkara çıxarılan klasterləşmənin KOS-ların inkişafına göstərdiyi müsbətyönümlü təsirləri aşağıdakı kimi sadalamaq mümkündür:

Dövlətin güzəştlərinə, maliyyə vasitələrinə əlçatanlığın təmin edilməsi;

Texnologiyadakı, istehsalatdakı və tələbatdakı dəyişikliklərdən daha tez xəbərdar olmaqla rəqabətüstünlüyün əldə edilməsi;

Yeni bazarlara çıxmaq imkanı qazanmaqla karını artırmaq imkanı əldə etməsi;

İnnovasiya əlçatanlığının təmin edilməsi rəqibləri ilə müqayisədə daha yüksək iqtisadi artıma nail olması;

İqtisadi məhsuldarlığın artırıılması.

**MİNNƏTDARLIQ**

"Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafında klasterlərin rolu" mövzusunda tədqiqat işini aparmağımda göstərdiyi dəstəyə görə Azərbaycan Dövlət İqtisad Universiteti, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin rəhbəri dos.i.f.d. Əhmədov Fariz və elmi rəhbərim dos.i.f.d. Həmidov Həmid cənablarına öz dərin minnətdarlığımı bildirirəm.

## ƏDƏBİYYAT

1. Alsaç, F. Bölgesel Gelişme Aracı Olarak Kümelenme Yaklaşımı Ve Türkiye İçin Kümelenme Bölgeler Bazında Bir Uygulama // – Ankara: Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü nəşriyyatı, – 2012, 18 (2), – s. 281-298.
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi // 1 yanvar 2001-ci ildə qəbul edilmişdir ( 17 dekabr 2018-ci il tarixdə olan dəyişiklik və əlavələr). – Bakı: Qanun, – 2002, – s. 48.
3. Cəfərov, V.Ə. KOS-ların iqtisadiyyatda yeri // – Bakı : Express jurnalı, – 2012. – s. 33
4. Əliyev, T.N. Klasterlər: Beynəlxalq təcrübə və innovativ inkişaf / T.N.Əliyev. – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, – 2019. – 535 s.
5. Kiçik və orta sahibkarlıq subyektləri üçün əyani vəsait / tərt.ed. B.Abdulla – Bakı: Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi Sahibkarlığa Kömək Milli Fondu, – 2002. – s. 78.
6. Katı, M.B. Yerel ekonomiler için kümelenmenin önemi / M.B.Katı, B.A.Erdoğan – Ankara: Turizm Ekonomi ve İşletme Araştırmaları Dergisi, – 2021. №3, – s. 5
7. Porter, M. The Economic Performance of Regions // – London: Regional Studies, – 2003, 37 (6-7), – p. 549-578.
8. Suçin, T.E. Yerel Ekonomiler İçin Kümelenmenin Önemi: Batman Tekstil Sektörü İçin Bir Uygulama / T.E.Suçin, T.M.Çayın – Ankara: Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, – 2021. №3, – s. 271-288.
9. www.stat.gov.az
10. https://www.worldbank.org/en/topic/smefinance
11. https://www.oecd.org/cfe/leed/17942708.pdf

## THE ROLE OF CLUSTERS IN THE DEVELOPMENT OF SMALL AND MEDIUM ENTREPRENEURSHIP IN AZERBAIJAN

**I.S. Alibayli**

The most optimal way to achieve competitive advantage, increase the export potential, expand the capabilities of companies, and achieve socio-economic changes in the region is the creation of clusters. The fact that there is no example of a cluster in our country, which has recently secured territorial integrity, and the interest of the head of the country in the activity of clustering in recent times reveals the necessity and relevance of researching this concept. The study tried to determine the place of small and medium entrepreneurship in the economy using statistical indicators, as well as the positive effect brought by the formation of cluster networks in this field today. The advantage of the research is to find out the specific benefits of clustering to small and medium enterprises. The results of the research can be used in the development of small and medium enterprises and the development of clusters in small and medium enterprises (SMEs).

**Keywords:** *Small and medium entrepreneurship, cluster, competitiveness.*

## В РАЗВИТИИ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ РОЛЬ КЛАСТЕРОВ

**И.С. Алибейли**

Наиболее оптимальным способом достижения конкурентного преимущества, повышения экспортного потенциала, расширения возможностей компаний и достижения социально-экономических изменений в регионе является создание кластеров. Тот факт, что в нашей стране, только что закрепившей территориальную целостность, нет примера кластера, а также интерес главы страны к деятельности по кластеризации в последнее время показывает необходимость и актуальность исследования данного понятия. В ходе исследования была предпринята попытка определить место малого и среднего предпринимательства в экономике с помощью статистических показателей, а также положительный эффект, который сегодня приносит формирование кластерных сетей в этой сфере. Преимущество исследования состоит в том, чтобы выяснить конкретные преимущества кластеризации для малых и средних предприятий. Результаты исследования могут быть использованы при развитии малого и среднего предпринимательства и развитии кластеров малого и среднего предпринимательства (МСП).

**Ключевые слова:** *Малое и среднее предпринимательство, кластер, конкурентоспособность.*

**UOT: 159.923**
https://doi.org/10.59849/2409-4838.2024.2.110

# SOSİAL MEDİADA "MƏN OBRAZI" VƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏNİN TƏHLİLİ ("VİRTUAL MƏN" OBRAZI)

**Aytən Sabir qızı Mütəllimzadə**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
*aytanmutallimzada@bsu.edu.az

*Müasir dövrümüzdə şəbəkə 2.0 (Web 2.0) texnologiyasının inkişafı sayəsində sosial media platformaları artıq gündəlik həyatımızın bir hissəsinə çevrilmişdir (Instagram, Facebook, X (əvvəlki adı ilə Twitter), YouTube). Təbii ki, sosial medianın surətli inkişafı sayəsində insanlar arasında əlaqə, məlumatların əldə edilməsi (kitab, qəzet və s.), marketinq, satış, məsafədən təhsil və s. məsələlər daha rahat və əlçatan olmuşdur. Lakin texnoloji inkişafın insanlara müsbət təsirlər ilə yanaşı olaraq həm də mənfi təsirlərinin olmasını nəzərə alsaq, daha çox bu istiqamətdə elmi araşdırılmaların aparılması və bu mənfi təsirləri azaltmaq üçün yeni üsul və yolların axtarılması zəruridir. Təqdim edilən məqalədə əsasən bu mövzulara diqqət edilmiş, sosial medianın "Mənlik şüuruna" təsiri ətraflı təhlil edilmişdir. Belə ki, hal-hazırda ən çox diqqət çəkən problem sosial media istifadəçilərinin adətən gerçək həyatda olmadıqları biri kimi davranmaqlarıdır. Artıq demək olar ki, sosial media istifadəçilərinin əksəriyyəti öz hesablarını bir növ "sərgi" kimi istifadə edir (restoranlara, səyahətə, əyləncəyə, idmana və s. fəaliyyətlərə sırf sosial media hesabında yeni və maraqlı nələrsə paylaşmaq üçün gedirlər) və izləyicilərdə "ideal mənzərə" yaratmaq üçün can atırlar. Əsasən də hər hansısa fəaliyyətlə məşğul olanda "burada və indi" prinsipi ilə hərəkət edə bilmirlər, həmin an gördükləri fəaliyyətdən zövq almasalar belə, əsas odur ki, "ideal kadr" yaxalasınlar və sırf o kadrı sosial media hesablarında paylaşıb izləyiciləri inandıra bilsinlər ki, "maraqlı" və "əyləncəli" gün keçirmiş olublar. Virtual aləmdə "kütləyə oynamaq" zamanla "ideal mən" və "real mən" obrazları arasında boşluq yaradıb, özünüqiymətləndirməyə də əhəmiyyətli səviyyədə təsir etmiş olur. Belə ki, təqdim edilən məqalədə, sosial mediada "Mən obrazı" və özünüqiymətləndirmə ətraflı şəkildə təhlil edilmişdir.*

***Açar sözlər:** sosial media, sosial şəbəkə, virtual aləm, mənlik şüuru, "Mən obrazı", "ideal mən", "real mən", "virtual mən", özünüqiymətləndirmə, bloqer, sosial media influenseri*

## GİRİŞ

Müasir dövrümüzdə texnologiyanın surətli inkişafı şəxsiyyətin inkişaf prosesinə də əhəmiyyətli səviyyədə təsir etmişdir. Hal-hazırda sosial media platformalarından daha çox istifadə edən yaş qrupları yeni nəsil yeniyetmələr (alfa nəsli) və gənclərdir (Z nəsli). Şəxsiyyətin tam formalaşmadığı yaş dövrlərində sosial medianın təsiri daha güclü olur və mənfi təsirləri daha qabarıq şəkildə özünü göstərir. Xüsusilə də yeniyetmə və gənclərin özünü dərketməsinə ("Mənlik şüuru") bloqerlər və influenserlərin təsiri güclüdür. Hal-hazırda sosial mediada bloqerlik fəaliyyətinin biznesə çevrilməsi ilə gənclər artıq bu istiqamətdə qazanc əldə etməyə başlamışdır. Bloqerin şəxsi hesabının ümumi fəaliyyəti nəzərə alınaraq (izləyicilərin sayı, bəyənmə sayı, hesabın aktivliyi (nə qədər insanın maraq göstərib daxil olması) və s.). sosial media platforması tərəfindən onlara ödəniş olunur (dollar valyutası ilə) və hətta mükafat (qızıl, gümüş, bürünc və s.) göndərilir (məsələn: "YouTube yaradıcılıq mükafatı). Lakin müxtəlif brendlər, markalar, firmalar, kiçik və böyük biznes sahibləri də ödənişli olaraq, reklam üçün bloqerlər ilə iş birliyi görürlər [6, s. 201]. Belə ki, bloqerlik fəaliyyətinin kommersiyalaşması ilə sosial media influenserləri, yəni müəyyən bir izləyici şəbəkəsinə sahib olan və izləyicilərinin qərarlarına, davranışlarına və rəftarlarına təsir edən insanlar da meydana çıxmış oldu. Sosial media influenserləri öz izləyiciləri tərəfindən etibarlı və fikirlərinə dəyər verilməli olan fərdlər kimi qəbul edilir. Təbii ki, bloqer və influenserlərin paylaşımların səhnə arxasını təxmin et-

mək yetkin insanlar üçün çətin olmasa da (reklam xarakterli məhsulların təqdim edilməsi, adətən reklam olaraq müxtəlif məkanlara (restoranlara, idman zallarına dəvət olunmaqları və s.), aşağı yaş qrupundan olan şəxslər onlardan örnək alırlar və imkan daxilində onları təkrarlamaq istəyirlər. Sosial mediaya nəzər salanda müşahidə etmiş oluruq ki, sanki bütün bloqerlər və xüsusilə də influenserlər "ideal həyat" yaşayır, hər gün səhər tezdən oyanır, sağlam qidalanır, bahalı məhsullar istifadə edir, idman edir, hər gün yüksək seqmentə məxsus olan məkanlarda vaxt keçirir, hər zaman xoş görünüşdə və yüksək əhval-ruhiyyədə olurlar. Təbii ki, sosial mediada yaradılan bu ideal mənzərə izləyicilərə (xüsusilə də yeniyetmə və gənclərə) mənfi təsir etmiş olur. Yeniyetmə və gənclər gerçək həyatlarında hər hansısa fəaliyyət növü ilə məşğul olub, biliklərini artırıb, bacarıqlarını gücləndirib özlərini real təsdiq etmək əvəzinə, virtual aləmdə olmadıqları biri kimi davranıb saxta özünütəsdiqə cəhd edirlər. Özləri haqqında sosial media hesablarında "real mən" obrazlarına heç bir halda uyğun gəlməyən, daha çox "ideal mən" obrazına uyğunlaşdırılan təqdimat onların "Mən obrazı" təsəvvürlərinə ciddi şəkildə təsir edir.

## ƏSAS HİSSƏ
## "MƏN OBRAZI" VƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ

Şəxsiyyət tarixi inkişaf nəticəsində formalaşır. İctimai və sosial münasibətlərin daşıyıcısı olan konkret şəxsdir [2, s. 408]. Şəxsiyyətin əsas struktur komponenti şüurdur. Şüurun əsas mərkəzi komponenti isə "Mənlik şüuru"dur. "Mənlik şüuru" vasitəsi ilə şüurun bütün xüsusiyyətləri təzahür etmiş olur, bu da şəxsiyyətin davranışını təyin etmiş olur. "Mənlik şüuru"nun daxilində insanın həm digər insanların həm də özünün əsas cəhətləri əks olunur. Şəxsiyyətin formalaşması və özünü dərketmə prosesində "Mənlik şüuru"nun əhəmiyyətli təsiri vardır. İnsan təkcə bioloji deyil, həm də ictimai varlıqdır [3, s. 98]. "Mənlik şüuru" cəmiyyətdə formalaşır. "Mənlik şüuru"nun əsas üç alt komponentdən ibarətdir:

-"Mən obrazı" (insanın özünəmünasibəti və özü haqqındakı təsəvvürləri)

- Özünüqiymətləndirmə (insanın özü haqqındakı təsəvvürlərini qiymətləndirməsi)
- Potensial davranış reaksiyaları ("Mən obrazı" və özünüqiyməyləndirmənin davranışda təzahür etməsi)

"Mənlik şüuru"nun strukturunda insanın özü haqqında olan bilikləri, özünü dərketməsi dayanır. İnsanın özü haqqında formalaşmış olan təsəvvürləri və özünə qarşı münasibəti də şəxsiyyətin "Mən obrazı"nı təşkil edir. Belə ki, "Mən obrazı"nın özünüməxsus fərqli formaları mövcuddur. Hər bir insanda eyni vaxtda dörd "Mən obrazı" olur [1, s. 224]:

- "Real mən"
- "İdeal mən"
- "Sosial mən"
- "Fiziki mən"

"Mən obrazı"nın yuxarıda qeyd edilən formaları arasında kəskin fərqlərin olması, xüsusilə də "ideal mən" obrazının, iddiaların həddindən artıq yüksək olması özünüqiymətləndirməyə də mənfi təsir etmiş olur.

*"Real mən" obrazı*

İnsanların özləri haqqında olan gerçək təsəvvürləri və fikirləri "real mən" obrazında əks olunur. Bu obraz demək olar ki, insanın güzgüdə olan əksi kimidir. Hər bir şəxs sahib olduğu bütün həqiqi keyfiyyətlərini (biliklərini, bacarıqlarını, davranışını və s.) görür, dərk edir və bu keyfiyyətlərə müvafiq şəkildə özünüqiymətləndirmiş olur [4, s. 188].

*"İdeal mən" obrazı*

Hər bir insanın ideal hesab etdiyi bir sıra xüsusiyyətlər vardır. İnsanlar yüksək qiymətləndirmiş olduqları xüsusiyyətləri özlərində formalaşdırmağa çalışırlar. Şəxsi keyfiyyətlərini ideal təsəvvürlərinə yaxınlaşdırmaq üçün daima səy göstərirlər. Hər bir şəxs öz ideal təsəvvürlərinə əsasən necə biri olacağını müəyyənləşdirməyə çalışır, daima buna səy göstərirlər.

*“Sosial mən” obrazı*

Hər bir insan hər zaman özünə digər insanların gözü ilə baxmağa, yanaşmağa çalışır (“refleksiya”), özünü digər insanların gözündə təhlil edir, dəyərləndirib, qiymətləndirir. Başqalarının onu necə gördüyünü, necə görmək istədiklərini, hər hansısa bir vəziyyətdə necə davranmalı olmasını ətraflı şəkildə düşünürlər. “Sosial mən” insanların bir növ sosial siması, maskasıdır. İnsanlar adətən “sosial mən” ilə öz “real mən”lərini gizlətməyə çalışırlar.

*“Fiziki mən” obrazı*

Bədən quruluşu və fiziki görünüş ilə əlaqəli olan təsəvvürlər bu mən obrazına aid edilir. Ümumi olaraq “Mən obrazı”nın formalaşması və inkişafında “fiziki mən”in də əhəmiyyətli təsiri vardır. Xüsusən də cinsi identifikasiya prosesinin əsasında “fiziki mən” obrazına daxil olan təsəvvürlərin təsiri güclüdür. Tanınmış rusiyalı psixoloq İqor Konun fikrincə “Mən”in formalaşmasına insanın özünü olduğu kimi qəbul etməsi (və ya etməməsi), özünü qarşı münasibəti (mənfi və ya müsbət formada) və özünüqiymətləndirməsi (ümumi, xüsusi və ya konkret) təsir göstərmiş olur. Ümumi özünüqiymətləndirmə vəhdət halında xüsusi və konkret özünüqiymətləndirmədən törəmiş olur. Beləliklə “Mən obrazı” insanın özünüqiymətləndirməsinə təsir edir. “Mən obrazı” və özünüqiymətləndirmə ümumi olaraq mənlik şüurunun struktur komponentlərini təşkil edir və həmçinin bir-biri ilə vəhdət şəklində, sistemli olaraq fəaliyyət göstərmiş olurlar. Belə ki, “ideal mən” və “real mən” obrazlarıı arasında kəskin fərqin olması, zamanla özünüqiymətləndirməyə mənfi təsir göstərmiş olur. İddia səviyyəsi “ideal mən” obrazına çatmaq üçün yüksəlir, lakin gözləntilərə uyğun nəticə əldə edilməyəndə frustrasiya baş verir. Qarşıya yüksək məqsədlər qoyan şəxslər, əldə etdikləri kiçik nailiyyətləri önəmsəmir, imkanları daxilində deyil daha yüksək məqsədlər qoyaraq özlərini qiymətləndirməyə çalışırlar. Belə kəskin ziddiyyət isə “Mən obrazı”na zərər vurur və ümumi özünüqiymətləndirmənin adekvatlığına mənfi təsir göstərmiş olur.

**SOSİAL MEDİADA “MƏN OBRAZI” VƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏ**

Sosial media platformalarında istifadəçilər paylaşım edərkən bəyənmə sayına əsasən virtual özünü təsdiq etməyə can atırlar. Virtual sözünün mahiyyəti böyük əhəmiyyət kəsb edir. Virtual aləm sadəcə rəqəmsal sistem deyil. Virtual sözü “mümkün olan” mənasını verir (latınca: “virtus”). Virtual aləm insanın beynində formalaşmış olan ideyaların məcmusudur. Şüurda olan gerçəklik virtualdır, əslində olan gerçəklik naturaldır. İnternet isə natural gerçəkliyə deyil, virtual gerçəkliyə daxildir. Yəni internet real mövcudluq deyildir, o xəyali mövcudluqdur. Belə ki, müasir dövrümüzdə bu xəyali mövcudluqda gənclər özlərini təsdiqetmək üçün sosial mediada bloqerlik fəaliyyətinə istiqamətlənirlər. Virtual olan gerçəklik ideal olan obrazın yaradılması üçün əlverişli mühit hesab olunur. Sosial media platformalarında özlərini istədikləri kimi təqdim edib, istənilən obrazı yarada bilirlər. Hətta istənilən yeni ad və ya ləqəb (“nickname”) ilə fərqli “virtual şəxsiyyət” yaratmaq mümkündür. İnternetin vasitəsilə yaradılan “virtual mən” obrazı fərdin mənlik şüurunun strukturunun ayrıca müstəqil komponentdir [9, s. 42]. Rus psixoloqları Y.M.Kuznetsova və N.V.Çudovanın tədqiqatlarının nəticələrinə görə, “virtual mən” əsasən “real mən” və “ideal mən” arasında bir mövqe tutur [7, s. 13]. “Mən” bir-birini əvəz edən, növbə ilə özünüdərkdə ön plana çıxan, sonra isə müəyyən sosial şəraitdə öz aktuallığını itirən çoxsaylı mən obrazlarından ibarətdir. Sosial mediadan istifadə edən bir şəxsi xarakterizə etmək üçün "virtual mən" terminindən istifadə olunur. Bu konsepsiya, simulyasiya edilmiş virtual dünya şəraitində fəaliyyət göstərən insanın psixi vəziyyətindəki dəyişikliklər kompleksini, psixi reallığın sərhədlərini təsvir etmək üçün çox əlverişli görünür. *“Virtual mən”* obrazı insanın özü haqqında təsəvvürüdür, hansı ki, virtual məkanda təqdim olunur. N.N.Butrova və O.P.Tsaritsentsev qeyd edirlər ki, virtual obrazın psixoloji xüsusiyyətlərini müəyyən edən amillərdən biri də real dünyada təmin olmayan sosial ehtiyacları yerinə yetirmək istəyidir: ünsiyyət ehtiyacı, tanınma, özünü təqdim etmək və s. Əlverişsiz reallığı ideal virtual dünya ilə əvəz etmək imkanı reallığın insan üçün qəbuledilməz olan tərəflərini görməzdən gəlməyə və müxtəlif cəlbedici sosial rolları oynamağa imkan verir. Belə bir vəziyyət insanda "virtual mən" obrazını daha aktiv şəkildə formalaşdırmağa təkan verə bilər. Onu da qeyd etmək olar ki, “virtual mən”in əsası ikilidir.

Bir tərəfdən, “Mən obrazı”nın strukturunda bu element “ideal mən” əsasında qurulur. Lakin eyni zamanda, o, insanın yalnız virtual məkanda formalaşdırıb, reallaşdırmış olduğu müəyyən xarakter əlamətlərini özündə birləşdirən, özünüdərkin xüsusi konstruktu kimi çıxış edərək real dünyada da özünü göstərir. Xüsusilə də “virtual mən” elementlərini özündə ehtiva edən virtual obrazın qurulması “Mən obrazı”nın üç komponenti əsasında həyata keçirilir: koqnitiv, emosional və davranış (Robert Berns) [8, s. 277].

*Koqnitiv komponent.* Sosial mediada fəaliyyətin koqnitiv komponentinə şəxsiyyətin bir sıra psixi prosesləri aiddir- duyğu, qavrayış, hafizə, diqqət, təxəyyül, təfəkkür və s. Virtual qarşılıqlı əlaqə sosial media istifadəçilərinin bir-birini qavramasının psixoloji xüsusiyyətləri əsasında formalaşır, mərkəzi isə identifikasiya və adekvatlıqdır. İdentifikasiya sosial media istifadəçiləri tərəfindən bir-birindən fərqli və oxşarlıqların axtarışı prosesi kimi təzahür edir ki. Adekvatlıq qarşılıqlı əlaqə prosesində şəxslərin bir-biri haqqında formalaşdırdıqları fikirlərə uyğunluq dərəcəsi kimi başa düşülür. “Virtual mən” obrazında bu koqnitiv komponent özünəməxsus xüsusiyyətlərini saxlayır və fərdin ünsiyyətdə olduğu virtual mühitə, onun virtual sosiallaşma prosesində qarşılıqlı əlaqədə olduğu digər iştirakçılarına münasibətini, düşüncələrini müəyyən edir.

*Emosional komponent.* Sosial mediada fəaliyyətin emosional komponenti mənfi və ya müsbət affektiv təcrübələri müəyyən edir. Onlar qarşılıqlı əlaqə prosesində sosial mediada istifadəçilərin fərdi psixoloji xüsusiyyətlərinin təsiri altında yaranır və özünü bəyənmə, bəyənməmə, özündən və həmsöhbətlərdən məmnunluq və ya narazılıq kimi təzahür edə bilər. Bu komponentə empatiya ilə müşayiət olunan emosional identifikasiya da daxildir- başqa bir insanın təcrübələrinə həssas reaksiya, simpatiya, iştirakçılıq. "Virtual mən" obrazında bu komponent müəyyən bir şəxsiyyətdaxili təcrübələrə meyl kimi də ifadə edilə bilər.

*Davranış komponenti.* Verbal olmayan vasitələrdən səmərəli istifadə bacarıqlarının məcmusu kimi təzahür edir. “Virtual mən” obrazında davranış komponenti müxtəlif situasiyalarda davranış variasiyalarının seçimi və ətrafdakı virtual şəxsiyyətlərlə qarşılıqlı əlaqə kimi özünü göstərir.

Koqnitiv, emosional və davranış komponentlərinin təzahürünün psixoloji xüsusiyyətləri virtual “Mən obrazı”nın strukturunda “real mən” və “ideal mən” xassələrinin formalaşmasını müəyyən edir. “Real mən” insanın özü haqqında təsəvvürüdür, onu real fəaliyyətə sövq edir, onun həyat məqsədlərini müəyyənləşdirir, iddialar sistemini formalaşdırır. O, həmçinin digər insanlarla ünsiyyətin psixoloji xüsusiyyətlərini müəyyənləşdirir, müxtəlif vəziyyətlərə uyğunlaşma strategiyalarının seçimini təyin edib, həyata keçirilməsini təmin edir. "İdeal mən" insanın özünü olmaq istədiyi, potensialını və imkanlarını reallaşdıran bir standart kimi təsəvvür etməsidir. Özünə inamın qorunması və insan fəaliyyətinin motivasiyasının saxlanması üçün vacib şərtdir. “İdeal mən” sosial rolların seçimini müəyyən edir, qarşısına uzunmüddətli məqsədlər qoyur, onlara nail olmaq üçün vasitələrin seçimini müəyyənləşdirir. Həm real həm də virtual aləmdə demək olar ki, "real mən" və "ideal mən" çox vaxt üst-üstə düşmür. Sosial mediada xüsusilə bloqerlərdə isə bu iki mən obrazı (real və ideal) bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir ki, bu da müxtəlif mənfi və müsbət nəticələrə səbəb ola bilər. Məsələn, belə uyğunsuzluq bir tərəfdən ciddi şəxsiyyətdaxili konfliktlərə səbəb ola bilər, digər tərəfdən də özünü təkminləşdirmə və şəxsi inkişaf üçün motivator rolunu oynaya bilər. Bu cür proseslərin təbiəti çox vaxt yaranmış dissonansın şərhi zamanı şəxsiyyətin özü tərəfindən müəyyən edilir. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, “real mən” “ideal mən” obrazına yaxınlaşmış olur. Bu proses zamanı ideal və real olan mən arasında qalan sahədə “virtual mən” formalaşmış olur ki, onun yaranması cəmiyyətin qlobal informasiyalaşması və internetin sosial qarşılıqlı əlaqə vasitəsi kimi meydana çıxması sayəsində mümkün olmuşdur.

“Virtual mən” insanın özü haqqında real təsəvvürləri ilə onun can atdığı yol arasında vasitəçi rolunu oynayan “real mən” və “ideal mən” obrazları arasında ara əlaqədir [10, s. 980]. Bu, real insana xas olan keyfiyyətləri və onun sahib olmaq istədiyi keyfiyyətləri özündə birləşdirən "ideal mən"ə nail olmaq üçün bir vasitədir. Sosial mediada istifadəçilər adətən arzuladıqları, olmaq istədikləri ideal (xəyali) obrazı qısa müddətdə çox asanlıqla yarada bilirlər. Belə ki, özlərini fərqli bir sosial

statusda, fərqli yaşda, fərqli görünüşdə təqdim edə bilirlər. Bu xəyali virtual obraz ilə çoxlu sayda izləyici qazanıb, bəyənmə sayını artırıb diqqət mərkəzində olmağa çalışırlar. Bu xüsusiyyətləri sosial mediada sadə istifadəçilərdən fərqli olaraq daha çox bloqerlərdə müşahidə etmək olur. Sosial media platformasında bloqerlərin yaratmış olduqları virtual obraz ("virtual mən" obrazı) ideala, arzu olunana daha çox yaxınlaşır. Belə bir vəziyyətdə onlar öz gerçək kimliklərindən uzaqlaşırlar, öz yaratmış olduqları virtual obrazın rolunu yaxşı mənimsəyirlər. Bu virtual obraz ilə virtual cəmiyyətdə müəyyən bir statusa sahib olurlar. Ən əsası isə yaradılan bu virtual obraz onların real həyatlarına əhəmiyyətli dərəcədə təsir edir. Yaradılmış olan virtual obraz sonradan isə psixoloji problemlərin yaranmasına da səbəb ola bilir (depressiya, yalnızlıq, şəxsiyyətin deqradasiyası və s.). Çunki, "virtual mən" obrazı  yalnız virtual dünya üçün yaradılmış olur və adətən gerçəkdə əksini tapmır. Bir sıra hallarda isə bu virtual obrazı real həyatda da davam etmək məcburiyyətində olurlar. Əsas şəxsiyyət daxili ziddiyyət burada baş qaldırmış olur. Onlar əvvəlki həyat tərzlərindən çıxaraq özlərinə xas olmayan yeni xüsusiyyətləri (fiziki, psixoloji) mənimsəmək məcburiyyətində qalırlar. Bloqerlər şəxsi sosial media hesablarında "ideal" bir mənzərə yaradaraq özlərinin "ən yaxşı" xüsusiyyətlərə sahib olduqlarını izləyicilərinə nümayiş edirlər. Bir müddət sonra özlərini də bu ideal obraza uyğunlaşdırmağa çalışırlar. Misal olaraq, introvert olan bir şəxs virtual aləmdə özünü ekstrovert kimi təqdim edir. Zamanla o gerçək həyatda da öz psixoloji rahatlığını pozaraq izləyicilərin gözləntilərinə uyğun davranmaq məcburiyyətində olur. Adətən şəkil redaktə proqramlardan (Photoshop, FaceApp, Picsart, VSCO və s.) istifadə edərək şəkillərdə ideal gözəlliyə sahib olduqlarını göstərən bloqerlər gerçək həyatda kompleks yaşamış olurlar. Onlar artıq özlərini olduğu kimi qəbul edə bilmirlər. Hətta bunun nəticəsi olaraq müəyyən estetik proseslərə əl atıb, əməliyyatlar keçirib, müvafiq prosedurlar edərək öz xarici görünüşlərini dəyişmək məcburiyyətində olduqlarını düşünürlər (çünki onlar virtual aləmdə yaratmış olduqları "ideal" obraza uyğunlaşmadıqda izləyici kütləsi tərəfindən tənqilərə məruz qalırlar) və s. (müşahidələr göstərir ki, bir sıra tanınan xarici və həmçinin yerli bloqerlər izləyicilərin tələblərini yerinə yetirmək və virtual obrazlarına real həyatda da uyğunlaşmaq üçün ciddi və riskli əməliyyatlar keçiriblər) [5, s. 74]. Belə ki, "virtual mən" obrazı "fiziki mən" obrazında da dəyişikliyə səbəb ola bilir. Ümumi olaraq isə "virtual mən" iddiaların yüksəlməsinə və özünüqiymətləndirmənin qeyri-adekvat olmasına zəmin yaratmış olur.

**YEKUN NƏTİCƏ**

"Virtual mən" obrazı "Mən"in inteqral strukturunda müstəqil modallıq kimi mövcuddur və onun məzmunu digər obrazlardan fərqlidir. Müasir dövrümüzdə müşahidələrdən görmüş oluruq ki, gənclər virtual obrazlarını daxili natamamlıq komplekslərini aradan qaldırmaq üçün asan üsul hesab edirlər. Lakin virtual obraz real obrazdan fərqləndiqcə, bu kompleksi daha da ağırlaşmış olur. Yəni gənclərdə sağlam şəkildə özünüqiymətləndirmə deyil, sadəcə iddia səviyyələri yüksəlmiş olur. Sosial medianın inkişafı gənc nəslin sosiallaşması və virtual şəxsiyyətin formalaşması problemləri ilə müşayiət olunur. "Virtual mən" prinsipcə yeni olan və buna görə də kifayət qədər öyrənilməmiş bir fenomendir. İnternet mühitində sosiallaşmanın xüsusiyyətlərinin öyrənilməsi zəruridir, çünki o, yaş inkişafının yeni formalarını təyin edir, yeniyetmə və gənclərin sosial münasibətlər haqqında vəzifələrini və fikirlərini dəyişdirir, onların şüurunda sonrakı yaş mərhələlərinin ideal görüntüsünü dəyişdirir, şəxsiyyətin formalaşmasına əhəmiyyətli dərəcədə təsir edir.

Sosial media platformalarında insanlar asanlıqla özlərinin ideal obrazını yarada bilərlər ki, bu da real obrazla müqayisədə daha az orjinaldır, çünki o, fərdin şəxsi keyfiyyətlərin xəyali, ideallar toplusunu əks etdirir. Əsasən də virtual məkana çıxmaq real həyata marağın itməsi ilə təhlükəli hal alır və şəxsiyyətin hərtərəfli inkişafına təhlükə yaradır. Gənclər sosial media platformalarında çox vaxt keçirərək həyat istiqamətlərini itirə bilər və ümumi standart "qəlibləri" mənimsəyə bilərlər. Çünki, "virtual mən" ideallar toplusudur ki, bu bir çox insanlarda bənzərdir və hətta eynidir. İnternet mühitində sosial disinhibisiya sosial media platformalarında qarşılıqlı əlaqənin mənəvi və etik səviyyəsini əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarmış olur.

## ƏDƏBİYYAT

1. Bayramov, Ə.S. Psixologiya / Ə.Bayramov, Ə.Əlizadə – Bakı: Çinar, – 2011. – 620 s.
2. İsmayılov, N.V. Psixiatriya dərsliyi / N.V.İsmayılov. – Bakı: Maarif, – 2004. – 582 s.
3. İsmayılov, N.V. Tibbi psixologiya və psixoterapiya / N.İsmayılov, F.İsmayılov – Bakı: Maarif, – 2008. – 416 s.
4. Seyidov, S.İ. Psixologiya / S.Seyidov, M.Həmzəyev – Bakı: Nurlan, – 2007. – 551 s.
5. Özdemir, Ş. Sosyal medya psikolojisi / Ş.Özdemir, G.Türk – Ankara: Nobel, – 2020. – 100 s.
6. Tarhan, N. Sosyal medya psikolojisi / N.Tarhan, A.Ünal – İstanbul: Der, – 2021. – 400 s.
7. Анищенкова, Ю. Образ Я-виртуальное в структуре когнитивного компонента Я-концепции // Современные прикладные направления и проблемы психологии: материалы науч. Конф, – 2010. – с. 12-14.
8. Зекерьяев, Р. Психологические особенности компонента «я-виртуальное» в структуре образа «я» подростков в социальных сетях // Проблемы современного педагогического образования, – 2019. №62, – с. 275-278.
9. McCreery, M. Personality, presence, and the virtual self: A five-factor model approach to behavioral analysis within a virtual environment / M.McCreery. – Las Vegas: UNLV, – 2011. – 120 p.
10. McCreery, M., Krach, K., Schrader, P. Defining the virtual self: Personality, behavior, and the psychology of embodiment // Computers in Human Behavior, – 2012, 28, – p. 976-983.

## ANALYSIS OF "SELF-IMAGE" AND SELF-ESTEEM IN SOCIAL MEDIA ("VIRTUAL SELF")

**A.S. Mutallimzada**

In our modern era, thanks to the development of the network 2.0 (Web 2.0) technology, social media platforms have already become a part of our daily life (Instagram, Facebook, X (formerly Twitter), YouTube). Of course, thanks to the rapid development of social media, communication between people, obtaining information (books, newspapers, etc.), marketing, sales, distance education, etc. issues have become more convenient and accessible. However, considering that technological development has positive effects on people as well as negative effects, it is necessary to conduct more scientific research in this direction and to search for new methods and ways to reduce these negative effects. The presented article focused mainly on these topics, and the impact of social media on "Self-concept" was analyzed in detail. So, the most noticeable problem nowadays is that social media users usually act like someone they are not in real life. It can already be said that most social media users use their accounts as a kind of "exhibition" (going to restaurants, travel, entertainment, sports, etc. activities just to share something new and interesting on their social media account) and to create an "ideal image" for their followers. they yearn for. Basically, when they are engaged in any activity, they cannot act according to the "here and now" principle, even if they do not enjoy the activity they are doing at that moment, the main thing is to catch the "ideal shot" and just share that shot on their social media accounts and convince their followers that it is "interesting". ” and had a “fun” day. "Playing to the crowd" in the virtual world creates a gap between the images of the "ideal self" and the "real self" and has a significant impact on self-esteem. Thus, in the presented article, "self-image" and self-esteem in social media are analyzed in detail.

**Keywords:** *social media, social network, virtual world, self-concept, "self-image", "ideal self", "real self", "virtual self", self-esteem, blogger, social media influencer*

# АНАЛИЗ «ОБРАЗ Я» И САМООЦЕНКИ В СОЦИАЛЬНЫХ МЕДИА («Я-ВИРТУАЛЬНОЕ»)

**А.С. Муталлимзада**

В современную эпоху, благодаря развитию технологии сети 2.0 (Web 2.0), платформы социальных сетей уже стали частью нашей повседневной жизни (Instagram, Facebook, X (ранее Twitter), YouTube). Конечно, благодаря бурному развитию социальных сетей вопросы общения между людьми, получения информации (книг, газет и т. д.), маркетинга, продаж, дистанционного образования и т. д. стали более удобными и доступными. Однако, учитывая, что технологическое развитие оказывает на людей как положительное, так и отрицательное воздействие, необходимо проводить больше научных исследований в этом направлении и искать новые методы и способы снижения этих негативных последствий. Представленная статья была сосредоточена в основном на этих темах, а влияние социальных сетей на «Я-концепцию» было подробно проанализировано. Итак, наиболее заметная проблема в настоящее время заключается в том, что пользователи социальных сетей обычно ведут себя как те, кем они не являются в реальной жизни. Уже можно сказать, что большинство пользователей социальных сетей используют свои учетные записи как своего рода «выставки» (походы в рестораны, путешествия, развлечения, спорт и т.д. просто для того, чтобы поделиться чем-то новым и интересным в своей учетной записи в социальных сетях) и для создания «идеальный образ» для своих последователей. они жаждут. По сути, когда они занимаются какой-либо деятельностью, они не могут действовать по принципу «здесь и сейчас», даже если они не получают удовольствия от деятельности, которой занимаются в этот момент, главное – поймать «идеальный кадр» и просто поделитесь этим снимком в своих аккаунтах в социальных сетях и убедите своих подписчиков, что это «интересно». и провел «веселой» день. «Игра на публику» в виртуальном мире создает разрыв между образами «идеального себя» и «реального себя» и существенно влияет на самооценку. Так, в представленной статье подробно анализируются «обоаз Я» и самооценка в социальных сетях.

**Ключевые слова:** *социальная медиа, социальная сеть, виртуальный мир, «Я-концепция», «образ Я», «Я-идеальное», «Я-реальное», «Я-виртуальное», самооценка, блоггер, инфлюенсеры в социальных сетях*

**GƏNC TƏDQİQATÇI**
***Elmi-praktiki jurnal***

**X cild**

**2024**
**№2**

**BAKI – 2024**

ELM
NƏŞRİYYATI

| | |
|---|---|
| Nəşriyyatın direktoru: | *Səbuhi Qəhrəmanov* |
| Kompüter tərtibçisi: | *Ramil Əzizov* |
| Bədii tərtibat: | *Şəlalə Məmməd* |

Formatı 70x100 $^{1}/_{16.}$
Həcmi 7,5 ç.v. Tirajı 200.
Ünvan: Bakı şəh., İstiqlaliyyət küç. 28.